

**“Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Anar Məmmədov
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 3-cü nömrəsi*
*İyul - Sentyabr (2020-ci il)*

**Hazırkı jurnala "Xüsusi buraxılış" əlavə olunur.**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 9 iyul 2020-ci il tarixli, 10/76 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş prokurorunun yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 10.10.2020
60x84 1/8 formatda 160 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2020

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**4** İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

**7** İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**23** İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib

**31** İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**33** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər

**37** İlham Əliyev "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib


## BAŞ PROKURORLUQDA


**51** 05 avqust 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib

**58** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib

**59** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2020-ci ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib

**62** 22 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilib

**64** Baş Prokurorluğun normativ xarakterli hüquqi bazası yeni müstəvidə

**67** Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatları


## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞU – 102


**75** Azərbaycan Prokurorluğunun yaradılmasının 102 illiyi münasibətilə təbrik

**76** Baş Prokurorluqda şahmat turniri keçirilib

**77** Baş Prokurorluq və Hərbi Prokurorluqda könüllü qanvermə aksiyası keçirilib

**79** Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən veteran prokurorluq işçiləri ilə görüş keçirilib

**81** Sentyabrın 23-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələri ilə görüş keçirilib

**82** Prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluqda ictimai əsaslarla çalışan könüllü gənclərlə görüş keçirilib

**85** Azərbaycan Respublikası Baş Prokurorluğunda videokonfrans keçirilib

**86** Prokurorluq əməkdaşları uşaq evlərini ziyarət ediblər

**87** Azərbaycan Prokurorluğunun yaradılmasının 102-ci ildönümü qeyd olunub

**90** Baş Prokurorluq üzrə əmrlər


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**91** Kamran Əliyev – Müasir dövlət quruculuğunda prokurorluğun yeri və rolu

**98** Xanlar Vəliyev – Prokurorluğun uğurları ədalətin zəfərini şərtləndirir

**104** Heydər Məmmədov – Müasir Azərbaycan Prokurorluğu gənc kadrların potensialının reallaşdırılması üçün əlverişli bir platformadır

**109** Salman Səmədov – Narkotik cinayətkarlıqla mübarizənin təşkili, narkomaniya və narkotiklərin yayılmasının başlıca səbəb və amilləri

**112** Araz Mahmudov – Erkən nikahlar gender bərabərliyinin və uşaq hüquqlarının pozulması kontekstində

**116** Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə görülən tədbirlər

**118** Azərbaycan Respublikası Baş prokurorluğunun rəhbərliyinin göstərişlərinin icrası ilə əlaqədar Ucar rayon prokurorluğunda işin yenidən qurulması ilə əlaqədar tədbirlər davam etdirilir

**120** Siyəzən rayon prokurorluğu "Biz birlikdə güclüyük" şüarı ilə keçirilən sosial aksiyada iştirak edib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**121** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb

**122** Baş Prokuror xarici ölkələrdəki həmkarlarına müraciət edib

**122** Prokurorluq işçilərinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır

**123** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

**123** Azərbaycan Respublikası Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

**124** Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin təşviqi daim diqqət mərkəzində saxlanılır

**125** Baş Prokurorluğun nümayəndələri Birləşmiş Millətlər Təşkilatlarının Mərkəzi Asiya regionu ilə bağlı yeni proqramının müzakirəsinə həsr edilmiş videokonfransda iştirak edib

**125** Baş Prokurorluğun nümayəndələri "COVİD-19 çağırışlarının cavablandırması və bərpasında dürüstlüyün qorunması" mövzusunda videoformatda keçirilmiş tədbirdə iştirak edib

**126** Azərbaycan Respublikası Baş Prokurorluğunun Gürcüstan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

**126** Azərbaycan Respublikasında COVID-19 pandemiyası dövründə həyata keçirilmiş mübarizə tədbirləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilib

**127** Azərbaycan Respublikası Baş Prokurorluğunun Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

**127** Prokurorluq əməkdaşları Birləşmiş Millətlər Təşkilatının Cinayət və Ədliyyə üzrə Regionlararası Tədqiqat İnstitutunun (UNICRI) ekspertlərinin iştirakı ilə beynəlxalq təlimdə iştirak edib

**128** Prokurorluq orqanlarının əməkdaşları beynəlxalq tədbirdə iştirak ediblər

**129** Baş prokuror Kamran Əliyev Nailə Həsənova ilə bağlı Ankara Cümhuriyyət Baş prokuroruna müraciət edib

**129** Azərbaycan Respublikası Baş Prokuroluğunun Rusiya Federasiyasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

**130** Baş Prokurorluğun əməkdaşı ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropada Prokurorların funksional müstəqilliyi mövzusunda beynəlxalq vebinarda iştirak edib

**131** Prokurorluğun gənc əməkdaşları Beynəlxalq Antikorrupsiya Yay Akademiyasında uğurla iştirak ediblər


## PROKURORLUĞUN VETERANLARI


**132** Prokurorluğun veteranı Mahir Muradovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**137** Qanunvericiliyə dəyişikliklər

**154** Prokurorluq üzrə normativ xarakterli hüquqi sənədlər

# İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– Dünən günorta saatlarında Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda, mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Deyə bilərəm ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı,



Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

Bu gün sərhəddə gərgin vəziyyət davam edir. Dünən gecə bütün aidiyyəti qurumlarla, komandanlarla əlaqədə idim. Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Çünki məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq.

Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq.

Bildiyiniz kimi, Ermənistanda daxili vəziyyət artıq böhranlı həddə çatıb. Daxili çaxnaşmalar geniş vüsət alıb. Eyni zamanda, ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox

narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirib. Xüsusilə, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurubdur. Eyni zamanda, mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyimiz konkret faktlar, inandırıcı əsaslandırmalar, əlbəttə ki, onların təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bunu da təsdiqləyən kifayət qədər çox beynəlxalq sənədlər və açıqlamalar var. O cümlədən bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "seçkilər" nəinki heç bir ölkə tərəfindən tanınmadı, hətta bütün aparıcı beynəlxalq təşkilatlar, qonşu ölkələr və bu məsələ ilə məşğul olan ölkələr bu seçkiləri pislədilər. Beləliklə, bir daha ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə olundu, bir daha açıq göstərildi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Ona görə hazırda Ermənistanda hökm sürən hərc-mərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edibdir. Digər tərəfdən, o da sirr deyil ki, artıq uzun müddətdir ki, Ermənistan münaqişə ilə bağlı öz addımlarında xüsusilə Ermənistan-Azərbaycan dövlət sərhədini misal gətirərək belə bir rəy formalaşdırmaq istəyir ki, guya Azərbaycan Ermənistan ərazisinə hücumlar edir. Halbuki bu, yalandır. Bütün hücumlar Ermənistan tərəfindən törədilir və bunun kifayət qədər sənədləri var, video-foto sənədləri var. Azərbaycan isə sadəcə olaraq, bütün təxribatlara adekvat cavab verir. Əgər Ermənistan ərazisindən Azərbaycan mövqelərinə, Azərbaycan kəndlərinə atəş açılırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk. Ona görə Ermənistan bütün imkanlardan istifadə edib, eyni zamanda, saxta məlumatlar uydurub dövlət sərhədinə xüsusi diqqətin cəlb edilməsi üçün əlindən gələni edir. Dünənki hərbi təxribat bu çirkin siyasətin növbəti təzahürüdür.

Hesab edirəm ki, bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Bizim təşəbbüsümüzlə beynəlxalq təşkilatların Zirvə görüşləri keçirilib. Bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutub. Bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkə dəstəkləyib və Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib. Bu gün dünya gündəliyində birinci yerdə duran COVID ilə bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha bütün dünyanın diqqətini öz çirkin siyasətinə cəlb edib. Necə ola bilər ki, Azərbaycan bütün dünyanın bu mübarizədə birləşməsini tələb etdiyi bir vaxtda Ermənistan bunun əleyhinə çıxıb.

Ona görə beynəlxalq arenada Ermənistan demək olar ki, bütün dayaqlarını itirməkdədir. Daxili vəziyyət kifayət qədər gərgindir. Vəd olunan dırnaqarası çiçəklənmə, artıq hər kəs tərəfindən başa düşülür ki, bu, xülyadır, bu, yalandır. Əlbəttə ki, dünənki hadisə ilə bağlı Ermənistan rəsmi orqanlarının açıqladığı məlumat yalanın növbəti əlamətidir. Bu məlumatda onlar məsuliyyəti Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Halbuki buna heç bir əsas yoxdur və bir daha demək istəyirəm ki, – bütün müstəqil ekspertlər bunu təsdiq edə bilər, – heç bir əsas olmadan bizim hərbi postumuza artilleriya zərbəsi endirilib. Məhz bunun nəticəsində bizim hərbçilərimiz həlak olub. Onların gücü ona çatır ki, ancaq mülki əhalini atəşə tutsunlar, ya da ki, qəflətən bizim hərbi postumuza atəş açsınlar. Bunu da onlar etdilər və bir daha öz çirkin və məkrli mahiyyətlərini ortaya qoydular.

Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.

Sonra Təhlükəsizlik Şurasının iclası qapalı rejimdə davam edib.

# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda nitq söyləyib.



## Prezident İlham Əliyevin nitqi

– Hər il olduğu kimi, biz bu il də plan üzrə altı ayın sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Bu ənənə öz bəhrəsini verir. Çünki bu toplantılarda həm görülmüş işlər, buraxılan nöqsanlar təhlil olunur, eyni zamanda, gələcək fəaliyyətimiz üçün praktiki addımların atılması müəyyən edilir. Təbii ki, hər ilin əvvəlində il ərzində görüləcək işlər haqqında qərar verilir, tədbirlər planı təsdiq olunur. Ancaq həyat yerində durmur. Həyat dəyişir və yeni çağırışlar üzə çıxır. Belə olan halda əlbəttə ki, biz öz planlarımıza da düzəlişlər etməliyik və edirik. Bu düzəlişlərin əsas məqsədi ölkəmizin uğurlu inkişafını sürətləndirmək, bunu təmin etməkdir. Ona görə biz bu gün də ənənəvi olaraq bu məsələləri müzakirə edəcəyik.

Ancaq bundan əvvəl son günlər ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələr haqqında ictimaiyyətə



məlumat vermək istərdim. Bildiyiniz kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olub, yaralanıb. Ondan sonra hər dəfə olduğu kimi, Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir, halbuki bu, heç bir məntiqə sığmır. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl mənim tapşırığımla sərhədin bir hissəsinin qorunması Sərhəd Qoşunlarına həvalə olunubdur. Bu da onu göstərir ki, bizim bu istiqamətdə hər hansı bir hərbi planımız yoxdur və prinsip etibarilə hərbi məqsədlər nöqteyi-nəzərdən bunun heç bir əhəmiyyəti yoxdur. Üstəgəl Ermənistan dırnaqarası "Azərbaycan diversiyasını" əsaslandırmaq üçün çox ağılsız və hesab edirəm ki, onların səviyyəsinə uyğun səbəb göstərməyə cəhd etdi. Guya ki, Azərbaycanın hərbi qulluqçuları – iki nəfər UAZ maşını ilə Ermənistan sərhədini pozaraq hərbi diversiya törətməyə cəhd etmişlər. Sual olunur, hansı ölkənin ordusu hücumu iki zabit və əsgərlə UAZ maşını ilə təşkil edir? Bəlkə Ermənistan ordusu belə "müdrik" hərbi əməliyyatlar hazırlamaqla məşğuldur? Ancaq Azərbaycan Ordusu və dünyanın heç bir ordusu belə ağılsız addım atmaz. Yəni, bu cəfəng versiyanın Ermənistan tərəfindən təqdim edilməsinin əsas səbəbi günahı bizim üzərimizə yıxmaqdır, hər dəfə olduğu kimi. Ancaq bu dəfə buna heç kim inanmayıb. Hərbi mütəxəssis olmaq lazım deyil ki, bu cəfəng versiyaya insanlar inansın. Əsl vəziyyət ondan ibarət idi ki, bir daha demək istəyirəm bizim hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz həlak olublar. Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Eyni zamanda, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara göstəriş verilib ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılsın, bu hadisə haqqında dolğun məlumat verilsin. Mən dərhal Təhlükəsizlik Şurasının toplantısını çağırdım və orada qeyd etdim ki, operativ vəziyyət imkan verən kimi, biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində işləyən hərbi attaşeləri, jurnalistləri, əgər belə istək olarsa, səfirliklərin di-



gər nümayəndələrini həmin bölgəyə dəvət edəcəyik, onları bu vəziyyətlə tanış edəcəyik və onlar yerində görəcəklər ki, bu təxribatı törədən kimdir və bu təxribat nəticəsində həlak olanlar hansı ordunun əsgərləridir.

Bir daha demək istəyirəm ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu. Ancaq buna baxmayaraq, dünən və srağagün onlar tərəfindən yenidən çirkin addımlar atılmışdır, növbəti dəfə hərbi təxribat törədilmişdir və bu təxribat nəticəsində yenə də bir neçə hərbçimiz, o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar.

Bu gün səhər saatlarında general Polad Həşimovun anası Səmayə xanımla telefonla danışdım, ona başsağlığı verdim, Allahdan səbir dilədim. Onu əmin etdim ki, oğlunun, bizim qəhrəmanımızın qanı yerdə qalmayıb, onun qisası alındı və bundan sonra da alınacaqdır. Belə analara eşq olsun ki, xalqımız, dövlətimiz üçün bu cür övladlar, igidlər yetişdirib.

Bildirməliyəm ki, general Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdir. Mənim tərəfimdən iki dəfə yüksək dövlət ordeni ilə təltif edilmişdir. Mənim tərəfimdən ona general rütbəsi verilmişdir. Polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə bu gün söhbət zamanı atasının qəhrəmanlığı haqqında danışdım. Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib. Onların ailə üzvlərinə, yaxınlarına bir daha başsağlığı

verirəm. Eyni zamanda, son günlər ərzində həlak olmuş bütün insanların yaxınlarına, qohumlarına başsağlığı verirəm. Allah şəhidlərimizə rəhmət eləsin, Allah yaralı hərbçilərimizə şəfa versin.

Təklif edirəm ki, bu günlər ərzində torpaq uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah rəhmət eləsin!

Bildirməliyəm ki, bu çirkin əməldən sonra mənim göstərişimlə qisas əməliyyatının ikinci fazası başlamışdır. Son iki gün ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarla erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir. Əməliyyat haqqında bundan artıq demək istəməzdim. Çünki bu, hərbi sirdir, məxfi xarakter daşıyır. Ancaq biz bəzi videogörüntüləri paylaşdıq. Bu videogörüntülər Azərbaycan Ordusu tərəfindən keçirilmiş əməliyyatların cüzi bir hissəsidir. Nə mümkün olubsa, onu göstərmişik, hesab edirəm ki, indiki mərhələdə bundan artıq informasiya vermək düzgün olmazdı. Ancaq bu videosüjetlər açıq-aydın göstərir ki, düşmənin infrastrukturu, canlı qüvvəsi, səngərləri, postları, dayaq məntəqələri nə qədər dəqiqliklə məhv edilir.

Deməliyəm ki, son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl – 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə – 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı.

Bu əməliyyat – son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır.

Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətlə bağlı məlumat artıq verildi və bu gün operativ vəziyyət bizi tamamilə qane edir. Biz istənilən vaxtda, lazım olan vaxtda bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik. Aprel döyüşlərində olduğu kimi, mənfur qonşu bu dəfə də ən çirkin əməllərə əl atdı. O da nədən ibarətdir? Bizim kəndlərimizi atəşə tutdu və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Bu, bir daha onu göstərir ki, Ermənistan faşist dövlətdir.

Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. O vaxt o bölgədə fəaliyyət göstərən Azərbaycan Xalq Cəbhəsinin batalyonları və onların komandirlərinin bir neçəsi xəyanət etmişlər. Baxmayaraq ki, onların tərkibində cəsur və Vətənə bağlı insanlar döyüşürdülər, öz canlarını qurban vermişlər. Ancaq o vaxt Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, o vaxtkı hakimiyyəti yıxa bildilər. O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhəsi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mü-

barizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir.

Amma Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib. Xocalı soyqırımını törədənlər Ermənistanın siyasi rəhbərliyidir, keçmiş hakimiyyətidir, keçmiş iki prezidentidir hərbi cinayətkarlar. Xocalı soyqırımı zamanı bu cəlladlar tərəfindən 106 qadın, 63 uşaq öldürüldü. Əziz Əzizov da həmin erməni faşistlərin əməlləri nəticəsində həlak olmuşdur. Bildirməliyəm ki, ağsaqqal Əziz Əzizovun da qanı yerdə qalmayıb, qarşı tərəfə adekvat cavab verilib və veriləcəkdir və heç kimdə bu haqda şübhə olmasın.

Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

O ki qaldı, bu erməni hərbi təxribatının səbəblərinə, əlbəttə ki, bu səbəbləri biz tam dəqiqliklə bilə bilmərik, bunu həyat göstərər. Ancaq bir çox məntiqli ehtimallar mövcuddur və bu haqda mən Azərbaycan vətəndaşları ilə öz fikirlərimi bölüşmək istərdim. Hesab edirəm ki, birinci səbəb Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu, heç kimə sirr deyil. Xaricdən maliyyələşən, xarici fondlardan maaş alan, onlardan təlimat alan və onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yollarla zəbt edəndən sonra bir çox vədlər vermişdi. Ermənistanda çiçəklənmə, cənnət olacağını vəd vermişdi. Bəyan etmişdi ki, qısa müddət ərzində Ermənistana on milyardlarla dollar sərmayə qoyulacaq, qısa müddət ərzində Ermənistan əhalisi 5 milyona çatacaq – halbuki indi Ermənistan əhalisi 2 milyondan azdır, – Ermənistanda bütün həyat yenidən qurulacaq, ədalət olacaq, demokratiya inkişaf edəcək, insan haqları qorunacaq və digər vədlər vermişdi. Erməni xalqı Sarkisyan rejimindən o qədər bezmişdir ki, o, kimə istəsən inanardı. O çevrilişi təşkil edənlərin başında başqa adam olsaydı, ona da gedib səs verəcəkdi. Çünki Sarkisyan rejiminə nifrət həddindən artıq böyük idi və bundan istifadə edib hakimiyyəti zor gücü ilə zəbt etmiş bu qruplaşma bu vədləri sonra yerinə yetirməli idi. Ancaq necə yerinə yetirsin ki, təcrübə yox, səriştə yox, daxili resurslar yox, xarici investisiyalar qoyulmayıb. Əksinə, xarici investorları indi çürüdürlər, məhkəmə çəkişmələrinə cəlb edirlər. Bu gün Ermənistanın ayaqda dayanmasını şərtləndirən strateji investorları məhkəməyə çəkirlər, onları korrupsiyada ittiham edirlər, hətta necə deyərlər, bel bağladığı ölkənin şirkətlərinə qarşı çirkin əməllər törədirlər. Əlbəttə ki, bütün bunlar istənilən potensial investoru qorxudacaq. Əgər, sənin ölkənə pul qoyan, orada infrastruktur yaradan, insanları işlə təmin edən ən yaxın şirkətlərə belə münasibət bəsləyirsənsə, onda başqa ölkələrin investorları nə fikirləşsin?!

Ona görə bu vədlərin iflasa uğraması təbii ki, Ermənistanda artıq böhranlı vəziyyətin yaranmasına gətirib çıxarıb. Hakimiyyət buna necə reaksiya verib? Cəmiyyəti birləşdirmək əvəzinə, əksinə, indi siyasi məhbuslar yaradır, siyasi opponentlər həbs edilir, təqib olunur, onların toxunulmazlığı götürülür, konstitusiya kobudcasına pozulur, konstitusiyaya qanunsuz düzəlişlər edilir, hansı ki, bu düzəlişlər ancaq referendumla oluna bilərdi. Bilirlər ki, referendumda bu düzəlişlər keçməyəcək. Hakimiyyət zəbt olunub və hakimiyyət bölgüsü yoxdur. Hakimiyyət bir adamın əlində cəmləşib və demokratiyadan əsər-əlamət yoxdur və heç vaxt olmayıb. Faşist dövlətində hansı demokratiya, insan haqlarından söhbət gedə bilər. Amma indiki vəziyyət daha da acınacaqlıdır. Ona görə ki, iqtisadi sahədə vədlər yerinə yetirilmədi, siyasi cəhətdən Ermənistan özünü təcrid vəziyyətə qoydu. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı onların ağılsız addımları bir daha bunu göstərir. Bütün dünya bizi dəstəklədi, əleyhinə çıxan yeganə ölkə Ermənistandır.

Demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, fikri bu əsas məsələlərdən yayındırsın və şüurlu şəkildə bu təxribata əl atdı. Nə üçün məhz iyulun 12-də? Bu da təsadüfi deyil. İndi Ermənistanda bunu başqa hadisələrlə əlaqələndirirlər. Mən bu məsələyə toxunmaq istəmirəm. Çünki mən heç vaxt ailə məsələlərinə toxunmamışam və heç kimə məsləhət görmürəm. Amma mən hesab edirəm ki, iyulun 10-da artıq rəsmən açıq elan edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyası bunun əsas səbəbi olub. Çünki, bu, ölkəmizin növbəti böyük uğurudur, növbəti böyük qələbəsidir, 130 ölkə bizi dəstəklədi. Azərbaycan o ölkədir ki, gündəliyi

zəbt etmiş COVID-19 məsələsi diqqətə gətirildi, iki böyük Zirvə görüşü keçirildi və ondan sonra BMT-nin Baş Assambleyasının xüsusi sessiyası. Budur səbəb. Səbəblər çox ola bilər. Sadəcə olaraq, mən öz fikirlərimizi bölüşmək istəyirəm, fakt odur ki, Ermənistanın hərbi təxribatı məhz bu vaxtlarda təsadüfən törədilməyib. Amma layiqli cavab verildi. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir. Onu da bildirməliyəm ki, baxmayaraq, kəndlərimiz atəşə tutuldu, ağsaqqal həlak oldu, bizim kəndlərimizdə yaşayan insanlardan bir nəfər də yerindən tərpənmədi, bir nəfər də heç yerə getmədi. Amma bizdə olan operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, bəzi şəhərlər boşaldılır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır.

Azərbaycan ictimaiyyətinin diqqətini bir məsələyə də çəkmək istərdim. O da ondan ibarətdir ki, bildiyiniz kimi, bu çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etdi, dərhal onlardan yardım istədi, dərhal hay-haray qaldırdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər. KTMT-nın buna nə dəxli var? Birincisi, Azərbaycan, bir daha demək istəyirəm ki, Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib, Ermənistan ərazisinə keçməyib. Belə olan halda KTMT-nın bu işə nə dəxli ola bilər? Bu bir. İkincisi, bu addım onların acizliyini, qorxaqlığını göstərir. Onu göstərir ki, Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-ya müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür. Onlar öz qorxaqlığını, rəhbərliyin qorxaqlığını bir daha göstərdilər. Yaxşı, qələt eləmisən, təxribat törətmisən, cinayət törətmisən, – cavab ver buna. Cavab ver və veribdir artıqlaması ilə. İndi onlar ölənlərin sayını gizlədirlər. Amma bizdə operativ məlumat var. Bəzi ölən erməni hərbçilər haqqında məlumatı biz vermişik, onlar gizlədirdilər. Biz məlumatı verəndən sonra onlar onu etiraf etdilər. Necə ki, Aprel döyüşlərində gizlətmişdilər. Bu bir daha onların acizliyini göstərir, digər tərəfdən nəyi göstərir? Onların riyakar siyasətini göstərir. Yaxşı, necə ola bilər ki, bu yaxınlarda heç bir üzv ölkədən soruşmadan KTMT-nın baş katibini həbs etmisən. Belə şeymi olar? Bu, tamamilə bütün beynəlxalq davranış qaydalarını pozan bir addım idi. KTMT-nın rəhbəri vəzifəsində olan insanı həbs etdilər. Onlara təzyiq olunandan sonra onu buraxdılar, amma cinayət işi hələ bağlanmayıb, davam edir. Beynəlxalq təşkilatın ali nümayəndəsini həbs edir. Ondan sonra bir il ərzində KTMT-ya rəhbər nəzərdə tutulmuş şəxsin namizədliyini bloklayıb, veto qoyub. Çünki əlifba sırası ilə olmalı idi. Ermənistandan sonra Belarusun nümayəndəsi olmalı idi, onun namizədliyi verildi. Amma bir il imkan vermədi ki, o öz fəaliyyətinə başlasın. Budurmu KTMT-ya münasibət? Yaxşı, təxribat törətmisən, başından da zərbə almısan, indi nə olub qaçıb KTMT-dan yardım istəyirsən? KTMT-nın Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır.

İndi xarici fondlardan maliyyələşən, hakimiyyət nümayəndələrinin demək olar ki, hamısının SOROS fondunun və buna oxşar fondların tör-töküntüləri olan bir dövlətə KTMT ölkələrinin münasibəti necə olmalıdır? Mən sual verirəm və bu sual hesab edirəm ki, ritorikdir. İndi nə oldu qaçıb, KTMT-nın ətəyindən yapışırsan. Cavab ver öz çirkin əməllərinə görə. Cavab vermisən və verəcəksən.

Onu da bildirməliyəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mən bu yaxınlarda Azərbaycan telekanallarına müsahibədə öz mövqeyimi, bizim prinsipial mövqeyimizi bir daha ifadə etdim. Azərbaycan xalqının bu mənasız danışıqlardan bezdiyini ifadə etdim. Ona görə bu məsələ ilə məşğul olanlar və bu günlər ərzində öz vasitəçilik təkliflərini irəli sürənlər bu haqda düşünsünlər, Azərbaycan xalqının səbri tükənməz deyil. Bu gün biz güclü ordu yaratmışıq. Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir.

O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə

edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz.

Mən bir məsələyə də toxunmaq istərdim. Bu da beynəlxalq aləmin bu hadisələrə reaksiyasıdır. Azərbaycan ictimaiyyəti bunu izləyir. Təxribat törədiləndən dərhal sonra – ayın 12-də günorta saatlarında mən Prezident Administrasiyasına müvafiq göstərişlər verdim və bizim beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat aldı və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat verdi.

Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni, nədir, biz Ermənistanla əməkdaşlığamı başladıq?!

Mən demişəm və bütün beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupunun həmsədrləri bunu bilirlər. Baxmayaraq, təxminən son 17 il ərzində dəfələrlə mənə təkliflər edilib ki, Ermənistanla hansısa formada əməkdaşlığa başlayın, – humanitar, etimad tədbirlərinin gücləndirilməsi və digər. Mən demişəm, biz buna hazır ola bilərik, ancaq biz danışıqlar prosesində tərəqqi görməliyik. Görməliyik ki, biz artıq addım-addım sülh razılaşmasına yaxınlaşırıq. Əgər bu yoxdursa, onda bu əməkdaşlığın nə mənası var? Bu əməkdaşlıq ancaq bizim ziyanımıza ola bilər. Bu gün də bu mövqedəyəm. Gedin, işğalçı dövlətə təzyiq edin, başına ağıl qoyun, nəhayət, sözünüzü deyin ki, onlar bizim torpağımızdan çıxmalıdırlar. Əgər bu baş tutacaqsa və belə bir perspektiv real görünəcəksə, bəli, biz ondan sonra hansısa addımların atılmasını təmin edə bilərik. Ancaq indiki şəraitdə Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Mən buna cavab verirəm. Xarici İşlər Nazirliyi hansısa səviyyədə buna cavab verib, yoxsa yox? Mən eşitməmişəm, Azərbaycan xalqı da eşitməyib. Bunu, ilk növbədə, kim etməlidir? Xarici İşlər Nazirliyi, susur. Mən demişəm ki, danışıqlar prosesində tərəqqi olmayana qədər Ermənistan ilə hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz. Sən demə, COVID müzakirə olunur. Yəni, biz COVID-lə bağlı erməni işğalçılara köməklikmi göstərməliyik?!

Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə, bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Ona görə mən bütün bu sualları çılpaqlığı ilə ictimaiyyətə təqdim edirəm. Bu son bir neçə gün ərzində ancaq mənim göstərişlərim əsasında addımlar atılıb. Mənim köməkçim Hikmət Hacıyevlə gündə bəlkə də on dəfə təmasdayam, – onu belə elə, bunu belə elə, onu buna de, o təlimatı buraya de.

Xarici İşlər Nazirliyi nə ilə məşğul idi? Harada idi? Ayın 12-də hadisələr baş verəndən sonra biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır. Sənə nə dedi? De.

**Baş Nazir Əli Əsədov:** Cənab Prezident, soruşdum, dedi ki, mən evdən işləyirəm.

**Prezident İlham Əliyev:** Necə, evdən işləyirəm?

**Baş Nazir Əli Əsədov:** Bəli, dedi ki, evdən

işləyirəm. Mən Elmar Məmmədyarova zəng etdim. Sizin dediklərinizi ona dedim, soruşdum ki, bu hadisəni sən nə vaxt eşitmisən və harada olmusan? Dedi, evdən işləmişəm. Dedim, saatbasaat mənə de, harada olmusan? Yenə dedi ki, evdən işləmişəm. Günorta saat 3-də eşitmişəm. Daha sonra dedi ki, təqribən saat 6-da, 7-də Hikmət Hacıyevlə telefonla danışıb. İndi Siz dediniz, Hikmət Hacıyev Sizin təlimatları ona çatdırandan sonra deyib ki, bizim BMT-dəki nümayəndəmiz Yaşar Əliyevlə danışıb. Bax, bu qədər. Mən Sizin verdiyiniz tapşırıqları ona çatdırdım, dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et – Sizin dediyiniz tapşırıqları. Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s. Tapşırıq belə oldu. Ondan sonra hadisələr məlumdur.

**Prezident İlham Əliyev:** Aydındır. Daha dərinə getmək istəmirəm. Bir çox şey deyə bilərəm. Hesab edirəm bu, kifayətdir. Ancaq biz hamımız – həm rəhbər vəzifələrdə olanlar və ictimaiyyət bilməliyik real mənzərə nədən ibarətdir ki, düzgün addımlar ataq. Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Bir məsələni də demək istərdim, bu beynəlxalq təşkilatların reaksiyası ilə əlaqədardır. İlk növbədə, qardaş Türkiyəyə və onun Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirirəm. Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. İlk saatlardan Türkiyənin rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Dünən Prezident tərəfindən çox önəmli açıqlama verildi. Ondan əvvəl Müdafiə naziri, Xarici İşlər naziri, Prezident Administrasiyasının nümayəndələri, deputatlar, ictimai fəallar. Bir daha bütün dünya, Türkiyə və Azərbaycan xalqları gördü ki, biz əsl qardaşıq. Yaxşı günlərdə və ağır günlərdə bir-birimizin yanındayıq. Yəqin ki, həm Türkiyə vətəndaşları, həm Azərbaycan vətəndaşları mənim dəfələrlə dediyim sözləri xatırlayırlar və görürlər ki, mən nə qədər haqlı idim deyəndə ki, dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Bu yaşanan vəziyyət bir daha onu göstərir. Ona görə bir daha qardaş Türkiyə xalqına, onun Prezidentinə Azərbaycan xalqı adından və öz adımdan dərin təşəkkürümü bildirmək istəyirəm.

Bizim digər dost, qardaş ölkəmiz Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib. Fürsətdən istifadə edərək, Pakistan İslam Respublikasının rəhbərliyinə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ölkələrinin rəhbərlərinə – Qazaxıstan, Qırğızıstan, Türkiyə təbii ki, Özbəkistan rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, yəqin ki, Azərbaycan ictimaiyyəti bunu bilir, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib. Bu təşkilatda 57 dövlət birləşir. Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Bizim ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, əlbəttə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bayaq dediyim kimi, mənə ünvanlanan məktublarda gördüyümüz işlərə tam dəstək ifadə olunur. Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər – mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ancaq əfsuslar olsun ki, bu insanlar Şəhidlər xiyabanına gələndən sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil olub. İndi onların şəxsiyyəti araşdırılır. Bu təxribatçı qruplar orada xuliqanlıq törətdilər, ictimai asayişi pozmağa cəhd etdilər və polisə müqavimət göstərdilər. Mən daxili işlər orqanlarına göstəriş vermişdim ki, insanların Şəhidlər xiyabanına gəlişini, onların təhlükəsizliyini təmin etsin, yol hərəkətini tənzimləsin. Çünki insanlar bir çox hallarda avtomobil yolu ilə gedirdilər. Bütün bu göstərişləri dünən axşam mən Daxili İşlər naziri

Vilayət Eyvazova verdim. Eyni zamanda, dedim ki, siz ayıq olun, çünki istisna edilmir, hansısa təxribatçı qüvvələr və bizi istəməyənlər, "beşinci kolon"un nümayəndələri, satqınlar orada hansısa təxribat törədə bilərlər. Çünki belə kütləvi tədbirlərdə, o cümlədən əvvəlcədən təşkil olunmamış kütləvi tədbirlərdə bəzən xoşagəlməz hallar da baş verir. Ona görə Şəhidlər xiyabanına qədər bütün yol boyunca polis əməkdaşları öz vəzifə borclarını ləyaqətlə icra ediblər. Şəhidlər xiyabanında da insanlar yığışanda asayiş tam təmin edilirdi. Ancaq bir daha demək istəyirəm ki, bir qrup təxribatçı bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdı. Təbii ki, daxili işlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu. Artıq onların şəxsiyyəti müəyyənləşdirilir. Onların hamısı məsuliyyətə cəlb ediləcək, bir nəfər də, – mən bu gün səhər dedim, – məsuliyyətdən boyun qaçıra bilməyəcək. Əlbəttə ki, ancaq qanun çərçivəsində onlara layiqli cəza veriləcəkdir, əgər onlar məhkəmə tərəfindən bu cəzaya layiq görüləcəklərsə. Onların şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün biz ictimaiyyətdən də yardım istəyirik. O təxribatçıları tam müəyyən etmək üçün dünən oraya toplaşan vətənpərvər insanlardan da mən xahiş edirəm, əgər o videokadrlarda kimisə, iğtişaş törətmək istəyənləri tanıyırlarsa, məlumat versinlər, biz hamısını tapaq və cəzasını verək.

Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar – gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin. Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi də ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı. O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax, bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe – beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik.

Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər.

Bir məsələyə də mən toxunmaq istəyirəm. Dünən həmin təxribatçıların bir çox şüarları olubdur. İnsanları bəzi işlərə təhrik edirdilər. Mən demək istəyirəm, bu gün Azərbaycan Ordusu tam komplektləşdirilib, müasir silahlarla təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib. Hətta 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın təxribatına elə cavab verib, elə əlverişsiz mövqedən gedib o torpaqları boşaldıb, azad edib ki, bu günə qədər bəzi hərbi ekspertlər buna məəttəl qalırlar. Son günlərin hadisələri onu bir daha göstərir. Ona görə ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik. Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram. Çünki bizdə müddətdən artıq xidmət edənlərin sayı artır, bu da mənim göstərişim idi. Onlar yaxşı maaş alırlar. Onlar artıq təlim keçmiş, orduda xidmət etmiş insanlardır. Biz onları cəlb edirik və əgər belə təşəbbüs olacaqsa, bunu ancaq alqışlayacağıq. Amma bu gün meydanda səslənən və ola bilər yaxşı niyyətlə "mən gedim Qarabağda vuruşum" sözlərinə son qoymaq lazımdır. Populizmin vaxtı deyil. Sən gedib necə vuruşacaqsan? Gedib nə ilə vuruşacaqsan? Sən vuruşmaq üçün gərək təlim keçəsən. Gərək sən nizamlı orduda xidmət edəsən. Səni gərək hazırlasınlar, səni gərək öyrətsinlər.

Mən bu gün səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri ilə danışmışam və maraqlanmışam. Dedim, mənə de, bu günlər ərzində sizin rayon şöbələrinə nə qədər adam müraciət edib ki, gedib vuruşmaq istəyir. Mən bu rəqəmi deyəcəyəm, hər kəs onu eşitsin və özü təhlil aparsın. Dedi təqribən 150 nəfər. Dünən Şəhidlər xiyabanının qabağında nə qədər adam var idi? Minlərlə. Müraciət edənlərin sayı 150. Soruşdum daha çox haradan? Dedi ki, 60-ı Tovuzdandır ki, indi orada döyüşlər gedir. Qalanları da Azərbaycanın müxtəlif yerlərindən. Ona görə, mən deyirəm, dünən "Qarabağda vuruşmaq istəyirəm" deyənlər hamısı getsin öz anket məlumatını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə versin. Öz ünvanını versin, orduda xidmət etmə haqqında öz arzusunu ifadə etsin və biz lazım olan vaxtda onları cəlb edəcəyik. Yoxsa kimsə gedib qışqıracaq, insanları qanunsuz əməllərə sövq edəcək, müqəddəs Qarabağ şüarı altında özünə siyasi kapital qazanacaq və sonra nə olacaq. Necə ki, vaxtilə olub, onumu istəyirlər? Bax, real vəziyyət bundan ibarətdir. Bir daha demək istəyirəm ki, bu gün buna ehtiyac yoxdur, bu gün səfərbərliyə ehtiyac yoxdur. Lazım olarsa, bizim qurumumuz var, dövlət xidməti var, ondan sonra Müdafiə Nazirliyi var. Biz bilirik nə etmək lazımdır, nə vaxt lazımdır, hansı məsələlərin həlli üçün bizə nə qədər canlı qüvvə lazımdır. Yoxsa kimsə özündən burada küçə qəhrəmanı düzəltmək istəyirsə, bu, pis yoldur. Mən yenə də deyirəm, dünən Şəhidlər xiyabanına yığışanların mütləq əksəriyyəti vətənpərvər insanlardır. Amma onların arasına bu ünsürlər – Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib. Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur. Gördünüz ki, neftin qiyməti 14 dollara düşəndə necə sevinirdilər. Buna kim sevinir – ermənilər, bir də bunlar. Bir-birinə muştuluq verirdilər, bayram edirdilər, təbrik edirdilər. O Amerikada oturan deyir ki, hələ gözləyin sürüşə-sürüşə gələcək sıfıra. Heç olmasa, ağlın olsun, neftin qiyməti sıfır ola bilər? Hələ deyir tələsməyin sevinməyə, hələ gələcəkdə sevinəcəyik ki, neft 14 dollardan da düşsün, ondan sonra nə olacaq. Sual verin, 2 ildir Amerikada oturub. Birincisi hansı pulla sən orada oturursan,

kim səni orada saxlayır, kim sənə pul verir, kim sənə təlimat verir. De ki, Azərbaycan xalqı bunu bilsin. İndi oturub orada, xarici pullarla vəziyyəti qarışdırmaq istəyir. Ona görə bunlara son qoyulacaq. Heç kimdə bu haqda şübhə olmasın. Biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir. Bu mövzunu yekunlaşdırmaq üçün bir daha demək istəyirəm ki, biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub – istər döyüş meydanında, istər siyasi müstəvidə, istər daxili vəziyyətlə bağlı, iqtisadi və digər sahələrdə.

İndi isə keçək bizim gündəlikdə duran məsələlərə. İndi iqtisadi vəziyyətlə bağlı müşavirə iştirakçıları məlumat verəcək. İlk növbədə, deməliyəm, heç kəs unutmamalıdır ki, biz hələ də pandemiya dövründə yaşayırıq və karantin rejimi ləğv edilməyib. Baxın statistikaya, görün biz nə vaxt yumşalmaya getdik – mayın əvvəlində. Nə üçün? Çünki dinamika müsbət idi. Sağalanlar xəstələnənlərdən çox idi. Sonra nə gördük? Bəzi insanlar məsuliyyətsizlik göstərdi və yoluxma halları geniş vüsət aldı, dinamika pozuldu. Nə etdik? Yenidən sərtləşdirdik. Unutmamalıyıq ki, bu, ölümcül virusdur, ölümcül! Yaşa baxmır, insanların sağlamlığına baxmır. Birinci mərhələdə hesab olunurdu ki, buna daha çox yaşlı insanlar məruz qalır və daha təhlükəlidir. Amma görün, indi nə qədər gənclərimiz əziyyət çəkir. İndi bizim gözümüzün qabağındadır. Deyirdilər ki, virus ancaq xəstə adamlar üçün təhlükəlidir. Bəs, yoluxan sağlam adamlar, idmançılar? Bu, ölümcül virusdur, bunu heç kim yaddan çıxarmasın. Ona görə, son vaxtlar əlavə tədbirlər görüldü. İstərdim ki, Operativ Qərargahın sədri Baş Nazir bu məsələ ilə bağlı məlumat versin, ümumi vəziyyət necədir. Mənim göstərişimlə təcili tibbi yardım maşınlarının alınması, modul tipli yeni hospitalların gətirilməsi nəzərdə tutulurdu. Bu və digər məsələlər haqqında məlumat verin.

Baş Nazir Əli Əsədov çıxış etdi.

**Prezident İlham Əliyev:** Sağ olun. İndi COVID-lə bağlı bizim qarşımızda duran əsas məsələlərdən biri həkimlərin sayı ilə bağlıdır. Çünki mən bir dəfə bu haqda dedim. Biz indi yeni klinikalar açırıq, modul tipli xəstəxanalar açılır, o cümlədən indi Fövqəladə Hallar Nazirliyinin xətti ilə 2100-dən çox çarpayılıq iki xəstəxananın açılışı nəzərdə tutulur, biri artıq açılıbdır. Ancaq həkimlərin sayı bizdə təbii ki, arta bilməz və belə olan halda xarici həkimlərə ehtiyacımız olacaq. Dediyiniz kimi, artıq üç ölkədən – Türkiyədən, Rusiyadan və Kubadan həkimlər gəlib. Əlbəttə ki, onlar üçün burada şərait yaradılıb. Bundan sonra bu istiqamətdə hansı addımlar nəzərdə tutulur və bu həkimlərin bir hissəsi gəlib gedib, onların yerinə başqa həkimlər gəlibmi, yoxsa yox? Bu haqda da qısa bir məlumat verin.

Baş Nazir Əli Əsədov çıxış etdi.

**Prezident İlham Əliyev:** Aydındır, sağ olun.

İndi digər önəmli məsələ bu il və keçən il bizə böyük problem yaradan quraqlıqdır. Bilirsiniz ki, keçən ilin quraqlığı bizə böyük ziyan vurdu. Bu il də baxmayaraq ki, kənd təsərrüfatı 6 ayda 2,2 faiz artıb, amma daha çox arta bilərdi. Çünki bu quraqlıq nəticəsində suyun az olması səbəbindən biz istədiyimiz qədər torpaqlardan istifadə edə bilməmişik. Mən bir müddət bundan öncə bütün bu işləri nəzərə alaraq və bu sahədə vahid idarəetmə mexanizmi qurmaq üçün xüsusi komissiya yaratdım. Baş Nazirin müavini Şahin Mustafayev komissiyanın rəhbəridir. Komissiyada aidiyyəti qurumların rəhbərləri təmsil olunur və artıq mənə verilən ilkin məlumata görə, konkret tədbirlər planının hazırlanması son mərhələdədir. Bu planın bir hissəsi artıq mənə məruzə edilibdir. Yaxın zamanlarda biz çox geniş tədbirlər planını təsdiqləyib, icra etməyə başlayacağıq. İstisna edilmir ki, gələcək illərdə də buna oxşar iqlim mənzərəsi davam etsin. Çünki dünyada iqlim dəyişikliyi bildiyiniz kimi, ciddi problemdir. Bəzi ekspertlərin rəyinə görə, Azərbaycanda əgər bu gün lazımi addımlar atılmasa, 2030-cu ilə qədər bəzi ərazilərdə səhralaşma prosesi gedə bilər. Buna qətiyyən yol vermək olmaz. Ona görə vahid idarəetmə mexanizminin yaradılması ilk məsələ idi. Çünki bu günə qədər bu, yox idi. Bizdə, əgər belə demək mümkündürsə, su məsələləri ilə məşğul olan bir neçə dövlət qurumu var və onların arasında koordinasiya lazımi səviyyədə deyil. Buna görə bəzi təsərrüfat obyektləri, infrastruktur obyektləri nəzarətsiz qalıb. Mənə, məsələn, Şahin Mustafayev məlumat verir ki, bəzi su anbarlarından çıxan boru xətlərində, yaxud da su anbarlarına digər su anbarlarından daxil olan boru xətləri boyunca qanunsuz qoşmalar var. Yəni, bu indi aşkar olunubdur. Çünki heç kimin vecinə deyildi, heç kimin məsuliyyətinə aid deyildi. Ona görə bu

qanunsuz qoşmalar, əlbəttə, suyun ədalətli bölgüsünə də ziyan vurur. Aydın məsələdir ki, təsərrüfat sahibləri bu sudan istifadə edir. Amma o birilərinə çatmır, bir də ki, israfçılığa yol verilir. Bəzi əkin sahələrində o qədər su verilir ki, buna ehtiyac yoxdur. Ona görə burada vahid idarəetmə mexanizmi işlənməlidir, mənə təkliflər veriləcək. Eyni zamanda, koordinasiya məsələləri, itkilərin azaldılması, sudan səmərəli şəkildə istifadə edilməsi – əgər biz buna nail olarıqsa, hətta mövcud su ehtiyatlarımızla məsələni həll edə bilərik.

Şahin Mustafayev mənə məruzə edib ki, bu günə qədər heç vaxt Azərbaycanda su balansı tutulmamışdır. Bu da dözülməz haldır. Biz əgər bu su balansını müəyyən etməsək, onda bu sudan necə istifadə edəcəyik? Biz necə ki, hər il enerji balansımızı təsdiq edirik, eyni qaydada burada da vəziyyət ona oxşar olmalıdır. Biz son illər ərzində ölkəmizin enerji təhlükəsizliyini təmin etdik və bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, neft, qaz, deməli yanacaq və elektrik enerjisini ixrac edir. Yəni, bu, son illər ərzində əldə edilmiş nailiyyətlərdir. Biz əvvəlki illərdə ancaq neft yanacağı ixrac edirdik. Neft, qaz ixrac etmirdik, elektrik enerjisini ixrac etmirdik.

2006-cı ildə Bakı-Tbilisi-Ceyhan və ondan bir qədər əvvəl Bakı-Supsa, Bakı-Novorossiysk kəmərlərinin işə düşməsi nəticəsində nefti ixrac etməyə başladıq, ondan sonra qazı, daha sonra da elektrik enerjisini. Ona görə bu sahədə istədiyimizə tam nail olduq və bu yaxınlarda Mingəçevir İstilik Elektrik Stansiyasının yenidənqurmadan sonra açılışı bizim gücümüzü daha da artırdı. 2400 meqavat gücündə stansiyadır və biz son illər ərzində 800 meqavat həcmində itirilmiş gücləri bərpa etdik və bu proses davam etdiriləcək.

Nəqliyyat təhlükəsizliyi təmin edilib. Azərbaycan Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilibdir və bizim fəal iştirakımızla Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri fəaliyyətdədir və deyə bilərəm ki, Şərq-Qərb nəqliyyat dəhlizi üzərində artıq iki qol mövcuddur. Biri Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa, digəri isə Pakistan-Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa. Hər ikisi Azərbaycan üzərindən keçir və təbii ki, bizim imkanlarımız daha da genişlənir. Əgər biz Şimal-Cənub nəqliyyat dəhlizini nəzərə alsaq, bu da Şimali Avropa-Rusiya-Azərbaycan-İran-Hindistan ölkələrini əhatə edir. Deməli, təsəvvür etmək çətin deyil ki, bu sahədə də nəqliyyat təhlükəsizliyimizi təmin etmişik.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxara biləcək məhsullara da diqqət yetirilməlidir. Ona görə həm Kənd Təsərrüfatı Nazirliyi və eyni zamanda, İqtisadiyyat Nazirliyi, digər qurumlar bu məsələ ilə məşğuldurlar. Yəni, demək istəyirəm ki, biz bu üç istiqamət üzrə önəmli nailiyyətlərə çatdıq. Bizdə su təhlükəsizliyi məsələsi həll olunmayıb. Sirr deyil ki, su ehtiyatlarının böyük hissəsi sərhədlərimizin kənarında formalaşır. Ona görə burada qonşu ölkələrlə yeni əməkdaşlıq formatı, itkilərin azaldılması və aidiyyəti qurumların birgə işləməsi təşkil edilməlidir.

Ona görə indi Şahin Mustafayev görülmüş işlərlə bağlı məlumat versin. İşlər nə yerdədir və əlavə hansı addımların görülməsi nəzərdə tutulur.

Baş Nazirin müavini Şahin Mustafayev çıxış etdi.

**Prezident İlham Əliyev:** Sağ olun. İndi təqdim olunandan sonra, əlbəttə, mən bir daha bu məsələlərə baxacağam. Hesab edirəm ki, yaxın zamanlarda biz çox geniş və müfəssəl proqram təsdiq edəcəyik. Ümid edirəm ki, gələn ilin əkin mövsümünə qədər işlərin bir hissəsi görülə bilər. Burada əsas qısamüddətli tədbirlər görülməlidir. Bildiyiniz kimi, mənə yerlərdən indi çoxlu müraciətlər daxil olur. Mən də bu müraciətləri həm Şahin Mustafayevə, həm də Prezident Administrasiyasına göndərirəm və həlli bu gün operativ qaydada mümkün olan məsələlər, su təchizatı ilə bağlı məsələlər öz həllini tapır. Amma elə məsələlər var ki, onlar daha çox vaxt, daha böyük həcmdə vəsait tələb edir. Ona görə biz bu proqramı üç yerə bölməliyik: Operativ həlli mümkün olan məsələlər, ortamüddətli və strateji uzunmüddətli məsələlər. Hesab edirəm ki, biz bu sahədə də çox ciddi dönüş

yaradacağıq. Artıq bunun ilkin təzahürləri görünməkdədir.

İndi sözü Maliyyə nazirinə verirəm. Büdcənin icrası ilə bağlı məlumat verin. Ondan sonra gələn ilin büdcəsi ilə əlaqədar hansı işlər görülüb. Mən sizə göstəriş vermişdim ki, gələn ilin büdcəsində də sosial sahəyə xüsusi diqqət göstərilməlidir. Biz hər il buna böyük vəsait ayırırıq və ildən-ilə sosial ödəmələr artır. Ancaq indi pandemiya nəzərə alınmalıdır. Pandemiya nə vaxt başa çatacaq, bunu heç kim deyə bilməz. Ona görə həm pandemiyadan zərərçəkmiş sahələrə maliyyə dəstəyi, eyni zamanda, insanların sosial müdafiəsi, işini itirənlərin sosial müdafiəsi, bütün bu məsələlər öz həllini təbii ki, tapmalıdır. Mən göstəriş vermişdim ki, xarici dövlət borcu ilə əlaqədar biz öz mühafizəkar siyasətimizi bundan sonra da aparacağıq. Ancaq biz strateji əhəmiyyət daşıyan sahələrə xarici kreditləri cəlb edə bilərik. Ona görə bu, bizə imkan verəcək ki, xarici dövlət borcu lazımi səviyyədə saxlanılsın. Buyurun, məruzə edin.

Maliyyə naziri Samir Şərifov çıxış etdi.

**Prezident İlham Əliyev:** İndi neftin qiymətindən asılı olmayaraq təbii ki, büdcə tam icra edilməlidir. Hesab edirəm ki, buna bizim imkanımız çatacaq. Dürüstləşməyə gəldikdə, prinsipcə mən buna etiraz etmirəm. Əvvəlki illərdə də biz dürüstləşmə aparmışdıq, ancaq bu, gərək əsaslandırılsın. Ona görə hökumət üzvləri ilə birlikdə Baş Nazirin rəhbərliyi ilə bu məsələləri təhlil edin və mənə konkret təkliflər verin. Biz hansı həcmdə büdcə xərclərimizi artırmalıyıq və bundan hansı məqsədlərə istifadə etməliyik.

Onu da bildirməliyəm ki, büdcə gəlirlərinin artırılması ilin ilk aylarında baş vermişdir. Çünki mən bunu demişəm, bir daha demək istəyirəm ki, biz ili çox yaxşı, böyük uğurlarla, böyük planlarla başlamışdıq. Həm vergi, həm gömrük sahəsində proqnozdan əlavə artım var idi. Amma bu ilk aylarda, haradasa aprel-may aylarından başlayaraq artım, belə demək mümkündürsə, yavaşladı. Yenə də biz profisitdəyik. Ancaq siz qeyd etdiyiniz kimi, ilin sonuna qədər bu profisit bizə çatmaya bilər. Əlavə xərclər oldu. Neftin qiyməti bizdə 55 dollar nəzərdə tutulmuşdu. İndi hazırda, altı ayda bu 40 dollardan aşağıdır. Ona görə bütün bu məsələlər təbii ki, nəzərə alınmalıdır. Əminəm ki, bu ilin büdcəsi ilə bağlı hər hansı bir problem olmayacaq.

O ki qaldı, gələn ilin büdcəsi, ilk növbədə, neftin qiyməti gərək düzgün müəyyən edilsin. Hələ ki, vaxt var. Biz neft bazarlarında vəziyyətə baxıb, bunu müəyyən edəcəyik. Elə etməliyik ki, əsas sosial məsələlərdən başqadigər strateji infrastruktur layihələrinin icrası təmin edilsin. Bir daha demək istəyirəm ki, onların arasında, ilk növbədə, su təchizatı ön plandadır – həm içməli su, eyni zamanda, suvarma suyunun təmin edilməsi. Ona görə layihələr indi hazırlanır. Onların texniki iqtisadi əsaslandırılması, xərclər smetası hazırlanacaq. Bu məsələ də mütləq nəzərə alınmalıdır.

İndi isə söz verilir Mərkəzi Bankın sədri Elman Rüstəmova. Məlumat verin, bank sektorunda vəziyyət necədir? Bağlanmış banklarla bağlı vəziyyət və əmanətçilərin kompensasiyası ilə bağlı hansı işlər görülüb? Məndə olan məlumata görə, 10 mindən çox əmanətçiyə 200 milyon manatdan çox vəsait verilməli idi. Verilib, verilməyib? Bu məsələ nə dərəcədə öz həllini tapır ki, əmanətçilər onlara çatacaq bütün vəsaitlə tamamilə təmin olunsunlar?.

Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış etdi.

**Prezident İlham Əliyev:** Sağ olun. Hesab edirəm ki, görülmüş tədbirlər və məruzə etdiyiniz məsələlər bank sektorunda sağlamlaşma prosesinə müsbət təsir göstərəcək və artıq göstərir. Əlbəttə ki, bizim bank sektorumuz daha da rəqabətqabiliyyətli olmalıdır və iqtisadi inkişafda öz rolunu saxlamalıdır. Şadam ki, artıq özünüməşğulluq proqramına bizim banklar da qoşuldu. Bu, çox müsbət haldır. Bildiyiniz kimi, biz bu proqrama ancaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə başlamışdıq. Amma indi həm Dünya Bankı qoşuldu – 100 milyon dollar həcmində, eyni zamanda, bizim banklar qoşuldular. Əlbəttə bu, sadəcə olaraq, pulların, yaxud da biznes üçün vasitələrin paylanması deyil, burada çox ciddi biznes planlar olmalıdır. Ona görə banklar bunu kredit şəklində verəndə təbii ki, biznes plana da baxırlar.

Elektron ödənişlə bağlı rəqəmlər də çox sevindiricidir. Hesab edirəm ki, biz yaxın gələcəkdə bu sahədə vəziyyəti daha da yaxşılaşdıracağıq və inkişaf etmiş ölkələrin rəqəmlərinə yaxınlaşmalıyıq. Çünki burada da rezervlər hələ ki, kifayət qədər çoxdur.

Biznes kreditləri ilə bağlı sizin verdiyiniz məlumat da çox sevindiricidir. Bilirsiniz ki, mən bu məsələyə həmişə diqqət yetirirəm. Məndə olan məlumata görə, kreditlərin 60 faizdən çox hissəsi artıq biznesə yönəlmiş kreditlərdir. Bu, təbii ki, indiki şəraitdə və

müəyyən dərəcədə investisiyaların azaldılması dövründə bizim iqtisadi inkişafımıza, o cümlədən məşğulluğa daha yaxşı şəraitin yaradılmasına gətirib çıxaracaqdır.

İndi isə söz verilir İqtisadiyyat nazirinə. Deməliyəm ki, mənim təxmin etdiyim kimi, beşinci, altıncı aylardan sonra iqtisadiyyat bir qədər tənəzzülə uğradı. Ölkədə dörd ay ərzində iqtisadi artım müşahidə olunurdu. Ancaq may-iyun aylarında tənəzzül olub və ümumi daxili məhsul bu ilin 6 ayında 2,7 faiz azalıbdır. Bunun da səbəbləri bəllidir. Təkcə onu demək kifayətdir ki, bizim turizm sektorumuz 48 faiz, tikinti sektoru isə 14,5 faiz tənəzzülə uğrayıb. Bu sektorların ümumi daxili məhsulda payı son illər ərzində artırdı. Təbii ki, neftin qiymətinin aşağı düşməsi və "OPEC+" çərçivəsində əlavə öhdəliyin üzərimizə düşməsi və hasilatın azalması nəticəsində təbii ki, bizim ümumi daxili məhsulumuz da azalmalı idi. Biz buna hazır idik. Bu, böyük faciə deyil. Bu, müvəqqəti bir məsələdir. Əminəm ki, dünya iqtisadiyyatı pandemiyadan çıxmağa başlayan kimi, bizdə də bu sahədə vəziyyət bərpa olunacaq. Yenə də demək istəyirəm və hesab edirəm ki, digər ölkələrlə müqayisədə bizdə vəziyyət məqbul sayıla bilər. Dediyim kimi, quraqlığa baxmayaraq kənd təsərrüfatımız 2,2 faiz artıb. İlin sonuna qədər baxacağıq ki, indi artım nə qədər olacaq. Qeyri-neft sektorunda sənaye istehsalı 11 faizdən çox artıb. Bu da sevindirici haldır və onu göstərir ki, sənayeləşmə siyasətimiz öz bəhrəsini verməkdədir.

Ona görə İqtisadiyyat naziri ümumi iqtisadi vəziyyətlə bağlı məlumat versin. Eyni zamanda, kölgə iqtisadiyyatına qarşı mübarizə və son müddət ərzində sahibkarlığın inkişafı ilə bağlı İqtisadiyyat naziri tərəfindən çox önəmli islahatlar irəli sürüldü. Bu məsələ və digər məsələlərlə bağlı məlumat verin.

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış etdi.

**Prezident İlham Əliyev:** Sağ olun. İndi söz verilir Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə.

Nazir Sahil Babayev çıxış etdi.

**Prezident İlham Əliyev:** Əlbəttə, sosial layihələrin icrası bundan sonra da davam etdiriləcək. Bizim siyasətimizin əsas məsələsi elə budur. Pandemiya dövrü bir daha göstərdi ki, biz bu çətin dövrdə də bu siyasətdən kənara çıxmırıq və gəlirlərimizin azalmasına baxmayaraq, bütün sosial layihələr artıqlaması ilə icra ediləcək və bütünlükdə deyə bilərəm ki, bu il bu baxımdan rekord göstəricidir. Siz də qeyd etdiniz, biz insanları özünüməşğulluq proqramı ilə rekord sayda əhatə edəcəyik – 12 min, heç vaxt bu qədər olmayıb. Həmişə 7 min, 8 min olubdur, bu, rekord saydadır. Rekord sayda ödənişli ictimai iş yerlərinin yaradılmasıdır. Biz bir neçə il bundan əvvəl təqribən 30 mindən başlamışdıq, bu il 40 minə yaxın idi və siz də qeyd etdiyiniz kimi 90 minə çatıbdır. Eyni zamanda, şəhid ailələri üçün rekord sayda evlərin verilməsi nəzərdə tutulur – 1500. Əgər biz bu templə davam eləsək, yəqin ki, bir-iki il ərzində, maksimum üç il ərzində bu gün növbədə duran bütün şəhid ailələrini, hansılar ki, hələ mənzillər almayıb, mənzillərlə təmin edəcəyik. Siz qeyd etdiniz ki, 300 mənzil bu günə qədər verilib. Bu, ümumi rəqəmin 20 faizini təşkil edir. Ancaq ilin yarısı arxada qalıb. Ona görə yəqin ki, sizin planlarınızda bu 1500-ü tam təmin etmək məsələsi dayanır və nə üçün onda ilin ilk yarısında bu, cəmi 20 faiz təşkil edibdir? Bunun səbəbi var?

**Sahil Babayev:** Möhtərəm cənab Prezident, əslində, 200-ə qədər mənzil hazırdır, əlavə 100-ə qədər fərdi ev də hazırdır. Sadəcə, bunlar sərtləşdirilmiş karantin rejimi olan ərazilərə düşdüyünə görə biz kütləvi tədbir keçirməmək üçün təqdim etmirik. İnşallah, karantin dövrü bitən kimi biz bunları təqdim etməyə başlayacağıq.

**Prezident İlham Əliyev:** Yaxşı, əlbəttə ki, artan orta əməkhaqqı, orta pensiya, yenə də bizim uğurlu sosial siyasətimizi göstərir. Siz orta pensiyanı qeyd etdiniz. Əlavə etməliyəm ki, yaşa görə də pensiya əhəmiyyətli dərəcədə artıb – 25 faiz və hazırda təqribən 330 manat səviyyəsindədir. Orta əməkhaqqı isə ilin 6 ayında təxminən 25 faiz artıb. Yəni, bu, kifayət qədər böyük artımlardır və əminəm ki, giriş sözümdə dediyim kimi, bütün bu məsələlər gələn ilin büdcəsində də öz həllini tapacaqdır.

İndi isə söz verilir Kənd Təsərrüfatı nazirinə. Buyurun, görülmüş işlərlə bağlı məlumat verin.

Nazir İnam Kərimov çıxış etdi.

**Prezident İlham Əliyev:** Mən qeyd etdim, bir daha demək istəyirəm ki, ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzində olmalıdır. Eyni zamanda, bizim ixrac imkanlarımız da genişləndirilməlidir. Biz heç vaxt unutmamalıyıq ki, ölkəmizin əhalisi artır, ölkəmizə gələn xarici qonaqların sayı 2020-ci il istisna olmaq şərti ilə artır. Belə olan halda daxili tələbat da artacaq. Daxili tələbat nə qədər artacaqsa, əgər kənd təsərrüfatı istehsalı

indiki yerində qalarsa, ixrac imkanlarımız bir o qədər azalacaq. Ona görə kənd təsərrüfatının intensiv yollarla inkişafı bizim üçün prioritet məsələ olmalıdır. Bütün digər tədbirlərlə yanaşı, əlbəttə ki, su mənbələrinin düzgün müəyyən edilməsi, su itkilərinin azaldılması və suyun əkin sahəsi başına çatdırılması ön planda olan məsələlərdir. Bilirəm ki, İqtisadiyyat Nazirliyi komissiyada Kənd Təsərrüfatı Nazirliyi, digər aidiyyəti qurumlarla birlikdə fəal işləyir ki, bu məsələlər kompleks şəkildə öz həllini tapsın və müasir suvarma sistemlərinin Azərbaycanda tətbiq edilməsi üçün əlavə tədbirlər görülsün. Lazım olarsa, bu, infrastruktur layihə olduğu üçün əlbəttə ki, dövlət dəstəyi göstərilə bilər. Eyni zamanda, sahibkarlara bu məqsədlər üçün güzəştli şərtlərlə kreditlərin verilməsinə də baxılmalıdır.

Hesab edirəm ki, təkrar əkinlə bağlı ilkin təcrübə müsbətdir. Təkrar əkini stimullaşdırmaq, fermerləri maraqlandırmaq üçün dövlət əlavə maliyyə vəsaiti ayırıb. Əlbəttə ki, 50 min hektarda qarğıdalının əkilməsi bizim yem bazamızı böyük dərəcədə formalaşdıracaq və idxaldan asılılıq buna uyğun şəkildə azalacaqdır. Bu ilkin təcrübəni siz çox düzgün təhlil edin və əgər bu il, – əgər belə demək mümkündürsə, – son anda siz bu təklifi verdiniz. Biz gələn ilə artıq bəri başdan hazırlaşmalıyıq və yerlər düzgün müəyyən edilməlidir. Bunu pilot layihə də adlandırmaq olar və əminəm ki, 50 min hektarda əkilən qarğıdalı və bunun nəticələri digər fermerlər üçün də maraqlı ola bilər.

Eyni zamanda, bizim bəzi iri fermer təsərrüfatlarında çox gözəl nəticələr əldə edilib – siz də qeyd etdiyiniz kimi, kənd təsərrüfatının pilot sahələrində bəzi hallarda 60 sentner. Eyni zamanda, mən bu yaxınlarda bölgələrdə səfərdə olarkən mənə məlumat verildi ki, Tovuz, Samux rayonlarında fəaliyyət göstərən aqropark Samux ərazisində bir hektardan haradasa 60, Tovuz rayonu ərazisində 70 sentnerdən çox buğda məhsulu götürülür.

Ona görə hesab edirəm ki, bu qabaqcıl təsərrüfatların təcrübəsi öyrənilməlidir. Digər fermerləri bu təcrübə ilə tanış etmək lazımdır. Ola bilsin ki, təkcə bir aqropark deyil, bir neçə bizim böyük fermer təsərrüfatımız gözəl nəticələr əldə edir. Bu təsərrüfatların nümayəndələri regional mərkəzlərdə təlim kurslarında iştirak edə bilərlər. Eyni zamanda, maraqlı olan fermerləri bu təsərrüfatlara dəvət etmək olar. Onların gəlişini təşkil etmək olar ki, təcrübə mübadiləsi mütləq olsun. Əlbəttə ki, kiçik fermer təsərrüfatlarında belə böyük nəticələr gözləmək bəlkə də düzgün olmaz. Ancaq biz əgər bütövlükdə məhsuldarlığı daha da yüksək səviyyəyə qaldırsaq, onda elə mövcud əkin sahələrini nəzərə alaraq biz özümüzü daha böyük məhsulla təmin edə bilərik.

Kənd təsərrüfatı üzrə peşə məktəblərinin yaradılması məsələsinə İqtisadiyyat Nazirliyi ilə birlikdə baxın. Ola bilər ki, Gəncə Dövlət Aqrar Universitetinin bazasında, bu yaxınlarda yeni korpus açılıbdır. Belə peşə məktəbləri müxtəlif bölgələrdə, müxtəlif kənd təsərrüfatı məhsulları üzrə mütləq yaradılmalıdır. Lazım olarsa, qabaqcıl xarici mütəxəssisləri də bu işlərə cəlb edin.

Bir də soruşmaq istəyirəm ki, texnika ilə təminat nə yerdədir və əlavə texnikanın gətirilməsinə ehtiyac var, yoxsa yox?

**İnam Kərimov dedi:**

– Möhtərəm cənab Prezident, artıq texnika təminatı ilə bağlı Sizin ötən il həyata keçirdiyiniz islahat nəticəsində bu sahədə bazarda tam liberallaşma baş vermişdir. Liberallaşma nəticəsində artıq istənilən şirkət kənd təsərrüfatı texnikasını gətirib fermerlərimizə təqdim edə bilər. Bu il 100-dən artıq şirkət vasitəsilə 2380 kənd təsərrüfatı texnikası fermerlərimizə satılmışdır. Müqayisə üçün demək istəyirəm ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu rəqəm 1151 təşkil edirdi. Artıq damazlıq heyvanlar sahəsində də bu rəqəm bir neçə dəfə artmışdır. Həmçinin bildirmək istəyirəm ki, "Aqrolizinq"in bazasında olan əvvəlki illərdə alınmış texnikalar da satışa çıxarılmışdır və 179 texnika "Aqrolizinq" vasitəsilə yəni, 100 şirkətdən biri qismində iştirak edərək fermerlərimizə öz texnikalarını satmışdır.

Bu il əsas fərqlərdən biri o idi ki, Sizin göstərişinizlə "Aqrolizinq"ə 28 milyon manat ayrılmışdır və 125 kombayn "Aqrolizinq" tərəfindən aqroservislər üçün alınmışdır. Bu kombaynlardan 25 ədədini Azərbaycanda, ümumiyyətlə MDB məkanında ilk dəfə olaraq dağ kombaynları təşkil etmişdir. Əvvəllər fermerlərimiz məhsul itkisindən, o cümlədən təhlükəsizlik qaydalarına əməl etmək baxımından əziyyət çəkirdilər. Dağ kombaynları fermerlərimizə məhsulu itkisiz, tam yığmağa imkan vermişdir. Bu il, çıxışımda vurğuladığım kimi, fermerlərimiz, əsasən böyük fermerlərimizdə soyuducu anbarların, suvarma sistemlərinin qurulması və digər böyük

kənd təsərrüfatı texnikası alınması üçün maraq var. Onlar, həmçinin böyük aqroparklar bu istiqamətlərdə Kənd Təsərrüfatı Nazirliyinə əlavə müraciətlər etmişlər. Amma ümumilikdə tam əminliklə deyə bilərik ki, bu il hazırda fermerlərimizin texnika baxımından problemi yoxdur və builki taxıl biçini mövsümü də bir daha göstərdi ki, bu sahədə dövlətimiz tərəfindən bütün tədbirlər həyata keçirilib.

**Prezident İlham Əliyev:** Aydındır. İndi söz verilir Gömrük Komitəsinin sədrinə.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış etdi.

**Prezident İlham Əliyev** iclasa yekun vuraraq dedi:

– Əminəm ki, ilin sonuna qədər görüləcək bütün tədbirlər sayəsində həm gömrük, həm vergi orqanlarında yaxşı nəticələr olacaq. Mən bir rəqəmi bir daha qeyd etmək istərdim. Siz bunu gətirdiniz. Hesab edirəm ki, ictimaiyyətin diqqətini də buna cəlb etməliyik. 2015-ci ildə və bu ilin altı ayında idxalın həcmi eyni idi. Ancaq 2015-ci ildə gömrük orqanları 7 yüz milyon manat vəsait toplamışlar, bu il 2 milyard manatdan çox. Yəni, təxminən 3 dəfə çox. Nəyin hesabına? Şəffaflığın hesabına, qaçaqmalçılığa qarşı mübarizə hesabına, düzgün yanaşma nəticəsində. Əgər bu sahədə və vergilər sahəsində ciddi islahatlar aparılmasaydı, biz bu vəsaitdən məhrum olacaqdıq. Onda biz öz büdcəmizi nəyin hesabına təmin edə bilərdik? Ona görə bu sahədə aparılan islahatlar və real nəticələr bizim büdcə planlarımızın da tam şəkildə həyata keçirilməsinə imkan yaradır. Ona görə mən dəfələrlə demişəm ki, dövlət gəlirləri sahəsində tam şəffaflıq təmin edilməlidir. Sahibkarlar üçün elə bir şərait yaradılmalıdır ki, onlar artıq ağ iqtisadiyyata tam keçid edə bilsinlər. Onlar üçün artıq güzəştli dövr də təmin edilmişdir. Onlarla həm gömrük, həm vergi orqanları məsləhətləşmələr aparıblar, görüşlər keçiriblər, onlara izah edilib ki, dövləti aldatmayın və rahat yaşayın, gecənizi rahat yatın. Ona görə mən bu sahələrdə görülmüş işləri qiymətləndirirəm. Hesab edirəm ki, bütövlükdə, ilin altı ayında görülmüş işlərə müsbət qiymət vermək olar. Bu il çox çətin ildir, təkcə bizim üçün yox, bütün dünya üçün. Təsadüfi deyil ki, aparıcı beynəlxalq maliyyə qurumlarının verdiyi açıqlamaya görə, dünyanın 150 ölkəsindən çoxu maliyyə yardımı üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Azərbaycan öz inkişafını öz hesabına təmin edir.

Bir rəqəmi də gətirmək istərdim. Bu yaxınlarda BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatı işıq üzü görüb. Bu hesabatda Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Onu da bildirməliyəm ki, bu göstəriciyə görə Azərbaycan regionda liderdir. Baxmayaraq ki, ümumi daxili məhsul bir qədər aşağı düşüb, bu da təbii səbəblər üzündən baş verib. Bütövlükdə ilin altı ayını müsbət qiymətləndirmək olar. İlin sonuna qədər qarşıda duran bütün vəzifələr icra edilməlidir. Hesab edirəm ki, investisiya proqramı tam icra ediləcəkdir. Məndə olan məlumata görə, altı ayda investisiya proqramı 40 faiz səviyyəsində icra edilib. Bunun əsas səbəbi odur ki, bu sahədə də şəffaflıq təmin edilir, satınalmalarla bağlı islahatlar aparılır, tender prosedurları gözlənilir. Buna mən göstəriş vermişəm. Amma, eyni zamanda, hamımız yaxşı başa düşürük ki, investisiya proqramı həm ölkə üçün lazımi infrastrukturun yaradılmasına xidmət göstərir, eyni zamanda, məşğulluq üçün də önəmli amildir. Ona görə çalışın, investisiya proqramı ilin sonunadək tam icra edilsin.

Bölgədə gedən prosesləri və son hadisələri nəzərə alaraq biz öz hərbi xərclərimizə də yenidən baxmalıyıq. İstisna edilmir ki, Ermənistan onlara vurulmuş böyük zərbədən və məruz qaldığı vəziyyətdən istifadə edərək, bundan bəhanə düzəldərək növbəti təxribata əl atsın. Onu da bildirməliyəm ki, mənə verilən operativ məlumata görə, Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində Ermənistan tərəfindən fəallaşma müşahidə olunur. Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir və bundan sonra da nəzarət edəcək. İstisna edilmir ki, yeni təxribatlar törədilə bilər. Ona görə biz həm hərbi xərclərimizə yenidən baxmalıyıq və xüsusilə, gələn ilin büdcəsində orduya nəzərdə tutulan xərclər ordumuzun təminatını tam görməlidir. Mən demişəm, ordumuzun inkişafı üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq. Beləliklə, bugünkü iclas bağlı elan olunur. Verilən bütün tapşırıqlar yerinə yetirilməlidir. Əminəm ki, ilin sonuna qədər biz öz məqsədimizə çatıb bu ili də uğurla başa vuracağıq. Sağ olun.

# İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib

Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.



## Prezident İlham Əliyevin giriş nitqi

– Koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər bu müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər vaxtında görülmüş tədbirlərdir. Bu tədbirlər nəticəsində vəziyyət bu günə qədər nəzarət altındadır. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz koronavirus xəstəliyini bundan sonra da nəzarət altında saxlayacağıq. Artıq üç həftədir ki, bu müsbət dinamika, əlbəttə, bizi çox sevindirir. Prinsip etibarilə ilk günlərdən, bu xəstəlik meydana çıxandan dərhal sonra bütün lazımi qabaqlayıcı tədbirlər görüldü. Bunun nəticəsində biz bu vəziyyətdən az itkilərlə çıxırıq.

Əlbəttə, bütün təşkilati məsələlər lazımi səviyyədə görülməli idi və biz buna nail olduq. Xəstəxana fondumuzu qısa müddət ərzində xəstəliklə əlaqədar vəziyyətə uyğunlaşdıra bildik. Həkimlərimizin çox böyük əməyi vardır. Məhz həkimlərin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda bu xəstəlikdən ölənlərin sayı aşağı səviyyədədir. Bildiyiniz kimi,



bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik.

Hesab edirəm ki, biz, eyni zamanda, testlərin keçirilməsi ilə əlaqədar uğurlu addımlar atırıq. Adambaşına düşən testlərin sayına görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, gərək testlərin keçirilməsi üçün imkan olsun. Biz qısa müddət ərzində laboratoriyalarımızın sayını 5 dəfə artırdıq. Yaxın gələcəkdə alınacaq yeni laboratoriyalar imkan verəcək ki, daha da böyük sayda testlər keçirilsin. Biz bütövlükdə laboratoriyaların sayını 45-ə çatdırmalıyıq. Bu yaxınlarda ölkəmizə yeni təcili tibbi yardım maşınları gətirilmişdir. Yüz maşının gətirilməsi nəzərdə tutulur, onlardan 40-ı artıq Bakıdadır. Bu maşınlar bütün bölgələrə göndərilir və göndəriləcək. Əlbəttə ki, xəstə vətəndaşlarımıza lazımi tibbi xidmətin, təcili tibbi yardımın göstərilməsi üçün bu maşınların da çox böyük əhəmiyyəti vardır.

Eyni zamanda, nəzərə alsaq ki, xəstələrin sayı artmaqda idi və baxmayaraq, mövcud xəstəxanalar kifayət qədər imkanlarımızı genişləndirib, amma yeni xəstəxanaların tikilməsinə ehtiyac var idi. Bu məqsədlə modul tipli xəstəxanaların tikintisi təşkil edildi. Bu günə qədər modul tipli 9 xəstəxana istismara verilmişdir. Onlardan 4-ü bir gün ərzində – iyulun 29-da fəaliyyətə başlayıb. Qobustan, İsmayıllı, Qəbələ və Şəki şəhərlərində mənim iştirakımla bu xəstəxanaların açılışı olmuşdur. Yaxın gələcəkdə modul tipli xəstəxanaların sayı bütövlükdə 16-ya çatdırılacaq və beləliklə, bizim təkcə bu xəstəxanalarda 3200 koronavirus xəstəsi müalicə ala biləcək. Fövqəladə Hallar Nazirliyinin xətti ilə 800 çarpayılıq bir xəstəxana istifadəyə verildi, 1300 çarpayılıq xəstəxana isə bu ayın sonuna qədər istifadəyə veriləcək. Bu da əlavə 2100 çarpayı deməkdir. Biz iki Olimpiya İdman Kompleksinin xəstəxanaya çevrilməsi, yəni, uyğunlaşdırma məsələlərini həll etmək üçün qısa müddət ərzində hazır vəziyyətə gətirdik. Artıq bu komplekslərin hər birində lazım olarsa 300-ə yaxın xəstə müalicə ala bilər. Hələ ki, buna ehtiyac yoxdur, ancaq əgər ehtiyac yaransa, biz, əlbəttə, bu imkanlardan da istifadə edə bilərik.

Qabaqlayıcı tədbirlər deyəndə, əlbəttə ki, bütün bu amillər nəzərə alınır. Çünki biz ən kritik ssenariyə hazır olmalıyıq. Məhz belə operativ, çevik və məqsədə hesablanmış addımlar nəticəsində bu gün xəstəlik nəzarət altındadır. Bir daha demək istəyirəm ki, son üç həftə ərzində xəstələnənlərin sayı azalmaqdadır. Bütün bu addımlar, əlbəttə, imkan verir ki, biz bu vəziyyətdən şərəflə çıxaq, insanlarımızı qoruyaq.

Həkimlərin sayının artırılması ilə əlaqədar təbii çətinliklərimiz var. Ona görə xaricdən həkimlərin dəvət edilməsi məsələsinə baxıldı. Hazırda bir neçə ölkədən həkimlər dəvət edildi və onlar Azərbaycanda xəstələrin müalicəsi ilə məşğuldurlar. Türkiyədən, Rusiyadan, Kubadan, İtaliyadan və Çindən həkim briqadaları Azərbaycana gəlmiş və artıq fəaliyyətə başlamışlar. Bu da, əlbəttə ki, bizə əlavə imkanlar yaradır. Çünki həm bu ölkələrdə səhiyyə sahəsi inkişaf etmiş sahədir, orada təcrübə yüksək səviyyədədir və əlbəttə, həm xəstələrin müalicəsi, həm də təcrübə mübadiləsi məsələləri burada kompleks şəkildə həll olunur.

Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, – bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, – bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır.

O ki qaldı, iqtisadi və sosial məsələlərə, bu məsələlər də öz həllini tapır. Sadəcə olaraq, son aylar ərzində görülmüş işlərə baxmaq kifayət edər ki, hər kəs görsün nə qədər böyük işlər görülübdür. Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə, 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır. Təbii ki, sahibkarlar, işəgötürənlər indi gəlir əldə etmirlər və beləliklə, yüz minlərlə insan işsiz qala bilərdi. Yenə də dövlət operativ tədbirlər nəticəsində dərhal bu məsələyə müdaxilə etdi. Əlbəttə ki, bu məqsədlər üçün böyük maliyyə resursları xərclənibdir.

Altı yüz min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunubdur. Onlara artıq bir neçə ay ərzində 190 manat müavinət verilir. Hesab edirəm ki, bu sosial dəstək bundan sonra da davam etdirilməlidir. Hazırda Azərbaycanın 13 şəhər və rayonunda sərt karantin rejimi tətbiq edilir. Həmin rayonların bu kateqoriyaya aid insanları bu dəstəklə bundan sonra da əhatə olunmalıdır. Sizə göstəriş verirəm ki, avqust ayında da onlara 190 manat ödənilsin.

Bu, sadəcə olaraq, görülmüş işlərin bir hissəsidir. Əgər biz nəzərə alsaq ki, ölkəmizdə çox böyük sosial layihələr həyata keçirilir və 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb. Baxmayaraq ki, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması bizim gəlirlərimizə çox mənfi təsir göstərib, ancaq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihə yarımçıq qalmayıb, yaxud da ixtisar edilməyib. Qeyd etməliyəm ki, bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq. Bu il rekord sayda – 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Yəni, bütövlükdə ən azı 9 minə yaxın ailə bu il dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Bütün bu mənzillər keyfiyyətli mənzillərdir, demək olar ki, onların hamısı yeni tikilmiş binalarda yerləşir. Beləliklə, əgər biz bir ailənin üzvlərini orta hesabla beş nəfər götürsək, deməli, bir il ərzində ölkəmizdə 45 min insan dövlət tərəfindən pulsuz, keyfiyyətli mənzillərlə təmin edilir. Mən tam əminliklə deyə bilərəm ki, adambaşına düşən saya görə bu, dünyada ən yüksək nailiyyətdir.

Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik.

Onu da bildirməliyəm ki, iqtisadi sahədə biznesə dəstək məsələlərində də çox böyük addımlar atılıb. Bu gün bu barədə də məlumat veriləcək və bundan

sonra da biznesə dəstək proqramları icra edilməlidir. Həm ilin əvvəlində nəzərdə tutulmuş layihələr, sahibkarlara güzəştli şərtlərlə kreditlərin, subsidiyaların verilməsi, kənd təsərrüfatının stimullaşdırılması, eyni zamanda, pandemiya ilə əlaqədar görülmüş işlər hesab edirəm ki, bizim siyasətimizi tam şəkildə əks etdirir.

Biz büdcəyə düzəlişlər edirik və artıq bu məsələ müzakirə olunur. Milli Məclis artıq bu məsələ ilə bağlı müzakirələr aparır. Bu, bir daha onu göstərir ki, biz bu çətin dövrdə hər bir Azərbaycan vətəndaşına dəstək vermək istəyirik. Çünki bizim büdcəmiz təsdiq olunanda, əlbəttə ki, pandemiya hələ başlamamışdı. Bizim azalan gəlirlərimiz və artan xərclərimiz diktə edirdi ki, büdcəyə yenidən baxaq, dürüstləşmə aparaq, vətəndaşlara maksimum dərəcədə kömək göstərə bilək. Ümid edirəm ki, yaxın günlərdə Milli Məclis dürüstləşmə ilə bağlı öz sözünü deyəcəkdir. Hökumətin təklifi ondan ibarətdir ki, neftin qiyməti 55 dollar yox, 35 dollar səviyyəsində götürülsün və ilin sonuna qədər biz öz xərclərimizi bu rəqəm əsasında planlaşdıraq.

Bu da Azərbaycan dövlətinin istənilən böhrana hazır olduğunu göstərir. Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır. Dürüstləşmə ilə əlaqədar, əlbəttə ki, ilk növbədə, sosial və digər layihələr nəzərdə tutulur.

Bu məsələ ilə və koronavirusla bağlı son vəziyyət barədə bu gün siz məlumat verəcəksiniz. Sözü Baş Nazir Əli Əsədova verirəm.

Baş Nazir Əli Əsədov çıxış etdi.

**Prezident İlham Əliyev:** Sosial sahədə nəzərdə tutulmuş işlərlə bağlı müvafiq tapşırıqlar vermişdim. Tapşırıqlar necə icra olunur, hansı işlər görülüb və hansı işlərin görülməsi nəzərdə tutulur? Sahil Babayev, buyurun.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev çıxış etdi.

**Prezident İlham Əliyev:** Biznes sahəsində, biznesə dəstək sahəsində hansı işlər görülüb? Hansı işlərin görülməsi nəzərdə tutulur? Buyurun, Mikayıl Cabbarov məlumat verin.

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış etdi.

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi

– İndi bir daha demək istəyirəm ki, pandemiya ilə əlaqədar görülmüş işlərə bütövlükdə yüksək qiymət vermək olar. Ancaq əldə edilmiş nəticələr, eyni zamanda, xəstəliyin nəzarət altında saxlanması bizi sakitləşdirməməlidir. Mən bir daha qeyd etmək istəyirəm, üç həftə ərzində müsbət dinamika onu göstərir ki, bütün addımlar düzgün istiqamətdə atılmışdır. Karantin rejiminin əsas məqsədi ondan ibarətdir ki, biz insanlarımızı bu xəstəlikdən qoruyaq, onların həyatını qoruyaq, sağlamlığını qoruyaq və beləliklə, bu vəziyyətdən az itkilərlə çıxaq. Bu günə qədər biz buna nail ola bilmişik. Hesab edirəm ki, xəstəliyin geniş vüsət almamasının əsas səbəbi məhz çox düzgün atılmış addımlardır.

Müsbət dinamika, əlbəttə ki, indi karantin rejiminin yumşalmasına gətirib çıxarır. Ancaq burada da çox ciddi nəzarət mexanizmi olmalıdır. İndi açılan obyektlərdə bütün sanitar-epidemioloji normalar tam təmin edilməlidir. Sosial məsafə təmin olunmalıdır. Obyektlərdə göstərilən xidmət yeni qaydalar əsasında təşkil edilməlidir. Ən əsas məsələ odur ki, buna nəzarət funksiyaları kimin üzərinə düşür? Siz gərək bu məsələ ilə bağlı ciddi təkliflər verəsiniz. Çünki gərək hansısa qurum, yaxud da ki, qurumlar və ya qurumların bir neçəsi bu məsələyə nəzarət etsin. Hesab edirəm ki, elektron vasitələrdən də istifadə olunmalıdır. İndi bir çox obyektlərdə kameralar var. Bu kameralar gərək bizim ümumi nəzarət sistemimizə qoşulsun və onlayn rejimdə videomüşahidə aparılsın. Çünki əgər hansısa insan müfəttiş kimi hansısa obyektə gedib nəyəsə nəzarət edəcəksə, bunun səmərəsi də ola bilər və eyni zamanda, biz bilirik ki, bəzən bu nəzarət çox xoşagəlməz hallara gətirib çıxarır. Hansısa sövdələşmə, hansısa təmənna ola bilər. Ona görə indiki şəraitdə biz, ümumiyyətlə, rəqəmsallaşmaya daha böyük fikir verməliyik. Həm dövlət, həm də özəl sektor tərəfindən göstərilən xidmətləri də bu ümumi sistemə inteqrasiya etməliyik. Hesab edirəm ki, bu məsələ də gərək çox ciddi nəzərə alınsın və onlayn



videomüşahidə sistemləri təmin edilməlidir. Müvafiq dövlət qurumlarının imkanı olmalıdır ki, onlar bu videomüşahidəni aparsınlar. Əgər görsələr ki, sahibkarlar bu qaydaları pozur, onda onlar gərək cəzalandırılsın. Bu, birmənalıdır.

Çünki yumşalma bir çox ölkələrdə xəstəliyin yenidən geniş vüsət almasına gətirib çıxarır. Artıq bu haqda mətbuatda kifayət qədər məlumat var. Demək olar ki, bütün ölkələrdə – harada ki, yumşalma olub, obyektlər, turizm obyektləri, ictimai iaşə obyektləri, xidmət sektoruna aid obyektlər açılıb, orada xəstəlik yenidən geniş vüsət alır və buna ikinci dalğa deyirlər. Amma həkimlərin böyük əksəriyyəti bunu, sadəcə olaraq, sanitar normaların gözlənilməməsi ucbatından baş vermiş hadisə kimi dəyərləndirir. Mən də bu yanaşma ilə razıyam. Çünki bu xəstəlik yoxa çıxmayıb. Ona görə xəstəliyə qarşı mübarizə aparılır. Ancaq heç kim deyə bilməz ki, hansısa ölkə bu xəstəliyə qalib gəlib. İkinci dalğa o halda ola bilər ki, xəstəlik yoxa çıxsın və ondan sonra hansısa yeni bir yoluxma mənbəyi üzə çıxsın. Ona görə bu məsələyə çox ciddi nəzarət olmalıdır və bunu siz təşkil etməlisiniz.

Sosial dəstək bundan sonra da davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bizim bu xəstəliklə bağlı əsas məqsədimiz insanların sağlamlığıdır. Bununla eyni əhəmiyyət daşıyan insanların sosial vəziyyətidir və biz bunu təmin edirik. Ondan sonra əhəmiyyət baxımından bizim iqtisadi vəziyyətimiz, iqtisadi inkişafımız, iqtisadiyyatın dayanıqlılığı və biznes dairələrinə göstərilən dəstək, postpandemiya dövrünə hazırlıq gəlir. Halbuki heç kim deyə bilməz ki, postpandemiya dövrü nə vaxt başlayacaq. Ümumiyyətlə, hesab edirəm ki, indi proqnoz verməyə heç kim cəsarət etməz. Ancaq hər halda, biz buna da hazır olmalıyıq. Yeni fəaliyyətə başlayan biznes sahələri dövlətin dəstəyini nəzərə alaraq gərək artıq öz gələcək planlarını elə qursunlar ki, ölkənin ümumi iqtisadiyyatında canlanma daha da tez baş versin.

Mən yenə də qeyd etmək istəyirəm ki, bizim bu sahədə itkilərimiz var. Ancaq bu itkilər daha genişmiqyaslı ola bilərdi. Bizim iqtisadiyyatımız altı ayda cəmi 2,7 faiz aşağı düşüb. Burada, eyni zamanda, neftin qiymətinin aşağı düşməsi də rol oynayıb. Eyni zamanda, OPEC+ çərçivəsində götürdüyümüz öhdəliklər də öz rolunu oynadı. Çünki biz hasilatı ixtisar etdik. İndi bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 14 faiz, 20 faiz, ondan da çoxdur. Əlbəttə ki, bu ölkələrə

baxdıqda bizdə vəziyyət daha yaxşıdır. Ancaq yenə də iqtisadi inkişafımız təmin edilməlidir. Hesab edirəm ki, bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar bu iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır. Dövlət şirkətlərində itkilər kifayət qədər böyükdür. İndi, baxın, bizim qaz itkiləri, düzdür, son vaxtlar azalıb, ancaq yenə də dözülməz həddədir. Bizim su itkiləri. Su məsələlərinin həlli ilə bağlı xüsusi müşavirə keçirmişdim, Tədbirlər Planı qəbul edilib və artıq icra olunur. Amma itkilər 40-50 faiz səviyyəsindədir. Elektrik xətlərindəki itkilər də, əlbəttə ki, bizi narahat edir. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük vəsait qoyulub, müasir infrastruktur yaradılıb, lakin yenə də itkilər var. Amma özəl sektorda əgər itki varsa, bu özəl sektorun subyekti müflisləşir, biznesini bağlayır və heç kim bunun köməyinə gəlmir. Amma dövlət şirkətləri öyrəşiblər ki, onların bütün qüsurları, bütün itkiləri dövlət tərəfindən bağlanacaq. Hətta ölkəmizdə qazlaşdırma dövlət büdcəsi hesabına aparılır. Halbuki bu, Dövlət Neft Şirkətinin bilavasitə vəzifəsidir. Biz bu il dövlət büdcəsində kəndlərin qazlaşdırılması üçün 100 milyon manat vəsait nəzərdə tuturuq. Yaxşı, əgər dövlət bunu edirsə, onda Dövlət Neft Şirkəti nə ilə məşğuldur. Axı, bu, bilavasitə onun işidir, onun vəzifəsidir.

Bütün digər dövlət şirkətlərində vəziyyət ya buna oxşardır, ya bundan pisdir, ya da ki, bir qədər yaxşıdır. Amma fakt odur ki, əgər dövlət şirkətləri normal korporativ idarəetmə əsasında işləməyəcəklərsə, onda biz bu problemlərlə daim üzləşəcəyik. Bundan sonra buna dözmək olmaz. Hesab edirəm ki, dövlət şirkətlərinə ayrılan vəsait o şirkətlərin səmərəliliyi ilə üst-üstə düşmür. Bu qədər vəsait ayrılıb, daha da böyük nəticə əldə olunmalı idi. Ancaq bu, yoxdur. Çünki birinci növbədə onlar tam əmindirlər ki, dövlət həmişə bunların bütün problemlərini öz üzərinə götürəcək, onların götürdükləri və verə bilmədikləri kreditləri öz üzərinə götürəcək, onlara subsidiya verəcək və beləliklə, bunlarda arxayınlıq yaranıbdır.

Eyni zamanda, israfçılığa yol verilir, bəzi hallarda lazım olmayan layihələr icra edilir, yaxud da bu layihələrin icrasına start verilir. Təbii ki, bu layihələr gərək başa çatdırılsın. Bu layihələr başa çatandan sonra aydın olur ki, bunun səmərəsi yoxdur. Burada, əlbəttə ki, həm idarəetmədə mövcud olan pozuntular, eyni zamanda, bəzi hallarda şəxsi maraqlar rol oynayır. Mən demişəm, bir daha demək istəyirəm ki, dövlət büdcəsinin formalaşması ərəfəsində, müzakirə zamanı bütün dövlət şirkətlərindən sifarişlər gəlir – buraya bu qədər, oraya bu qədər vəsait verin. Biz əlbəttə ki, sosial infrastruktur layihələrinə bundan sonra da dövlət vəsaiti ayıracağıq. Halbuki baxmaq lazımdır, burada da dövlət-özəl sektor tərəfdaşlığı mümkündür, inkişaf etmiş ölkələrdə bu, var. Amma, necə deyərlər, əsas layihələr üçün tələblər dövlət şirkətlərindən büdcə müzakirə olunan zaman gəlir ki, bu qədər vəsait verin bu işi görək. Lakin bu işin səmərəliliyinə heç kim baxmır – bu iş görülməlidir, yaxud görülməməlidir? Bu iş bu ilmi görülməlidir, yoxsa 2 il gözləyə bilər? Buna da heç kim baxmır. Nəzarət aşağı səviyyədədir. Ona görə bu məsələyə mütləq diqqət yetirilməlidir.

Mən bir daha demək istəyirəm ki, əsas məsələ insanların sağlamlığı, onların sosial vəziyyəti və bizim iqtisadi dayanıqlılığımızdır. Çünki əgər bu, olmasa, bu birinci iki vəzifəni biz icra edə bilməyəcəyik. Bizim güclü iqtisadi imkanlarımız olmasa, bütün niyyətlərimiz kağızda qalacaq. Ancaq biz istəyirik bu işləri elə görək ki, ölkə inkişaf etsin, ölkənin gələcəyi qeyri-neft sektorunun inkişafı hesabına təmin edilsin. Əlbəttə, makroiqtisadi vəziyyətin sabit qalması sevindirici amildir, inflyasiya təqribən 3 faiz ətrafındadır və artıq məlumat verildi ki, bizdə xarici borc artmayıb. Ümumi daxili məhsula nisbətdə ola bilsin ki, artıb, çünki ümumi daxili məhsul bizdə azalır və azalacaq. Ancaq bizdə mütləq rəqəmlərdə xarici borc artmayıb və hesab edirəm ki, ilin sonuna qədər azalmalıdır.

Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir. Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir. Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır.

Əfsuslar olsun ki, bu il turizm sektoru tam tənəzzülə uğrayıb və əlbəttə, bizi məyus edir. Çünki çox böyük perspektivlər var idi. Ancaq indi yumşalma rejimi çərçivəsində daxili turizmin inkişafı, təşviq edilməsi ilə əlaqədar tədbirlər planı hazırlanmalıdır. Hesab edirəm ki, kifayət qədər imkanlar var.

Onu da bildirməliyəm ki, bizim vergilərimizin 75 faizi özəl sektorda formalaşır. Əgər vergi sistemində ciddi islahatlar aparılmasaydı, biz bu vergiləri də yığa bilməyəcəkdik, onları görə bilməyəcəkdik. Məhz bu sahədə aparılan islahatlar nəticəsində biz 6 ay ərzində proqnozdan əlavə vəsait yığa bildik. Ancaq, əlbəttə ki, ilin sonuna qədər bu, belə davam edə bilməz. Çünki xarici ticarət böyük dərəcədə tənəzzülə uğrayıb, bir çox ticarət obyektləri bağlıdır. Ancaq bu rəqəm həm sevindiricidir, həm də narahatedicidir. Sevindiricidir ona görə ki, bizim özəl sektorumuz artıq vergi verməyə öyrəşir. Onlara edilən güzəştlər, öz mühasibatlığını kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçirmək üçün verilən müddət artıq öz səmərəsini verdi. Biz əlbəttə ki, bəri başdan cəza tədbirləri tətbiq edə bilərdik və bunun nəticəsində bir çox şirkətlər çətin vəziyyətə düşə bilərdi. Ancaq onlara vaxt, izahat və tövsiyələr verildi – bundan sonra şəffaf işləməlisiniz, gəlirləri gizlətməməlisiniz, kölgə mühasibatlığı yaratmamalısınız. Təmiz işləyin ki, həm vicdanınız rahat olsun, həm də halal pul qazanın. Azərbaycanda halal pul qazanmaq üçün kifayət qədər imkanlar var. Ona görə bu, sevindiricidir. Ancaq narahat edən nədir? Bəhs dövlət şirkətlərinin payı? Bəs, dövlət şirkətləri tərəfindən ödənilən vergilər hansı səviyyədədir? Əgər onların vergilərini, dövlət tərəfindən onlara verilən subsidiyaları və birbaşa vəsaitin qoyuluşunu götürsək, görərik ki, nə qədər böyük fərq var. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, dövlət şirkətləri bizim ölkəmizi, bizim iqtisadiyyatımızı aşağı aparır. Bunun başqa izahı ola bilməz.

Dövlət Neft Şirkətinə pul verilir, təkcə qazlaşdırmaya yox, qazma işlərinə, onların xarici tərəfdaşlarla birgə çalışdıqları konsorsiumlarda payının maliyyələşməsinə, digər infrastruktur layihələrinin icrasına. Bu pul haradan gəlir? Dövlət büdcəsindən, özü də böyük vəsait. Xəzər Dəniz Gəmiçiliyi. Düzdür, digər dövlət şirkətləri ilə müqayisədə Xəzər Dəniz Gəmiçiliyində vəziyyət daha yaxşıdır. Ancaq burada da gəmilər, tankerlər hansı pulla alınır? Dövlət büdcəsi hesabına. Biz indi Gəmiqayırma zavodunda bir neçə gəmi inşa edirik – yük gəmiləri, Ro-Ro tipli gəmilər. Bunu dövlət büdcəsi hesabına edirik, sonra da veririk Xəzər Dəniz Gəmiçiliyinə. Onlar da istismar edirlər və sonra o pulu qaytarırlar? Bu, böyük sualdır. “Azərenerji”yə nə qədər vəsait ayrılır? Düzdür, böyük işlər görülübdür, stansiyalar, yarımstansiyalar tikilir, Mingəçevir İstilik Elektrik Stansiyası demək olar ki, yenidən qurulub. Amma vəsait haradan gəlir, özünün qazandığı vəsaitdən xərcləyir? Yox, dövlət büdcəsindən. Bu gün dövlət büdcəsinin əsas mənbəyi neft-qaz sahəsidir. Digər şirkətlər – AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək? Dəmir yolu da, həmçinin. Yeni xətlər çəkilir, yeni vaqonlar, yeni lokomotivlər alınır, yüz milyonlarla manat vəsait ayrılır. Bəs, bunun səmərəsi haradadır? Axı, səmərə ilə işləməlidir.

Biz demirik ki, inkişaf etmiş ölkələrdə bu işlər lazımi səviyyədə tənzimlənir? Orada zərərlə kim işləyər? Ola bilər hansısa strateji sahələrə dövlət tərəfindən dəstək, dotasiya verilir. Lakin bir çox hallarda orada bütün iqtisadi münasibətlər bazar iqtisadiyyatı prinsipi əsasında qurulub. Amma belə çıxır ki, bizdə özəl sektor bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərir, – halbuki dövlət oraya da dəstək verir, – amma dövlət şirkətləri elə bil ki, sosialist iqtisadi modelində işləyir. Bu, dözülməzdir. Ona görə bu istiqamətdə çox ciddi addımlar atılmalıdır. Sizə tapşırıram, dövlət şirkətlərinin işi ciddi təftiş edilməlidir və yeni idarəetmə sistemi qurulmalıdır. Belə davam edə bilməz. Bu nəzarətsizlik bundan sonra davam edə bilməz.

Artıq müvafiq qurumlar lazımi təkliflər paketi hazırlayıblar. Mənə də ilkin təqdimat edilibdir. Mən bunu dəstəkləmişəm. Hökumətə tapşırıq verirəm ki, yaxın günlərdə dövlət şirkətlərinin yeni idarəetmə sistemi ilə əlaqədar lazımi sənədlər təqdim edilsin və mən onları imzalayacağam.

Digər məsələ bütövlükdə iqtisadiyyatın liberallaşdırılması ilə bağlıdır. Biz buna da getməliyik. Son vaxtlar bu sahədə aparılan müzakirələr deməyə əsas verir ki, artıq ciddi addımların atılması labüddür. Özəlləşdirmə sahəsində daha geniş islahatlar aparılmalıdır. Həm özəl, həm də xarici şirkətləri biz maraqlandırmalıyıq. Çünki bəzi hallarda şirkətlər müraciət edir və onların müraciətlərinə baxılmır, bəzi hallarda uzadılır. Layihələrin bəziləri icra edilir, bəziləri isə yox. Biz özümüz maraqlı olmalıyıq. Biz xarici və yerli investorlara biznesplan verməliyik – bu sahə var, bu müəssisə var, gəl bunu özəlləşdir.

Əgər strateji investor oraya böyük vəsait qoyacaqsa, bunu simvolik qiymətə özəlləşdirmək olar. Əgər, o, zəmanət verirsə ki, buraya böyük vəsait qoyacaq. Ancaq bu yolla biz bu müəssisələri işə sala bilərik. Çünki bizim Bakı şəhərində sovet vaxtından qalan nə qədər dağılmış müəssisələr var. Onların böyük əraziləri var. O ərazilərdə həm yeni sənaye müəssisələri yaradıla bilər, – əlbəttə ki, ekoloji standartları tam gözləmək şərti ilə, – eyni zamanda, şəhərsalma ilə əlaqədar burada böyük layihələr icra oluna bilər. Çünki pandemiya dövründə tənəzzülə uğrayan tikinti sektoru özündə böyük potensial cəmləşdirib. Həm iş yerlərinin açılmasına, həm tikinti materialları sənayesinə, həm də bir neçə sahəyə bunun müsbət təsiri olar. İndi şəhərin içində bizim o qədər yarıdağılmış, çürümüş sənaye müəssisələrimiz var. O investorları cəlb etmək lazımdır. Qoy, gedib öz puluna ərazini abadlaşdırsın, ictimai zonalar yaratsın və binalar tikilsin. Çünki buna ehtiyac var və bu, biznesi canlandıracaq.

Mən artıq qeyd etdim ki, dövlət-özəl sektor tərəfdaşlığı gərək daha konkret layihələr əsasında özünü göstərsin. Deyə bilərəm ki, bu, hələ bir çox hallarda niyyət olaraq qalır. Bizdə bir neçə layihədə dövlət və özəl şirkətlər fəaliyyət göstərirlər, sərmayə qoyublar. Amma bu layihələrin sayı çox azdır. Ona görə burada mütləq yeni yanaşma olmalıdır. Bəlkə də hansısa yeni sahələrdə, hətta infrastruktur layihələrində özəl sektor fəaliyyət göstərə bilər. Bu da mümkündür. Təkcə sənaye müəssisələrinin yaradılmasında yox, infrastruktur layihələrində. Onları, sadəcə olaraq, stimullaşdırmaq lazımdır. Eyni zamanda, biz xarici tərəfdaşları da bu işlərə cəlb etməliyik.

Əlbəttə, xərclərə dövlət nəzarəti mexanizmi daha da təkmil olmalıdır. Burada, əlbəttə ki, dövlət qurumları konkret əlavə təkliflər verməlidirlər və ictimai nəzarət olmalıdır. Bizim üçün böyük əhəmiyyət kəsb edən bütün layihələrin icrasında ictimaiyyət nümayəndələri iştirak etməlidirlər. Mən su ilə bağlı müşavirədə qeyd etdim. Alimlər, qeyri-hökumət təşkilatları, mütəxəssislər, media nümayəndələri – onlar da bu işlərdə iştirak etsinlər. Onlar öz təkliflərini versinlər. Yəni, geniş ictimaiyyət gərək bu işlərə cəlb olunsun. Onda bizim işimiz daha rahat gedəcək və xərclərə nəzarət mexanizmi bir neçə təbəqədən ibarət olacaq.

Biz bütün bu işləri onsuz da görməli idik və görürük. Bizim niyyətimiz və siyasətimiz artıq birmənalı şəkildə vətəndaşlara təqdim edilib. Şəffaflıq, dürüstlük, kölgə iqtisadiyyatının əhatə dairəsinin daralması, biznes mühitinin yaxşılaşdırılması və bu istiqamətdə bundan sonra atılacaq addımlar əminəm ki, həm pandemiya dövründə, həm də postpandemiya dövründə bizə yeni imkanlar qazandıracaq.

O ki qaldı, koronavirusla bağlı mübarizəyə, biz bundan sonra da addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq. Biz hamımız yaxşı başa düşürük ki, insanlar yorulub, karantin rejimi hamımızı yorub. Bütün rəhbərlik fasiləsiz, demək olar ki, 24 saat ərzində iş başındadır. Çünki bu, elə bir bəladır, elə bir xəstəlikdir ki, hələ çarəsi yoxdur. Ona görə yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir. Odur ki, buna uyğun şəkildə addımlar atılacaq. Karantin rejimi nə vaxt mümkünsə yumşaldılacaq, necə ki, artıq ayın 5-dən yumşalma olubdur. Ancaq vətəndaşlar da gərək başa düşsünlər ki, əgər bu yumşalmadan sonra biz yenə də xəstəliyin kəskin artdığını görsək, başqa çarəmiz olmayacaq, gərək yenə də sərtləşdirək. Biz bunu etmək istəmirik. Mən istəyirəm ki, bu yumşalma prosesi tədricən davam etsin və sonrakı yumşalma addımını şərtləndirsin. Amma əgər vətəndaşlar görsələr ki, artıq hər şey açılıbdır, yenə də bütün bu məsafəyə, qoruyucu vasitələrə əhəmiyyət verməyəcəklərsə, onda xəstəlik yenidən alovlanacaq. Biz gərək yenə də sərtləşdirilmiş tədbirlər görək, yenə də iqtisadiyyata zərbə vurulacaq, yenə də insanlar xəstələnəcəklər. Ona görə bütün Azərbaycan vətəndaşlarına bir daha müraciət edirəm ki, məsuliyyətli olun. Bu, çox ağır xəstəlikdir. Bu xəstəlik yaş tanımır, cavan insanlar, gənc insanlar, fiziki cəhətdən sağlam insanlar, idmançılar xəstələnir və rəhmətə gedir. Bu, dünya üçün çox ciddi problemdir, bu gün dünyanın bir nömrəli bəlasıdır. Ona görə hamımız məsuliyyətli olmalıyıq. Əgər belə olsa, dediyim bütün tapşırıqlar yerinə yetirilsə, biz qısa müddət ərzində bu karantin rejimini daha da yumşaldıb normal həyata daha tez qayıda bilərik.

Hesab edirəm ki, bugünkü müzakirə çox faydalı oldu və verilən bütün tapşırıqlar lazımi səviyyədə yerinə yetirilməlidir. Sağ olun.

# İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güleri, Türkiyə Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Ümit Dündarı, Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri komandanı, ordu generalı Hasan Küçükakyüzü, Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı, donanma admiralı Adnan Özbalı və hərbi nümayəndə heyətinin digər üzvlərini qəbul edib.

Görüşdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfiri Erkan Özoral da iştirak edib.

Qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:

– Hörmətli cənab nazir, hörmətli qonaqlar.

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu gün Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin son günüdür. Hərbi təlimlərin birinci mərhələsi başa çatır. Bu, çox əlamətdar hadisədir, bizim birliyimizi, qardaşlığımızı bir daha göstərir. Bir neçə gün ərzində ölkəmizin müxtəlif şəhərlərində təlimlər keçirilir. Həm hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlimlər keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür.



Bizim bütün sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də işbirliyimiz, əməkdaşlığımız sürətlə inkişaf edir. Sirr deyil ki, Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı vardır və biz də bu potensialdan faydalanırıq. Biz çox sevinirik ki, Türkiyə bu gün ən müasir silahlar, hərbi texnika istehsal edir. Biz əlbəttə ki, bu günə qədər olduğu kimi, bundan sonra da bu imkanlardan faydalanmaq istəyirik. Əminəm ki, yaxın zamanlarda Türkiyə bütün başqa sahələrdə olduğu kimi, hərbi-texniki əməkdaşlıq sahəsində də bizim üçün bir nömrəli tərəfdaş olacaqdır. Bildiyiniz kimi, həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir. Siz bilirsiniz, mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz – iki qardaş ölkə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndirdik.

Bir ay bundan öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hücumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması bir daha göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Bizi ilk və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, hörmətli cənab nazir, siz, Xarici İşlər naziri, digər vəzifəli şəxslər bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermisiniz ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və hər zaman Azərbaycanla bir yerdə olacaqdır. Bu, bizi daha da ruhlandırır və yenə də bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir.

Bu təlimlərin uğurla keçməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir. Bu təlimlər gələcəkdə də davam edəcək. Hesab edirəm ki, bu təlimlərin intensivliyi bundan sonra daha da artacaq, təbii ki, buna ehtiyac var. Əminəm, bizim qardaşlarımız – Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti bu günlər ərzində Azərbaycanda olarkən özləri də gördülər ki, onlar burada öz Vətənindədirlər. Əminəm ki, onlar Türkiyəyə döndükdən sonra da o xatirələri öz qəlblərində saxlayacaqlar. Bir daha xoş gəlmisiniz.

***

Türkiyənin Milli Müdafiə naziri Hulusi AKAR çıxış etdi.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verdi. Bildirdi ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, 42 sinif otağı, 18 qrup otağı, 3 laboratoriya, kitabxana, kafe müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.













Bu korpuslarda server otaqları da mövcuddur. Server otaqlarından bütün tədris prosesləri dəstəklənir. Burada 42 otaqda smartkodlar quraşdırılıb, avadanlıqlar, kompüterlər var. Bu avadanlıqlar vasitəsilə tələbələr həm onlayn şəkildə təhsil ala biləcəklər, yəni, müəyyən mühazirələr videoformatda təqdim olunacaq, həm də canlı dərslər keçiriləcək.

Yeni istifadəyə verilən korpusların birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Təkcə bu korpusda 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2000 diplomat və dövlət qulluqçusu təlim keçib.

Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış oldular.

Bildirildi ki, ümumi ərazisi 4 hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Burada 280 bitki növü əkilib. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Parkda göllər də yaradılıb.

Universitetin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verdi.

ADA Universitetinin perspektiv planlarına gəldikdə qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari il fevralın 19-22-də İtaliya Respublikasına rəsmi səfəri zamanı humanitar və təhsil sahəsində əməkdaşlıq barədə müzakirələr aparılıb, sənədlər imzalanıb. Razılaşdırılıb ki, Bakıda İtaliya-Azərbaycan Universiteti təsis olunsun və bu təhsil ocağının yaradılması ADA Universiteti ilə birlikdə həyata keçirilsin.

Universitetin inkişaf planına uyğun olaraq yeni təhsil ocağının istiqamətləri hazırlanmış konseptual sənədlərdə öz əksini tapıb. Yeni universitetdə Azərbaycanın iqtisadiyyatı üçün vacib olan elektrik mühəndisliyi, su təsərrüfatı mühəndisliyi, nəqliyyat mühəndisliyi, kənd təsərrüfatı və qida biznesinə aid sahələr, arxitektura və dizayn peşələri, menecment, marketinq və digər sahələr üzrə kadrlar hazırlanacaq.

Beləliklə, ADA Universitetində təhsil infrastrukturunun modernləşdirilməsi konsepsiyası müasir trendləri əhatə etməklə gələcəyə istiqamətlənib.

# İlham Əliyev “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyevə “Abşeron” yatağında quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat verildi.

Bildirildi ki, “Abşeron” yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir. “Abşeron” layihəsi üzərində iş zamanı “BOS Şelf” şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqdan qazın hasilatı üçün quraşdırılacaq platforma öz növünə görə nadirdir. Belə ki, platformanı kənardan, yəni, “Neft Daşları”nda yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. “Abşeron” layihəsində Xəzərdə ilk dəfə “boru içində boru” texnologiyası tətbiq olunacaq.




Sonra “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlinin qoyulmasını bildirən düymə basıldı.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Daha sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibə verdi.

**– Cənab Prezident, bu gün ölkəmizin neft-qaz sektorunun inkişafında növbəti mühüm hadisənin – “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasiminin şahidi oluruq. Bu layihənin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

– Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu gün faktiki olaraq “Abşeron” qaz-kondensat yatağının yeni mərhələsi başlayır və əminəm ki, bu mərhələ də uğurlu olacaq. Beləliklə, Azərbaycan öz neft-qaz strategiyasında önəmli hadisəyə, önəmli addıma imza atacaqdır.

“Abşeron” yatağının tarixi bir qədər fərqlidir. Çünki ilk dəfə “Abşeron” qaz yatağı üzrə kontrakt xarici tərəfdaşlarla hələ 1990-cı illərin sonlarında imzalanmışdır. Mən o günləri yaxşı xatırlayıram və bizim “Abşeron” yatağı ilə əlaqədar böyük ümidlərimiz var idi. Çünki bizim geoloqlarımız, xüsusilə Xoşbəxt Yusifzadə tam əmin idi ki, bu yataqda kifayət qədər böyük qaz ehtiyatları vardır. Bir də ki, “Abşeron” yatağı üzrə kontrakt “Şahdəniz” qaz-kondensat yatağı üzrə kontraktdan sonra imzalanmışdır və əslində, bu, onu göstərirdi ki, Azərbaycan artıq neft ölkəsindən qaz ölkəsinə keçid alır.

Ancaq əfsuslar olsun ki, müəyyən müddətdən sonra birinci kontrakta xitam verildi. Onun da səbəbi ondan ibarət idi ki, qazılan kəşfiyyat quyusu boş çıxdı. Xatırlayıram, o vaxt bizim görkəmli geo-




loqumuz Xoşbəxt Yusifzadə demişdi ki, quyunun yeri düzgün seçilməmişdir və xarici tərəfdaşları inandırmağa çalışırdı ki, onlar öz iş proqramına bir qədər düzəlişlər etsinlər. Ancaq əfsuslar olsun ki, onun sözünə baxmadılar. Halbuki, Xəzər dənizini Xoşbəxt Yusifzadə kimi tanıyan ikinci adam dünyada yoxdur. Ancaq heç bir nəticə əldə olunmadı və xarici şirkət bu yatağı tərk etdi. Yenə də deyirəm, biz tam əmin idik ki, burada çox böyük qaz ehtiyatları vardır. Şadam ki, "Total" şirkəti eyni fikrə gəldi və SOCAR-la müvafiq sənədlər imzalandı. Ondan sonra praktiki işlər aparıldı və böyük qaz-kondensat yatağı aşkarlandı. Bu önəmli hadisə – yatağın aşkarlanması ilə əlaqədar ilk xəbəri mənə Xoşbəxt müəllim vermişdir. Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat – bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq.

Eyni zamanda, bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat – bu da Bakı-Tbilisi-Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, "Azəri-Çıraq-Günəşli"də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü "Abşeron" yatağı bir qədər kompensasiya edəcək.

Ona görə bu, növbəti böyük hadisədir. Bütün bu qurğular Azərbaycanda istehsal olunub. Mən keçən ay burada olarkən "Qarabağ" dayaq blokunun dənizə göndərilməsini qeyd edirdim. Artıq bu blok burada bizim qarşımızdadır, dənizdədir və bu gün növbəti dayaq bloklarının dənizə göndərilməsi, əlbəttə ki, çox əhəmiyyətli hadisədir. Əminəm ki, qrafik üzrə iki ildən sonra "Abşeron" yatağından ilk qaz və kondensat çıxarılacaqdır.

**– Cənab Prezident, qarşıdan neftçilərin peşə bayramı gəlir. Bu münasibətlə ürək sözlərinizi eşitmək istərdik.**




– Mən neftçiləri qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etmək və onlara yeni uğurlar arzulamaq istəyirəm. Neftçilər hər zaman Azərbaycanda böyük hörmətə layiq insanlar olub. Bu gün də belədir və neftçilərin əməyi əsl qəhrəmanlıqdır. Neftçi peşəsi həm hörmətli peşədir, eyni zamanda, riskli, təhlükəli peşədir və bir daha demək istəyirəm ki, onların əməyi əsl qəhrəmanlıqdır.

Eyni zamanda, ölkəmizin uğurlu inkişafında neftçilərin çox böyük rolu vardır. Bu gün ölkə iqtisadiyyatının əsas hissəsi neft-qaz sektoru ilə bağlıdır və bu, bundan sonra uzun illər belə olacaq. Söhbət ondan getmir ki, digər sektorlar inkişaf etmir, edir, ancaq nə qədər inkişaf etsə də, yaxın gələcəkdə neft-qazdan əldə olunan gəlirlərin yerini tuta bilməyəcək. Eyni zamanda, bizim yeni layihələrimiz – bu gün “Abşeron”, bir ay əvvəl “Qarabağ”, digər layihələrin icrası bundan sonra da neft-qaz amilinin önəmli rolunu təsdiqləyəcək. Ona görə ölkəmizin uğurlu gələcəyi neftçilərin peşəsindən, onların nailiyyətlərindən böyük dərəcədə asılı olacaqdır. Çox şadam ki, mənim də həyatımın 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçibdir. O illərdə əldə etdiyim təcrübə mənim üçün çox qiymətlidir və çox gözəl xatirələrim var. Əldə etdiyim təcrübə, biliklər bu gün mənə kömək göstərir. Mən şirkətin vitse-prezidenti kimi xarici əlaqələrə rəhbərlik edirdim və əsas kontraktların hazırlanmasında, imzalanmasında fəal rol oynayırdım. Çox şadam ki, mən bizim görkəmli neftçilərimizlə bir yerdə işləmişəm. Əfsanəvi Neftçi Qurban – Qurban Abbasov, bax bu nəhəng kran gəmisi onun adını daşıyır. Onunla birlikdə işləmişəm. O, çox prinsipial mövqeyi olan, çox bilikli, peşəkar və cəsarətli adam idi. Belə adamla, sadəcə, təmasda olmaq, bir yerdə işləmək böyük təcrübədir. Biz müntəzəm olaraq Dövlət Neft Şirkətinin şurasında görüşürdük, məsələləri müzakirə edirdik. Mən söz düşmüşkən deyə bilərəm və hesab edirəm ki, Neftçi Qurban dünyada birnömrəli neftçi sayılmalıdır.

Eyni zamanda, Xoşbəxt Yusifzadə ilə, bizim əfsanəvi neftçi-geoloqla birlikdə işləmişik. Dövlət Neft Şirkətinin köhnə binasında bizim iş otaqlarımız da yanbayan idi, ikimizin bir qəbul otağımız var idi. Ona görə hər gün görüşürdük və bu gün də görüşürük. Şadam ki, Xoşbəxt müəllim bugünkü mərasimdə iştirak edir və bizimlə birlikdə düyməni basıb. Çünki “Abşeron” yatağının işlənməsində onun çox böyük rolu var.

Bu gün neftçilər də görürlər ki, onların əməyi Azərbaycan xalqının maraqlarına xidmət edir və bu, onlar üçün də çox önəmlidir. Çünki onlar bilirlər ki, bu gün və bundan sonra ölkəmizin həm siyasi, həm iqtisadi nailiyyətləri böyük dərəcədə neft-qaz amilinə söykənir. Belə olan halda, bu, onları daha da ruhlandırır. Bir daha demək istəyirəm, mən hər zaman fəxr etmişəm ki, həyatımın 9 ili Dövlət Neft Şirkətində keçib və neftçilərin həmkarı kimi onları ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram.

**– Cənab Prezident, Azərbaycan qədim neft diyarıdır. Ölkəmizdə uzun illər – həm çar Rusiyası dövründə, həm Sovetlər dövründə, həm də indiki müstəqillik dövründə neft hasil olunub. O dövrlərdə və müstəqillik dövründə neft amilinin rolunu necə xarakterizə edərdiniz?**

– Bəli, Azərbaycan o ölkədir ki, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasil edilibdir. XX əsrin ortalarında tarixdə ilk dəfə dəniz yataqlarından neft Azərbaycanda hasil edilibdir. Ancaq əgər biz tarixə baxsaq görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi. Bir daha deyirəm, Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi.

Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev. Tağıyev, bildiyiniz kimi, Bakıya Şollar su kəmərini çəkdirmişdir, eyni zamanda, təhsilə böyük əhəmiyyət verirdi. Çünki görürdü ki, Azərbaycan gəncləri təhsildən kənarda qalırlar və beləliklə, gələcəkdə onların inkişafı və yüksək yerlərə çıxması problemli ola bilər. Ona görə hesab edirəm ki, Azərbaycanın neft maqnatları arasında onun xüsusi rolu vardır. Bizim ailəyə də onun köməyi dəymişdir. Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu. Onu da bildirməliyəm ki, İkinci Dünya müharibəsi zamanında o, Dağıstana birinci katib vəzifəsinə göndərilmişdir və müharibə illərində Dağıstana rəhbərlik etmişdir. O vaxt dağıstanlıları da digər Qafqaz xalqları kimi sürgün etmək üçün planlar var idi. Demək olar ki, bu qərar artıq sovet rəhbərliyi tərəfindən verilmişdi. Məhz Əziz Əliyevin fəaliyyəti, onun çox cəsarətli addımları nəticəsində dağıstanlılar bu bəladan xilas ola bildilər. Bu gün onun xatirəsi Dağıstanda yaşayır, onun şərəfinə abidə ucaldılıb.

Yəni, o vaxt bizim bu zəngin neft maqnatlarımız bu işləri görürdülər. Ancaq əlbəttə ki, onlar hər bir insana kömək edə bilməzdilər. Bir də ki, o vaxt Bakının neft maqnatları arasında ermənilər də kifayət qədər çox idi. Onlar da Azərbaycanda qazanılan pulları bir çox hallarda Azərbaycan xalqının maraqlarına zidd işlərə yönəldirdilər. Beləliklə, çar Rusiyası dövründə Azərbaycan xalqının neftdən gəliri sıfır səviyyəsində idi.

Sovet dövründə – o vaxt əgər 1920-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldən verməsəydi, hesab edirəm ki, yenə də ən zəngin ölkələrin birinə çevrilərdi. Çünki o vaxt da Azərbaycanda çıxarılan neft dünya neft bazarında əksəriyyət təşkil edirdi. Ancaq 1920-ci ildə müstəqillik əldən getdi və Azərbaycan nefti yenə də Azərbaycan xalqına kömək etmirdi. O vaxt – xüsusilə müharibə illərində neft mədənlərində işləyən insanlar çox ağır şəraitdə yaşayırdılar, gecə-gündüz çalışırdılar. Bir rəqəmi gətirə bilərəm ki, müharibə zamanı Azərbaycanda rekord səviyyədə neft hasil edilmişdir – 23 milyon ton. Yəni, cəmi bir-iki il ərzində neft hasilatı təqribən iki dəfədən çox artırıldı. O vaxt müasir texnologiyalar yox idi, bu artım daha çox insan əməyinin istismarı nəticəsində baş verirdi. Deyə bilərəm ki, bizim ailədə də bu, öz təsirini göstərdi. Çünki mənim digər babam Əlirza Əliyev pul qazanmaq üçün Naxçıvandan Bakıya gəlirdi və aylarla neft mədənlərində işləyirdi. Bu, onun səhhətinə çox mənfi təsir göstərmişdi və məhz buna görə gənc yaşlarında vəfat etdi.

Yəni, o vaxt Azərbaycan nefti istismar edilirdi. İkinci Dünya müharibəsində sovet ordusunun Qələbəsində Azərbaycan neftçilərinin xüsusi, müstəsna əməyi vardır. Çünki o vaxt Sovet İttifaqında yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edilirdi, Azərbaycanda hərbi texnika istehsal olunurdu. Bu müharibədə 300 mindən çox Azərbaycan nümayəndəsi həlak oldu. Ancaq görün, Sovet İttifaqı dağılanda biz hansı vəziyyətlə üzləşmişdik: dağılmış neft infrastrukturu. Bu gün mənə

edilən təqdimatda göstərilir ki, "Neft Daşları"na yeni həyat veriləcək. Çünki "Abşeron" yatağı "Neft Daşları" ilə bağlı olacaq. Amma "Neft Daşları" hansı vəziyyətdə idi o vaxt. Mən xatırlayıram, "Neft Daşları"na Prezident kimi ilk dəfə 2004-cü ildə gedəndə ağır vəziyyət idi. Bütün platformalar çürümüşdü, dağılmışdı. Burada işləmək böyük çətinlik, böyük təhlükə yaradırdı. Bunu biz əldə etdik. Neft hasilatı aşağı düşmüşdü, faktiki olaraq qaz hasilatı ölkəmizin tələbatını ödəmirdi. Bakının yarısı qazsız qalmışdı, o ki qaldı, rayonlara, orada ümumiyyətlə, qaz deyilən şey yox idi. Deməli, iqtisadi vəziyyət ağır idi.

Hələ Sovet İttifaqının son illərində Azərbaycana qarşı böyük ədalətsizliklər edildi. Xüsusilə Azərbaycan xalqının cəlladı Qorbaçov və onun dəstəsi Azərbaycana nifrətlə yaşayırdı. Nəinki azərbaycanlılara, bütün müsəlmanlara, böyük nifrət hissi var idi, mən bunu dəqiq bilirəm. Bunun nəticəsində Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra ermənilər Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında iddia qaldırdılar. Heydər Əliyev amili imkan vermirdi ki, onlar baş qaldırsın. Ancaq Qorbaçovun yaxın ətrafı demək olar ki, ermənilərdən ibarət idi və bu əsassız iddiaya qarşı lazımi addımlar atılmadı. Əksinə, o vaxt Qorbaçov hakimiyyəti 100 faiz ermənilərin tərəfini tutdu və Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addımlar məhz o vaxt atıldı. Azərbaycanda bəziləri yəqin ki, bunu xatırlamır, ya da bilmir, amma bu tarixi bilmək lazımdır. O vaxt sovet rəhbərliyi qərar qəbul etdi ki, Dağlıq Qarabağda xüsusi komitə yaradılsın və o komitəyə Qorbaçovun köməkçisi Volski təyin edildi. Volski qatı ermənipərəst insan idi və orada işlədiyi dövrdə əlindən gələni edirdi ki, Azərbaycanın tarixi irsi Dağlıq Qarabağ ərazisindən silinsin. Azərbaycanlılar o vaxt Dağlıq Qarabağın bəzi yerlərindən zorla çıxarıldı. Xankəndidə ilk etnik təmizləmə siyasətinin təzahürləri üzə çıxdı və demək olar ki, azərbaycanlılar Xankəndidən qovuldular, Volski orada otura-otura. Yəni, beləliklə, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün imkan yaradıldı.

Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyi o vaxt buna, sadəcə, tamaşaçı kimi yanaşırdı, öz səsini ucaltmamışdı, öz sözünü deməmişdi. Özünü çox qorxaqcasına aparırdı, mərkəzlə münasibətləri korlamaq istəmirdi. O vaxt Azərbaycana rəhbərlik edən insanlar Azərbaycan xalqına xəyanət etmişdilər. Ondan sonra Qanlı Yanvar faciəsi. Cəllad Qorbaçov dinc insanlara meydan oxudu, Azərbaycan xalqının qanı töküldü. Ondan sonra Xocalı soyqırımı. Xocalı soyqırımını vəhşi erməni dəstələri ilə birlikdə törədən Sovet İttifaqının 366-cı alayı olmuşdur. Bəli, o alayda xidmət edənlərin böyük əksəriyyəti ermənilər idi. Ancaq bu, Sovet İttifaqının alayı idi və azərbaycanlılara qarşı etnik təmizləmə işlərində, Xocalı soyqırımında, torpaqlarımızın işğal altına düşməsində onların həlledici rolu olmuşdur. Yoxsa ermənilər təkbaşına bizim torpaqlarımızı işğal edə bilməzdilər.

Yəni, biz bütün bunları gördük. Azərbaycan İkinci Dünya müharibəsində Sovet İttifaqının Qələbəsinə əvəzolunmaz töhfə vermişdir – həm burada – arxa cəbhədə, həm də ön cəbhədə. Bu yaxınlarda Rostov vilayətində Sambek yüksəkliklərinin azad edilməsi mərasimi keçirilmişdir. Mən Rostov qubernatoruna çox minnətdaram ki, bu hadisə zamanı azərbaycanlıların qəhrəman əməyi və fədakarlığı orada qeyd edilmişdir. Eyni zamanda, Rusiyanın dövlət televiziyası – "Rossiya-1" kanalı məndən bu məsələ ilə bağlı müsahibə almışdı. Çünki Sambek yüksəkliklərini və Rostov vilayətini faşistlərdən təmizləyən məhz azərbaycanlılar olub – 416-cı Taqanroq diviziyası. O diviziyada xidmət edənlərin sayı təqribən 12 minə yaxın idi. Ancaq onların mütləq əksəriyyəti – 11 mindən çoxu azərbaycanlılar idi. Diviziyanın tərkibi üç dəfə yenidən formalaşdırılırdı, çünki həlak olanlar həddindən artıq çox idi. Rostovu faşistlərdən təmizlədilər, Mozdokda faşistləri Bakı tərəfə keçməyə qoymadılar. Yoxsa ki, Bakını zəbt edəcəkdilər. Bunu biz etmişik, qəhrəman Azərbaycan xalqı. Azərbaycan zabiti Məcidov Brandenburq qapısının üstünə Qələbə bayrağını sancmışdır. Amma tarixi kitablarda bu, var? Yoxdur. Kimdən soruşsan, mütləq əksəriyyət bunu bilmir. Nə üçün? Çünki azərbaycanlıların qəhrəmanlığı tarixdən silinirdi.

O vaxt Moskvada oturanlar – Mikoyanlar və ona oxşar anti-Azərbaycan ünsürlər hər vəchlə çalışırdılar ki, azərbaycanlıların qəhrəmanlığını gizlətsinlər. Əfsanəvi partizan Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı müharibədən neçə il sonra verildi, özü də Azərbaycan tərəfinin təkidi ilə. Mən Sloveniyada olarkən onun məzarını ziyarət etdim. Orada böyük mərasim keçirdik. Orada onunla birlikdə vuruşan sloveniyalıları gördüm. Onlar göz yaşları tökürdü. Mən onlarla söhbət edirdim, çünki onların təəssüratları çox maraqlı idi. Deyirdilər ki, belə bir qəhrəman insan dünyaya gəlməmişdi. Yəni, o, gizlədilirdi, danılırdı şüurlu şəkildə.

Ona görə biz bunu Sovet İttifaqı dağılanda gördük. İndi baxın, müstəqillik dövründə, hələ 30 ili tamam olmayıb, amma biz hansı işləri görürük. Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng

neft-qaz layihələri, bütün başqa sahələr də. İndi Azərbaycan bütün reytinqlərdə ən qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir. Sovet vaxtında bizim dağ rayonlarımızda qaz xətləri yox idi. Daşkəsən, Gədəbəy, Lerikə ilk qaz xətlərini biz çəkdirdik. O vaxt Azərbaycan qazı başqa respublikalara nəql edilirdi, ancaq respublikanın bəzi yerlərində qaz yox idi. İndi qazlaşdırma 96 faizdir. Bu gün biz infrastruktur layihələrinin təhlilinə verilən qiymətə görə dünyada qabaqcıl yerlərdəyik. Davos Forumu avianəqliyyat, dəmir yolu nəqliyyatı sahələrində Azərbaycanı 11-12-ci yerlərə layiq görüb. Yol infrastrukturunun keyfiyyətinə görə dünyada 27-ci yerdəyik. Bizim digər sosial infrastruktur layihələrimiz – müstəqillik dövründə 3700 məktəb tikilib və təmir edilib. Amma müstəqilliyə qədər o məktəblər nə gündə idi. 700-dən çox xəstəxana tikilib və ən müasir avadanlıqla təchiz edilib. Biz kosmik dövlətə çevrildik, biz nəhəng neft-qaz layihələri icra edirik. Təkcə iqtisadiyyat və sənaye sahəsində yox, baxın, idman sahəsində, Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Sovet dövründə bunu təsəvvür etmək mümkün idimi? Əgər o vaxt kimsə desəydi ki, bunların biri mümkündür, bəlkə də ona gülərdilər. Budur, müstəqilliyin üstünlüyü. Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir.

Biz neft gəlirlərini çox səmərəli yollarla yerləşdirmişik, onları qoruyuruq və ordumuzu gücləndiririk. Ona görə müstəqilliyin üstünlükləri göz qabağındadır. Əgər kimsə hansısa nostalgiyaya görə keçmiş dövrləri məhəbbətlə xatırlayırsa, biz o adamlara tutarlı cavablar verməliyik. Müstəqilliyə qarşı çıxan və onu aşağılamağa çalışan hər bir fərd dövlətimizə xəyanət edir. Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz o qədər də möhkəm olacaqdır.

**– Cənab Prezident, ölkəmizdə neft hasilatı ciddi ekoloji problemlər meydana gətirmişdir. Hazırda isə Sizin göstərişinizlə ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bununla bağlı nə deyə bilərsiniz?**

– Bəli, tamamilə haqlısınız. Bu, doğrudan da ciddi məsələdir. Çünki o vaxt Bakı, Abşeron yarımadası, Sumqayıt şəhəri ekoloji fəlakət zonaları kimi təqdim edilirdi və faktiki olaraq ekoloji fəlakət mövcud idi. İndi bir çox hadisələr yaddan çıxır. Ancaq bizim neftlə ən çox çirklənmiş ərazimiz Bibiheybət buxtası idi. İndi Bibiheybət buxtası gözəl parklar, istirahət zonalarına çevrilib. Bibiheybət qəsəbəsi indi faktiki olaraq yenidən qurulub. Yəni, Bibiheybət buxtası ekoloji fəlakət zonası idi və o görüntülər yəqin ki, bir çoxlarının xatirindədir. Digər ekoloji fəlakət zonası Balaxanı və onun neft mədənləri idi. İndi baxın, Balaxanı gözəl bir qəsəbəyə çevrilibdir və orada işlər artıq tamamlanmaq üzrədir. Mən özüm gedib baş çəkəcəyəm və baxıb görəcəyəm ki, mənim göstərişlərim necə yerinə yetirilir. Təkcə Balaxanı yox, bütün qəsəbələr. Mən demişəm, Bakının bütün qəsəbələri abadlaşdırılmalıdır, orada insanlar üçün daha yaxşı şərait yaradılmalıdır, insanları narahat edən bütün problemlər həll olunmalıdır və bu qəsəbələr estetik cəhətdən müasir səviyyəyə uyğun olmalıdır. Qəsəbələrdə bütün tarixi abidələr bərpa edilməlidir və biz bu qəsəbələrə yeni həyat verəcəyik. Balaxanı zibilxanasını yadımıza salaq. Oradan çıxan tüstülər bütün şəhəri bürüyürdü və zəhər idi. Mən bu məsələ ilə məşğul olmağa başlayanda bəziləri deyirdilər ki, bunu söndürmək mümkün deyil. Çünki o, altdan yanır və orada qazlar əmələ gəlir, çox təhlükəli yerdir, yaxın düşmək olmaz. Bəziləri deyirdi ki, gəlin bunun üstündə sarkofat tikək. Yəni, belə cəfəng təkliflər var idi. Amma biz bunun da yolunu tapdıq. Tamamilə təmizləndi. İndi orada gözəl park salınıb və zibilyandırma zavodu fəaliyyətə başlayıb. Onun yanında növbəti ekoloji fəlakət zonası – Böyükşor gölü də, onun bir hissəsi təmizləndi. O da ekoloji fəlakət idi, çünki açıq neft rezervuarı idi, eyni zamanda, bütün kanalizasiya suları da oraya axıdılırdı. Amma indi orada bulvar salınıbdır və o gölə quşlar qonur.

Digər layihələr. İndi Qara şəhəri yadımıza salaq. Artıq o anlayış yoxdur, onun yerində Ağ şəhər var. Ağ şəhər şəhərsalma layihəsini biz icra edəndə orada təqribən ən azı iki metr torpaq layı çıxarıldı. O da bütün neft çöküntüləri idi, qudron idi, zəhər idi. Onun yanında “Azərneftyağ” neft emalı zavodu yerləşir. Artıq onun da fəaliyyəti başa çatmaq üzrədir. Çünki iki ildən sonra Heydər Əliyev neftayırma zavodunda yenidənqurma başa çatacaq, “Avro-5” benzin istehsal olunacaq. Beləliklə, havanı ən çox çirkləndirən nəqliyyat vasitələri də təmiz benzinlə təmin ediləcək və “Azərneftyağ” neft emalı zavodu söküləcək. Bütün o rezervuarlar, qurğular söküləcək, ora böyük park olacaq. Həmçinin yod-brom zavodu. Bəziləri bilmir, o da aeroport yolunda yerləşirdi, o da bir zəhər idi. Biz oranı da utilizasiya etdik, oradakı çöküntüləri poliqona daşıdıq. Yaxud da ki, Sumqayıt şəhərinin ekoloji vəziyyətinə baxın. Əvvəllər

Sumqayıtın yanından keçəndə hər kəs pəncərəni bağlayırdı ki, o üfunət iyi, o zəhər girməsin maşına. Amma bu gün Sumqayıt elə bil ki, kurort şəhəridir. Sənaye potensialı möhkəmləndirilməklə orada müasir təmizləyici qurğular quraşdırıldı, sənaye parkları yaradıldı. Sumqayıt Sovet İttifaqında bəlkə də ən çirklənmiş şəhər sayılırdı, bu gün ən təmiz şəhərlərdən biridir. Bütün bunları biz etmişik. Çünki bu, bizim xalqımızın həyatıdır, uşaqlarımızın, gələcək nəslin sağlamlıdır. Amma çar Rusiyası dövründə, sovet dövründə buna fikir verilirdimi? Xeyr. Ancaq plan, ancaq hasilat, ancaq istismar, neft ver, qaz ver. Bəs insanların həyatı, onların yaşayışı, onların sağlamlığı? Ona görə bizim üçün bu, ön plandadır.

Mən Prezident seçiləndən sonra demişdim, ilk bəyanatlardan biri idi ki, "qara qızıl"ı insan kapitalına çevirməliyik, insanlara xidmət etməliyik. Biz bu sahədə, ilk növbədə, insan amilini nəzərə almalıyıq. Çünki neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik.

Ekoloji layihələr hələ ki, bitməyib, hələ görüləsi işlər çoxdur. Hazırda Abşeron yarımadasında neft gölməçələrinin təmizlənməsi işi gedir. Mən tapşırıq vermişəm ki, bütün neft mədənlərində təmizləmə işləri aparılsın, orada ağaclar əkilsin, – necə ki, burada, Bibiheybətdə. Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik.

**– Cənab Prezident, neft-qaz sektorunda ölkəmizdə həyata keçirilən layihələrin icra vəziyyəti hansı səviyyədədir?**

– Layihələrin icrası uğurla gedir. Bizim əsas gəlir mənbəyimiz "Azəri", "Çıraq", "Günəşli" yataqlarıdır. Orada işlər plan üzrə gedir. İndi orada "Mərkəzi-Şərqi Azəri" adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarında hazırda 120-dən çox quyu fəaliyyətdədir və eyni zamanda, bu yataqların çox zəngin qaz ehtiyatları vardır. Ona şərti olaraq "dərin qaz" deyilir və indi "dərin qaz"ın işlənməsi ilə əlaqədar Dövlət Neft Şirkəti öz tərəfdaşları ilə müvafiq işlər aparır. "Şahdəniz-2" layihəsi icradadır. Artıq TANAP xətti ilə Türkiyəyə ötürülən qazın həcmi ildən-ilə artır. Əgər bir il bundan əvvəl Türkiyə bazarında Azərbaycan qazı 4-cü, 5-ci yerdə idisə, hazırda birinci yerdəyik və bu, həm bizim üçün, həm də Türkiyə üçün çox önəmlidir. Çünki qaz hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Bu gün Türkiyəyə qaz qardaş ölkədən gəlir və bu qazın həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq. "Abşeron" yatağında ikinci fazadan çıxarılacaq qaz da TANAP xətti ilə Türkiyəyə ötürüləcək və digər bazarlara ötürülə bilər. Eyni zamanda, "Qarabağ" yatağının işlənilməsi ilə əlaqədar işlər plan üzrə gedir. Hazırda burada gördüyümüz dayaq bloku dənizə göndəriləcək və ümid edirəm ki, bir, iki ildən sonra "Qarabağ" yatağından ilk neft hasil olunacaq. Bu yatağın özəlliyi odur ki, orada neft ehtiyatları daha çoxdur və bizim hasilatımızın sabit saxlanması üçün bunun böyük əhəmiyyəti var. Digər çox perspektivli layihə "Dayazsulu Abşeron" adlanır və bu layihənin də perspektivi çox böyükdür. Bir neçə aydan sonra o yataqlarda ilk qazma işləri aparılacaq. Ümid edirəm ki, biz orada da böyük neft ehtiyatı aşkar edəcəyik. SOCAR-ın təkbaşına iştirak etdiyi "Ümid"-"Babək" layihələrində də işlər plan üzrə gedir. Onlar da çox perspektivli layihələrdir və bizim planımızda bu layihələrin investisiya tutumunu, hasilatını artırmaqdır. Çünki yenə də deyirəm, həm daxili tələbat üçün bizə daim enerji resursları lazımdır və ixrac potensialımız da təmin ediləcək. Digər layihələr də var, hansılar ki, böyük ümidlər verir. Amma bütövlükdə deyə bilərəm ki, baxmayaraq "Əsrin kontraktı" 1994-cü ildə imzalanıb və o vaxtdan bu günə qədər bir çox kontraktlar imzalanıb və artıq 26 il keçib, Azərbaycanın neft potensialına dünyada maraq azalmır, əksinə artır.

**– Cənab Prezident, mənim sualım Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Danışıqların hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

– Mən danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman, bütün dövrlərdə Azərbaycan xalqına həqiqəti demişəm və hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Xalq bilməlidir nələr baş verir, hansı yerdəyik, nədir bizim siyasətimiz. Mən çıxışlarımda və media nümayəndələri ilə görüşlərimdə aktual məsələlərə aydınlıq gətirirəm və hesab edirəm ki, bu, çox vacibdir. Çünki vətəndaşlar bilməlidirlər və düzgün təhlil aparmaq üçün onlar düzgün məlumat əldə etməlidirlər. Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq

istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub, pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edir. Əfsuslar olsun ki, Ermənistanın indiki rəhbərliyi bu məsuliyyəti dərk etmir. Onlar bu addımların nəyə gətirib çıxara biləcəyini də düzgün təhlil edə bilmirlər. Halbuki Ermənistanda rasional düşüncəli insanlar, siyasətçilər var. O siyasətçilər özləri artıq bu məsələni qaldırırlar və Ermənistan ictimaiyyətinə öz fikirlərini çatdırırlar ki, Ermənistanın bugünkü rəhbərliyi Ermənistanı uçuruma aparır. Siz bilirsiniz ki, iki il bundan əvvəl Ermənistanda dövlət çevrilişi baş verəndə Azərbaycan buna neytral qaldı. Yəni, biz vəziyyətdən istifadə edib nəyisə əldə etmək fikrində olmadıq. Biz hesab edirdik ki, bu, labüd idi. Çünki Ermənistanın bundan əvvəlki hakimiyyəti erməni xalqında ancaq nifrət hissləri doğururdu və faktiki olaraq bu hərbi-kriminal rejim Ermənistanı tamamilə bərbad vəziyyətə salmışdı. Xüsusilə nəzərə alsaq ki, yeni hakimiyyət hakimiyyətə gələndən sonra çox ümidverici bəyanatlar verməyə başlamışdır ki, bu məsələni həll etmək istəyirlər, əvvəlki hakimiyyəti tənqid edirdi, bizə qeyri-rəsmi kanallarla müsbət siqnallar göndərirdi, vaxt istəyirdi. Biz də ümidlərlə yaşayırdıq ki, bəli, yeni hakimiyyət bütün başqa sahələrdə də, bu sahədə də yenilik gətirəcək və o əvvəlki yanlış siyasətə düzəliş edəcək. Xüsusilə mənim Ermənistanın baş naziri ilə Düşənbədəki məlum görüşlərimdən sonra bu fikir daha da möhkəmləndi. O vaxt məndən xahiş olundu ki, onlara vaxt verilsin, Ermənistanda daxili vəziyyət ağırdır, çətindir, keçmiş hakimiyyətin nümayəndələri revanş almaq istəyirlər və bu da danışıqlar prosesinə çox mənfi təsir göstərəcək. Onlar danışıqlara meyillidir, məsələni həll etmək istəyirlər və xahiş edilirdi ki, atəşkəs rejimi möhkəmlənsin. Mənim isə sözüm o idi ki, biz ciddi danışıqlar aparmalıyıq və o təqdirdə, əlbəttə, atəşkəs rejimi daha da möhkəm olacaqdır. O görüşdən sonra hər iki tərəf razılıq əsasında ayrı-ayrı açıqlamalar verdi. Açıqlamaların əsas mahiyyəti ondan ibarət idi ki, biz görüşdük, yəni, qeyri-formal, qeyri-rəsmi görüş keçirdik, razılaşdıq ki, danışıqlar prosesi sürətləndirilsin və atəşkəs rejimi möhkəmləndirilsin. Çünki bu iki mövqe daim vəhdət təşkil etməlidir. Əks təqdirdə, bu, status-kvonun möhkəmləndirilməsi demək olacaqdır, buna isə biz heç vaxt razı ola bilmərik. Müəyyən müddət ərzində Minsk qrupunun həmsədrləri də ümidlərlə yaşayırdılar və gəlib gələndə, görüşlər əsnasında ümidlərlə dolu fərziyyələr irəli sürürdülər. Ancaq keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. “Qarabağ Ermənistandır” deməklə nəinki o yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir. Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, – halbuki bütün dünya bu cəfəng fikri rədd edib, – onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi.

İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslarımız ola bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədrləri də buna əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. Düzdür, onlar diplomatdırlar və çalışırlar ki, diplomatik leksikonu dilə gətirsinlər, ancaq hesab edirəm, Ermənistan tərəfinə artıq deyildi ki, bu kimi açıqlamalar ziyanlıdır və onların özləri üçün də problemlər yaradır. Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda, biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da davam edək, bu, sadəcə, məsuliyyətsizlik olar. Özümüz-özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. Əlbəttə, pandemiya müdaxilə edib, amma pandemiyasız da danışıqlar getmir. Siyasi cəhətdən bu qüsurlu və ziyanlı bəyanatlar danışıqlar üçün yer qoymur. İndi baxın, onların digər addımlarına. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir. Onların ağlı çatmır, təcrübəsi, bilikləri yoxdur – onlar bunu nümayişkaranə göstərirlər. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır, bizi təxribata çəkirlər. İnternetdə göstərirlər ki, Livandan hansısa erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan başqa, bizim qədim tarixi şəhərimiz Şuşada o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu, bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu,

bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq. Ermənistanın baş naziri bizə 7 şərt qoyur. Birincisi, sən kimsən ki, bizimlə şərt dilində danışırsan. Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək. Mən demişəm ki, biz bu cəfəng şərtləri rədd edirik. Amma bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, necə ki, bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapır. Orada hansısa komediya tipli təlimlər keçirirlər. Yəni, hər bir addım bizə qarşı açıq təxribatdır. İyul təxribatı. O da artıq silahlı təxribatdır və heç kimə sirr deyil ki, bunu Ermənistan başlayıb. Artıq Minsk qrupunun həmsədr ölkələrinin birinin yüksək vəzifəli rəsmisi bunu açıq bildirib. Mən o vaxt da demişəm, bu gün də deyirəm, bizim Ermənistan ərazisində heç bir hərbi hədəfimiz yoxdur və əgər istəsəydik, biz Ermənistan ərazisinə keçə bilərdik, bizim tam hərbi imkanlarımız var idi. Amma biz bunu etmədik. Çünki bizim hərbi siyasət konsepsiyamızda bu, yoxdur, əgər bizə qarşı ciddi təxribat törədilməsə. Əgər törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq, bunu hər kəs bilsin, heç bir məhdudiyyət. Əgər onlar beynəlxalq hüququ yerə vururlarsa, biz niyə beynəlxalq hüququ gözləməliyik, biz də yerə vuracağıq, amma axırı pis olacaq onlar üçün. İyul təxribatından sonra avqust təxribatı. Mülki vətəndaşlara qarşı terror aktları, hərbçilərimizə qarşı hərbi təxribat törətmək üçün diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı tutuldu. O, ifadələr verir, etiraf edir, adlar çəkir, kim göndərib, necə göndərib. Yəni, bu, çoban deyil, bu, yolunu azmış hansısa uşaq deyil. Yoxsa onlar bütün casuslarını çoban və dəli adlandırırlar. Bizdə onlardan artıq 5-6-sı var. Hamısı da dəli, hamısı da çoban? Belə çıxır ki, yəni, Ermənistanda çobanlar və dəlilər əksəriyyət təşkil edir? Buna da çoban demək istəyirdilər, amma daha deyə bilmirlər. Bu təxribatı kim edir? Bizmi diversiya qrupu göndərmişik? Yox, onlar göndəriblər. Bizmi iyul hadisələrini törətmişik? Yox, onlar. Bizmi onların vətəndaşlarını öldürmüşük? Yox, onlar. Ermənistan tərəfində mülki şəxslər arasında bir dənə də qurban yox idi. Amma bizim 76 yaşlı ağsaqqal həlak oldu, nə qədər ev dağıldı. Ona görə bu təxribatlar faktiki olaraq o siyasətin məntiqi nəticəsidir. Məqsəd danışıqları pozmaq, ondan sonra bizi ittiham etmək və status-kvonu dəyişməz saxlamaqdır. Budur, onların məqsədi. Ona görə hesab edirlər ki, bunu edə biləcəklər, hesab edirəm ki, səhv edirlər. Nə qədər bunu tez anlasalar, onlar üçün bir o qədər yaxşı olacaqdır.

**– Cənab Prezident, Ermənistan iyul ayında dövlət sərhədində hərbi təxribat törətdi və Azərbaycan Ordusu tərəfindən layiqli cavabını aldı. İşğalçının təxribatları bu gün də davam etməkdədir. Sizcə Ermənistanın bütün bunları törətməkdə məqsədi nədir?**

– Hesab edirəm ki, bu təxribatın məqsədlərindən biri haqqında mən öz fikirlərimi ətraflı söylədim. Digər məqsəd ondan ibarət idi ki, Paşinyan çevriliş nəticəsində hakimiyyətə gələndən bir ay sonra uğurlu Günnüt əməliyyatı keçirildi. Günnüt əməliyyatı onların növbəti məğlubiyyəti idi. Düzdür o vaxt, sözün düzü, əməliyyat artıq keçiriləndən sonra mən göstəriş verdim ki, bu əməliyyat haqqında geniş məlumat verməyin. Çünki biz erməni rəhbərliyindən fərqli olaraq piar üçün yox, mahiyyət üçün işləyirik. Bizə mahiyyət lazımdır. Biz o əməliyyatı keçirdik. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu çox böyük məharətlə, peşəkarlıqla bir itki vermədən önəmli strateji yüksəklikləri aldı, mövqelərimizi möhkəmləndirdik. Ermənilər ayılıb gördülər ki, biz artıq oradayıq. Cürət etmədilər, qorxdular ki, bizi oradan çıxarmağa cəhd etsinlər. Artıq Ermənistandan Dağlıq Qarabağa gedən yol da bizim gözümüzün qabağındadır. Onlar bunu unutmasınlar. Biz görürük, hansı maşınlar keçir, necə keçir. Onlar bunu gizlədirdilər. Çünki Paşinyan təzə gəlmişdi və gələn kimi belə acı məğlubiyyət, alçaldıcı məğlubiyyət. Onlar da gizlədirdilər. Mən də hesab edirdim ki, gizlədirlər, biz də gizlədək. Birincisi, nəyə lazımdır? Biz istədiyimizə nail olmuşuq. İkincisi, yenə də deyirəm biz istəmədik ki, bu yolla əvvəlki hakimiyyətin əlinə bir arqument verək. Çünki o vaxt Ermənistanda vəziyyət lap ağır idi, indi də sabit deyil. Əgər o vaxt bu, dərhal bilinsəydi, ola bilər ki, hansısa daxili revanş hissləri üzə çıxa bilərdi. Amma sonra ondan əvvəlki hakimiyyətin jurnalistləri gəldilər gördülər ki, onların kəndinin başında Azərbaycan əsgərləri oturublar və onlara baxırlar. Yavaş-yavaş başladılar bu mövzunu istismar etməyə. Sonra artıq bu, üzə çıxanda mən də dedim ki, indi açıqlama verin nə etmişik, qoy, hamı bilsin. Oraya çəkiliş qrupu da getdi, çəkilişlər etdi. Siz də orada olmusunuz, görmüsünüz.

Yəni, ikinci məqsəd Paşinyan üçün hər hansı bir qələbənin qazanılması idi. İyul hadisələrini onlar məhz belə planlaşdırmışdılar. Çünki onlar bilirdilər ki, bizim dövlət sərhədinin böyük hissəsində sərhəd qoşunları yerləşib. Bu da bizim niyyətimizi göstərir.

Onu göstərir ki, bizim artıq o sərhəddə ordu yox, sərhədin böyük hissəsində sərhədçilər yerləşir. Hesab edirlər ki, onlar rahatlıqla oradan keçib hansısa torpağı zəbt edə bilərlər. Ondan sonra belə raportlar verə bilərlər ki, onlar Azərbaycan torpağını işğal ediblər. Necə ki, onların müdafiə naziri demişdi ki, yeni ərazilər uğrunda yeni müharibə olacaq. O da təxribatın bir təzahürüdür. Amma o da alınmadı. Bir santimetr belə girə bilmədilər. Biz onlara sarsıdıcı zərbələr endirdik. O zərbələrin bəziləri internetdə göstərildi. Dəqiq atəşlə onların dayaq məntəqələri məhv edildi. Bir daha demək istəyirəm ki, artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur. Mənə gün ərzində dəfələrlə məlumat verilirdi. Mənim bir sözümlə Azərbaycan Ordusu keçib oturacaqdı Ermənistanın ərazisində. Amma getmədik. Biz məsuliyyətli ölkəyik. Bu, birincisi. İkincisi, bizim hələ ki, Ermənistan ərazisində hər hansı bir məqsədimiz yoxdur. Ancaq əgər bu təxribatlar davam etsə, əlbəttə ki, biz öz siyasətimizə yenidən baxacağıq.

Bu da alınmadı. İndi də onlar o məğlubiyyəti qələbə kimi qələmə vermək istəyirlər. Amma sual olunur, əgər bu, qələbədirsə, haradadır bu qələbə? Nədir onda bu qələbə? Bu, birincisi. İkincisi, əgər bu qələbədirsə, onda siz niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət edirsiniz? Niyə hay-küy qaldırırsınız? Niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını cəlb etmək istəyirsiniz? Hesab edirəm ki, onların təxribatının səbəblərindən biri məhz zondaj aparmaq idi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında onların müttəfiqlərinin reaksiyası nə olacaq? Çünki onlar yeni böyük müharibəyə hazırlaşırlar. Bizdə operativ kəşfiyyat məlumatı var. Biz bilirik ətrafımızda nələr baş verir. Bilirik və bilməliyik. Bizim xüsusi xidmət orqanları çox səmərəli işləyirlər. Bu qədər deyə bilərəm. Bundan artıq deyə bilmərəm. Ona görə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını, öz müttəfiqlərini bu işlərə cəlb etmək üçün zondaj aparılır. O da alınmadı. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı heç bir bəyanat da vermədi, bir şərh verdi. Ondan sonra gördülər ki, onların səyləri puça çıxdı və çəkildilər kənara. İndi yenə də əfsanələr uydururlar ki, onlar böyük qələbə qazanıblar. Amma reallıq bundan ibarətdir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təcavüzkar dövlətdir. Onların Azərbaycana, azərbaycanlılara qarşı olan nifrəti bax, bu çirkin siyasətdə də özünü göstərir. Bir daha demək istəyirəm və onlara xəbərdarlıq etmək istəyirəm ki, əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq.

**– Cənab Prezident, iyul ayında törədilən bu təxribat zamanı və ondan sonrakı dövrdə yerli və xarici mətbuatda Rusiya və Serbiyadan Ermənistana silah göndərilməsi barədə məlumatlar yayıldı. Bu məsələ ilə bağlı bir daha Sizin münasibətinizi öyrənmək istərdik.**

– Birincisi, bir daha demək istəyirəm ki, Ermənistan bizim üçün daim təhlükə mənbəyidir. Ona görə Ermənistanla əlaqədar olan bütün hadisələri biz izləməliyik və bilməliyik. Sual yarana bilər, biz haradan bilmişik ki, Serbiyadan və Rusiyadan onlara silahlar göndərildi. Xüsusilə Serbiyadan göndərildi. Bunu biz, əlbəttə ki, etibarlı mənbələrdən öyrənmişik. O ölkələrə bu məsələ ilə bağlı diplomatik kanallarla siqnallar göndərildi. Eyni zamanda, hər iki ölkənin prezidentləri ilə də mənim telefon söhbətim oldu və mən narahatlığımı ifadə etdim. Onu bildirdim ki, Azərbaycan cəmiyyətində bu, bir çox suallar doğurur. Xüsusilə bu yüklərin daşınmasının intensiv xarakter alması, eyni zamanda, toqquşmaların dayandırılmasından dərhal sonra baş verməsi və iyul ayından sentyabr ayına qədər davam etməsi. Artıq bu da faktdır. Ona görə məsuliyyətli ölkə kimi mən hesab etdim ki, bu məsələni mütləq aydınlaşdırmalıyam. Mən, ümumiyyətlə, hesab edirəm ki, əgər hansısa problem, sual, narahatlıq varsa, niyə biz bunu gizlətməliyik. Biz bunu dilə gətirməliyik və bunu da etdik. Telefon danışıqları ilə əlaqədar Prezidentin Mətbuat Xidməti müvafiq açıqlamalar dərc etdi. Hesab edirəm ki, oradakı məlumat kifayətdir.

Əlbəttə ki, bu, bizi çox narahat edir. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib. Ermənistan terrorizmə sponsorluq edən ölkədir. Silahların göndərilməsinin intensiv xarakter alması əlbəttə ki, bizi ciddi narahat edir. Çünki bu silahlar bizə qarşı istifadə olunur. Bu silahlarla bizim uşaqlarımız, insanlarımız vurulur, həlak olur. Ona görə bu məsələ, hər bir başqa məsələ kimi, diqqət mərkəzindədir. Biz bundan sonra da vəziyyətə nəzarət edəcəyik.

Söz düşmüşkən onu da bildirməliyəm ki, mən bu hadisələrdə Gürcüstan hökumətinin fəaliyyətini

yüksək qiymətləndirmək istəyirəm. Bilirsiniz ki, Gürcüstan öz ərazisindən Ermənistana silahların daşınmasına imkan vermədi. Məhz buna görə Xəzəryanı ölkələrin əraziləri və hava sahələri vasitəsilə yük təyyarələri Ermənistana silahlar daşıyır. Gürcüstan özünü çox etibarlı tərəfdaş kimi apardı. Ona görə mən Gürcüstan hökumətinə təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, Gürcüstan hökumətinin simasında biz etibarlı tərəfdaş və dost görürük. Hökumətlərarası əlaqələr gündən-günə möhkəmlənir. Bir çox önəmli layihələr icra edilir. Bu yaxınlarda bizim Xarici İşlər nazirimiz Gürcüstana rəsmi səfər edəcək. Bu, onun Xarici İşlər naziri kimi Gürcüstana ilk səfəri olacaq. İndi səfərin proqramı hazırlanır. Bir çox məsələlər var. Bizi həm tarixi əlaqələr bağlayır, həm ortaq maraqlar. Bu gün Gürcüstan və Azərbaycan arasındakı əlaqələr və inkişaf edən əməkdaşlıq hər iki ölkənin maraqlarına xidmət edir. Mən bir daha demək istəyirəm ki, Gürcüstan Hökuməti və Azərbaycan Hökuməti bir-birilə sıx təmasdadır və bu, davam edəcəkdir.

Ancaq o da həqiqətdir ki, Ermənistan və Gürcüstanda yaşayan ermənilər, eyni zamanda, gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan-Azərbaycan əlaqələrinə zərbə vursunlar. Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də dünya erməniliyidir. Onların əsas məqsədi Gürcüstan-Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar. Çünki yenə də deyirəm, biz etibarlı tərəfdaşıq və bütün məsələləri açıq şəkildə müzakirə edirik. Azərbaycan hər zaman Gürcüstanın yanında olub. Mən indi bu tarixi faktları sadalamaq istəmirəm. Ancaq Azərbaycan hər zaman Gürcüstanda inkişafın, rifahın, sabitliyin tərəfdarı olubdur. Amma baxın, Ermənistan özünü necə aparır? Gürcüstanda yaşayan bəzi yerli ermənilər Ermənistan rəhbərliyinin təhriki ilə orada qızışdırıcı fəaliyyətlə məşğuldurlar. Onlar separatizmə meyil göstərirlər. Orada altdan-altdan təxribat xarakterli işlər görürlər, ideoloji iş aparırlar. Amma Ermənistan Gürcüstana qarşı səmimi münasibət göstərir? Xeyr, göstərmir. Onlar gürcü kilsələrinə əsassız iddialar edirlər. Ermənilərin yaşadıqları bölgədə tarixi abidələri erməniləşdirirlər. Orada Gürcüstanın dövlət rəmzlərinə lazımi hörmət göstərmirlər. Eyni zamanda, Ermənistan BMT və digər beynəlxalq təşkilatlarda həmişə Gürcüstanın əleyhinə səs verib. Ərazi bütövlüyü məsələlərində həmişə Gürcüstanın əleyhinə olub. Necə ola bilər? Sən bu ölkənin ərazi bütövlüyünü tanımırsan. Eyni zamanda, əminəm, gürcü xalqı unutmayıb ki, Abxaziyada gedən müharibədə erməni Baqramyan batalyonu hansı vəhşilikləri törətmişdir, kimin tərəfindən vuruşub və bu gün kimin tərəfindədir? Abxaziyada yaşayan və hakimiyyətin artıq böyük hissəsini zəbt etmiş ermənilər. Azərbaycan isə bütün dövrlərdə Gürcüstanın yanında olub. Bütün beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyü ilə əlaqədar birmənalı mövqe göstərib və göstərəcəkdir. Fərq bundadır. Əlbəttə, bu gün Gürcüstan xalqı hesab edirəm ki, yaxşı bilir kim onun dostudur, kim onun düşmənidir.

**– Bildiyimiz kimi, Ermənistan bir sıra müsəlman ölkələri ilə sıx təmas qurmaq istiqamətində addımlar atır və bu, haqlı olaraq Azərbaycan ictimaiyyətində kəskin reaksiya doğurur. Hətta bu yaxınlarda Misir rəhbərliyi bu ölkədə səfərdə olan Ermənistanın xarici işlər nazirini də qəbul etdi. Bütün bunlar müsəlman həmrəyliyinə nə dərəcədə mənfi təsir göstərir?**

– Çox mənfi təsir edir. Azərbaycan ictimaiyyəti haqlı olaraq öz narahatlığını ifadə edir. Biz dövlət səviyyəsində də bu narahatlığı ifadə edirik. Bildiyiniz kimi, Azərbaycan İslam həmrəyliyi işində həmişə çox fəal olub, ölkəmizdə bir çox tədbirlər keçirilib. Biz həmişə çalışmışıq ki, müsəlman ölkələrinə kömək göstərək, beynəlxalq təşkilatlarda həmişə müsəlman ölkələrinin maraqlarını müdafiə etmişik, həm səsvermə zamanı, eyni zamanda, əgər hansısa beynəlxalq təşkilata müsəlman ölkəsi öz namizədliyini irəli sürübsə, həmişə onu dəstəkləmişik. Yəni, bu həmrəylik sözdə yox, əməldə olmalıdır. Biz o ölkələrdənik ki, əməldə İslam həmrəyliyinə daim öz xarici siyasətimizdə böyük yer ayırmışıq. Mənim xarici siyasət istiqamətləri ilə çıxışlarımda siz bunu görə bilərsiniz. Əsas prioritetlərdən biri müsəlman ölkələri ilə əlaqələrdir. Çünki biz müsəlman dünyasının bir hissəsiyik. Bizi BMT-də ən çox dəstəkləyən ölkələr də müsəlman ölkələridir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə düzgün mövqe sərgiləyir. Bir çox qətnamələr qəbul edilib. Tovuz təxribatı ilə əlaqədar da, həmçinin. Ona görə müsəlman ölkələrinin Ermənistanla hər hansı yaxınlaşmasına biz həmişə çox həssas yanaşırıq. Çünki Ermənistan bizim torpağımızı zəbt edib. Eyni zamanda, müsəlman ölkələri də bilməlidirlər ki, Ermənistan işğal edilmiş torpaqlarda müsəlman dini abidələrinə qarşı soyqırımı törədib. Baxın, bizim məscidlərimiz nə gündədir? Məgər müsəlman ölkələrində bilmirlər ki, ermənilər bizim yarıdağılmış məscidlərdə heyvan, donuz, inək saxlayırlar. Bu,

müsəlman aləminə edilən təhqir deyilmi? Ona görə hər bir müsəlman ölkəsinin rəsmi şəxsi erməni rəsmisinin Azərbaycan xalqının qanına batmış əlini sıxanda bu görüntüləri göz önünə gətirsin. Eyni zamanda, mənə verilən məlumata görə, Ermənistanın xarici işlər naziri Misirdə hansısa dini liderlə görüşüb. Yaxşı, o dini liderə deyən olmadı ki, bu adamlar müsəlman məscidlərini təhqir edib, bütün müsəlman dünyasını təhqir edib. Biz dəqiq bilirik, erməni rəsmiləri Avropada olarkən avropalıların yenə də bunlara münasibətinin müsbət olması üçün onların əsas arqumenti o olur ki, biz müsəlmanların əhatəsində yaşayırıq. Bizim üç qonşumuz müsəlman ölkələridir. Biz burada, bu bölgədə xristianlığı qoruyan xalqıq. Bizim ətrafımızda olan müsəlman ölkələri düşməndir. Bəli, Türkiyəni və Azərbaycanı Ermənistan düşmən sayır. Ancaq İranla əlaqələrində həmişə riyakarcasına dostluq haqqında danışır. Bəs necə ola bilər? Belə də dostluq olar? Müsəlman məscidlərini dağıdırsan, sökürsən, orada inək, donuz saxlayırsan, təhqir edirsən, müsəlmanların heysiyyətinə toxunursan, sonra isə gəlib deyirsən ki, biz dost olaq? Mən belə dostluğu başa düşmürəm. Mən dəfələrlə müsəlman ölkələrinin rəhbərlərinə həm ikitərəfli formatda, həm çoxtərəfli formatda, həm də rəsmi çıxışlarımda müraciət etmişəm və demişəm ki, onlar bu məsələni nəzərə alsınlar.

Yenə də deyirəm, Ermənistan sıradan olan ölkə deyil. Ermənistan o ölkədir ki, islamofobiya onların dövlət siyasətidir. Onlar uşaqları müsəlmanlara qarşı nifrət ruhunda yetişdirirlər, bu ideologiyanı uşaqlara aşılayırlar.

Ona görə biz öz prinsipial mövqeyimizdə qalacağıq. Bu məsələni həmişə diqqətdə saxlayacağıq. Bütün müsəlman ölkələrinin rəhbərlərinə bir daha demək istəyirəm, Ermənistan sizin dostunuz deyil. İkincisi, Ermənistanda hansı maraqlar ola bilər? Bu ölkə uğursuz ölkədir. Bunun bir beynəlxalq adı da var – “Fail state”. Uğursuz ölkədir. İqtisadiyyat çöküb, bazar məhdud, əhali azalır, hər hansı bir investisiya üçün cəlbedici deyil. Heç bir ölkəyə investisiya qoymur. Nəqliyyat dalanıdır bu ölkə. Hansı marağı ola bilər? Hansısa vəziyyətə görə, kiməsə acıq vermək üçün əgər belə addımlar atılırsa, bunlar ancaq təəssüf doğurur.

**– Ermənistanın Azərbaycana qarşı iyul ayında törətdiyi təxribatla bağlı Türkiyə birmənalı şəkildə haqlı mövqeyimizi müdafiə etdi və həmişə olduğu kimi, bu dəfə də Azərbaycanın yanında olduğunu bildirdi. Bundan sonra Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirildi və bu, Ermənistanda böyük qorxu, bəzi ölkələrdə isə narahatlıq doğurdu. Bununla bağlı nə deyə bilərsiniz?**

– İlk növbədə, mənim əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha təşəkkürümü bildirmək istəyirəm. Tovuz hadisələrindən sonra onun birmənalı, açıq və kəskin açıqlamaları bizi çox məmnun etdi, Azərbaycan xalqını sevindirdi. Bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, növbəti Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi. Eyni zamanda, digər rəsmi şəxslər – Türkiyə Böyük Millət Məclisinin sədri, Türkiyənin Müdafiə naziri, Xarici İşlər naziri, bizim digər qardaşlarımız Azərbaycana dəfələrlə həmrəylik, dəstək nümayiş etdirmişlər. Bu, bir daha onu göstərir ki, Türkiyə ədalətin, haqqın, öz qardaşlarının tərəfindədir. Biz də həmişə Türkiyənin yanındayıq və bütün məsələlərdə, – bunu artıq Türkiyədə də bilirlər, Azərbaycanda da bilirlər, dünyada da bilirlər, – Türkiyənin yanında olacağıq, bir yerdə olacağıq. Bizim birliyimiz böyük sərvətimizdir. Türkiyə ilə bizi ortaq tarix, ortaq etnik köklər, din, dil, mədəniyyət birləşdirir. Bu, böyük sərvətdir. Biz bu sərvətin təməli üzərində möhkəm əlaqələr qurmuşuq, bütün sahələrdə – siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəniyyət, hərbi sahələrdə. Məhz buna görə son vaxtlar bizim aramızda ticarət dövriyyəsi sürətlə artır. Azərbaycan xarici ölkələr arasında ən çox investisiyanı Türkiyəyə qoyub, Türkiyə də ən çox xarici investisiyanı Azərbaycana qoyub və bu proses davam etdirilir. İnsanlar arasındakı əlaqələr ən yüksək səviyyədədir. Ona görə bu hadisələr bir daha bu reallıqları bütün dünyaya göstərdi. Onsuz da həm Türkiyədə, həm də Azərbaycanda biz bunu bilirdik. Hər il bizim əlaqələrimiz möhkəmlənir, hər il bu ikitərəfli formata əlavə mövzular daxil edilir. Bu gün elə bir sahə yoxdur ki, biz orada birgə işləməyək və bir-birimizə dəstək göstərməyək.

O ki qaldı, təlimlərə, onu da deməliyəm ki, bu təlimlər müntəzəm olaraq keçirilir. Hər il Azərbaycan hərbçilərinin xarici ölkələrlə birgə keçiriləcək təlimlər planı təsdiq edilir. Bütün bu təlimlər plan əsasında həyata keçirilir. Deməliyəm ki, son illər ərzində Prezident Rəcəb Tayyib Ərdoğanın və mənim birgə göstərişimizlə təlimlərin sayı ciddi şəkildə artmışdır. Keçən il 10-dan çox birgə təlim keçirilmişdir, həm Türkiyədə, həm Azərbaycanda, o cümlədən “TurAz Qartalı” təlimi birinci dəfə keçirilmir. Hər zaman

"TurAz Qartalı" keçiriləndə Türkiyədən "F16"lar Azərbaycana gəlirdi və bizim təyyarələrlə, pilotlarımızla birlikdə birgə təlimlər keçirirdik. Naxçıvanda təlimlər keçirilmişdir və təlimlərin birində Türkiyənin Müdafiə naziri iştirak etmişdir. Yəni, burada qeyri-adi bir şey yoxdur. Bəli, bu, Tovuz hadisələrinə təsadüf edib. Bu, təsadüfidir, ya təsadüfi deyil Ermənistan özü baş çıxarsın. Amma bu təlimlər bir daha birliyimizi göstərir. Əlbəttə, Ermənistan rəhbəri də yaxşı bilir ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan istiqamətindən İrəvana təqribən 70-80 kilometr məsafə var. Bunu onlar bilirlər və bu, onları qorxuya salır. Hesab edirəm ki, onlar bu qorxudan psixoloji stress keçirirlər. Çünki bizdə olan məlumata görə, daha qapı qalmayıb döyməsinlər ki, vay bunlar təlim keçirirlər, biz necə olacağıq? Yəni, öz acizliyini, necə deyərlər, öz gücsüzlüyünü göstərməklə. Prinsip etibarilə, onların siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır. Artıq bu, insanların psixologiyasına da müdaxilə edilib. Bu da onu göstərir ki, bu ölkə müstəqil deyil, ləyaqətli siyasət apara bilmir, asılı vəziyyətdədir. Ona-buna nökərlik etmək heç kimə, necə deyərlər, yaraşıq gətirmir. Müstəqillik Ermənistanda formal xarakter daşıyır. Sən necə müstəqil ölkəsən ki, öz qərarını qəbul edə bilmirsən. Necə müstəqil ölkəsən ki, səni idarə edən Sorosdur. Paşinyan Soros rejiminin məhsuludur. Bu gün Ermənistanda söz sahibi Sorosdur. Baxın, Paşinyanın hakimiyyət komandasının tərcümeyi-halına. Hamısı ya Sorosdan, ya "Transperensy"dən, ya da ki, o biri insan hüquqları təşkilatlarındandır. Onlar bu gün Ermənistanda baş vermiş despotik hərəkətlərə göz yumurlar. Ermənistanda bir jurnalist aclıq edib həbsxanada ölüb, heç bir təşkilat məsələ qaldırmayıb. İndi Ermənistanda iki prezident məsuliyyətə cəlb edilib, cinayət işi açılıb, iki keçmiş prezident, sırf onların siyasi fəaliyyətlərinə görə, bunu hər kəs bilir, buna göz yumulur. Əsas müxalifət partiyasının liderinin deputat toxunulmazlığı götürülüb, buna heç bir reaksiya vermirlər. Avropa Şurası niyə susur? Ermənistan üzrə məruzəçilər niyə susurlar? "Freedom House", "Human Rights Watch", "Amnesty International" niyə susur? Sorosa görə. Soros Ermənistanın başçısıdır. Soros həmin bu dırnaqarası hüquq müdafiəsi təşkilatlarının sponsorudur. Onların sponsoru birdir.

Beləliklə, bu təlimlərə qayıdarkən bir daha demək istəyirəm ki, təlimlər keçirilir və nə qədər lazımdır keçiriləcək. Bu təlimlər bizə lazımdır, Türkiyəyə lazımdır, regional sabitliyə lazımdır. Çünki Ermənistan regional sabitlik üçün təhdiddir. Ermənistan Türkiyəyə qarşı ərazi iddiası irəli sürüb. Onların konstitusiyasında bu, öz əksini tapıb, təsbit edilibdir. Ermənistan indi Sevr müqaviləsini canlandırmaq istəyir. Halbuki ağlı başında olan hər bir tarixçi, siyasətçi qətiyyən buna imkan verməz. Çünki onların sonu olacaq. İndi sən burada səfalət içində, özü də özünə aid olmayan yerlərdə dövlət qurmuş balaca bir ölkə Türkiyə boyda ölkəyə qarşı necə iddia qaldıra bilərsən, necə ittiham edə bilərsən. Sən heç olmasa öz potensialına və Türkiyənin potensialına bax. Amma onların Azərbaycana və Türkiyəyə, bizim xalqımıza olan nifrəti, o irrasional düşüncəni, necə deyərlər, təhlükəli məcraya istiqamətləndirir.

Beləliklə, bizim Türkiyə ilə sıx əlaqələrimiz bundan sonra da inkişaf edəcək – ulu öndər Heydər Əliyev demişkən, "Bir millət, iki dövlət" prinsipi əsasında. Bütün məsələlərdə bir yerdəyik, hər bir məsələdə bir-birimizin yanındayıq.

**– Cənab Prezident, Siz "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində qeyd etmişdiniz ki, "necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq". Əminik ki, o gün uzaqda deyil.**

– Bəli, biz mütləq öz torpaqlarımıza qayıdacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. 1990-cı illərin əvvəllərində, o vaxt Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz Dağlıq Qarabağı müvəqqəti olaraq itirdik. Mən bugünkü müsahibədə müstəqilliyə qədər bəzi məqamları dilə gətirdim ki, Azərbaycan ictimaiyyəti bu hadisələri unutmasın, gənc nəsil də bunu bilsin. Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Sağ olun.

# 05 avqust 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib



Cari ilin avqust ayının 5-də prokurorluq orqanları tərəfindən 2020-ci ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və tabe qurumların müşavirələrində müzakirəsinin nəticələrinə həsr olunmuş videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Əməliyyat müşavirəsində məruzə ilə çıxış edən Baş prokuror Kamran Əliyev bildirmişdir ki, beynəlxalq müstəvidə müşahidə olunan geosiyasi və geoiqtisadi mənzərənin mürəkkəbliyinə baxmayaraq, ümummilli lider Heydər Əliyevin gələcək nəsillərə miras qoyduğu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün tələblərinə uğurla transformasiya edilmiş zəngin dövlətçilik ənənələrinin ölkə həyatının hər bir sahəsinə sistemli şəkildə tətbiqi nəticəsində bu gün müasir Azərbaycan zamanın bütün aktuallıqları ilə ayaqlaşmaqdadır. Başlıca qayəsi əhalinin ümumi rifahına hesablanmaqla çeviklik, şəffaflıq və səmərəlilik prinsipləri üzərində bərqərar olunmuş bu ənənələr milli dövlət idarəçiliyində aparılan islahatlara adekvat yanaşmanı təmin etməklə yanaşı, tarixi təcrübə ilə günün tələblərinin vəhdətini təşkil etməkdədir.

Vurğulanmışdır ki, istinad edilən bu müsbət tendensiya bəşəriyyətin mübarizəsinə səfərbər olduğu COVİD-19 virusunun yayıldığı 2020-ci ilin birinci yarımilində də səngiməmiş, əksinə yüksələn xətt üzrə inkişaf edərək ölkəmizin ictimai-siyasi həyatındakı əsas istiqamətlərdə daha aydın şəkildə təcəssüm edilmişdir. Pandemiya ilə əlaqədar tətbiq edilmiş xüsusi karantin rejimi günlərində vətəndaşların Konstitusiya ilə təsbit edilmiş sağlamlığın qorunması hüququ etibarlı şəkildə təmin edilmiş, dövlətimizin başçısı ilə yanaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın öz müraciətləri və əməli tədbirləri ilə nümayiş etdirdiyi həmrəylik, diqqət və qayğı xalqımızda qürur və sağlam gələcəyə inam hissi aşılamaqla, cəmiyyətimizi ümumbəşəri hal almış bu bəla ilə mübarizədə sıx birləşdirmişdir. Bu müddət ərzində koronavirus pandemiyası şəraitinin milli iqtisadiyyata təsiri ölçülməklə dərhal çevik dəstək proqramları həyata keçirilmiş, aztəminatlı vətəndaşlara və sahibkarlıq subyektlərinə münasibətdə dövlət dəstəyinin daha da artırılması üçün maddi yardım, vergi güzəştləri, güzəştli kreditlərin verilməsi və digər bu kimi stimullaşdırıcı alətlərdən istifadə edilmişdir.

Müşavirədə xüsusi qeyd edilmişdir ki, ötən dövr milli tariximizin qızıl yaddaşına əhalinin sağlamlığının etibarlı mühafizəsi kimi həssas məsələ ilə yanaşı, Konstitusiyamızın digər ümdə vəzifəsi olan dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün etibarlı şəkildə qorunması ilə də həkk olunmuşdur. Belə ki, son 5 ildə üçüncü dəfə Ermənistan təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq ölkəmizə qarşı yönəltdiyi açıq qəsdlər Ali Baş Komandanın rəhbərliyi, xalqın güclü dəstəyi, qüdrətli milli ordumuzun peşəkarlığı, o cümlədən ölməz şəhidlərimizin şücaəti nəticəsində növbəti kəs dəf edilmiş,




təcavüzkar düşmənə yetirilən kəskin əks həmlələr silahlı qüvvələrimizin qələbəsi və qarşı tərəfin təslimiyyətçi bəyanatlar verərək geri çəkilməsi ilə nəticələnmişdir.

Çıxışında həmçinin, diqqəti hüquqi dövlətin demokratiya və hüququn aliliyi prinsiplərinin təmininə yönəldən Baş prokuror məhz bu dəyərlərin əsas atributlarından hesab edilən qanunverici orqana – Milli Məclisə cari ilin 9 fevral tarixində keçirilmiş növbədənkənar seçkilərdə çoxsaylı namizəd, siyasi partiya, təşəbbüs qrupları və müşahidəçilərin iştirakını Azərbaycanda siyasi plüralizmin sarsılmaz sütunlar üzərində durmasının növbəti bariz nümunəsi olduğunu qeyd etmişdir.

Geniş Əməliyyat Müşavirəsindəki məruzəsində ölkənin ictimai-siyasi həyatında əldə edilən nailiyyətlərdə müxtəlif strateji amillərlə yanaşı, digər mühüm prioritet sahə olan cinayətkarlığa qarşı mübarizənin də önəmli payı olduğunu qeyd edən Baş prokuror Kamran Əliyev 2020-ci ilin birinci yarımilində prokurorluq orqanları tərəfindən digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərinə qarşı mübarizənin daha da gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi, habelə "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş digər fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması istiqamətində genişmiqyaslı islahatların keçirildiyini bildirmişdir.

Diqqətə çatdırılmışdır ki, Prokurorluqda aparılan islahatlar hesabat dövründə yeni məzmunda davam etdirilmiş, mövcud olan çatışmazlıqların təxirəsalınmadan aradan qaldırılması istiqamətində bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Belə ki, 1 may 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Kamran Əliyevi Baş prokuror vəzifəsinə təyin edilməsi ilə əlaqədar videoformatda qəbulu zamanı bu mühüm dövlət qurumuna korrupsiyaya qarşı daha fəal iş görülməsini, struktur və kadr islahatları aparmaqla yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşdırılmasını tövsiyə etməsi, eləcə də aktual mövzu ətrafında vurğuladığı digər vacib məqamlar Prokurorluq orqanlarınında cari islahatların ilkin mərhələsinin təməlini qoymuşdur.

Bildirilmişdir ki, həmin tövsiyələrdən irəli gələn vəzifələrin icrası məqsədilə 2020-ci il may ayının

12-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilərək, “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair tövsiyələrinin icrası üzrə 2020-ci il üçün Fəaliyyət Planı” təsdiq olunmuş, prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılmış, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan islahatların reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Aparılan islahatlar çərçivəsində prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvatlaşdırılması, işində çevikliyin və səmərəliliyin artırılması, o cümlədən müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə Prezident cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, qurumun strukturu qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mahiyyətcə tamamilə yenidən formalaşdırılmış, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılaraq struktur qurumların sayı 15-dən 18-ə çatdırılmış, habelə idarəetmədə nəzarət mexanizminin optimallaşdırıması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmişdir.

Yeni strukturla Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılmışdır. Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların əsasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilmiş, eləcə də mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasının Baş Prokurorluğunun yeni strukturuna uyğunlaşmanı təmin etmək məqsədilə Hərbi Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Bakı şəhər prokurorluğunun və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin də müasir çağırışlara cavab verən yeni strukturları təsdiq edilərək bəzi idarə və şöbələr ləğv edilməklə müasir tələblərə uyğun yeni struktur vahidləri yaradılmış, Respublika Hərbi prokurorunun əlavə müavini vəzifəsi təsis edilmişdir.

Qeyd edilmişdir ki, görülən işlərə paralel surətdə kadr korpusunun yenidən komplektləşdirilməsi istiqamətində işlərə də start verilmiş, 2020-ci il may ayının 1-dən cari tarixədək struktur dəyişikliyi və təyinatlar, həmçinin sair məsələlərlə bağlı 703 əmr imzalanmış, 114 nəfər prokurorluq işçisi rəhbər vəzifələrə təyin olunmuşdur.

Dövlətimiz tərəfindən həyata keçirilən gender bərabərliyi siyasətinin uğurlu davamı kimi prokurorluq orqanlarının kadr korpusunun 7 faizini təşkil edən qadın əməkdaşların 8 nəfəri bu qısa müddət ərzində rəhbər vəzifələrə – Baş Prokurorluğun idarə və şöbə rəisi, rayon prokuroru və rayon prokurorunun müavini vəzifələrinə təyin edilmişlər.

O cümlədən müşavirədə diqqətə çatdırılmışdır ki, son 3 ay ərzində aparılan islahatların nəticəsi olaraq 45 prokurorluq işçisi rayon (şəhər) və ərazi hərbi prokuroru vəzifəsinə təyin olunmuş, onlardan 27-si orta yaş hədləri 40 olmaqla ilk dəfə, 16-sı təkrar, 2-i isə ikinci səlahiyyət müddətinə prokuror vəzifəsinə təyin olunmuşdur. Eləcə də, Baş Prokurorluğun 18 idarə və şöbəsindən 15-nin rəisləri dəyişilmiş, onlardan 7 prokurorluq işçisi ilk dəfə olaraq idarə və şöbə rəisi vəzifəsinə təyin olunmuşdur. Bununla yanaşı, Baş Prokurorluğun idarə və şöbələrinin rəis müavinləri vəzifələrində də dəyişikliklər aparılaraq orta yaş həddi 36 olmaqla 11 prokurorluq işçisi idarə və şöbə rəisinin müavini vəzifəsinə təyin olunmuşdur.

Bundan başqa, ümumilikdə 14 rayon və şəhər prokurorunun müavinləri dəyişilərək, müasir çağırışlara cavab verən və yüksək peşəkarlıqları ilə seçilən prokurorluq işçiləri hesabına komplektləşdirilmişdir.

Baş prokuror Kamran Əliyev Əməliyyat Müşavirəsindəki çıxışında prokurorluğun fəaliyyətini tənzimləyən, icrası prokurorluq işçiləri üçün məcburi olan əmr, sərəncam, göstəriş və digər aktlarla bağlı məsələlərə də toxunmuşdur. Bildirilmişdir ki, idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, eləcə də struktur qurumlarla rayon (şəhər) prokurorluqları arasında münasibətlərin tənzimlənməsi kimi ayrı-ayrı sferaların tənzimlənməsini müasir tələblər səviyyəsində təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 20 iyun 2020-ci il tarixli Sərəncamla təşkil edilmiş İşçi qrup tərəfindən Baş Prokurorluğun

"İşin Təşkili Qaydaları"nın layihəsi hazırlanaraq, bütün struktur qurumlarda geniş müzakirəsi keçirilmiş, irəli sürülən təkliflər nəzərə alınmaqla təkmilləşdirilmişdir.

Müzakirələrin nəticəsi olaraq, Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında "İşin Təşkili Qaydaları" təsdiq olunmuş və 01 avqust 2020-ci il tarixdən etibarən bütün prokurorluq orqanlarında qüvvəyə minmiş, həmin qaydaların qüvvəyə minməsi ilə əlaqədar, qurum üzrə 100-dən artıq əmr və normativ xarakterli digər hüquqi sənədlər tam və ya qismən ləğv olunmuşdur.

Əlavə edilmişdir ki, hazırda bu Qaydaların tələbləri rəhbər tutulmaqla, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi və Bakı şəhər prokurorluqlarında da "İşin Təşkili Qaydaları"nın hazırlanması prosesi davam etdirilməklə, ləğv olunmalı normativ sənədlərin siyahısı müəyyənləşdirilir.

Bundan başqa, Müşavirədə Baş Prokurorluğun Kollegiyasının keçirilmə formasının dəyişdirilməsi barədə məlumat verilmiş, hüquqi statusunun prokurorluqda idarəçiliyin cavabdehlik, hesabatlılıq və məsuliyyətlilik dəyərlərini özündə əks etdirən kollegial orqan kimi təsbit edildiyi diqqətə çatdırılmışdır. Bununla yanaşı vurğulanmışdır ki, ilk dəfə Baş Prokurorluğun struktur qurumu olmayan, konkret vəzifələrin icrasını həyata keçirən, prokurorluq sistemində özünüidarə etmə funksiyasını yerinə yetirən ad hoc qurumlar olan Müsabiqə Komissiyası, İntizam Komissiyası, Etik Davranış Komissiyası və Əmək Məsələləri Komissiyasının üzvlüyünə namizədlər də məhz Baş Prokurorluğun Kollegiyasında müəyyən olunmuş, hazırda isə Elmi-Məsləhət Şurasının, Attestasiya Komissiyasının fəaliyyətinin təşkili üçün zəruri tədbirlər həyata keçirilir.

Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsi, fəaliyyət istiqamətləri üzrə iş keyfiyyətinin yüksəldilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, eləcə də prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə kadr korpusunun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir.

Baş prokuror Kamran Əliyev Prokurorluqda aparılan mütərəqqi islahatların gedişi ilə bağlı ümumi vəziyyəti müşavirə iştirakçıları ilə tanış etdikdən sonra qurumun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etmiş, hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, əhalinin hər 100 min nəfərinə düşən 132 cinayətin sayına görə ölkəmizin MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olduğunu qeyd etmişdir.

Bildirilmişdir ki, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq, cinayətkarlığın dinamikasında və strukturunda müşahidə edilən müsbət göstəricilər hesabat dövründə də davam etmiş, 2020-ci ilin birinci yarımilində əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 13 min 310 cinayət qeydə alınmışdır. Bu cinayətlərin 86,5 %-i böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,5%-i ağır və xüsusilə ağır növlər təşkil etmişdir.

Həyata keçirilən məqsədyönlü və qabaqlayıcı tədbirlər nəticəsində qəsdən adam öldürmə, qəsdən sağlamlığa az ağır zərər vurma, dələduzluq, mənimsəmə və israf etmə, avtonəqliyyatın qaçırılması, xuliqanlıq, ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı azalmış, cinayətlərin açılması 82,1% təşkil etmişdir.

Daxili işlər orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 241 cinayətin açılması təmin edilmiş, 103 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Hesabat dövründə 2019-cu ilin birinci yarımili ilə müqayisədə 5 hadisə azalmaqla 78 qəsdən adam öldürmə cinayətləri qeydə alınmışdır.

Artım tendensiyası müşahidə edilən cinayətlər qəsdən sağlamlığa ağır zərər vurma 13,6 faiz, zorlama 57 faiz, narkotik vasitələrin qanunsuz dövriyyəsi 17,5 faiz, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması 15,4 faiz, soyğunçuluq 4,8 faiz, quldurluq 4,2 faiz, oğurluq isə 1,3 faiz artmışdır ki, bu tendensiyanın səbəbləri təhlil edilməklə qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi təmin ediləcəkdir.

Ümumilikdə ölkə üzrə cəmi 6.933 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 827-si prokurorluq orqanlarında istintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 349, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 5.070 cinayət işinin it-

tiham aktları ilə məhkəmələrə göndərilməsi təmin edilmiş, prokurorluq orqanlarında 478, ümumilikdə isə 1.863 cinayət işinin icraatına xitam verilmişdir.

Respublika üzrə qeydə alınmış cinayət işləri üzrə ümumilikdə 87 milyon 691 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 52,2 faizinin, yəni 46 milyon manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Qeyd edilmişdir ki, Prokurorluğun digər fəaliyyət istiqaməti kimi korrupsiya, rüşvətxorluğa qarşı mübarizə hesabat dövründə də davam etdirilərək, ixtisaslaşdırılmış prokurorluq orqanı olan Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən vətəndaşların 3927 müraciətinə baxılmış, həmçinin 123 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 96-sı (78 %) üzrə cinayət işi başlanmış, 27 (22 %) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə bir sıra vəzifəli şəxslər intizam məsuliyyətinə cəlb edilmişdir.

2020-ci ilin I yarımili ərzində “161-Qaynar xətt” əlaqə mərkəzi vasitəsi ilə korrupsiya hüquqpozmaları barədə Baş idarəyə 2123 müraciət daxil olmuş, həmin müraciətlərin 22-si üzrə Baş İdarədə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra etmiş, keçirilən əməliyyat tədbirləri nəticəsində 27 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 22 cinayət işi başlanmışdır. Baş İdarənin əməliyyat qurumları tərəfindən korrupsiya riskləri aşkarlanan, o cümlədən gömrük, vergi, sosial müdafiə və digər aktual sahələr üzrə həssas nöqtələr müəyyən edilərək birbaşa və aidiyyəti dövlət qurumları ilə birgə şəkildə əməliyyat-axtarış tədbirləri keçirilmişdir.

2020-ci ilin ilk altı ayı ərzində Baş İdarədə 129 şəxs barəsində 91 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 15 şəxs barəsində 15 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 29 şəxs barəsində 24 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 7 şəxs barəsində 4 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 10 şəxs barəsində 6 iş rüşvət alma (passiv rüşvətxorluq), 32 şəxs barəsində 19 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər faktlarla əlaqədar olmuşdur.

Baş İdarə tərəfindən məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 42 milyon 197 min manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 18 milyon 669 min manatın ödənilməsi təmin edilmiş, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 1 milyon 113 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmuş, ümumilikdə vurulmuş maddi ziyanın 46,9 %-nin ödənilməsi təmin edilmişdir.

2020-ci ilin birinci yarımili ərzində Baş İdarə korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, bu sahədə digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir.

Diqqətə çatdırılmışdır ki, hesabat dövründə Baş Prokurorluğun İstintaq İdarəsində Respublikada böyük ictimai rezonansa səbəb olan dövlətin konstitusiya quruluşunun əsaslarının sarsıdılmasına yönələn əməllərin və digər cinayətlərin istintaqı müvəffəqiyyətlə aparılmışdır.

Qeyd edilmişdir ki, İdarə tərəfindən cari ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhəri, Parlament prospektində, Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasında bir qrup şəxs tərəfindən ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan əməllərin təşkil edilərək törədilməsi, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər, hakimiyyət nümayəndələrinə zor tətbiq olunması, özgə əmlakının qəsdən məhv edilməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyən edilərək istintaqa cəlb edilməsi istiqamətində Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Həmçinin müşavirədə qeyd edilmişdir ki, cari ilin iyul ayı ərzində Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejimi kobud şəkildə pozularaq müharibə hüququnun əsas prinsiplərinə zidd olaraq qəsdən mülki əhalinin sıx yaşadığı

ərazilər hədəfə alınıb atəşə tutulmaqla onlara qarşı müxtəlif cinayətlər törədilmiş və ümumilikdə mülki əhaliyə mühum ziyan dəymişdir.

Bununla bağlı Baş Prokuror Kamran Əliyev mülki əhaliyə məxsus əmlaka dəymiş ziyanın müəyyən edilməsindən ötrü zəruri tədbirlərin təmin edilməsi və gələcəkdə zərərçəkmiş şəxslərin beynəlxalq təşkilatlar qarşısında pozulmuş hüquqlarının bərpa edilməsi üçün əməli köməklik göstərilməsi barədə tapşırıq vermişdir.

Bununla yanaşı müşavirədə bildirilmişdir ki, hesabat dövründə tabe rayon (şəhər) prokurorluqlarının fəaliyyətində də qənaətbəxş nəticələr əldə olunmuş, belə ki, 2020-ci ilin birinci yarımilində qeydə alınmış 78 qəsdən adam öldürmə cinayətlərindən 76 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş, əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 19 hadisənin isti izlərlə açılması təmin olunaraq, həmin cinayətlərin açılması 97,43 % təşkil etmişdir. Hazırda bağlı qalmış 2 cinayət işi üzrə tam və hərtərəfli araşdırma aparılmaqla təqsirli şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

2020-ci ilin I yarımili ərzində Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə birinci instansiya məhkəmələrində 4499 şəxs barəsində 3973, apelyasiya instansiyası məhkəmələrində 1390 şəxs barəsində 1181, kassasiya instansiyası məhkəməsində 667 şəxs barəsində 572 (bütün instansiya məhkəmələri üzrə cəmi 6556 şəxs barəsində 5726 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmişdir.

Hesabat dövründə vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, prokurorluq orqanları tərəfindən ümumilikdə 11.011 nəfər, o cümlədən Baş Prokurorluqda 1.106 vətəndaş qəbul edilərək müraciətlərinə qanunvericiliyin tələblərinə müvafiq qaydada baxılaraq həll edilmişdir.

Müasir tələblər reallığında ilk növbədə prokurorluq orqanlarında vətəndaş məmnunluğunun təmini, daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə Baş Prokurorluqda yaradılmış "961 Çağrı Mərkəzi"ndə hesabat dövründə 442 müraciət qeydə alınaraq, onlardan 86-sı təmin, 59-u rədd edilmiş, 174 müraciət müəllifinə izah verilmiş, 21 müraciət cinayət işi materiallarına əlavə olunmuş, 76-sı aidiyyəti üzrə göndərilmiş, 26 müraciət növbəti hesabat dövrünə qalıq qalmışdır.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 6 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilmişdir.

Ötən müddət ərzində Baş Prokurorluğun fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə məsələlərinin xüsusi əhəmiyyəti nəzərə alınmaqla Mətbuat xidmətinin işi daha da təkmilləşdirilmiş, verilən informasiyanın daha çox oxucu kütləsinə çatdırılmasının təmin edilməsi məqsədi ilə qurumun sosial şəbəkələrdə rəsmi səhifələri açılmışdır.

Nəzərə çatdırılmışdır ki, müasirləşən informasiya axarına qoşulmaq məqsədilə Baş Prokurorluğun yeni veb-saytı ictimaiyyətin istifadəsinə verilmiş, müasir standartlara cavab verən sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar baxımından əsaslı şəkildə yenilənmişdir.

Eyni zamanda qeyd edilmişdir ki, koronavirus infeksiyasının respublikamızın ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prokurorluğu da Nazirlər Kabineti yanında Operativ Qərargahla əlaqəli şəkildə qarşıya qoyulan vəzifələrin icrasında müntəzəm surətdə iştirak etməkdədir.

Ötən dövr ərzində Şirvan və Naftalan şəhərlərində, Yevlax, Masallı, Goranboy, Hacıqabul, Göygöl və digər rayonlarda koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması tədbirlərinə zidd olaraq qanunsuz hərəkətlərə, aztəminatlı ailələrə ayrılmış yardım paylarının mənimsənilməsi, təyinatından kənar və ya ədalətsiz bölüşdürülməsi, yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin və müalicə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən xüsusi karantin rejimində sərbəst hərəkət hüququ verən cəmi 802 arayışın, tibbi göndəriş vərəqələrinin verilməsi, koronavirus xəstəliyinə tutulmuş şəxslər və digərləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimi qaydalarının pozulması, xuliqanlıq, hakimiyyət nümayəndələrinə müqavimət göstərilməsi və sair əməllərə yol vermiş şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq

maddələri ilə prokurorluq orqanlarında 32, daxili işlər orqanlarında isə 30 olmaqla cəmi 62 cinayət işi başlanaraq, 45 nəfər barəsində həbs, 6 nəfər barəsində polisin nəzarəti altına vermə, 2 nəfər barəsində isə başqa yerə getməmək haqqında iltizam qətimkan tədbirləri seçilmiş, 13 nəfər barəsində 7 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 1 iş üzrə 3 şəxs barəsində ittiham hökmü çıxarılmışdır.

Həmçinin, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimi qaydalarını pozan şəxslərə qarşı inzibati xətalar haqqında işlər üzrə icraatlar başlanmaqla, qanunsuz olaraq toplantılar keçirmə, 8103 qısa SMS xidmətinə müraciət etmədən icazəsiz yaşayış yerlərini tərk etmə və digər pozuntulara yol verdiklərinə görə rayon (şəhər) məhkəmələrinin qərarları ilə 7 nəfər barəsində uzunmüddətli inzibati həbs və cərimə tənbehləri seçilmişdir.

Eyni zamanda, hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən də COVİD-19 pandemiyası ilə əlaqədar dövlət səviyyəsində həyata keçirilən sistemli tədbirlərdən sui-istifadə edən vəzifəli şəxslərə, kölgə iqtisadiyyatı subyektlərinə, o cümlədən qara mühasibatlıq aparmaqla dövlət nəzarətindən və qeydiyyatından gizli şəkildə qanunsuz fəaliyyət göstərən möhtəkirlərə qarşı effektiv mübarizə tədbirləri aparılmışdır. Müəyyən edilmişdir ki, ötən yarımildə vətəndaşlar tərəfindən Baş İdarəyə analoji hallarla əlaqədar daxil olmuş müraciətlərin 100-ü birdəfəlik müavinətin verilməsi ilə bağlı süründürməçilik, 13-ü vətəndaşların xəbəri olmadan adlarına sosial müavinətlərin və digər ödənişlərin köçürülməsinin aşkar edilməsi, 175-i dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının əhaliyə çatdırılmasına məsul olan vəzifəli şəxslərin qanunsuz hərəkətləri, 5-i qanunsuz olaraq sərbəst hərəkət edilməsi ilə bağlı arayışların verilməsi, o cümlədən bununla əlaqədar rüşvət tələb edilməsi, digərləri isə sahibkarlıq subyektlərinin xüsusi karantin rejimi qaydalarını pozması və cari vəziyyətdən sui-istifadə etmə halları ilə əlaqədar olmuşdur.

Qeyd olunan müraciətlərə baxılarkən onların müəyyən qismi müsbət həll edilərək vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, bir sıra hallarda cinayət işi başlanmış, digərləri nəzarətdə saxlanılmaqla baxılıb hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə səlahiyyətli dövlət qurumlarına göndərilmişdir.

Bundan başqa, sosial şəbəkələrdə dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə kölgə salan 23 təxribat xarakterli informasiya məhsulunun yayılması faktları aşkarlanmaqla, həqiqəti əks etdirməyən məlumatları ictimailəşdirən şəxslərə xəbərdarlıq edilmişdir.

Diqqətə çatdırılmışdır ki, hesabat dövründə xidməti fəaliyyətlərində qanun pozuntusu hallarına yol vermiş 10 prokurorluq işçisi barədə xidməti yoxlamalar aparılaraq, intizam məsuliyyətinə cəlb olunmuşlar. Onlardan 3 nəfərə töhmət, 1 nəfərə şiddətli töhmət verilmiş, 5 nəfər vəzifədən azad edilmiş, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilmişdir.

Əməliyyat müşavirəsində Baş Prokurorluğun 2020-2023-cü illər ərzində strateji inkişaf konsepsiyasının hazırlanması, Baş prokurorun qanunvericilik təşəbbüsündən geniş istifadə olunması, sosial sahədə olan problemlər araşdırılaraq ölkə Prezidentinə məlumatların verilməsi, kadrların peşəkarlığının artırılması, səriştəli kadrların prokurorluqda işə cəlb olunmasına üstünlük verilməsi, prokurorluq işçiləri tərəfindən tez-tez yol verilən pozuntuların müəyyənləşdirilərək aradan qaldırılması üçün tədbirlərin görülməsi, uğurlu iş təcrübəsinin müəyyən olunması və digər istiqamətlərdə konkret tapşırıqlar verilmişdir.

Bundan əlavə, əməliyyat müşavirəsində Baş Prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini Heydər Məmmədov, Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Təşkilat və İcraya nəzarət idarəsinin rəisi Elşən Abbasov, Zəngilan rayon prokuroru Lalə Hüseynova, Qazax rayon prokuroru Rauf Gözəlov və Tovuz rayon prokuroru Elçin Qəhrəmanov da mövzu ətrafında və aktual məsələlərə dair çıxışlar etmişlər, həmçinin müşavirənin digər iştirakçıları tərəfindən faydalı müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Müşavirənin sonunda əminlik ifadə olunmuşdur ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, 2020-ci ildə də öz səlahiyyət hədləri daxilində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda əməliyyat müşavirəsi keçirilmişdir.

24 iyul 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 2020-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev, xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik siyasətini davam etdirən, Azərbaycanın sürətli inkişaf strategiyasını uğurla həyata keçirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi, mədəni və digər sahələrdə əldə olunmuş nailiyyətlərdən bəhs edərək, ölkədə aparılan islahatlar və mütərəqqi dəyişikliklər nəticəsində dövlətimizin daha da qüdrətlənməsini bildirmişdir. Eyni zamanda, Baş Prokuror dövlətimizin güclənərək əldə etdiyi uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolunu qeyd etməklə, Azərbaycanla beynəlxalq təşkilatlar arasında qarşılıqlı faydalı əlaqələrin yaranması, milli-mənəvi dəyərlərimizin, o cümlədən mədəniyyətimizin bütün dünyaya tanıdılmasında misilsiz xidmətlərini xüsusi vurğulamışdır.

Həmçinin, Baş prokuror mayın 1-də Prezident cənab İlham Əliyevin videoformatda qəbulu zamanı verdiyi tapşırıq və tövsiyələri, bununla əlaqədar qarşıda duran vəzifələrin icrasını, o cümlədən prokurorluq orqanlarında həyata keçirilən səmərəli islahatları qeyd edərək, bu prosesin uğurlu davam etdirildiyini bildirmişdir.

Bundan sonra, hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev göstərmişdir ki, ötən dövrlərdə olduğu kimi, 2020-ci ilin birinci yarımilində də Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmuş, görülmüş məqsədyönlü tədbirlərin nəticəsində qeydə alınmış cinayətlərin 99,5 faizi açılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi və bununla əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığının təmin edilməsi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması məqsədilə aidiyyatı dövlət qurumları ilə birgə bir sıra işlər görülmüş, nəticədə qeydə alınmış cinayətlər ötən ilin eyni dövrü ilə müqayisədə ümumilikdə 37% azalmışdır.

Vurğulanmışdır ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılmasının səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli iş aparılmaqla, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində tədbirlər görülmüşdür. Çıxışının sonunda Xanlar Vəliyev bildirmişdir ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev, prokurorluq orqanları əməkdaşlarının möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlərdə və həyata keçirilən məhkəmə-hüquq islahatlarında yaxından iştirak edəcəklərini, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını diqqətə çatdırmışdır.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2020-ci ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib

İyul ayının 29-da Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2020-ci ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq qeyd etdi ki, Azərbaycan Respublikası yenidən dövlət müstəqilliyini əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və ictimai-siyasi həyatın bütün sahələrində respublikanın ardıcıl və sürətli inkişafına zəmin yaradan köklü və əsaslı islahatlar həyata keçirilib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda onun layiqli davamçısı dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət nəticəsində uğurla davam etdirilən dövlət quruculuğu konsepsiyasının reallaşdırılması respublikamızın dünya miqyasında surətlə inkişaf edən, regionda aparıcı mövqeyə malik və ümumbəşəri demokratik dəyərlərə mühüm əhəmiyyət verən bir dövlətə çevrilib.

Azərbaycan Respublikasının dinamik və hərtərəfli inkişafında Naxçıvan Muxtar Respublikasının öz yeri və rolu vardır. Ötən illər ərzində Muxtar Respublikada çox böyük nailiyyətlər əldə olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn ildə də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır" dəyərli fikirləri ilə Naxçıvan Muxtar Respublikası rəhbərinin əməyinə yüksək qiymət verməsi bizim hər birimizin üzərinə daha da yaxşı işləmək vəzifəsi qoyub.

21 iyul 2020-ci il tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsində "İqtisadi inkişafın davamlı xarakter alması, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq mühafizə orqanları bundan sonra da ictimai asayişin və sabitliyin qorunmasına diqqəti artırmalı, maarifləndirmə-profilaktika tədbirləri davam etdirilməlidir" kimi tapşırığı prokurorluq əməkdaşlarından öz işlərinə daha məsuliyyətlə yanaşmağı bir vəzifə kimi tələb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə hesabat dövründə digər müvafiq qurumlarla əlaqəli şəkildə bu sahədə tədbirlər mütəmadi olaraq davam etdirilir.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, dövlət müstəqilliyimizin, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərib.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı, həmçinin yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmayıb, lakin əvvəllər məhkum olunan şəxslər və sərxoşlar tərəfindən cinayət hadisələrinin törədilməsi halları qeydə alındığından bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra da cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktik tədbirlərdən səmərəli istifadə edilməsi zəruridir.

Muxtar Respublika ərazisində hesabat dövründə 1 böyük ictimai təhlükə törətməyən və 6 az ağır cinayətin qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməmədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, bundan sonra cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Keçmiş illərdə baş verib bağlı qalmış 6 cinayət işinin açılması təmin edilib. Müvafiq şöbələr və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə bu xarakterli hər bir cinayət işi üzrə müzakirələr keçirməli, həmin cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirməlidirlər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 1 fakt qeydə alınsa da, Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, aşkar oluna biləcək hər bir fakt üzrə narkotik vasitənin əldə edilmə mənbəyi müəyyənləşdirilərək təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələrini təmin etməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirilməlidir.

Qeyd olundu ki, Muxtar Respublikanın prokurorluq orqanlarında 4 cinayət işi istintaq olunub ki, onlardan 1 iş istintaq aidiyyatı üzrə göndərilib, 3 iş üzrə isə istintaq davam etdirildiyindən qalıq qaıb. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında prokurorluq orqanlarında 6 məlumat üzrə müvafiq qərarlar qəbul edilib.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 8 şəxs barəsində 7 işin hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilib. Birinci instansiya məhkəmələrində baxılıb nəticə verilən 10 şəxs barəsində 7 iş üzrə ittiham hökmləri çıxarılıb, hazırlıq iclası keçirilən 4 şəxs barəsində 3 iş isə qalıq qalıb. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 12 şəxs barəsində 10 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışı təyin edilib. Apellyasiya instansiyası məhkəməsində baxılıb nəticə verilən 13 şəxs barəsində 10 cinayət işindən 9 şəxs barəsində 7 iş üzrə hökm dəyişdirilmədən saxlanılıb, 4 şəxs barəsində 3 iş üzrə hökmlər dəyişdirilib. İlkin baxışı keçirilən 1 şəxs barəsində 1 iş isə qalıq qalıb. Bundan başqa, şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 10 işə baxılaraq nəticə verilib ki, onlardan 9 iş üzrə müraciətlər təmin edilib, 1 iş üzrə isə müraciət təmin edilməyib.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik və qanunlara riayət edilməsi təmin edilib. Cinayət işlərinin ibtidai istintaqı və məlumatların həlli zamanı cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl edilib.

Muxtar Respublikanın daxili işlər orqanlarında istintaq olunan 12 cinayət işi istintaq olunub, törədilmiş və ya hazırlanan cinayətlər barədə 15 məlumat qeydə alınıb ki, onlar barəsində də müvafiq qərarlar qəbul olunub.

Muxtar Respublika üzrə 5 yol nəqliyyat hadisəsi qeydə alınıb ki, nəticədə 7 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi Muxtar Respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 3 cinayət işi istintaq olunub ki, onlardan 1 işin icraatına xitam verilib, 2 iş isə ittiham aktı ilə baxılması üçün məhkəməyə göndərilib.

Muxtar Respublika Prokurorluğu orqanlarının iş planlarında nəzərdə tutulan bütün məsələlər vaxtında və keyfiyyətli icra olunub. İş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən yol verilmiş qanun pozuntularının aradan qaldırılması üçün 3 halda təqdimat, 2 halda isə göstəriş verilib.

Vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili də Muxtar Respublikanın Prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Prokurorluq orqanlarına vətəndaşlardan 16 müraciət daxil olub ki, onlardan 6 müraciət prokurorluqda həll edilib, 7 müraciət baxılması üçün aidiyyəti üzrə göndərilib, 3 müraciət isə istintaq olunan cinayət işlərinə və araşdırılan materiallara əlavə edilib. Bundan başqa, elektron poçt ünvanına 2 müraciət daxil olub ki, həmin müraciətlər də aidiyyəti üzrə göndərilib. Müvafiq prokurorlar tərəfindən 147 vətəndaş qəbul edilərək onların müraciətləri müfaviq qanunvericiliyə əsasən həll edilib.

Qeyd olundu ki, vətəndaşların sağlam hüquqi düşüncəyə və yüksək hüquq mədəniyyətinə malik olmaları üçün hüququn təbliği işi yüksək səviyyədə təşkil olunmalı və hüquqi dövlət quruculuğunun vacib elementi kimi qəbul olunmalıdır. Bu səbəbdən hüququn təbliği və qanunvericiliyin izahı cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi nəzərdən keçirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hüquqi maarifləndirmə işinin əhəmiyyətini qeyd edərək demişdir: "Hüquqi maarif işinin təşkil edildiyi bir cəmiyyətdə işləmək də, yaşamaq da rahatdır və belə cəmiyyət inkişaf edir. Ona görə də bizim əsas vəzifələrimiz hüquq maarifi işini gücləndirməkdən ibarət olmalıdır." Muxtar Respublika Prokurorluğu orqanları hüquqi maarifləndirmə və profilaktika işini daha da gücləndirərək cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, hüquqi maarifləndirməyə və həyata keçirilən profilaktiki tədbirlərin kəsərliliyinin artırılmasına yönəltmişlər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun 31.05.2020-cu il tarixli 16/601 №-li icmal məktubunda "Baş Prokurorluq üzrə "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 №-li əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2019-cu ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair Arayış"da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə əlaqədar 146 halda mühazirə, söhbət və digər şifahi təbliğat həyata keçirilib, kütləvi informasiya vasitələrində 241 dəfə, o cümlədən televiziyada 12, radioda 12, mətbuatda 92, internet səhifələrində isə 125 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Naxçıvan şəhər, Babək, Culfa və Ordubad rayon prokurorluqları tərəfindən kütləvi informasiya vasitələri ilə əlaqələr daha səmərəli təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 11 bölmədən və 36 altbölmədən ibarət veb-saytı daim nəzarətdə saxlanılaraq yenilənir.

Azərbaycan Respibliiası Baş Prokurorunun "Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında" 27.02.2001-ci il tarixli 02/45 №-li və "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılması Qaydaları haqqında" Təlimatın təsdiq edilməsi barədə" 02.04.2004-ciü il tarixli 08/19 №-li əmrlərin tələblərinə əməl edilib.

Prokurorluğun kadr tərkibinin peşəkar mütəxəsislər hesabına möhkəmləndirilməsi, gənc kadrlar hesabına mütəmadi yeniləşmənin həyata keçirilməsi, kadrların fəaliyyətinin obyektiv qiymətləndirilməsi üçün şəffaf meyarların formalaşdırılması prokurorluq orqanlarının demokratik məzmunda yeniləşdirilməsinə yönəldilmiş mütərəqqi islahatların tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş və 23 noyabr 2007-ci il tarixli Fərmanı ilə dəyişikliklər edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları"na müvafiq olaraq 2 dekabr 2019-cu ildə işə qəbulla əlaqədar müsabiqə elan edilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyatda olan 28 nəfər gənc hüquqşünas prokurorluq orqanlarına işə qəbulla əlaqədar müraciət etmişdir. Müraciət etmiş şəxslərin sənədlərinin toplanması və yoxlanılması başa çatdırılmış, müsabiqənin nəticəsi olaraq 9 nəfər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının icbari təliminə cəlb edilmişdir.

Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar Muxtar Respublika Prokurorluğunun mərkəzi aparatında və tabe rayon (şəhər) prokurorluqlarında 184 tədris məşğələsi keçirilib.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə sədaqətlə xidmət edəcəkdir.

# 22 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilib



Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədi ilə ölkəmizin aparıcı elmi və təhsil, eləcə də bu sahədə uğurlu təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün əməli addımlar atılır.

Prokurorluğun fəaliyyət istiqamətləri, o cümlədən ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən etməklə, Konstitusiya və "Prokurorluq haqqında" Qanun ilə prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə həmin Qanunun 40-cı maddəsinə əsasən Baş prokuror yanında məşvərətçi orqan kimi Elmi-Məsləhət Şurası yaradılmışdır.



Elmi-Məsləhət Şurasının fəaliyyətinin təmin olunması üçün Baş Prokurorluq üzrə 18 sentyabr 2020-ci il tarixli əmrlə Şuranın 32 nəfərdən ibarət tərkibi təsdiq edilmiş, Şura üzvlüyünə prokurorluq əməkdaşları və prokurorluğun veteranları ilə yanaşı Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Azərbaycan Diplomatik Akademiyası, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin hüquqşünaslıq kafedrasının, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidmətinin akademiyalarının nümayəndələri daxil olmaqla, elmi dərəcəsi, nüfuzlu beynəlxalq nəşrlərdə məqalə və kitabların müəllifi olan yüksək ixtisaslı və təcrübəli 14 hüquqşünas daxil edilmişdir.

Vurğulanmalıdır ki, Elmi-Məsləhət Şurasının üzvlüyündə ümumilikdə 6 hüquq üzrə fəlsəfə doktoru və 5 hüquq elmləri doktoru təmsil olunmuşlar.

22 sentyabr 2020-ci il tarixdə Baş prokuror Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının ilk iclası keçirilməklə, qarşıda duran vəzifələr və fəaliyyət istiqamətləri müəyyən edilmiş, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyası, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Diplomatik Akademiyası, Prezident yanında İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası və Naxçıvan Dövlət Universiteti ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa dair təkliflərin müzakirəsi aparılmışdır.

Tədbir zamanı, həmçinin, Şuranın üzvləri ilə faydalı fikir mübadiləsi aparılmış, nəzəriyyə və praktikanın əlaqələndirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunmuşdur.

Bundan əlavə tədbirdə, "Maddi sübutların götürülməsi və qablaşdırılması taktikası, götürülmüş maddi sübutlarla bağlı ekspertiza növlərinin təyini məsələlərinə dair müstəntiqin məlumat kitabçası"nın, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsi ilə istintaq edilən işlərin istintaq taktikasına dair" və "Hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə dair" metodiki vəsaitlərin təqdimatı həyata keçirilmişdir.

# Baş Prokurorluğun normativ xarakterli hüquqi bazası yeni müstəvidə

**Zamanın tələblərinə uyğunlaşma zərurəti prokurorluq orqanlarında da islahatları şərtləndirmişdir.**

Respublikamızın qloballaşan dünyaya inteqrasiya olunması və informasiya texnologiyalarının sürətli inkişafı müsbət dinamika ilə yanaşı, cinayətkarlığın yeni və daha mürəkkəb formalarının meydana çıxmasına səbəb olmaqla ictimai münasibətlərin müasir dövrün çağırışlarına uyğun olaraq dəyişməsini zəruri etmişdir. Zamanın tələblərinə uyğunlaşma zərurəti ölkəmizdə ictimai həyatın və dövlət idarəetməsinin bütün sahələrində ardıcıl və məqsədyönlü islahatlara zəmin yaratmaqla, məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatları şərtləndirmişdir.

Bu zərurət 1 may 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının yeni təyin olunmuş Baş prokuroru cənab Kamran Əliyevin videoformatda qəbulu zamanı bir daha vurğulanmış, prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair verdiyi göstəriş və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə Baş Prokurorluq üzrə geniş Fəaliyyət Planı təsdiq olunaraq icra edilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir. Fəaliyyət planında dövlət başçısının proqram xarakterli nitqindən irəli gələrək prokurorluq orqanlarının üzərinə düşən hər bir vəzifənin yerinə yetirilməsi üçün konkret tədbirlər nəzərdə tutulmuş, həmin vəzifələrin icrası ilə bağlı prokurorluq orqanlarında işin səmərəliliyinin artırılması üzrə ciddi islahatlara başlanılmış, qısa zaman ərzində genişmiqyaslı struktur və kadr islahatları həyata keçirilmişdir.

Cinayət mühakimə icraatında insan hüquqlarının və əsas azadlıqların, vətəndaşların qanuni maraqlarının qorunmasında, sosial ədalətin müdafiəsində həyata keçirdiyi funksiyaların əhəmiyyəti, cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi zamanı qarşıya qoyulmuş məqsədlərə nail olunmasında xüsusi rolu prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən norma və müddəaların müasir dövrün çağırışlarına, normayaratma fəaliyyətinin mütənasiblik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq daha da təkmilləşdirilməsini zəruri etmiş, müasir dövrün yüksək tələbləri müstəvisində həyata keçirilən intensiv islahat tədbirlərinin nəticəsi olaraq, prokurorluqda inkişaf etmiş ölkələrin normayaratma təcrübəsindən də istifadə edilməklə normativ xarakterli hüquqi sənədlərin məcəlləşdirilməsi prosesi həyata keçirilmiş, daha təkmil vahid normativ-hüquqi baza formalaşdırılaraq, yeni mütərəqqi iş prinsipləri və metodları tətbiq olunmağa başlanılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirəsalınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmləri yaradılmışdır.

**Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın qüvvəyə minməsi ilə Baş Prokurorluq üzrə 100-dən artıq əmr və normativ xarakterli digər hüquqi sənədlər ləğv edilmişdir.**

Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, eləcə də struktur qurumlar və tabe prokurorluqlar arasında münasibətlər kimi ayrı-ayrı sahələrin müasir tələblər səviyyəsində vahid normativ sənəddə tənzimlənməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 20 iyun 2020-ci il tarixli Sərəncamla təşkil edilmiş İşçi qrup tərəfindən Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın layihəsi hazırlanaraq bütün struktur qurumlarda geniş müzakirəsi keçirilmiş, irəli sürülən təkliflər nəzərə alınmaqla təkmilləşdirildikdən sonra Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" (bundan sonra Qaydalar) təsdiq olunmuş və 1 avqust 2020-ci il tarixdən bütün prokurorluq orqanlarında qüvvəyə minmişdir. Qaydaların qüvvəyə minməsi ilə əlaqədar, Baş Prokurorluq üzrə 100-dən artıq əmr və normativ xarakterli digər hüquqi sənədlər tam və ya qismən ləğv olunmuşdur.

**Qaydalar prokurorluq orqanlarının fəaliyyətində yeni prioritetlər təsbit etmişdir.**

Qaydalar qanunla müəyyən edilmiş əsas prinsiplərlə yanaşı prokurorluq orqanlarının fəaliyyətində

şəffaflıq, dürüstlük, düzgün idarəçilik, risklərin qiymətləndirilməsi, nəticələrin müvafiq hədəflər üzrə təhlil olunması, funksiyaların fərdiləşdirilməsi, məsuliyyət və cavabdehliyin artırılması, innovativ üsul və təcrübələrin tətbiqi kimi yeni prioritet prinsiplər müəyyən etmişdir.

Qaydalar prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləməklə Ümumi və Xüsusi hissələrdən ibarətdir.

Ümumi hissə 3 Bölmə 7 Fəsildən ibarət olmaqla prokurorluğun fəaliyyətinin tənzimlənməsində ümumi normaları, hüquqi tənzimetmə mexanizmini, Baş Prokurorluğun qurumlarının fəaliyyətinin məqsədlərini, kollegiya, əməliyyat müşavirələrinin təşkili, Ad hoc qurumların funksiyalarını; Xüsusi hissə isə 27 Bölmə 71 Fəsildən ibarət olmaqla prokurorluğun fəaliyyətinin tənzimlənməsində xüsusi normaları, Baş Prokurorluğun idarələrinin, Ad hoc qurumların, rayon (şəhər) prokurorluqlarının fəaliyyət istiqamətləri, hüquq, vəzifə və funksiyalarını, işin təşkili məsələlərini müəyyən etmişdir.

**Qaydaların qəbulu ilə Baş Prokurorluqda ilk dəfə olaraq Ad hoc qurumlar təsis edilmişdir.**

Qaydaların qəbulu ilə Baş Prokurorluqda ilk dəfə olaraq Ad hoc qurumlar təsis edilməklə, bu qurumlara Müsabiqə Komissiyası, Attestasiya Komissiyası, İntizam Komissiyası, Etik Davranış Komissiyası, Əmək Məsələləri Komissiyası, Kompleks Yoxlama Komissiyası, Yoxlama Komissiyası, Elmi-Məsləhət Şurası aid edilmişdir.

Qaydalara əsasən Ad hoc qurumlar Baş Prokurorluğun strukturuna daxil olmayan və konkret vəzifənin icrası üçün təsis olunmuş qurumlardır və yalnız səlahiyyətlərinə aid olan məsələlər baxılması üçün daxil olduqda fəaliyyət göstərir.

Müsabiqə Komissiyası prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə və ya vakant vəzifələrin tutulması üçün prokurorluq işçiləri arasında daxili müsabiqə keçirmə və vəzifədə irəliçəkmə funksiyasını həyata keçirən Ad hoc qurumdur. Prokurorluğa işə qəbul üzrə müsabiqənin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq Baş Prokurorluqda 7 nəfərdən ibarət Müsabiqə Komissiyası təsis olunur. Komissiyanın işinə nüfuzlu hüquqşünaslar, alimlər, ekspertlər və mütəxəssislər cəlb edilə bilərlər.

Attestasiya Komissiyası Prokurorluq orqanlarında Baş Prokurorluğun Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Attestasiya Komissiyası, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Attestasiya Komissiyası, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun Attestasiya Komissiyası təşkil olunur. Attestasiya komissiyası məşvərətçi orqandır.

İntizam Komissiyası icra və əmək intizamının pozulmasına dair məlumatın araşdırılmasına dair toplanmış materiallara intizam icraatında baxıb, intizam tənbehinin tətbiq olmasına dair rəy verməklə prokurorluq işçilərinin intizam məsuliyyətinə cəlb edilməsi məsələsinə baxılması məqsədilə təsis olunmuş Ad hoc qurumdur. Baş prokuror Komissiyanın 7 (yeddi) üzvünü Baş Prokurorluğun Kollegiyasında seçilmiş namizədlər sırasından təyin edir. Prokurorluq işçisi barəsində xidməti yoxlama nəticəsində toplanmış materiala İntizam Komissiyasında qanunçuluq, kollegiallıq, ədalət, qərəzsizlik və obyektivlik prinsipləri əsasında intizam icraatında baxılaraq nəticəsi üzrə Baş prokurora təqdimat verilir.

Etik Davranış Komissiyası etik davranış, maraqlar toqquşmasının qarşısının alınması, şəffaflıq və korrupsiyaya qarşı mübarizə qaydalarının pozulmasına dair məlumata və ya xidməti yoxlamaya dair toplanmış materiala etik davranış icraatında baxaraq intizam tənbehinin tətbiq olunmasına dair rəy verməklə prokurorluq işçilərinin qeyri-etik davranışına görə intizam məsuliyyətinə cəlb edilməsi məqsədilə təsis olunmuş Ad hoc qurumdur. Baş prokuror Komissiyanın 7 (yeddi) üzvünü Baş Prokurorluğun Kollegiyasında seçilmiş namizədlər sırasından təyin edir. Komissiya prokurorluq işçisi barəsində müvafiq məlumata və ya xidməti yoxlama üzrə toplanmış materiala qanunçuluq, kollegiallıq, ədalət, qərəzsizlik və obyektivlik prinsipləri əsasında etik davranış icraatında baxaraq nəticəsi üzrə Baş prokurora təqdimat verir.

Əmək Məsələləri Komissiyası prokurorluq işçilərinə maddi yardım, müalicə haqqı və digər əlavələrin ödənilməsini, prokurorluq işçilərinin həlak olması (vəfat etməsi), xəsarət (yaralanma, travma, kontuziya) alması hadisələrinin xidməti vəzifələrin icrası ilə bilavasitə bağlı olub-olmaması, rütbələrə və prokurorluq orqanlarındakı qulluq illərinə görə

prokurorluq işçilərinin vəzifə maaşına əlavə haqqın və sığorta ödənişlərinin verilməsinə dair məsələlərə baxılmasını, habelə “silahlı qüvvələr veteranı” və “müharibə veteranı” adlarının, müvafiq veteran vəsiqəsinin verilməsi ilə bağlı rəyin, “əmək veteranı” adının və vəsiqəsinin verilməsini təmin edən Ad hoc qurumdur. Baş prokuror Komissiyanın 5 (beş) üzvünü Baş Prokurorluğun Kollegiyasında təsdiq olunmuş namizədlər sırasından təyin edir. Komissiyanın 6-cı üzvü Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqının nümayəndəsidir. Komissiya ayda ən azı iki dəfə iclas keçirir. İclas və onun gündəliyi barədə Baş Prokurorluğun veb-saytında məlumat verilir.

Kompleks Yoxlama Komissiyası kompleks yoxlamaları, yəni ərazi və ixtisaslaşdırılmış prokurorların fəaliyyət dövrü bitdikdə, yaxud zərurət olduqda həmin şəxsin rəhbərlik etdiyi prokurorluğun, o cümlədən Baş Prokurorluğun struktur qurumunun müəyyən dövr ərzində bütün istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyətin yoxlanılmasını həyata keçirir. Komissiya prokurorluğun müəyyən edilmiş dövr ərzində bütün istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyətini təftiş edir və Baş prokurora məruzə edir.

Yoxlama komissiyası Baş prokuror tərəfindən prokurorluq sisteminə daxil olan qurumların, o cümlədən Baş Prokurorluğun struktur qurumlarının və tabe prokurorluqların prokurorluğun bütün və ya konkret sahələri üzrə fəaliyyətinin qanunvericiliyin, o cümlədən prokurorluğun hüquqi sənədlərinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə təyin edilir. Baş prokuror yoxlama komissiyasının üzvlərini Təşkilat və icraya nəzarət idarəsinin təklifinə əsasən təyin edir, həmçinin yoxlamanın müddətini və əhatə edəcəyi sahələri müəyyən edir.

Elmi-Məsləhət Şurası "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin 2 və 3-cü hissələrinə əsasən Baş prokurorun yanında tərkibi və Əsasnaməsi onun tərəfindən təsdiq olunmaqla fəaliyyət göstərir.

Ad hoc qurumların üzvlüyünə namizədlər Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında seçilərək tərkibləri formalaşdırılmaqla fəaliyyətə başlamışlar.

**Qaydalarda digər mühüm yeniliklər də nəzərdə tutulmuşdur.**

Yuxarıda qeyd olunanlardan əlavə, Qaydalarda prokurorluğun cinayət təqibindən kənar icraatlarda iştirakının genişləndirilməsi, yetkinlik yaşına çatmayanların maraqlarının qorunması, ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin hüquqi vasitələrlə təmin olunması sahəsində fəaliyyətinin əlaqələndirilməsi, tabe prokurorluqlarda istintaq edilən cinayət işlərinin Baş Prokurorluğa məruzə və müzakirə edilməsi ilə əlaqədar əvvəllər mövcud olmuş bir sıra lüzumsuz prosedurlardan imtina edilməklə, bunun əvəzinə prokurorluqda tətbiq olunan mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin imkanlarından istifadə edilməsi, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, qanunun tələblərinə əsaslanmayan məsuliyyət müəyyən edən normaların ləğv edilməsi, ağır və xüsusilə ağır cinayətlərə dair işlər üzrə ittiham aktlarının təsdiqi səlahiyyətinin qüvvədə olan qanunvericiliyin tələblərinə müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən rayon (şəhər) prokurorlarına qaytarılması, cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi və xüsusi müsadirənin təmin edilməsi üçün fəaliyyətin koordinasiyası, o cümlədən aktivlərin aşkar edilməsi və izlənməsi, əmlakın bərpasının icra olunması, xüsusi müsadirə obyekti olan əmlakın idarə edilməsi, prokurorluğun maddi-texniki bazasının, prokurorluq işçilərinin sosial müdafiəsinin və maddi təminatının yaxşılaşdırılmasından ötrü qanunla nəzərdə tutulmuş vəsaitlərin köçürülməsinin təmin edilməsi, mühüm normativ hüquqi aktların layihələrinin bütün prokurorluq işçilərinin ümumi müzakirəsinə çıxarılması üçün Baş Prokurorluğun veb-saytı üzərindən ümumi müzakirələr platformasının yaradılması, ümumi müzakirələr və təkliflər platformaları vasitəsilə prokurorluq işçilərindən daxil olan təkliflərin mütəmadi olaraq ümumiləşdirilməsi və sair önəmli yeniliklər nəzərdə tutulmuşdur.

Yekunda qeyd edilməlidir ki, “İşin Təşkili Qaydaları”nın qəbulu prokurorluq orqanlarında son dövrdə həyata keçirilən ən mühüm islahat tədbirlərindən biri olaraq bu vacib dövlət təsisatının fəaliyyətinin ölkə prezidentinin yüksək tələbləri səviyyəsində daha mobil və dinamik təşkilinə, işində şəffaflıq və hesabatlılıq prinsiplərinin rəhbər tutulmasına, qulluqda mütərəqqi motivasiya modellərinin tətbiqinə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin sürətləndirilməsinə və bir sıra digər sahələrdə islahatların dərinləşdirilməsinə zəmin yaratmışdır.

**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi**

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin M Ə L U M A T L A R I

**Jurnalımızın hazırki yeni rubrikasında daimi oxucularımızın rəy və təklifləri nəzərə alınmaqla, Baş Prokurorluğun Mətbuat xidmətinin cəmiyyətdə maraq və ictimai rezonans doğuran ən mühüm cinayət hadisələri barədə verdiyi açıqlamalar yer alır.**

**Baş Prokurorluğun veb-saytının xəbərlər bölməsində günün 24 saatı ərzində fasiləsiz olaraq prokurorluğun fəaliyyəti barədə ətraflı məlumat verilməsinə baxmayaraq, jurnalımızın bu rubrikasında da oxucularımız ən mühüm açıqlamalar barədə məlumat əldə edə biləcəklər.**

**07.07.2020**

Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılmaqla korrupsiya hüquqpozmalarına qarşı kəsərli mübarizə tədbirləri davam etdirilir.

Həmin tədbirlərin davamı olaraq, "Zaminbank" ASC-nin vəzifəli şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə etmələri nəticəsində özgə əmlakını külli miqdarda ələ keçirmələri və digər faktlar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmışdır.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri ilə hazırda ləğv edilmiş "Zaminbank" ASC-nin Müşahidə şurasının sabiq sədri Nadir İsmayılovun işlədiyi dövr ərzində müxtəlif korrupsiya sxemlərindən istifadə etməklə fiziki və hüquqi şəxslərin adına ayrılmış 16 milyon manatdan artıq məbləğdə ASC-yə məxsus kredit vəsaitini bankın digər vəzifəli şəxslərinin köməkçiliyi ilə külli miqdarda ziyan vurub mənimsəməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaqla, həmçinin, Nadir İsmayılovun bilə-bilə hüquq verən saxta rəsmi sənəddən istifadə edərək bankın Bakı filialının müdiri vəzifəsində işləmiş Şirinov Elşən Nizami oğluna məxsus 145 min manat məbləğində pul vəsaitini ələ keçirərək ona külli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq etməsinə şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Qeyd olunan qanunsuz əməllərə görə Nadir İsmayılova Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 179.3.2 (külli miqdarda mənimsəmə), 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham elan olunaraq barəsində Binəqədi rayon məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir.

Qeyd edilən qanunsuz əməllər nəticəsində dövlətə və vətəndaşlara vurulan mühüm ziyanın ödənilməsini təmin etmək məqsədi ilə Nadir İsmayılova məxsus əmlakların aşkar edilməsi istiqamətində, habelə göstərilən cinayətdə iştirak etmiş digər şəxslərin dairəsinin müəyyən edilməsindən ötrü intensiv və zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.

Bununla yanaşı, məlumat üçün qeyd edilməlidir ki, bu günə kimi "Zaminbank" ASC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə əlaqədar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ümumilikdə 11 şəxs barəsində 7 cinayət işi üzrə istintaq aparılmaqla 18 milyon manatdan artıq ziyanın ödənilməsi təmin edilmişdir. Həmin cinayət işləri müxtəlif vaxtlarda baxılması üçün məhkəmələrə göndərilmiş və məhkəmələrin qanuni qüvvəyə minmiş hökmləri ilə elan edilmiş ittihamlar üzrə həmin şəxslər təqsirli bilinərək müxtəlif cəzalara məhkum edilmişlər.

**14.07.2020**

2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədi ilə atəşkəs rejimini kobud şəkildə pozaraq gərginliyi artırmaq məqsədilə növbəti hərbi təxribat törətməklə iriçarplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından istifadə etməklə

mövqelərimizi atəşə tutmaqla hücuma keçmək cəhdi etmişlər.

Ermənistan özünün təcavüzkar və terrorçu mahiyyətini növbəti dəfə nümayiş etdirməklə milli ədavət və düşmənçilik niyyəti ilə dinc əhalinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutmuş, nəticədə Azərbaycan Ordusunun bir neçə hərbi qulluqçusu şəhid olmuş, digərləri müxtəlif dərəcəli bədən xəsarətləri almış, o cümlədən cəbhə bölgəsindəki Tovuz rayonu Ağdam kənd sakini həlak olmaqla ümumilikdə mülki əhaliyə mühum ziyan dəymişdir.

Təcavüzkar Ermənistan bu kimi təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq kəskin eskalasiya yaratmaqla Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn açıq qəsdlər etmişdir.

Ermənistanın hərbi qulluqçuları tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı yönələn hərbi cinayətlər qeydə alınaraq hal-hazırda hadisə yerində fəaliyyət göstərən istintaq qrupu tərəfindən müvafiq qaydada sənədləşdirilir, həmin faktlar üzrə Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, erməni hərbçilərinin törətdikləri bəşəriyyət əleyhinə olan cinayət faktlarına dair müvafiq sübutların toplanılması istiqamətində hazırda intensiv istintaq hərəkətləri həyata keçirilir.

Hərbi cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədi ilə müvafiq tədbirlər görüləcəkdir.

Düşmən hücumunun qarşısını alarkən döyüşdə şəhid olan hərbi qulluqçularımızın qəhrəmancasına göstərdiyi yüksək əzmi və şücaəti hər zaman Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaqdır.

**16.07.2020**

Xəbər verildiyi kimi, iyulun 12-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimi kobud şəkildə pozularaq mövqelərimiz atəşə tutulmuşdur. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təcili cavab tədbirləri nəticəsində düşmənin aktivliyinin qarşısı alınmaqla onlara sarsıdıcı zərbələr vurulmuşdur.

Ermənistan Azərbaycan Respublikasının Silahlı Qüvvələri qarşısında növbəti dəfə acizlik nümayiş etdirməklə, beynəlxalq humanitar hüququn fundamental norma və prinsiplərini, 1949-cu il tarixli "Cenevrə Konvensiyası"nın müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında müddəalarını, ö cümlədən müharibə hüququnun əsas prinsiplərini və ümumqəbul edilmiş qaydaları kobud şəkildə pozmaqla, mülki əhali və döyüşənləri fərqləndirmədən, mülki əhali arasında itkilərdən qaçmalı olduqları halda, birbaşa və qəsdən mülki əhalının sıx yaşadığı əraziləri hədəfə alıb atəşə tutmaqla onlara qarşı müxtəlif cinayətlər törətmişlər.

Belə ki, iyulun 14-də saat 14 radələrində Ermənistanın silahlı qüvvələri tərəfindən Tovuz rayonu, Dondar Quşçu kənd sakini Əliyeva Telarə Əhməd qızına məxsus evə odlu silah mərmisinin atılması və həmin mərminin partlaması nəticəsində zərərçəkmiş şəxsin əmlakı qəsdən məhv edilməklə sonuncuya xeyli miqdarda ziyan vurulmuşdur.

Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilməklə maddi sübutlar toplanılmış, dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədi ilə mütəxəssislər cəlb olunmuş və digər zəruri istintaq hərəkətləri həyata keçirilmişdir.

Faktla bağlı Tovuz rayon prokurorluğunda Cinayət Məcəlləsinin 186.2.2-ci (yandırmaqla, partlatmaqla, və ya başqa ümumi təhlükəli üsulla özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurulmaqla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdır.

Hazırda iş üzrə zəruri və intensiv istintaq tədbirləri davam etdirilir.

**19.08.2020**

Müasirləşən informasiya axarına qoşulmaq məqsədilə Baş Prokurorluğun müasir standartlara cavab verən veb-saytı ictimaiyyətin istifadəsinə verilmişdir. Sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar baxımından əsaslı şəkildə yenidən qurulmuşdur.

Baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilmiş təqdimat mərasimində Baş prokurorun müavinləri, o cümlədən Baş Prokurorluğun bir sıra idarə və şöbə rəisləri iştirak etmişlər.

Yeni resursun təqdimatını həyata keçirən Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov prokurorluq orqanlarında daim informasiya texnologiyaların yaradılması və tətbiqi istiqamətində tədbirlərin görüldüyünü vurğulamış, saytın təhlükəsizlik parametrlərinə və bu günün tələblərinə tam olaraq cavab verdiyini, daha rahat naviqasiya ilə seçilən ye-

ni saytda prokurorluq orqanlarının fəaliyyəti haqqında ətraflı məlumatların təqdim olunduğunu diqqətə çatdırmışdır.

Təqdimat mərasimində çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə informasiya texnologiyalarının tətbiq səviyyəsinin dövlət idarəetməsinin şəffaflığının əsas göstəricilərindən biri olduğunu qeyd etmiş, saytda prokurorluq orqanlarının fəaliyyətindəki dəyişikliklər, yeniliklər, ictimaiyyət tərəfindən maraq göstərilən məsələlər üzrə, habelə rəhbərliyin xüsusi əhəmiyyət kəsb edən görüş və səfərləri barədə məlumatların daim yeniləncəyi barədə məlumat vermişdir.

Hazırda Baş Prokurorluğun saytına www.genprosecutor.gov.az və www.prokurorluq.gov.az ünvanından daxil olmaq mümkündür.

**20.08.2020**

Ölkəmizdə həyata keçirilən çoxşaxəli və sistemli islahatlara mane ola biləcək korrupsiya və sair neqativ hallara qarşı mübarizə tədbirləri çərçivəsində prokurorluq orqanlarının qətiyyətli və ardıcıl tədbirləri davam etdirilir.

Həmin tədbirlərdən biri kimi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Kürdəmir rayon İcra Hakimiyyətində baş vermiş qanun pozuntularına dair aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

Aparılmış istintaqla Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun icra hakimiyyəti başçısının birinci müavini Tacəddin Novruzov, İcra hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov və icra hakimiyyətinin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olmaqla və onlar vasitəsilə rayon ərazisində fəaliyyət göstərən səhiyyə, təhsil və digər dövlət müəssisələrindən, habelə bir sıra özəl müəssisələrdən müxtəlif məbləğdə pul vəsaitlərini almasına, eləcə də, dövlətin mənafeyinə ağır nəticələrə səbəb olan mühüm zərər vuran digər qanunsuz hərəkətlər etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Belə ki, istintaqla həmin şəxslərin birbaşa və icra hakimiyyətinin digər vəzifəli şəxsləri vasitəsilə ayrı-ayrı vaxtlarda rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələrindən ümumilikdə 137 min manat, Kommunal Müəssisələr Kombinatından 58 min manat, rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrindən 120 min manat, "Azbiyan" Məhdud Məsuliyyətli Cəmiyyətindən 71 min manat məbləğində vəsaiti rüşvət qismində istəyərək almalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilənlərə əsasən, 19 avqust 2020-ci ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən Kürdəmir Rayon İcra Hakimiyyətinin İnzibati binasında, habelə rayonun Suvarma sistemləri və Yaşıllaşdırma idarələrində, Kommunal Müəssisələri Kombinatında və Kürdəmir şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyində əməliyyat-istintaq tədbirləri keçirilmiş, görülmüş tədbirlər nəticəsində həmin şəxslər tutularaq, Ceyhun Cəfərov, Tacəddin Novruzov və Natiq Kərimov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3-cü (rüşvət alma külli miqdarda törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Binəqədi rayon məhkəməsinin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda Kürdəmir rayon icra hakimiyyətinin tabeliyindəki qurumlarda və rayon ərazisində fəaliyyət göstərən digər qurumların fəaliyyətində yol verilmiş qanun pozuntularının araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir. İş üzrə təqsirləndirilən şəxslərin dairəsinin dəqiq müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilmələri və istintaqın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat verilməsi təmin ediləcəkdir.

**24.08.2020**

Vətəndaşların hüquqlarını pozmaqla korrupsiya hüquqpozmaları törədən vəzifəli şəxslərin ifşa edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində prokurorluq orqanları tərəfindən həyata keçirilən məqsədyönlü və kəsərli tədbirlər davam etdirilir.

Belə tədbirlərdən biri kimi, Gəncə şəhər Nizami rayon İcra Hakimiyyətinin başçısı, daha sonra isə Gəncə şəhər İcra Hakimiyyətinin Memarlıq və tikinti bölməsinin müdiri vəzifəsində işləmiş Məharət Mustafayevin qanunsuz əməlləri ilə əlaqədar vətəndaşların çoxsaylı müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

İstintaq zamanı əldə olunmuş ilkin sübutlar əsasında müəyyən edilmişdir ki, Məharət Mustafayev Gəncə şəhəri Nizami rayon İcra Hakimiyyətinin

başçısı vəzifəsində işləyərkən qabaqcadan əlbir olduğu Gəncə şəhər İcra Hakimiyyətinin Memarlıq və tikinti bölməsinin müdiri Əli Rüstəmli və icra hakimiyyətinin digər vəzifəli şəxsləri ilə cinayətkar əlaqəyə girməklə, onların vasitəsilə ayrı-ayrı şəxslərdən müxtəlif vaxtlarda fərdi yaşayış evlərinin layihələndirilməsi və tikinti işlərinin aparılmasına icazə verilməsi, eləcə də digər qanunsuz məqsədlər üçün ümumilikdə 194 min 300 manat məbləğində pul vəsaitini rüşvət qismində ələ keçirməsinə, həmçinin, istehsal fəaliyyətinin davam etdirilməsinə şərait yaradılmasını vəd etməklə, vətəndaşa məxsus 175 min 500 manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə mənimsəməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Məharət Mustafayevin Gəncə şəhər İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri vəzifəsində işləyərkən torpaq sahəsinə dair müvafiq sənədləşmənin aparılması üçün rəhbəri olduğu şöbənin mühəndisi vasitəsi ilə vətəndaşdan 9 min manat məbləğdə pul vəsaitini rüşvət qismində istəyərək almasına və qeyd edilən hərəkətləri ilə vətəndaşların qanunla qorunan maraqlarına ziyan vurmasına əsaslı şübhələr müəyyən edilmişdir.

24 avqust 2020-ci il tarixdə Məharət Mustafayev, Əli Rüstəmli, eləcə də həmin cinayətlərin törədilməsində vasitəçi qismində iştirak etmiş Razin Qəhrəmanov Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3 (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən külli miqdarda təkrar rüşvət alma), 32.4, 312.2 (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət verməyə təhrikçilik), 29, 178.2 (öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla təkrar dələduzluğa cəhd etmə) və digər maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara qeyd edilən maddələrdə nəzərdə tutulan ittiham elan edilmiş, Məharət Mustafayev və Əli Rüstəmli barəsində Binəqədi rayon məhkəməsinin qərarı ilə həbs, Razin Qəhrəmanov barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, o cümlədən cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin tam dairəsinin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

**25.08.2020**

Avqustun 23-də saat 06 radələrində cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant 1989-cu il təvəllüdlü Qurgen Alaverdyan Azərbaycan ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilərək saxlanılmışdır.

Qurgen Alaverdyanın Ermənistan Silahlı Qüvvələrinin apardığı təcavüzkar müharibələr nəticəsində işğal edilmiş Kəlbəcər rayonu ərazisində qanunsuz olaraq yaradılmış silahlı birləşmələrin tərkibində iştirak edərək Azərbaycan Respublikasının hərbi qulluqçularına, müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etməsinə, habelə onlara qarşı zorakılıq hərəkətləri etməsinə, insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsinə yönələn hərəkətlər törətməsinə, eləcə də, qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini və döyüş sursatı əldə edib saxlaması, daşıması və gəzdirməsinə, habelə Ermənistan Respublikası xüsusi xidmət orqanlarının tapşırığı ilə 23 avqust 2020-ci il tarixdə ölkəmizin təhlükəsizliyi zərərinə istifadə olunması məqsədilə dövlət sirri təşkil edən məlumatları toplamaq və Ermənistan Respublikasına ötürmək məqsədilə casusluq etməklə dövlət sərhədini qanunsuz olaraq keçməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 276 (casusluq), 279.1 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması üçün Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin peşəkar əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu yaradılmışdır.

Törədilmiş cinayət hadisəsinin xarakter və mürəkkəbliyi nəzərə alınmaqla Baş prokuror tərəfindən cinayət işi üzrə istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılmış və hazırda iş üzrə zəruri və intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**31.08.2020**

Xəbər verildiyi kimi, vətəndaşların müraciətlərinin operativ həlli, aşkarlıq və müraciətlərə baxılması zamanı çevikliyin təmin olunması məqsədilə Baş Prokurorluğun instaqram sosial şəbəkəsindəki səhifəsində sual-cavab adlı sessiya (#prokurorluqla-sualcavab) keçirilir. Sessiya zamanı daxil olmuş müraciətlər zəruri tədbirlərin görülməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən dərhal Baş Prokurorluğun rəhbərliyinə, o cümlədən əlaqədar idarə və şöbələrə təqdim olunur.

Avqustun 28-də keçirilmiş növbəti sessiya zamanı "Avanqard" turizm şirkətinin direktoru Yeganə Nağıyevanın vətəndaşları aldadaraq xarici ölkələrə turlar təşkil etmək adı altında müxtəlif məbləğlərdə pul vəsaitlərini dələduzluq yolu ilə ələ keçirməsi ilə bağlı çoxsaylı müraciətlər daxil olmuşdur.

Həmin müraciətlər Baş prokuror tərəfindən nəzarətə götürülməklə "Avanqard" turizm şirkətinin direktoru Yeganə Nağıyevanın qanunsuz hərəkətləri barədə daxil olmuş ərizələr əsasında Nərimanov Rayon Polis İdarəsinin İstintaq şöbəsində aparılmış araşdırma nəticəsində toplanmış material əsasında 31 avqust 2020-ci il tarixdə Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmışdır. Cinayət işi üzrə istintaqın aparılması Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə tapşırılmışdır.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri aparılır, qanun pozuntularına yol vermis və cinayətin törədilməsində bu və ya digər formada iştirak etmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin ediləcəkdir.

Nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

**01.09.2020**

Ölkəmizdə iqtisadiyyatın hər bir sahəsində olduğu kimi, aqrar sektorun inkişafı da daim diqqət mərkəzində saxlanılmaqla, onun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, mövcud münbit resurslardan səmərəli istifadə edilməsini stimullaşdıran dəstək xarakterli dövlət proqramları reallaşdırılmaqdadır.

Öz növbəsində Azərbaycan Respublikasının prokurorluq orqanları aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə bu mühüm sahənin inkişafına mane ola biləcək korrupsiya və digər bu kimi neqativ hallara qarşı qətiyyətli tədbirlər görməkdədir.

Belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tabeliyində fəaliyyət göstərən "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Ağcabədi Regional Nümayəndəliyinin direktoru vəzifəsində işləmiş Məmmədov Zaur Vaqif oğlunun qanunsuz hərəkətləri barədə həmin ASC-dən daxil olmuş müraciət üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış araşdırmalar nəticəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

Aparılmış istintaqla Zaur Məmmədovun 8 noyabr 2018-ci il tarixdən 11 dekabr 2019-cu il tarixədək olan müddət ərzində direktoru olduğu nümayəndəliyin Ağcabədi rayon ərazisində yerləşən anbarına qeyd edilən Cəmiyyət tərəfindən satış üçün yığılmış mineral gübrə və pestisidləri həmin anbardan hər hansı sənədləşmə aparmadan 2019-cu il ərzində öz qulluq mövqeyindən istifadə edərək satmasına, bununla da ona etibar olunmuş cəmi 469 min 276 manat məbləğində əmlakı ASC-yə külli miqdarda ziyan vuraraq vahid niyyətlə mənimsəməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

24 avqust 2020-ci il tarixdə Zaur Məmmədov Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, lakin istintaqın çağırışlarına üzrlü səbəb olmadan gəlməməklə istintaqdan yayındığından barəsində axtarış elan edilmişdir.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Zaur Məmmədov 31 avqust 2020-ci il tarixdə tutularaq istintaqa təqdim edilmiş, ona qeyd edilən maddə ilə ittiham elan edilməklə, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda iş üzrə əhəmiyyət kəsb edən halların aşkar edilməsi məqsədilə intensiv əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**08.09.2020**

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının vətəndaşı 1980-ci il təvəllüdlü İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 12 dekabr 2019-cu il tarixdə Azərbaycana deportasiya olunmuş və Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə barəsində Nəsimi Rayon Məhkəməsinin 22 avqust 2019-cu il tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar 2019-cu il dekabrın 14-də Penitensiar xidmətin 1 saylı istintaq təcridxanasına yerləşdirilmişdir.

Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 15 avqust 2019-cu il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, Elvin İsayev 2018-ci ilin əvvəllərində Azərbaycan Respublikasının vətəndaşları olmaqla hazırda Avropanın müxtəlif ölkələrində müvəqqəti məskunlaşmış Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı, Süleyman Süleymanlı və şəxsiyyətləri istintaqa məlum olmayan digər şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək Azərbaycan Respublikasını tərk etdikdən sonra, müvəqqəti məskunlaşdığı Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində özünə məxsus hesablar vasitəsilə "youtube" və "facebook" sosial şəbəkələrində Azərbaycan dilində yerləşdirdiyi video müraciətlərində, yayımladığı video görüntülərdə və paylaşımlarda hakimiyyətin zorla ələ keçirilməsi və zorla saxlanılmasına, habelə ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn ifadələr işlətməklə Azərbaycan Respublikası vətəndaşlarına müraciət edərək hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal itaətsizlik və müqavimət göstərilməklə kütləvi iğtişaşlar və zorakılıqlar etməyə açıq çağırışlar etmişdir.

Qeyd olunanlara əsasən Elvin İsayev Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) və 12.1, 34.2, 281.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar dövlət əleyhinə yönələn açıq çağırışlar etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılmaqla baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Eyni zamanda, Elvin İsayevin qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əməllərində iştirak etmiş Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı və Süleyman Süleymanlı barəsində Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə ayrıca icraata ayrılmış cinayət işi üzrə həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilmişlər, Baş Prokurorluğun təqdimatı əsasında Nəsimi rayon məhkəməsinin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

İstintaq idarəsi tərəfindən qeyd edilən şəxslər barəsində beynəlxalq axtarışın elan edilməsinə dair müvafiq qərarlar qəbul edilməklə, icra edilməsi üçün Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Xidmətinə, həmçinin "İnterpol"-un Milli Mərkəzi Bürosuna göndərilmişdir.

Prokurorluq orqanları tərəfindən qeyd edilən şəxslərin konkret olaraq olduğu yerlər müəyyən edilməklə qanunvericiliyin və müvafiq beynəlxalq Konvensiyaların tələblərinə uyğun olaraq Azərbaycan Respublikasına ekstradisiya edilmələri və məhkəmə məsuliyyətinə verilmələri üçün mümkün olan bütün tədbirlərin həyata keçirilməsi təmin ediləcəkdir.

Hazırda həmin cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

**10.09.2020**

Bu gün Ermənistan yeni təxribat planları hazırlayaraq ən yüksək siyasi səviyyələrdə əsl niyyətinin münaqişənin sülh vasitəsilə həlli deyil, Azərbaycan torpaqlarının qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirməkdədir. Son aylar Ermənistan tərəfinin cəbhədə törətdiyi təxribatlar işğalçı ölkənin nəinki danışıqlar aparmağa, əksinə hər vəchlə vəziyyəti yenidən gərginləşdirməyə çalışdığından xəbər verir.

Ermənistan tərəfinin təxribat xarakterli vaxtaşırı hücumları sülh prosesinin üzərindən xətt çəkməklə beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlik xarakteri daşıyır.

Təcavüzkar əməllərin davamı olaraq, Ermənistanın xüsusi xidmət orqanlarının tapşırığı ilə respublikamızın təhlükəsizliyi zərərinə – ölkəmizin müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədilə yolların, əlaqə vasitələrinin dağıdılmasına yönəldilən partlayışlar, o cümlədən təxribatların, habelə ölkəmizə qarşı ağır və xüsusilə ağır cinayətlərin törədilməsi ilə vəzifələndirilmiş silahlı qüvvələrin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant 1989-cu il təvəllüdlü Alaverdyan Qurqen Vladimiroviçin avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçib müdafiə mövqelərimizə basqın edərkən Azərbaycan

ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində saxlanılaraq hüquq-mühafizə orqanlarına təhvil verilmiş və bu barədə ictimaiyyətə ətraflı məlumat verilmişdir.

Məlum olduğu kimi 2020-ci il iyulun 12-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq kəskin eskalasiya yaratmaq məqsədi ilə iriçaplı artilleriya qurğularından istifadə etməklə mövqelərimizi ələ keçirmək məqsədilə atəşə tutmuş, o cümlədən təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının dinc əhalisini hədəfə almaqla mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətmişlər.

İyulun 12-dən başlayaraq Qazax rayonunun Xanlıqlar, Tovuz rayonun Ağdam və Dondar Quşçu kəndlərində dinc mülki əhaliyə qarşı törədilmiş, həmçinin avqustun 23-də diversiya-kəşfiyyat qrupunun icra etdiyi cinayət əməllərinin davam edən hərbi qarşıdurma fonunda baş verməsi Ermənistan silahlı qüvvələri tərəfindən planlaşdırılaraq törədilməsi və eyni xarakterli olması nəzərə alınmaqla həmin faktlarla bağlı başlanmış cinayət işləri bir icraatda birləşdirilərək Cinayət Məcəlləsinin müvafiq maddələrinə tövsif edilməklə sülh və insanlıq əleyhinə olan cinayətlər kimi qiymətləndirilmişdir.

Qeyd edilənlərə əsasən təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində həbs qətimkan tədbiri seçilmiş Qurqen Alaverdyanın ifadəsi və digər sübutlara əsasən, Q.Alaverdyanın Azərbaycan Respublikasının işğal olunmuş ərazisində qanunsuz yaradılmış silahlı birləşmədə kəşfiyyat bölüyündə tağım komandiri olmaqla cinayətkar birliyin tərkibində təcavüzkar müharibənin aparılmasında iştirak etməsinə, habelə işğalçı Ermənistan tərəfindən yaradılmış cinayətkar birlikdə (təşkilatda) struktur bölməsinə rəhbərlik etməsinə, 23 avqust 2020-ci il tarixdə xidmət etdiyi qanunsuz silahlı birləşmənin komandiri Vazgen Vartanyanın göstərişi ilə 2 nəfər erməni hərbçisi ilə – Armen Camalyan və istintaqın hazırki mərhələsində şəxsiyyəti məlum olmayan digər şəxslə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müdafiə mövqelərinə basqın etməsinə, habelə çoxsaylı mütəşəkkil dəstələrdən təşkil edilmiş cinayətkar birliyin (təşkilatın) digər üzvləri ilə birlikdə qanunsuz olaraq odlu silah və döyüş sursatı əldə edərək saxlamasına, gəzdirməsinə və qanunsuz olaraq döyüş sursatını, partlayıcı maddələri daşımasına, cinayətkar birliyin (təşkilatın) tərkibində odlu silahdan istifadə etməklə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması təhlükəsi yaradan partlayışlar, yanğınlar törətməyə, yəni terrorçuluğa cəhd etməsinə, cinayətkar birliyin (təşkilatın) tərkibində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin iki nəfərdən çox üzvlərini milli ədavət və düşmənçilik niyyəti ilə, eləcə də terrorçuluqla əlaqədar qəsdən öldürməyə cəhd etməsinə, həmçinin çoxsaylı mütəşəkkil dəstələrdən təşkil edilmiş cinayətkar birliyin (təşkilatın) tərkibində partlayışlar törətməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Həmçinin, Ermənistan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasının işğal olunmuş Kəlbəcər rayonunda yerləşən postlarında müdafiəni təşkil edən qanunsuz silahlı birləşmənin komandiri Vartanyan Vazgen Baxşikoviç və tağım komandiri Camalyan Armen Gneloviçin də eyni əməllər törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, onlar Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 228.3 (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), 276 (casusluq), 279.2 (silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə), 318.2-ci ( qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, yaxud zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə), 29, 214.2.3 (terrorçuluğa cəhd), 29, 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) və digər maddələr ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə Baş Prokurorluğun təqdimatı əsasında məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

İstintaq idarəsi tərəfindən qeyd edilən şəxslər barəsində beynəlxalq axtarışın elan edilməsinə dair müvafiq qərarlar qəbul edilməklə, icra edilməsi üçün Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, həmçinin "İnterpol"-un Milli Mərkəzi Bürosuna göndərilmişdir.

Baş Prokurorluq tərəfindən Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məhkəmə məsuliyyətinə verilmələri məqsədi ilə zəruri və institusional tədbirlərin görülməsi təmin ediləcəkdir.

# Azərbaycan Respublikası Prokurorluğu – 102

**2020-ci il prokurorluq orqanları üçün əlamətdar olmaqla prokurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunmuşdur. Prezident cənab İlham Əliyev tərəfindən cari ilin mayın 1-də Baş prokuror vəzifəsinə təyinatı ilə əlaqədar Kamran Əliyev videoformat qaydasında qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti vurğulanmaqla prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur.**

**Həmin vəzifələrin icrası 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı münasibəti ilə keçirilən tədbirləri prokurorluq orqanları əməkdaşlarında və cəmiyyətdə məmnunluğun təmin olunması üçün keyfiyyətcə yeni müstəviyə keçirilməsini və silsilə xarakter daşımasını labüd etmişdir.**

**Belə ki, Baş prokuror cənab Kamran Əliyev tərəfindən 11 sentyabr 2020-ci il tarixdə “Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 102-ci ildönümünün qeyd edilməsi ilə əlaqədar” Tədbirlər Planı təsdiq edilmişdir.**

**Tədbirlər planına əsasən, prokurorluq əməkdaşları tərəfindən şahmat turnirinin, videokonfransın, veteranlarımızla, könüllülərlə görüşlərin təşkil olunması, uşaq evləri, internat məktəbləri və pensiya yaşına çatmış şəxslər üçün yardımlar edilməsi, qan vermə aksiyasının, habelə sair məzmunlu və faydalı tədbirlərin keçirilməsi təmin edilmişdir.**

**Jurnalın hazırki bölməsində cəmiyyətdə olduqca maraqla qarşılanan bu tədbirlər barədə ətraflı məlumat verilir.**

# Azərbaycan Prokurorluğunun yaradılmasının 102 illiyi münasibətilə TƏBRİK

**Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə (şöbə) rəislərinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisinə, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhər, bütün şəhər və rayon, ərazi hərbi prokurorlarına**
*(kollektivlərdə elan edilməsi üçün)*

Hörmətli həmkarlar!

Azərbaycan Prokurorluğunun yaradılmasının 102 illiyi münasibətilə prokurorluq orqanlarında çalışan bütün əməkdaşlarımızı, təqaüddə olan veteranlarımızı, onların ailə üzvlərini Baş Prokurorluğun rəhbərliyi və Kollegiyası adından təbrik edir, Sizə səadət, sağlam və xoşbəxt həyat arzulayıram.

Müstəqil inkişaf tariximizin memarı və yeni Azərbaycanın qurucusu olan Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasının həyata keçirilməsi nəticəsində dövlətin mühüm təsisatı kimi tamamilə yenidən formalaşan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə hərtərəfli müasirləşməklə fəaliyyəti təkmilləşdirilən Azərbaycan Prokurorluğu bu gün səlahiyyət hədləri daxilində insan hüquq və azadlıqlarının müdafiə edilməsində, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.

Bildiyiniz kimi, riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə son günlərdə düşmənin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc sakinlərimizə qarşı terror əməllərini davam etdirir, əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Qürurla bildirmək istəyirəm ki, Biz prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlarından istifadə edərək lazımı tədbirlərin görülməsi təmin ediləcəkdir.

Azərbaycan Prokurorluğunun dövlətçilik ideyalarına sadiq kollektivi, fəal vətəndaşlıq mövqeyində dayanan prokurorluq işçiləri daim onlara göstərilən etimadın məsuliyyətini dərindən dərk etmiş, fəaliyyətlərini xalqın və dövlətin maraqlarının, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, cinayətkarlığa qarşı barışmaz mübarizənin təmin olunmasına həsr etmişlər.

Əminliklə qeyd etmək istəyirəm ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında prokurorluq orqanları xalqımızın vətən müharibəsi üçün səfərbər olduğu belə bir həssas və çətin dönəmdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, mövcud hərbi vəziyyət dövründə ciddi nizam-intizama riayət olunmaqla hər zaman prioritet məsələ – dövlətimizin maraqlarının qorunması olacaqdır!

Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır! Qələbə bizimlədir!

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

# Baş Prokurorluqda şahmat turniri keçirilib










1 oktyabr Prokurorluq işçilərinin peşə bayramı münasibətilə Azərbaycan Respublikası Baş Prokurorluğunda prokurorluq əməkdaşları arasında şahmat turniri təşkil edilmişdir. 19 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsində keçirilmiş birinci turda 16 prokurorluq əməkdaşı iştirak etmiş və iştirakçılardan 4 nəfəri ikinci tura keçmişdirlər. 26 sentyabr 2020-ci il tarixində Azərbaycan Prokurorluğunun Tarix muzeyində keçirilmiş ikinci turun nəticələrinə görə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru Vüqar Quliyev üçüncü yeri, həmin idarənin prokuroru Seyhun Azadəliyev ikinci yeri və Maddi-texniki təminat şöbəsinin rəis müavini Əhməd Babayev isə birinci yeri tutmuşlar. Qaliblər Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev tərəfindən imzalanmış Fəxri Fərmanla təltif olunmuşlar.

# Baş Prokurorluq və Hərbi Prokurorluqda könüllü qanvermə aksiyası keçirilib






Ölkəmizdə talassemiya və hemofiliyalı xəstələr dövlət qayğısı ilə əhatə olunublar. Koronavirus pandemiyasının dünyada sürətlə yayıldığı bir vaxtda bu infeksiyaya daha çox immuniteti zəif və qanı normadan aşağı olan insanların yoluxma ehtimalını, onların risk qrupuna aid olduqlarını nəzərə alaraq, cəmiyyətin diqqətinin bu sosial məsələyə yönləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər.

Prokurorluq işçiləri qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək vermək, onlar üçün tədarük edilən qan ehtiyatını artırmaq məqsədilə sentyabrın 21-də Baş Prokurorluq və Hərbi Prokurorluqda keçirilən könüllü qanvermə aksiyasında iştirak ediblər.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının birgə təşkilatçılığı ilə xüsusi karantin rejimi qaydalarına riayət edilərək reallaşdırılan aksiyada könüllü prokurorluq əməkdaşları qana ehtiyacı olan vətəndaşlarımızın köməyinə çatmaq üçün həvəslə iştirak ediblər.

Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibbi briqadanın həkim-hemotoloqları







tərəfindən hər bir donorun sağlamlığı öncədən müəyyən olunaraq hərtərəfli tibbi müayinədən sonra onlardan qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirilib və səhhətində problemi olmayan donorlardan qan götürülüb.

Qanvermə zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər həyata keçirilib.

Götürülən qan nümunələri laboratoriyada müayinə edildikdən sonra talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən vətəndaşlarımıza yardım etmək məqsədilə istifadə olunacaq.

Növbəti gün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu və tabe rayon prokurorluqlarında da keçirilməsi planlaşdırılan bu xeyriyyə aksiyasının əsas məqsədi Respublika Talassemiya Mərkəzində qeydiyyata alınmış və qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək olmaqdır.

# Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən veteran prokurorluq işçiləri ilə görüş keçirilib



Sentyabrın 22-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən veteran prokurorluq işçiləri ilə görüş keçirilmişdir.

İştirakçıları salamlayan Baş prokuror Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra fəaliyyətində yeni bir dövrün başlandığı prokurorluq orqanları tərəfindən müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlərin, o cümlədən görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktlarının, dövlət əmlakının mənimsənilməsi və bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələrinin istintaq edildiyini bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daim prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqətin göstərildiyini vurğulayan Baş prokuror mühüm dövlət təsisatlarından biri kimi prokurorluq orqanlarının maddi-sosial bazası üçün yaradılmış təminatlar barədə söz açmışdır.

Tədbir zamanı Azərbaycan Prokurorluğunun sağlamlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülən işlər, cəmiyyətimizin və dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər diqqətə çatdırılmışdır.

Eyni zamanda, prokurorluq orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsində veteran prokurorluq işçilərinin səmərəli təcrübəsinə daim ehtiyacın olması qeyd olunmuşdur.

Daha sonra görüş zamanı Baş Prokurorluğun Kadrlar İdarəsinin rəisi Natiq Hüseynov prokurorluq



orqanlarında şərəfli yol keçmiş veteranlara son zamanlar prokurorluq orqanlarında həyata keçirilmiş kadr islahatları barədə məlumat vermişdir.

Tədbir zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 may 2020-ci tarixli Sərəncamı ilə "Əməkdar hüquqşünas" fəxri adı ilə təltif olunmuş Baş prokurorun sabiq müavinləri Rüstəm Usubov və Namiq Əsgərova dövlət mükafatları, prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Əmək veteranı" adı ilə təltif olunmuş bir qrup prokurorluq işçilərinə isə vəsiqələr təqdim edilmişdir.

Görüş zamanı prokurorluq orqanlarının keçdiyi inkişaf yolundan danışılmış, ötən günlər xatırlanmışdır. Prokurorluq orqanlarında uzun illər xidmət keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu vurğulayan veteran işçilər prokurorluq peşəsinin çox şərəfli və məsuliyyətli bir peşə olduğundan, ölkə rəhbərliyinin bu sahəyə xüsusi diqqət və qayğısından söz açmışlar.

Bundan başqa, veteran prokurorluq işçiləri insan hüquq və azadlıqlarının təmini, beynəlxalq hüquqi əməkdaşlıq sahəsində fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində təkliflər vermişlər. Təşkil olunan görüşə görə təşəkkürlərini bildirən veteranlar belə tədbirlərin keçirilməsinin vacibliyini diqqətə çatdıraraq gənc əməkdaşların prokurorluq veteranlarının təcrübəsindən daim yararlanaraq peşəkarlıqlarını artıracağını diqqətə çatdırmışlar.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində, hüquqi biliklərin təbliğində, ötən illərdən bağlı qalmış cinayətlərin açılmasında, habelə cinayətkarlığın profilaktikası və təhlükəsizliyin təminində veteranların təcrübəsindən, ictimai nüfuzundan, bilik və bacarıqlarından bundan sonra da yararlanılacağını vurğulamışdır.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.

# Sentyabrın 23-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələri ilə görüş keçirilib



Tədbirin məqsədi vətənimizin bütövlüyü uğrunda, cinayətkarlıqla mübarizə zamanı xidməti vəzifələrin icrası ilə bağlı şəhid olmuş prokurorluq əməkdaşlarının xatirəsini yad etmək olmuşdur.

Tədbiri giriş sözü ilə açan Baş prokuror şəhid prokurorluq əməkdaşlarının ailə üvlərinə dərin hörmətini ifadə edərək onların cinayətkarlıqla mübarizə zamanı Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini vurğulamışdır.

Tədbirdə çıxış edən şəhid prokurorluq əməkdaşlarının ailə üzvləri Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdiyi gündəlik diqqət və qayğıdan söz açmış, şəhid ailələrinin sosial müdafiəsinin təmin edilməsi üçün kompleks işlər görülməsindən bəhs etmişlər.

Görüş zamanı çıxış edən sabiq Baş prokuror İsmət Qayıbovun oğlu İsmayıl Qayıbov, Qubadlı rayonunun sabiq prokuroru Nizami Ağayevin həyat yoldaşı İradə Ağayeva, Samux rayonunun sabiq prokuroru Şəmşir Əliyevin həyat yoldaşı Gültəkin Əliyeva, Qubadlı rayon prokurorluğunun sabiq müstəntiqi Eyyub Vəliyevin həyat yoldaşı Flora Vəliyeva baş vermiş hadisələrlə bağlı ötən xatirələri bölüşərək prokurorluq orqanları əməkdaşları tərəfindən göstərilən dəstək və qayğıdan məmnunluqlarını ifadə etmişlər.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli ilə bağlı bundan sonra da daim işlər görüləcəyini qeyd etmiş, prokurorluq orqanlarının onlara hər zaman dəstək olacağını nəzərə çatdırmışdır.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.

# Prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluqda ictimai əsaslarla çalışan könüllü gənclərlə görüş keçirilib



Sentyabrın 24-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluğun ictimai köməkçiləri ilə görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Baş prokuror Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ötən illər ərzində həyata keçirilmiş ardıcıl və sistemli tədbirlər nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atıldığını qeyd etmiş, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradıldığını vurğulamışdır.

Prokurorluq orqanlarında ictimai köməkçi qismində fəaliyyətin prokurorluqda kadr siyasətinin həyata keçirilməsi üçün ictimaiyyətlə qarşılıqlı əlaqələrin qurulması, yüksək peşə hazırlıqlı kadr




ehtiyatının formalaşdırılması, prokurorluqda işləmək arzusunda olan gənclərə bu dövlət orqanının fəaliyyətinin məzmunu və iş şəraiti ilə tanışlıq imkanının yaradılması, onların bilik, bacarıq və peşə vərdişlərinin artırılması məqsədi daşıdığını qeyd edən Baş prokuror ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasətinin prokurorluq orqanlarında da davam etdirilməklə gənc kadrların müsabiqə yolu ilə işə qəbulu nəticəsində prokurorluğun kadr tərkibinin 70 faizinin məhz gənclərin hesabına formalaşdırıldığını nəzərə çatdırmışdır.

Daha sonra görüş zamanı Baş Prokurorluğun Kadrlar İdarəsinin rəisi Natiq Hüseynov prokurorluq orqanlarında dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilmiş islahatlar, könüllülər üçün yaradılan geniş imkanlar, könüllülük hərəkatının daha da inkişaf etdirilməsi məqsədilə görülən işlər barədə ətraflı məlumat vermişdir.

Tədbir zamanı çıxış edən gənclər ictimai köməkçi qismində fəaliyyət göstərdikləri müddət ərzində prokurorluğun fəaliyyət istiqamətləri ilə görülmüş işlərlə yaxından tanış olaraq, yeni bilik və bacarıqlar qazandıqlarını, öyrəndikləri nəzəri biliklərin praktiki işdə həyata keçirmək imkanı əldə etdiklərini qeyd etmişlər.

Prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydalarının, o cümlədən xidməti və prosessual sənədlərin layihəsinin tərtibinə dair təlimatların dərindən öyrənməsi üçün hər cür şəraitin yaradıldığını vurğulayan gənclər uğurla həyata keçirilən dövlət gənclər siyasətinin gələcək nəslin intellektual səviyyəsinin artmasına olduqca müsbət təsir göstərdiyini bildirmişlər.






Tədbirə yekun vuran Baş prokuror prokurorluqda ictimai əsaslarla çalışan könüllü gənclərə dövlətə və dövlətçiliyə sadiqliyin, vətənpərvərliyin vacibliyini vurğulayaraq onlara dünyagörüşü səviyyələrinin, o cümlədən xarici dil biliklərinin inkişaf etdirilməsi ilə bağlı daim üzərlərində çalışmalarının əhəmiyyətindən söz açmış, gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu edərək, uğurlu iş həyatının formalaşdırılması ilə bağlı tövsiyələrini vermişdir.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunda videokonfrans keçirilib

Prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Prokurorluğunun yaranması və inkişaf tarixi, prokurorluq orqanlarının formalaşma mərhələləri, hüquqi statusu və dövlət hüquq sistemində yeri mövzusunda 25 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərliyi ilə videokonfrans keçirilmişdir.




Peşə bayramı ərəfəsində həyata keçirilən tədbirlərin davamı olan bu konfransda Baş Prokurorluğun, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikasının, Naxçıvan Muxtar Respublikasının Hərbi, tabe rayon (şəhər) prokurorluqlarının 60 əməkdaşı iştirak etmişdir.

Konfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorun müavini Heydər Məmmədov konfrans iştirakçılarını qarşıdan gələn prokurorluq işçilərinin peşə bayramı münasibətilə təbrik edərək, ölkə başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq hazırda ölkəmizdə həyata keçirilən yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatlar, dövlət idarəçiliyinin bütün sferalarında mütərəqqi kompleks tədbirlər barədə məlumat vermiş, bu islahatların əsas istiqamətlərindən olan məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesinin Azərbaycan Prokurorluğunu da əhatə etməsini və yenilənmə prosesində əldə edilmiş nəticələri konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra videokonfransda Baş Prokurorluğun idarə rəisləri Natiq Hüseynov, Fazil Həsənəliyev, Ceyhun Kazımov, Aynur Osmanova, Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, Bakı şəhəri Xətai rayon prokuroru Sərdar İmanov, Hərbi Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Səməd Əliyev, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Talıb Cəfərov prokurorluğun yaranması və inkişaf tarixi, prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, o cümlədən məqsəd və hədəflər barədə müvafiq mövzularla ətraflı çıxışlar etmişlər.

Çıxışlardan sonra videokonfrans iştirakçıları arasında faydalı fikir mübadiləsi və müzakirələr aparılmışdır.

Sonda Baş prokurorun müavini tərəfindən seminara yekun vurulmuşdur.

# Prokurorluq əməkdaşları uşaq evlərini ziyarət ediblər



Sentyabrın 25-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, Maddi-texniki təminat şöbəsinin rəisi Rahim Səfəralıyev və digər prokurorluq əməkdaşları, Bakı şəhər İcra Hakimiyyətinin nümayəndəsi ilə birlikdə paytaxt ərazisində yerləşən müxtəlif uşaq evlərini ziyarət etmişlər.

Baş Prokurorluğun əməkdaşları uşaq evlərinin sakinləri ilə görüşərək onlarla söhbət etmiş, müxtəlif yaş qruplarına ayrılan uşaqlara hədiyyələr təqdim etməklə onların vəziyyətləri ilə yaxından maraqlanmışlar.



Sonda tədbir iştirakçıları uşaqlarla xatirə fotoşəkilləri çəkdirmişlər.

Prokurorluq əməkdaşları tərəfindən bu kimi xeyriyyə tədbirlərinin gələcəkdə də keçirilməsi nəzərdə tutulur.





# Azərbaycan Prokurorluğunun yaradılmasının 102-ci ildönümü qeyd olunub





Azərbaycan Prokurorluğunun yaradılmasının 102-ci ildönümü münasibətilə Baş Prokurorluğun Kollegiya üzvləri oktyabrın 1-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad etmiş, abidəsi önünə gül dəstələri qoymuşlar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə tər çiçəklər düzülmüşdür.

Şəhidlər xiyabanına gələn Kollegiya üzvləri Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirmiş, "Əbədi məşəl" abidəsini ziyarət etmişlər.





Daha sonra Baş Prokurorluqda milli prokurorluğun yaradılmasının ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirmişdir ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, milli maraqlarımıza xidmət edən bir təsisat kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin

həyata keçirdiyi dövlətçilik siyasəti nəticəsində mümkün olmuşdur. Ulu öndərin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gündəlik diqqət və qayğısı sayəsində bu gün Azərbaycan Prokurorluğu insan hüquq və azadlıqlarının müdafiə edilməsində, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.

Qeyd edilmişdir ki, dövlətimizin qüdrətlənməsinə, sosial yönümlü siyasətin reallaşdırılmasına, bütövlükdə həyata keçirilən hərtərəfli islahatlara və görülən böyük işlərə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verməkdədir.

Diqqətə çatdırılmışdır ki, 2020-ci il prokurorluq orqanları üçün əlamətdar olmaqla prokurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunmuşdur. Prezident cənab İlham Əliyev tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatı ilə əlaqədar Kamran Əliyev videoformat qaydasında qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti vurğulanmaqla prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur. Həmin vəzifələrin və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair göstərişlərinin icrası üzrə 2020-ci il üçün Fəaliyyət Planı” təsdiq olunaraq icrası vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmiş, çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Belə ki, prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə dövlət başçısının 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, daha mobil və dinamik idarəetməni təmin etmək məqsədilə idarə və şöbələrinin sayı 15-dən 18-ə çatdırılmışdır.

Qısa müddət ərzində struktur qurumlar və rayon (şəhər) prokurorluqları arasında işgüzar münasibətləri müasir tələblər səviyyəsində tənzimləmək, icra və intizam, kadrlarla iş, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini təmin etmək üçün milli qanunvericiliyin tələbləri və beynəlxalq təcrübə nəzərə alınmaqla Baş Prokurorluq üzrə “İşin Təşkili Qaydaları” təsdiq edilmişdir.

Qeyd edilmişdir ki, prokurorluq orqanlarının inkişaf istiqamətlərini və hədəflərini müəyyənləşdirən yenicə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası” qurumun qarşısında duran vəzifələrin yerinə yetirilməsində uğurlu nəticələrin əldə olunmasına, fəaliyyətin təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına şərait yaradacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş prokuror bildirmişdir ki, riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə son günlər düşmənin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc sakinlərimizə qarşı terror əməllərini davam etdirir, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Qeyd edilmişdir ki, prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlarından istifadə edərək lazımı tədbirlərin görülməsi təmin ediləcəkdir.

Mərasimdə inam ifadə olunmuşdur ki, prokurorluq orqanları xalqımızın Vətən müharibəsi üçün səfərbər olduğu belə bir həssas dönəmdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlət müstəqilliyimizin və milli maraqlarımızın, cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə bütün səylərini səfərbər edəcəkdir.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**

**№ 10/958k**

Bakı şəhəri 30 sentyabr 2020-ci il

**Elnur Rüstəmov haqqında**

Füzuli rayon prokuroru I dərəcəli hüquqşünas **Rüstəmov Elnur Rəşid oğluna** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 17.3.3-cü, 18.10-cu və 23.1.6-cı maddələrinə müvafiq olaraq mükafatlandırma qaydasında vaxtından əvvəl növbəti kiçik ədliyyə müşaviri xüsusi rütbəsi verilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**

**№ 10/960k**

Bakı şəhəri 30 sentyabr 2020-ci il

**Əli Babayev haqqında**

Gədəbəy rayon prokuroru I dərəcəli hüquqşünas **Babayev Əli İbrahim oğluna** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 17.3.3-cü, 18.10-cu və 23.1.6-cı maddələrinə müvafiq olaraq mükafatlandırma qaydasında vaxtından əvvəl növbəti kiçik ədliyyə müşaviri xüsusi rütbəsi verilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

# Müasir dövlət quruculuğunda prokurorluğun yeri və rolu

*"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Dünya şöhrətli ictimai-siyasi xadim, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi konseptual daxili və xarici siyasət, zamanın tələbi ilə səsləşən praqmatik islahatlar ölkə həyatında yeni intibahın başlanmasının əsasını qoymuşdur.



Müasir dövrün reallıqları və inkişaf perspektivləri nəzərə alınmaqla iqtisadiyyatın davamlı tərəqqi modelinə transformasiya olunması, yeni çağırışlar fonunda həyata keçirilmiş strateji yol xəritələri makroiqtisadi dayanıqlılığın qorunub saxlanmaqla qlobal böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatların həyata keçirilməsi üçün real imkanlar yaratmışdır.

Mərkəzində Azərbaycan vətəndaşı, onun sosial-rifah halının davamlı olaraq yüksəldilməsi dayanan ölkə başçısı cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti dövlətimizin koronavirus pandemiyasının mənfi təsirlərini layiqli qarşılamaqla zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirdi.

Qeyd edilməlidir ki, dövlətimizin qüdrətlənməsinə, pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, sosialyönümlü siyasətin reallaşdırılmasına, insanları narahat edən problemlərin aradan qaldırılmasına, bütövlükdə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlara və görülən böyük işlərə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verməkdədir.

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyində çağdaş yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən, məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin "Respublika Prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından

biridir" sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Dahi rəhbərin prokurorluğa olan diqqət və qayğısının davamı hesab edilən 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i Respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Həmin təntənəli yığıncaqda Ulu Öndərin "Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" sözləri bu gün də hər bir prokurorluq işçisi tərəfindən iftixar hissi ilə yad edilir.

Xüsusi qeyd edilməlidir ki, Ümummilli Lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi müstəsna əhəmiyyətə malik görüşü Azərbaycan Prokurorluğunun demokratik məzmunda yenilənməsinə və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratmışdır.

Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, bu sahədə işin təşkilinə məsul olan hüquq mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması və əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılmışdır.

Dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsi baxımından xüsusi önəmə malik bir addım olmuşdur.

Bu gün dövlət başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə müasir məzmunlu islahat tədbirləri davam etdirilməklə şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

Dövlət başçısı tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən səsləndirilən "Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq" sözləri prokurorluq orqanlarında beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanmaqla müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisinə adekvat dəyişikliyin aparılmasını zəruri etmişdir.

Cənab Prezidentin korrupsiyaya qarşı daha fəal iş görülməsi, struktur və kadr islahatları aparmaqla prokurorluğun yüksək standartlara və müasir tələblərə cavab verən qurum kimi formalaşdırılmasını tövsiyə etməsi, eləcə də ölkənin hazırkı inkişaf mərhələsində aktual olan məsələlərlə bağlı vurğuladığı digər vacib məqamlar prokurorluq orqanlarında cari islahatların ilkin mərhələsinin təməlini qoymuşdur.

Həmin görüşdən keçən qısa müddət ərzində prokurorluğun cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və keyfiyyətinin artırılması məqsədilə əsaslı struktur və kadr islahatları həyata keçirilmiş, funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə işin təşkilinə dair vahid mexanizmlər müəyyən edilmişdir.

Qeyd etməliyəm ki, dövlət başçısının rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, eləcə də, prokurorluğa ictimai etimadın gücləndirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi və müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması ilə bağlı tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada davamlı və ardıcıl, müasir çağırışlara cavab verən islahatlar aparılmasın. Bu baxımdan, 2020-ci il prokurorluq orqanları üçün əlamətdar olmaqla pro-

kurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunacaqdır. Cənab Prezident İlham Əliyev tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti vurğulanmaqla prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur.

Həmin vəzifələrin və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə geniş Fəaliyyət Planı təsdiq olunaraq görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmiş, çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Belə ki, prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə dövlət başçısı cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, bununla da Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq Baş prokurorun yeni müavini ştatı təsis edilmiş, daha mobil və dinamik idarəetmə məqsədilə Baş Prokurorluğun idarə və şöbələrinin sayı 15-dən 18-ə çatdırılmış, bəzi idarələr ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis olunmuş, həmçinin mərkəzi aparatın yeni, Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Eyni zamanda Baş Prokurorluq üzrə müvafiq əmrlərlə prokurorluğun sisteminə daxil olan Azərbaycan Respublikasının Hərbi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi, Bakı şəhər prokurorluqlarının, eləcə də Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin yeni strukturu təsdiq edilmişdir.

Bundan əlavə, qısa müddət ərzində idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini təmin etmək üçün milli qanunvericiliyin tələbləri və beynəlxalq təcrübə nəzərə alınmaqla Baş Prokurorluq üzrə "İşin Təşkili Qaydaları" təsdiq edilməklə 1 avqust tarixindən qüvvəyə minmişdir.

Qaydalar səlahiyyətləri dəqiq təsbit edilmiş struktur qurumlar və rayon (şəhər) prokurorluqları arasında münasibətləri müasir tələblər səviyyəsində tənzimləmiş, həmçinin Qaydalarda Baş Prokurorluğun strukturuna daxil olmayan konkret vəzifənin icrası üçün təsis olunmuş Ad hoc qurumların funksiyaları təsbit olunmuşdur.

Qeyd edilməlidir ki, qaydaların hazırlanmasında prokurorluğun fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktların əhəmiyyətli hissəsindən istifadə olunmuş, müasir tələblərə cavab verməyən, əhəmiyyətini itirmiş əmrlər isə ləğv olunmuşdur.

Baş Prokurorluğun və struktur qurumların "İşin Təşkili Qaydaları", eləcə də hazırlanmaqda olan "Azərbaycan Respublikası Prokurorluğunun Strateji İnkişaf Konsepsiyası" prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində uğurlu nəticələrin əldə olunmasına, fəaliyyətin təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına şərait yaradacaqdır.

Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri Azərbaycanda həyata keçirilməkdə olan sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq daha intensiv xarakter almışdır. Ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri konkret əməli-praktiki addımlarla müşayiət olunmuşdur.

Aparılan genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərməklə dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına mühüm töhfə verən, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan "ASAN xidmət" mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 20 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən müddətdə xidmətə 38 milyondan çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə DOST mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət və cəmiyyət arasında olan həmrəyliyin bariz nümunəsidir.

Eyni zamanda ölkəmizdə həyata keçirilən hüquq islahatları mövcud sosial-iqtisadi tendensiyanı tamamlamaqla ona paralel aparılan və azad bazar iqtisadiyyatı prinsiplərinin təbiətinə uyğun olan bir konsepsiya şəklində reallaşdırılmışdır.

Təsadüfi deyil ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş uğurlar mötəbər beynəlxalq qurumların hesabatlarında da öz əksini tapmışdır.

"Beynəlxalq Şəffaflıq" təşkilatının (Transparency International) 2019-cu il üçün hesabatında Azərbaycanın Korrupsiya Qavrama İndeksi üzrə 26 pillə irəliləməsi bunun əyani təsdiqidir.

Bununla yanaşı, korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar hesab edilən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumlar tərəfindən də ölkəmizdə dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar və əldə edilən nailiyyətlər yüksək qiymətləndirilmişdir.

Belə ki, GRECO-nun 2019-cu il üzrə fəaliyyətini əks etdirən hesabatında Azərbaycana verilən yüksək qiymət bunu bir daha təsdiqləmiş, sənədə əsasən ölkəmiz verilmiş tövsiyələrin əksəriyyətini icra etməklə əldə olunan göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında isə 1-ci yerdə qərarlaşmışdır.

Göstərilən uğurların əldə olunmasında digər dövlət qurumları ilə yanaşı, prokurorluq orqanları tərəfindən də zəruri tədbirlərin görülməsi təmin olunmuş, Ulu Öndərin "Korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq mühafizə orqanlarından daha çox səmərəli iş tələb olunur" sözləri daim əsas götürülməklə bu sahədə kəsərli addımların atılması təmin edilmişdir.

Ötən ilin peşə bayramından keçən müddət ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 290 şəxs barəsində 194 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, ümumilikdə istintaqı yekunlaşmış işlər üzrə vurulmuş maddi ziyandan ibtidai araşdırma mərhələsində 65 milyon 510 min manatın ödənilməsi və 11 milyon 877 min manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Eyni zamanda koronavirus pandemiyası ilə əlaqədar dövlət səviyyəsində həyata keçirilən sosial-iqtisadi tədbirlərdən sui-istifadə edən vəzifəli şəxslərə, kölgə iqtisadiyyatı subyektlərinə, o cümlədən qara mühasibatlıq aparmaqla dövlət nəzarətindən və qeydiyyatından gizli şəkildə qanunsuz fəaliyyət göstərən möhtəkirlərə qarşı effektiv mübarizə tədbirləri aparılmaqdadır.

Qeyd edilənlərdən əlavə, son dövrlər geniş ictimai rezonansa səbəb olmuş yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin fəaliyyətində aşkar olunan qanunsuz hallarla əlaqədar Dövlət Təhlükəsizliyi Xidməti və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində başlanmış cinayət işləri üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Dövlət başçısı cənab İlham Əliyevin "Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalı və bunun kökü kəsilməlidir" göstərişinə uyğun olaraq prokurorluq orqanları tərəfindən ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Ölkəmizin möhkəm təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafı, milli dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən qorunması, kriminogen durumun nəzarətdə saxlanmaqla Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının təminatı dövlətimizin hüquq siyasətinin prioritetlərindəndir.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əldə olunan misilsiz nailiyyətlərin qorunmaqla davamlı uğurların əldə edilməsi prokurorluq orqanları tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni neqativ tendensiyalarla, mütəşəkkil, transmilli cinayətkarlıqla səmərəli mübarizə aparılmasını tələb edir.

Prokurorluğun istintaq qurumları tərəfindən cinayətlərin müəyyən edilməsi, qarşısının alınması, onu törədənlərə qarşı qanunla müəyyən edilmiş təsir tədbirlərinin tətbiq edilməsi üzrə effektiv fəaliyyətin təşkili qarşıda duran əsas vəzifələrdən biri hesab edilmişdir.

Bu məqsədlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər Prokurorluğunun İstintaq İdarəsi ləğv olunaraq, onların bazasında Baş Prokurorluğun İstintaq İdarəsi təşkil edilmiş, həmçinin prokurorluqda və müvafiq icra hakimiyyəti orqanlarında ibtidai araşdırmaya prosessual rəhbərlik və nəzarət funksiyaları Baş prokurorun 2 müavini arasında bölüşdürülmüş, rayon, şəhər və ərazi hərbi prokurorlarının prosessual müstə-

qilliklərini məhdudlaşdıran normalar ləğv olunmuşdur.

Həyata keçirilmiş islahatların və əməliyyat-axtarış fəaliyyətini yerinə yetirən orqanlarla işin düzgün təşkili nəticəsində cari ilin iyul ayının 14-dən 15-nə keçən gecə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasında bir qrup şəxs tərəfindən ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan əməllərin təşkil edilərək törədilməsi və sair faktlara dair ibtidai istintaqı aparılan cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin operativ surətdə müəyyənləşdirilməsi, ölkə xaricində yaşamaqla dövlətin konstitusiya quruluşunun əsaslarına, ictimai təhlükəsizliyə qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb olunmaları, ötən illərdən bağlı qalmış bir çox qəsdən adam öldürmə və digər cinayətlərin açılması təmin olunmuşdur.

Cinayətlərin strukturunda, dinamikasında və inkişaf meyillərində dəyişikliklərin baş verməsi cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının müasir metodlardan, üsul və vasitələrdən, elmi-texniki tərəqqinin nailiyyətlərindən daha geniş istifadəsini şərtləndirir.

Eyni zamanda müstəntiqlərin taktiki məharətlərinin artırılması, rəqəmsal və nano texnologiyaların imkanlarından geniş istifadə etməklə kriminalistik tədqiqatların aparılması və bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi ibtidai istintaqın yüksək standartlar səviyyəsində təşkilinə zəmin yaradacaqdır.

Bu sahədə həmçinin, müasir texnologiyanın inkişafı fonunda ortaya çıxan və əsasən qlobal İnternet məkanında inkişaf edən yeni növ iqtisadi cinayətlərə, kibercinayətkarlığa və kibertəhdidlərə qarşı mübarizə imkanlarının genişləndirilməsi məqsədilə aidiyyəti qurumlar və beynəlxalq tərəfdaşlarla zəruri tədbirlərin görülməsi planlaşdırılmışdır.

Qarşıdakı müddət ərzində nəzərdə tutulmuş tədbirlərin realizəsi cinayət işləri üzrə tez bir zamanda obyektiv həqiqətin müəyyən edilməsi, təqsirli şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi kimi ibtidai istintaqın qarşısında duran ən vacib vəzifələrin öhdəsindən layiqincə gəlməyə imkan verəcəkdir.

Cinayətlərin böyük qisminin latent şəraitdə törədilməsi nəzərə alınaraq istintaq orqanlarının əməliyyat-axtarış qurumları ilə qarşılıqlı əməkdaşlığı təkmilləşdirilməklə cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların kompleks analizi ölkədə kriminogen durumun istənilən səviyyədə qorunub saxlanmasına təminat yaradacaqdır.

Əminliklə qeyd etməliyəm ki, istintaq qurumlarının qarşısında duran vəzifələrin icrası cinayət təqibinin səmərəliliyinin artırılmasına, ölkədə ictimai-siyasi sabitliyi pozmaqla çirkin niyyətlərinə çatmağı hədəfləyən şəxslərin cinayətkar qəsdlərinin qarşısının alınmasına, bütövlükdə cəmiyyətimizin və dövlətimizin tərəqqisinə xidmət edəcəkdir.

Ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi prokurorluğun digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin əsasını təşkil etməkdədir.

Hüquq mühafizə orqanlarının fəaliyyətində məhkəməyədək aparılan təhqiqat və istintaqa prosessual rəhbərliyi, həmçinin qanunların icra və tətbiq olunmasına nəzarəti Konstitusiya ilə nəzərdə tutulmuş qaydada həyata keçirən prokurorluq orqanları dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Bu baxımdan hüquq normalarının pozulmasının müəyyən edilməsi və qarşısının alınması, ibtidai araşdırma zamanı süründürməçilik hallarına yol verilməməsi, cinayətlərin tezliklə və tam açılması, cinayət prosesi iştirakçılarının hüquqlarının qanunsuz məhdudlaşdırılmasına imkan verilməməsi prokurorun qanunla nəzərdə tutulmuş vəzifələrinin əsasını təşkil edir.

İbtidai araşdırmaya prosessual rəhbərliyinin məqsədi istintaqın yüksək peşəkarlıq səviyyəsində aparılmasının, qanun pozuntularına yol verilməsinin qarşısının alınmasının, cinayət əməli törətmiş hər bir şəxsin ifşa edilərək cinayət məsuliyyətinə cəlb edilməsinin, təqsiri olmayan şəxsin məsuliyyətə cəlb edilməməsinin, cinayət işlərinin tam və obyektiv araşdırılmasının təmin edilməsindən ibarətdir.

Qeyd edilməlidir ki, ibtidai araşdırmaya prosessual rəhbərlik istintaq orqanlarının fəaliyyətinin qanuniliyini təmin etməyin mühüm üsulu olmaqla prokurorluğun qarşısında duran əsas vəzifələrdən biri ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsindən ibarətdir.

Bununla yanaşı, cinayət prosesində prokurorun əsas funksiyalarından biri də cinayət barədə məlumat daxil olduğu andan işin məhkəməyə göndərildiyi vaxta qədər təhqiqat və ibtidai istintaq orqanlarının qanunlara əməl etməsi vəziyyətini izlə-

məyə imkan verən prokuror nəzarəti fəaliyyətidir. Bu proses zamanı qanun pozuntularının qarşısını almaq, onları müəyyən etmək və aradan qaldırmaq, təhqiqat və istintaq orqanlarının qanunsuz hərəkətləri ilə fiziki şəxslərin pozulmuş hüquqları və qanuni mənafelərini bərpa etmək üçün prokurora qanunvericiliklə geniş səlahiyyətlər verilmişdir.

Prokurorluq, daxili işlər, dövlət təhlükəsizliyi, ədliyyə, gömrük, vergi, dövlət sərhəd və fövqəladə hallar orqanlarının prosessual fəaliyyətlərinin qanunauyğunluğunun təmin olunmasına yönəlmiş prokuror nəzarəti institutu cinayətkarlıqla mübarizədə və cinayət işləri üzrə aparılan ibtidai araşdırmada qanunçuluq prinsipinin möhkəmləndirilməsinə geniş imkan yaradır.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə 2002-ci ildən başlayaraq keçirilən 21 müsabiqə əsasında hazırda prokurorluq işçilərinin 70 faizini təşkil edən gənc hüquqşünasların işə qəbul edilməsi aparılan uğurlu islahatların məntiqi nəticəsi olmuşdur.

Dövlət başçısının mayın 1-də Baş prokuror vəzifəsinə yeni təyinatla əlaqədar qəbul edərkən səsləndirdiyi "Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, həm də prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar" tövsiyəsi əsas götürülməklə qısa müddət ərzində aparılmış kadr islahatları nəticəsində müasir çağırışlara cavab verən və yüksək peşəkarlıqları ilə seçilən 100-dən artıq prokurorluq işçisi, o cümlədən dövlətimiz tərəfindən həyata keçirilən gender bərabərliyi siyasətinin uğurlu davamı kimi 8 qadın əməkdaş rəhbər vəzifələrə təyin edilmişlər.

Bununla yanaşı, təəssüflə qeyd etməliyəm ki, ötən peşə bayramından keçən dövr ərzində öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən, nəzəri və peşə hazırlığını artırmaq üçün səy göstərməyən 52 əməkdaş intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 8-i tutduğu vəzifədən azad edilmiş, 4-ü isə prokurorluq orqanlarından xaric olunmuşdur.

Prokurorluğun kadr korpusunun keyfiyyətinin artırılması və vəzifədə irəli çəkilmə üçün kadr ehtiyatının formalaşdırılması, müxtəlif nəsil prokurorluq işçiləri arasında sağlam varisliyin təmini, perspektivli gənc mütəxəssislər hesabına yenilənmə, kadr siyasətinin günün tələbləri, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla ədalət və şəffaflıq meyarları əsasında həyata keçirilməsi prioritet hədəflərdir.

Diqqətə çatdırmalıyam ki, hüquqi biliklərlə yanaşı, geniş dünyagörüşünə, xüsusilə xarici dil biliklərinə yiyələnmiş mənəvi keyfiyyətləri ilə seçilən gənc hüquqşünasların prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq məqsədilə 80 ştat vahidi üzrə cari ildə elan edilmiş müsabiqə ilə bağlı sənəd qəbulu davam etdirilir.

Eyni zamanda 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi ilə əlaqədar "könüllülük hərəkatının" prokurorluqda da davamlılığının təmin olunması məqsədilə hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclərin institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili üçün 162 tələbənin ictimai köməkçi qismində prokurorluq orqanlarının fəaliyyətinə cəlb edilməsi təmin edilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsi, hüquq elminin inkişafı və Avropa hüquq təcrübəsinin tətbiqi ilə əlaqədar prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması vacib istiqamətlərdən biridir.

Prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə yaradılmış Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti bu cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Prokurorluq işçiləri ilə yanaşı, hüquqşünas alimlər, dövlət qurumlarının əməkdaşları və digər mühafizə hüquq orqanlarının təcrübəli işçilərindən ibarət şura ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasını, qanunların icra və tətbiq olunmasına

prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarının müəyyən edilməsini təmin edəcəkdir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə ölkəmizin aparıcı elm və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin tədris müəssisələri, hüquq mühafizə orqanlarının akademiyaları ilə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün zəruri tədbirlər görülməkdədir.

Ölkəmizin dünya birliyinə inteqrasiyası, artan qloballaşma meyilləri və informasiya texnologiyalarının sürətli inkişafı fonunda cinayətkarlığın yeni formalarının qarşısının dövlətlərin birgə səyi nəticəsində alınmasının mümkünlüyü hüquq mühafizə orqanlarının, o cümlədən Azərbaycan Respublikası Prokurorluğunun digər ölkələrin müvafiq qurumları ilə sıx əməkdaşlıq etməsini, beynəlxalq təşkilatlarda iştirakını zəruri edir.

Beynəlxalq qurumlarla və tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilərək ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə beynəlxalq müqavilə və konvensiyalarda təsbit edilmiş öhdəliklərin icrasında öz səlahiyyətləri çərçivəsində fəal iştirak edən prokurorluq orqanları tərəfindən əməkdaşlığın genişləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi davam etdirilmişdir.

Koronavirus pandemiyasının yaratdığı məhdudiyyətlərə baxmayaraq, ötən illərdə olduğu kimi, müxtəlif beynəlxalq təşkilatlarla - Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) və digərləri, eləcə də bir çox ölkələrin prokurorluq orqanları ilə əməkdaşlıq uğurla davam etdirilmiş, prokurorluq işçiləri videoformat rejimində çoxsaylı tədbirlərdə iştirak etməklə ölkəmizi təmsil etmişlər.

Qeyd edilməlidir ki, pandemiyanın digər sahələrdə olduğu kimi, xüsusilə ekstradisiya məsələlərində çətinliklər yaratdığı bir zamanda prokurorluq orqanları tərəfindən digər aidiyyəti qurumlarla birgə zəruri tədbirlər görülərək cinayət törətməklə istintaqdan gizlənmiş şəxslərin Azərbaycana ekstradisiya olunmaları təmin edilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndiyi, ikitərəfli və regional əməkdaşlıq sahəsində böyük uğurlar əldə edildiyi bir şəraitdə ölkə prokurorluğunun beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi, dünya dövlətlərinin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Günümüzün prokurorluq orqanları qarşımızda duran mühüm vəzifələrin əhəmiyyətini anlayaraq "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə səmərəliliyə və operativliyə nail olunmasını, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təminini diqqət mərkəzində saxlamaqla işin keyfiyyətcə yeni mərhələyə qalxmasını və daha çevik yerinə yetirilməsini əsas tələblər kimi müəyyənləşdirmişdir.

Prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cəzanın labüdlüyü prinsipinin təmin olunması, vətəndaşların pozulmuş hüquqların təxirə salınmadan bərpası üçün effektiv fəaliyyət mexanizminin qurulması üçün zəruri tədbirlər həyata keçirilməkdədir.

Prokurorluq işçiləri bundan sonra da ölkəmizdə həyata keçirilən hüquqi dövlət quruculuğu prosesində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak edərək, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə tam gücləri ilə işləyərək dövlətimizin daha da inkişafına xidmət göstərəcəklər.

Sonda dövlət başçısını və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, prokurorluq orqanları millətimizin vətən müharibəsi üçün səfərbər olduğu belə bir həssas və çətin dönəmdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlardan istifadə olunmaqla lazımi tədbirlərin görülməsini təmin edəcəklər.

**Kamran Əliyev,**
*Azərbaycan Respublikasının Baş prokuroru,*
*II dərəcəli dövlət ədliyyə müşaviri.*

*01.10.2020-ci il tarixli "Azərbaycan" qəzetində dərc edilmişdir.*

# Prokurorluğun uğurları ədalətin zəfərini şərtləndirir

*"...Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir...".*

**Heydər Əliyev**
**Azərbaycan Xalqının Ümummilli Lideri**

*"...Əminəm ki, Azərbaycan Prokurorluğunun əməkdaşları bundan sonra da qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edəcək, cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq nümayiş etdirəcək və onların üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcəklər...".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

**Durmadan çiçəklənən Azərbaycan**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və zamanı önləyən siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, iqtisadiyyat güclənir, müxtəlif sahələrdə mütəmadi olaraq səmərəli islahatlar həyata keçirilir, regionların tarazlı tərəqqisinin davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, bütün bunların nəticəsində dövlətimiz sürətlə inkişaf edərək daha da qüdrətlənir və Vətənimiz Azərbaycan dünya ölkələri sırasında tutduğu layiqli mövqeyini hərtərəfli möhkəmləndirir. Planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, eləcə də bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyasına rəğmən, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl daxili və xarici siyasət sayəsində ölkəmiz hazırda da eyni templə inkişaf edir və doğma Azərbaycanımız durmadan çiçəklənir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir. Dünyada gedən neqativ proseslərlə əlaqədar olaraq yaranmış beynəlxalq iqtisadi böhran vəziyyətinin fəsadları Azərbaycan iqtisadiyyatına az da olsa sirayət etsə də, qürurverici və sevindirici haldır ki, dövlət başçısının operativ və səmərəli iqtisadi siyasəti, bilavasitə onun tapşırığı ilə görülən qabaqlayıcı tədbirlər nəticəsində ciddi təsir göstərməmişdir. Reallaşdırılması nəzərdə tutulan tədbirlərdən və işlərdən heç birinin, o cümlədən hər hansı bir sosial layihənin icrasının təxirə salınmaması bunun təzahürüdür. Vurğulanmalıdır ki, ölkəmizdə gedən sürətli inkişaf beynəlxalq təşkilatlar tərəfindən də hər zaman yüksək qiymətləndirilir. Belə ki, BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatında Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşmış və bu göstərici ilə regionun lideri olmuşdur. Bundan başqa, Davos Ümumdünya İqtisadi Forumuna əsasən islahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə Azərbaycan dünyada birinci onluqda qərarlaşmış, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2020" hesabatında isə 20 ən islahatçı dövlət siyahısına daxil edilməklə, dünyanın bir çox ölkələrini geridə qoymuşdur.

Sirr deyil ki, dövlətimizin qüdrətlənməsində və əldə olunan uğurlarda, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan nəcib insanın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Onun Respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və

digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü böyük işlər dövlətimizin tərəqqisinə və xalqın rifahının yaxşılaşdırılmasına töhfələr verməkdədir. Qeyd olunanlar, eləcə də Mehriban xanımın sadəliyi, təvazökarlığı, səmimiliyi, bütün məsələlərdə ədalətli mövqeyi, vətəninə və xalqına bağlılığı, insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri ona sonsuz xalq məhəbbətini qazandırmışdır. Mehriban xanımın bəşər mədəniyyətinin inkişafı istiqamətindəki səriştəli fəaliyyəti, sivilizasiyalararası dialoq prosesinə verdiyi töhfələr və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər isə ona Azərbaycan xalqının sevgisi ilə bərabər, bir sıra xarici ölkə vətəndaşlarının da rəğbətini qazandırmışdır. Təsadüfi deyildir ki, Mehriban xanım Əliyevanın gördüyü nəhəng işlərin sədası dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrindən gəlir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizdə aparılan mükəmməl siyasətdən bəhs edərkən, bu gün dünyada bir nömrəli problemə çevrilən və planetimizi cənginə alan koronavirus infeksiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizəni xüsusi vurğulamaq lazımdır. Belə ki, Koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk vaxtdan etibarən onun yayılmasının və fəsadlarının qarşısının alınması, xalqımızın bu bəladan daha az zərər və minimal itki ilə çıxması üçün dövlət başçımızın çox tədbirli davranmaqla zamanında müdrik qərarlar verməsi, həmçinin qətiyyətli addımlar atmaqla aidiyyəti dövlət orqanlarını və digər qurumları səfərbər edərək onlara göstərişlər, eyni zamanda dəyərli tövsiyələr verməklə bütün preventiv tədbirlərin görülməsini təmin etməsi ümumbəşəri bəla ilə mübarizədə dövlətimizin qələbəsini şərtləndirdi. Bununla da, vaxtında qəbul edilən doğru qərarlar və görülən ciddi tədbirlər nəticəsində koronavirus infeksiyasının ölkəmizdə geniş yayılmasının qarşısı qətiyyətlə alındı və dövlətimiz bu sınaqdan da uğurla çıxdı. Beləliklə, cənab Prezident rəhbərinə güvənən və ona arxalanan xalqın ümidlərini həmişə olduğu kimi növbəti dəfə də doğrultdu. Hər kəs bir daha əmin oldu ki, cənab Prezidentin liderlik nümunəsi digər dövlət başçılarına örnəkdir.

Qeyd etmək lazımdır ki, ölkə rəhbəri cənab İlham Əliyevə və Mehriban xanıma sonsuz inam bəsləyən xalqın onların çağırışına yekdilliklə dəstək olaraq xüsusi karantin rejimi qaydalarına şərtsiz əməl etməsi də sözügedən məsələyə öz müsbət təsirini göstərdi. Dövlət başçısı cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək insanlarda pandemiyaya qarşı mübarizə əzmi və böyük ruh yüksəkliyi yaratdı. Eyni zamanda Mehriban xanımın "evdə qal" çağırışını böyükdən kiçiyə hamı rəğbətlə qarşıladı və heç kim zərurət olmadan evdən çölə çıxmadı. Çünki sağlam düşüncəli hər kəs yaxşı dərk edir ki, istər cənab Prezident İlham Əliyevin, istərsə də Mehriban xanımın hər bir çağırışı həmişə milli maraqların təmin edilməsinə, dövlətin qüdrətlənməsinə, xalqın rifahına və ölkədə firavan həyatın davamlılığına hesablanır.

Ölkədə aparılan hərtərəfli islahatlara, görülən böyük işlərə və insanların rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə dövlət başçısı cənab İlham Əliyevə ünvanlanan vətəndaşların minnətdarlıq məktublarının ardı-arasının kəsilməməsi, Mehriban xanımın saysız-hesabsız xeyirxah təşəbbüslərinə görə insanların məmnunluq hisləri ilə dolu təşəkkürlərini ifadə edən müraciətlərinin səngiməməsi həyata keçirilən mükəmməl siyasətin qədirbilən xalq tərəfindən dəyərləndirilməsinin və dəstəklənilməsinin parlaq təzahürüdür.

### Prokurorluğun yeni, mütərəqqi islahatlar və səmərəli dəyişikliklər dövrü

Sirr deyil ki, cənab İlham Əliyevin prezidentlik dövrü hərtərəfli köklü islahatların aparılması, ölkə üçün mühüm strateji əhəmiyyət kəsb edən müxtəlif inkişaf proqramlarının hazırlanaraq müvəffəqiyyətlə icra edilməsi, dövlət idarəçilik strukturlarının təkmilləşdirilməsi, uğurlu kadr təyinatlarının həyata keçirilməsi, bir sözlə bütün sahələrdə tərəqqi prosesinin vüsət alması ilə səciyyələnmişdir. Son dövrlər ali icra orqanı olan Prezident Administrasiyası da daxil olmaqla bir neçə dövlət qurumlarında cəmiyyətdə yüksək qiymətləndirilən mütərəqqi struktur və kadr islahatları aparılmış, o cümlədən müxtəlif dövlət orqanlarının strukturlarının müasir tələblərə uyğunlaşdırılması, müvafiq qurumların yaradılması, bəzilərinin birləşdirilməsi və ya ləğvi ilə nəticələnən əhəmiyyətli işlər görülmüş və yeni kadr təyinatları olmuşdur.

Ölkədə gedən demokratik proseslər prokurorluq orqanlarında da müvafiq islahatların həyata keçirilməsinə rəvac vermişdir. Möhtərəm cənab Prezident İlham Əliyevin mayın 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və cənab Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun yeni, mütərəqqi islahatlar və səmərəli dəyişikliklər dövrü başlamışdır. Qəbul zamanı ölkə başçısı demişdir: "...Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tə-

rəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk.Tərəqqi islahatsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq...".

Bundan sonra, cənab Prezidentin müdrik kəlamları rəhbər tutulmaqla prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatları həyata keçirilərək ədalətli meyarlara və şəffaf prosedurlara əsaslanan mütərəqqi dəyişikliklərin reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşdırılması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə dövlət başçısı cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir. Bununla da, Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha operativ, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, idarəetmədə nəzarət mexanizminin optimallaşdırıması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmişdir.

Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun da yeni strukturu təsdiq olunmuş, Respublika Hərbi prokurorunun əlavə müavini vəzifəsi təsis edilmiş, kriminalistika şöbəsi ilə informasiya-kommunikasiya texnologiyaları şöbəsi birləşdirilərək Kriminalistika və informasiya texnologiyaları idarəsi yaradılmış, bəzi şöbələr ləğv edilərək onların bazasında yeni idarə və şöbələr, o cümlədən Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsi, Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi, Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsi və Təşkilat və icraya nəzarət şöbəsi yaradılmışdır.

Bundan başqa, Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi və təşəbbüsü ilə prokurorluğun fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində də xeyli işlər görülmüş, o cümlədən Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" hazırlanmışdır. Belə ki, idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, həmçinin struktur qurumlarla rayon (şəhər), eləcə də ərazi hərbi prokurorluqları arasında münasibətlərin nizamlanması kimi ayrı-ayrı sferaların tənzimlənməsini müasir tələblər səviyyəsində təmin etmək məqsədi ilə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın layihəsi ərsəyə gətirilmiş və quruluş etibari ilə mükəmməl, müasir tələblərə uyğun, asan başa düşülən və tez qavranılan, eləcə də praktik cəhətdən səmərəli olan hüquqi akt Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında təsdiq olunaraq 01 avqust 2020-ci il tarixdən etibarən bütün prokurorluq orqanlarında qüvvəyə minmişdir. Bununla əlaqədar olaraq artıq əhəmiyyətini itirmiş, dövrün tələblərinə cavab verə bilməyən və təcrübədə tətbiqi ciddi çətinliklər yaradan 100-dən çox əmr və normativ xarakterli digər hüquqi sənədlər tam və ya qismən ləğv olunmuşdur. Bundan sonra, sözügedən Qaydaların tələbləri rəhbər tutulmaqla Respublika Hərbi Prokurorluğun "İşin Təşkili Qaydaları" hazırlanmış və Azərbaycan Respublikası Hərbi Prokurorluğun Kollegiya iclasının 22 sentyabr 2020-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Bundan əlavə, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyasının tərkibi yenidən formalaşdırılmış, Attestasiya Komissiyasının, Hərbi Prokurorluğun hərbi qulluqçularına məharət dərəcələrini təyin edən Komissiyanın tərkibləri yenilənmiş, yeni, Əmək Məsələləri Komissiyası yaradılmışdır.

Göründüyü kimi, cari ilin ötən dövrü prokurorluq, o cümlədən hərbi prokurorluq orqanları üçün əlamətdar olmaqla prokurorluğun uğurlu mərhələsi kimi tarixin yaddaşına düşmüşdür.

Qeyd etmək lazımdır ki, ölkə başçısının rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, mütərəqqi islahat tədbirlərinin davamlılığının təmin olunması, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, prokurorluğun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin hərtərəfli artırılması istiqamətində işlər Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir ki, bu da prokurorluğun gələcək nailiyyətlərini şərtləndirir.

### Hərbi Prokurorluq ixtisaslaşdırılmış prokurorluq orqanı kimi

Müstəqil Azərbaycanın Hərbi prokurorluq orqanlarının formalaşması prosesində, fəaliyyət istiqamətlərinin və səlahiyyətlərinin qanunvericiliklə müəyyən edilməsində yeni mərhələ ulu öndərin hakimiyyətə qayıdışından sonra başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun fəaliyyətini tənzimləyən qanunlar qəbul

edilmiş və milli Hərbi Prokurorluq orqanlarının təkmilləşdirilməsi üçün bir sıra digər mühüm əhəmiyyətli işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə imzaladığı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr ediməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun müasir tələblərə uyğun dövlət orqanı kimi formalaşdırılması istiqamətində ümummilli liderin təşəbbüsü ilə görülən böyük işlərin məntiqi davamı olmuşdur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən müdrik siyasət sayəsində dövlətimizin sürətlə hərtərəfli qüdrətlənməsi, iqtisadiyyatımızın durmadan güclənməsi prokurorluğa kifayət qədər maddi vəsait ayrılmasına rəvac vermişdir ki, bu da maddi təminatın, eləcə də işçilərin sosial müdafiəsinin daha da güclənməsinə zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı» prokurorluğa göstərilən dövlət qayğısının növbəti əyani sübutu idi. Azərbaycan Prokurorluğunun tarixində tərəqqinin, təkmilləşmənin və müasirləşdirmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi prokurorluğun fəaliyyətinin daha səmərəli təşkili, digər hüquq mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi, eləcə də onun maddi-texniki təminatının yaxşılaşdırılması və prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə nəticələnmişdir. Ötən illər ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun da maddi-texniki bazasının gücləndirilmiş, Hərbi Prokurorluğun mərkəzi aparatı, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu, Şəmkir, Zaqatala və Gəncə hərbi prokurorluqları ən müasir standartlara uyğun tikilməklə bütün zəruri avadanlıqla təchiz olunmuş inzibati binalarla təmin olunmuş, bir neçə hərbi prokurorluğun inzibati binası əsaslı təmir edilmişdir.

Hərbi Prokurorluğun əməkdaşları da göstərilən yüksək diqqət və qayğını dəyərləndirməklə öz növbələrində dövlət başçısının rəhbərliyi ilə görülən böyük işlərdə və aparılan mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, Azərbaycan Ordusunda və başqa silahlı birləşmələrdə nizam-intizamın gücləndirilməsi, qanunçuluğun və qanunun aliliyinin təmin edilməsi istiqamətindəki fəaliyyətinin effektivliyini daim artırır. Təsadüfi deyildir ki, hərbi prokurorluğun və onun işçilərinin fəaliyyəti ilə bağlı vətəndaşların minnətdarlığını ifadə edən məktubların sayı artır və təkcə ötən 9 ay ərzində bu məzmunlu 100-dən artıq müraciət daxil olmuşdur.

Cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində cari ilin birinci yarımilində qeydə alınmış cinayətlərin 99,5 faizi açılmışdır.

Vurğulanmalıdır ki, 2020-ci ilin birinci yarısında qeydə alınmış cinayətlər 2019-cu ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 37%, o cümlədən hərbi xidmət əleyhinə olan cinayətlər 46,9% və qeyri hərbi cinayətlər 24,4% azalmışdır.

Ötən ilin birinci yarısı ilə müqayisədə, bu ilin eyni dövründə qeydə alınmış qulluğa səhlənkar yanaşma cinayətləri 54,5%, hakimiyyətdən sui-istifadə etmə cinayətləri 65,5%, rüşvət alma və rüşvət vermə cinayətləri 27,9%, mülkiyyət əleyhinə olan cinayətlər 61,7%, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə qorxu ilə tələb etmə cinayətləri 64,3%, xuliqanlıq cinayətləri 66,7%, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 50%, həmçinin öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma cinayətləri 50%, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri isə 45,1% azalmışdır.

Silahlı Qüvvələrdə baş vermiş ölüm faktı üzrə başlanılmış hər bir cinayət işinin istintaqı Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülməklə, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunur, eləcə də cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq təşkilatın və ya vəzifəli şəxsin ünvanına belə halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, eləcə də iş üzrə əməlində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş bütün şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilir.

Hərbi Prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə də ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilir, vətəndaşların müraciət etmək, pandemiya ilə əlaqədar onlayn müraciət imkanlarının genişləndirilməsi və asanlaşdırılması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülür. Cənab Prezidentin örnək davranışlarından daim ibrət götürən və dövlət başçısının məmurla vətəndaş arasındakı münasibətlərlə bağlı dəyərli tövsiyələrini fəaliyyətlərində hər zaman rəhbər tutan Hərbi Prokurorluq əməkdaşları vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla, özlərinə isə nəzakətlə yanaşır, işçilər, o cümlədən rəhbər vəzifəli şəxslər tərəfindən mütəmadi olaraq onların qəbulu həyata keçirilir, istər müraciətlərinə cavab verilərkən, istərsə də qəbullar zamanı qanunvericiliklə müəyyən olunmuş qaydada və həddə onları maraqlandıran suallara müfəssəl cavablar verilir, hüquqları izah edilir və həyata keçirilməsi üçün hər cür şərait yaradılır.

### Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə səmərəli əməkdaşlığı nizam-intizamı və qanunçuluğu daha da möhkəmləndirir

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və layiqli xələfi möhtərəm Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu strategiyasının və onun əsasında bu sahədə həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılmış, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, ötən illərdə olduğu kimi “Global Firepower” hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı 2020-ci il hesabatında da Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlamışdır. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər edərək hərbi qulluqçularla görüşməsi, onların qayğı və problemləri ilə maraqlanması, hərbçilərimizin mübarizə əzmini artıran qətiyyətli çıxışları və düşmənə ünvanlanmış tutarlı ismarıcları şəxsi heyətdə sarsılmaz ruh yüksəkliyi yaratmışdır. Qürur hisləri ilə vurğulamalıyıq ki, 2016-cı ilin aprel, 2018-ci ilin may və bu ilin iyul ayında, eləcə də 27 sentyabrdan başlayaraq düşmənin törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə Azərbaycan Ordusu öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut etmişdir. Bütün bu uğurlar möhtərəm cənab Prezidentin müdrik siyasətinin və qətiyyətinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsidir.

Hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, əsgərlərin məişət işlərindən azad edilməsi, yüksək tələblərə cavab verən əsgər yataqxanalarının istifadəyə verilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial və məişət məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1500-dən artıq hərbçiyə mənzillərin verilməsi, bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli peşəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, həmçinin hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini artırır. Aprel döyüşlərində yaralanan və yüksək texnologiyalı protezlərlə təmin edilmiş hərbi qulluqçularla 03 aprel 2019-cu il tarixdə keçirilən görüşdə Mehriban xanım Əliyeva onlara “qardaşlarım” deyərək müraciət etməklə söyləmişdir: “...Belə xalqla, belə əsgərlərlə biz Qarabağı mütləq qaytaracağıq...”. Qeyd olunanlar qəti əminliklə onu deməyə əsas verir ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımız tezliklə düşmənlərdən təmizlənəcək və doğma Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunacaqdır.

Vurğulanmalıdır ki, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət orqanları, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar münasibətlərin də böyük rolu olmuşdur. Hərbi Proku-

rorluğun kollektivi fəaliyyət istiqamətləri üzrə əsas vəzifələrinin icrası ilə bərabər, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi və bununla əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə adları çəkilən qurumlarının əməkdaşları ilə birgə bir sıra digər işlər də görmüşdür. Azərbaycan ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarının qorunmasını, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsini təmin etmək məqsədilə hər il aidiyyəti dövlət qurumlarla birgə hazırlanmış "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair", "Cinayətkarlığa qarşı mübarizəyə dair", "Cinayət hadisələrinin qarşısının alınmasına dair", "Hərbi qulluqçularda vətənpərvərlik hislərinin gücləndirilməsinə dair" və sair mövzular üzrə tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunur, həmçinin onların fərdi qəbulları keçirilir. Eyni zamanda milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi hissələrin, xüsusən də cəbhəyanı zonada yerləşən bölmələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilir və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunur.

Yeri gəlmişkən, bir neçə gün əvvəl ön xətdə yerləşən hərbi hissə və bölmələrdə xidmət aparan hərbi qulluqçularla görüşmək məqsədilə Baş prokuror cənab Kamran Əliyevlə birlikdə cəbhə bölgəsinə uğurlu səfərimiz baş tutmuşdur. Qeyd edim ki, bu il mən həm də ötən illərdə olduğu kimi, Dövlət Sərhəd Xidmətinin rəisi cənab Elçin Quliyevlə birlikdə Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının düşmənlə üz-üzə dayanan hərbi hissə və bölmələrinə, Müdafiə nazirinin müavini cənab Kərim Vəliyevlə birlikdə isə Müdafiə Nazirliyinin tabeliyində olan cəbhə xəttində yerləşən müvafiq hərbi hissələrə getməklə, orada şəxsi heyətlə, o cümlədən döyüş şəraitində xidmət aparan hərbi qulluqçularla görüşlər keçirmişik. Hər il olduğu kimi, cari ildə də Hərbi Prokurorluğun bütün rəhbər işçiləri, o cümlədən Respublika Hərbi prokurorunun müavinləri, böyük köməkçiləri, idarə, şöbə rəisləri, ərazi hərbi prokurorları da aidiyyəti dövlət qurumlarının müvafiq yüksək vəzifəli şəxsləri ilə birlikdə ön xətdə xidmət aparan hərbçilərlə görüşmək məqsədilə cəbhəyanı zonada yerləşən hərbi hissələrə səfər etmişlər. Bütün görüşlər zamanı hərbi qulluqçuların milli və döyüş ruhunun daha da yüksəldilməsi, onlarda vətənpərvərlik hislərinin dərindən aşılanması, hüquqi biliklərin artırılması istiqamətində söhbətlər aparılmış, verilən suallar ətraflı cavablandırılmış, şəxsi heyətin hərtərəfli maarifləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi təmin edilmiş, eyni zamanda xidməti vəzifələrini nümunəvi icra edənlər müxtəlif hədiyyələrlə mükafatlandırılmışdır. Səfərlər əsnasında, həmçinin hərbi qulluqçuların qayğı və problemləri, eləcə də yaşayış, məişət və xidmət şəraiti ilə maraqlanılmışdır.

Bütün bunlar, yəni Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılmış köklü islahatlar və görülmüş nəhəng işlər, eləcə də Azərbaycan Ordusu və başqa silahlı birləşmələrlə Hərbi Prokurorluğun birgə səmərəli fəaliyyəti son illər ölkədə hərbi xidmət əleyhinə olan cinayətlərin və hərbi qulluqçular tərəfindən törədilən digər cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalması ilə nəticələnmişdir.  Yuxarıda qeyd etdiklərimizdən də göründüyü kimi, uğurlu tendensiya bu il də davam etmişdir. Vurğulanmalıdır ki, son dövrlər, eləcə də cari ilin birinci yarımili ərzində hərbi hissəni və ya xidmət yerini döyüş şəraitində özbaşına tərk etmə cinayəti ümumiyyətlə qeydə alınmamış, fərarilik cinayətinin isə demək olar ki, kökü kəsilmişdir.

Ulu öndər Heydər Əliyevin ali ideyalarına daim sadiq olan, cənab Prezident İlham Əliyevin tapşırıqlarını və müdrik tövsiyələrini hər zaman rəhbər tutan Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi bundan sonra da bütün gücünü səfərbər edərək çalışmaqla Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, qanun pozuntularına və cinayətkarlığa, eləcə də dövlətimizin qüdrətlənməsinə və xalqımızın rifahına xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

Sonda böyük sevinc və iftixar hisləri ilə vurğulamaq istərdim ki, hazırda Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz şanlı tarix yazır. Son günlər işğal altında olan ərazilərimizin erməni qəsbkarlarından təmizlənməsi düşmənin zəbt etdiyi tarixi torpaqlarımızın ən qısa zamanda tam azad ediləcəyindən və ərazi bütövlüyümüzün bərpa olunacağından xəbər verir. Əminəm ki, ardıcıl zəfərlər əldə edən şücaətli hərbçilərimiz yaxın günlərdə Qarabağda Ali Baş Komandanımıza "Qələbə" raportu verəcəkdir.

**Xanlar Vəliyev,**
*Azərbaycan Respublikası  Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı*

*01.10.2020-ci il tarixli "Xalq qəzeti"ndə dərc edilmişdir.*

# Müasir Azərbaycan Prokurorluğu gənc kadrların potensialının reallaşdırılması üçün əlverişli bir platformadır

*Prokurorluq orqanlarında yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Bu proseslər dövlət tərəfindən dəstəklənir və bundan sonra da dəstəklənəcəkdir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**



Bəşər tarixi boyu cərəyan edən müxtəlif ictimai-siyasi hadisələrə nəzər saldıqda həmin proseslərin əksəriyyətində gənc şəxsiyyətlərin imzalarına rast gələ bilərik. Öz zamanlarının məhrumiyyət və çətinliklərinə sinə gərməklə insanlığa töhfə vermiş bir çox gənc mütəfəkkir, elm adamı və siyasətçinin fəaliyyət və yaradıcılığı bu gün də ayrı-ayrı elmi-tədqiqat işlərinin obyekti qismində çıxış etməkdədir.

Sevindirici haldır ki, keçmiş dövrlərə nisbətən günümüzün reallığında gənclərin təşəbbüslərinə olan münasibət daha da liberallaşmış, onların təcrübəsizliyi və səriştəsizliyi barədə əsrlərdir formalaşmış yalnış steriotiplər aradan qalxmışdır.

Belə ki, çağımızda inkişaf etmiş ölkələrdə aparılmış rəy sorğuları və araşdırmalarla gənclərdə işə yaradıcı yanaşma və produktivlik kimi xüsusiyyətlərin daha çox müşahidə edilməsi, habelə əmək

prosesinə münasibətdə faydalılıq əmsalının yüksək olması bir daha öz təsdiqini tapmışdır. Təsadüfi deyildir ki, artıq gənc kadr resurslarının üstün cəhətlərini qavrayan nəhəng transmilli korporasiyalar ümumdünya təhsil reytinqində ilk yerlərdə qərarlaşmış Harvard, Yel, Oksford və digər universitetlərlə əməkdaşlıq edərək istedadlı gəncləri onların hələ tələbə olduğu dövrdən müəyyən edib öz sıralarında karyera qurmağa dəvət edirlər. Məhz bu tendensiyanın nəticəsidir ki, bu gün istər optimallaşmanı prioritet elan edən dövlətlərin inzibati idarəçilik sistemində, istərsə də innovativ yanaşmalara meyl edən özəl sektorun menecment fəaliyyətində gənc mütəxəssislərin say nisbətində əhəmiyyətli artım müşahidə edilir.

Dünyanın qabaqcıl ölkələri sırasında olan Azərbaycan Respublikasında da gənclər siyasətinin formalaşmış zəngin ənənəsi və özünəməxsus strateji dəsti-xətti vardır.

## Azərbaycanın siyasi tarixində “Gənclər” fenomeni

Azərbaycanda ilk dəfə gənclər hərəkatının ümumi strategiyası və ideologiyasının təşəkkül tapması XIX əsrin sonlarından başlayaraq bütün dünyada gedən ictimai-siyasi proseslərlə eyni vaxta təsadüf etmişdir. O zaman ölkəmizdə yeni məktəblər, müasir teatr və demokratik mətbuatın yaradılması ilə formalaşan ictimai-siyasi mühit də gənclərin təşkilatlanması və milli-siyasi şüurunun inkişafında müstəsna rol oynamışdır.

Rusiya imperiyası və Sovet İttifaqı daxilindəki sərt qaydalara və təqib hallarına əzmlə dirəniş göstərən Azərbaycan gəncliyi keçdiyi inkişaf yolunun ilk mərhələsini 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnmiş milli-azadlıq hərəkatının aparıcı qüvvəsi kimi tamamlamışdır.

İkinci Dünya müharibəsində milli gəncliyimizin İsrafil Məmmədov, Həzi Aslanov, Mehdi Hüseynzadə və digər bu kimi böyük qəhrəmanlıq və şücaət nümayiş etdirmiş bir çox nümayəndələrinin döyüş təcrübəsi onilliklər sonra bərpa edilən müstəqillik dövründə xalqımızın hərbi-vətənpərvərliyinin əsas istinad nöqtələrindən olmuşdur.

XX əsrdə Azərbaycanda digər sahələrdə olduğu kimi, ədəbi və mədəni mühitdə əldə edilmiş uğurlarda da gənclərin böyük əməyi olmuşdur. 29 yaşında siyasi repressiya qurbanı olmuş Mikayıl Müşfiq, ilk pyesini yeniyetmə yaşlarında yazmış Cəfər Cabbarlı, 23 yaşında yaratdığı "Leyli və Məcnun" operası ilə müsəlman şərqində opera sənətinin əsasını qoymuş Üzeyir Hacıbəyov və digər dühalarımız milli-mədəni sərvətimizi məzmunca daha da zənginləşdirmişlər.

Müasir Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi də bilavasitə gənclərimizin adı ilə bağlıdır. Onlar Sovet işğalına qarşı təşəkkül tapmış xalq hərəkatının aparıcı qüvvəsi olmuş, 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin və Qarabağ müharibəsində silahlı qüvvələrimizin tərkibində döyüşmüş, 1990-cı ilin qanlı yanvar hadisələrində şəhid olaraq müstəqilliyimizin ilk müjdəçiləri kimi xalqımızın əbədi yaddaşına həkk olunmuşlar.

Qısa nəzər saldığımız yaxın tarix boyu gənclərin cəmiyyətimizin həyatında önəmli mövqe tutmasına baxmayaraq, istər ölkəmizin Sovetlərin tərkibində olduğu müddətdə, istərsə də müstəqilliyimizin ilk illərində ölkənin idarəetməsində daha çox yaşlı nəslin nümayəndələrinə üstünlük verilməklə, gənclərin dövlət siyasətində iştirakında, onların cəmiyyətdə vətəndaş olaraq mövqelərini sərgiləməsində ciddi çətinliklər hələ də mövcud idi.

Məhz belə bir məqamda Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə hər sahədə olduğu kimi, bu sahədə də köklü dəyişikliklər baş vermiş, ölkəmizdə sistemli və strateji gənclər siyasətinin təməli qoyulmuşdur. Məhz ümummilli liderin prezidentliyi dövründə gənclərin dövlət idarəetməsində və idarəçiliklə bağlı digər mühüm sahələrdə iştirakı artmışdır. Beləcə gənclərə etimadsızlığı diktə edən bu arxaik yanaşma kökündən dəyişdirilərək çağdaş dövrün tələbinə uyğunlaşdırılmış, kadr peşəkarlığının yalnız bioloji yaş amilləri əsasında deyil, davamlı təhsil və təcrübə əsasında müəyyən olunmasına başlanılmışdır.

Ümummilli liderimiz Heydər Əliyev daim gənclərə qayğı göstərərək, onların bir fərd kimi yetişməsinə, milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndər nitqlərinin birində bu barədə deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur."

Gənclər siyasətinin institusional təzahürü olaraq, 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılmışdır. Bu sahədə köklü islahatların davamı kimi, 1996-cı

ilin fevralında Azərbaycan gənclərinin ilk forumu keçirilmiş və bununla da gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Növbəti addım olaraq, Ulu Öndərin təşəbbüsü ilə hər il fevralın 2-si ölkədə Gənclər Günü kimi qeyd olunmağa başlanmışdır.

Xüsusilə qeyd edilməlidir ki, Gənclər Günü MDB və Şərqi Avropa ölkələri məkanında ilk dəfə olaraq məhz Azərbaycanda qeyd olunmağa başlanmış, dünya miqyasında isə Ümumdünya Gənclər Günü (12 avqust) yalnız 1999-cu ildə BMT-nin müvafiq qərarı əsasında təsis edilmişdir.

Eyni zamanda, həmin dövrdə Azərbaycanda gənclər siyasətinin təntənəsi olaraq, bu sahədə dövlət siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edən “Gənclər siyasəti haqqında” 9 aprel 2002-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

**Müasir dövrdə gənclər siyasəti**

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən gənclər siyasətinin bütün istiqamətləri üzrə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər gəncliyin inkişaf strategiyasının yeni mərhələyə qədəm qoymasını şərtləndirmişdir.

Belə ki, ötən müddət ərzində dövlət başçısının rəhbərliyi ilə gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə genişmiqyaslı və mərhələli tədbirlər həyata keçirilmişdir:

1. İlkin mərhələdə gənclərə dövlət tərəfindən qayğının artırılması məqsədilə 30 avqust 2005-ci il tarixdə “Azərbaycan Gəncliyi Dövlət Proqramı” (2005-2009-cu illər) təsdiq edilmişdir. Proqrama əsasən hər bir gəncin fərdi qaydada özünü rəhbər kimi yetişdirməsinə, daim təşəbbüskarlıq göstərməsinə dəstək ifadə olunmuşdur.

Həmin Dövlət Proqramının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində əhəmiyyətli dəyişikliklər baş vermiş, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmiş, məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığı əsaslı şəkildə stimullaşdırılmışdır.

Görülən işlərin mühüm tərkib hissəsi kimi həmçinin, “2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı” qəbul edilmişdir ki, həmin Proqramın icrası nəticəsində yüzlərlə gəncimiz dünyanın aparıcı ali təhsil ocaqlarında təhsil alaraq, hazırda ölkə iqtisadiyyatında, idarəetmə strukturlarına peşəkar və ixtisaslı kadrlar kimi öz töhfələrini verməkdədir.

2. Gəncliyin inkişafında növbəti mərhələnin təmin edilməsi məqsədilə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı qəbul edilməklə icraya yönəldilmişdir. Bu Proqramın icrası ilə əlaqədar müstəqil Azərbaycanda gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasətinin formalaşdırılaraq, uğurla həyata keçirilməsi məqsədilə Gənclər Fondu təsis edilmişdir.

Habelə, digər mühüm addım kimi gənclərə məlumat, məsləhət, təlim, peşə seçimi və digər istiqamətlərdə göstərilən xidmətlərin genişləndirilməsi, onların asudə vaxtlarının təşkili və ahəngdar inkişafına şərait yaradılması məqsədi ilə regionlarda “gənclər evləri” yaradılmış, bundan başqa müxtəlif çoxsaylı dəstək xarakterli tədbirlər reallaşdırılmışdır.

3. Gənclər siyasətinə daim diqqət sərgiləyən Prezident cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edilmişdir. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri etmişdir. Bir sözlə, dövlət siyasətində gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunmuşdur.

Gəncliyin inkişafında təhsilin rolununun önə çəkilməsi, o cümlədən müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycan Respublikasının ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi məqsədilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi də məhz bu dövrə təsadüf edir.

Gənclərimizin milli dövlətçiliyə və Vətənə sədaqət ruhunda formalaşmasında Birinci viste-prezident Mehriban xanım Əliyevanın humanizm, ədalət və insanpərvərlik ideyalarının və əvəzolunmaz fəaliyyətinin müstəsna rolu vardır.

Onun dəstəyi və bilavasitə rəhbərliyi ilə ən ucqar kəndlərdən böyük şəhərlərədək vətənimizin is-

tənilən guşəsində istifadəyə verilmiş onlarla təhsil ocaqları, yaradıcılıq mərkəzləri, səhiyyə və sosial müəssisələr gənclərlimizin tam şəkildə istedad və bacarıqlarını inkişaf etdirməsinə şərait və stimul yaratmışdır.

Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva 2 fevral 2013-cü il tarixdə "Baku" jurnalına verdiyi müsahibədə təhsil almış gəncliyi stabil siyasi sistem, effektli sosial siyasət, zəngin təbii sərvətlər, müasir infrastruktur və digər amillərlə ölkəmizin uğur qazanmasında böyük rolu olan ən mühüm amillərə aid etmişdir.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva 24 noyabr 2019-cu il tarixdə TASS agentliyinə, "Rossiya 24" telekanalına və "Rossiyskaya qazeta"ya verdiyi müsahibədə Heydər Əliyev Fondunun gənc əməkdaşları haqqında demişdir: "Mən fəxr edirəm ki, Fondda bu cür vətənpərvər, yaxşı təhsil görmüş, artıq müstəqil Azərbaycanda böyümüş gənclər komandası var və bizim uğurlarımız, əlbəttə ki, komanda şəklində işin uğurudur."

Mehriban xanım Əliyevanın ən nəcib təşəbbüslərindən olan hər iki valideyn himayəsindən məhrum gənclərin qayğı ilə əhatə olunması, onların layiqli gələcəyinin təmin edilməsidir. Belə ki, bu təşəbbüsün təzahürü olaraq, ölkəmizdə ilk dəfə Abşeron rayonunda çoxmənzilli yaşayış binaları ("məzun evləri") tikilərək həmin gənclərin istifadəsinə verilmişdir.

Hazırda ölkəmizdə həyata keçirilən gənclər siyasəti öz bəhrəsini verməkdədir. Müasir Azərbaycan gəncliyi ölkə həyatının bütün sahələrində öz layiqli mövqeyini tutmuşdur. Bu gün gənc kadrlar istər dövlət idarəçiliyində, istər özəl sektorda, istərsə də digər mühüm istiqamətlərdə fəaliyyət göstərərək cəmiyyətə fayda verməkdədir.

Vətənpərvər gənclərimiz ölkəmizi yalnız milli deyil, o cümlədən beynəlxalq miqyasda uğurla təmsil edirlər. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini hər kəsə çatdırır, beynəlxalq ictimaiyyətin milli tariximizin həqiqətləri ilə tanış olması üçün çalışırlar.

### Azərbaycan Prokurorluğunda gənc kadrların rolu

Gənclər siyasətinin qayəsində olan siyasi iradə Azərbaycan Respublikasının prokurorluq orqanlarında da köklü kadr islahatlarının aparılmasına rəvac vermişdir.

Məhz bacarıqlı və savadlı gənclərin seçilərək dövlətin layiqli qulluqçuları kimi dövlət idarəetməsində iştirakının təmin edilməsi məqsədilə digər dövlət qurumları arasında ilk dəfə olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsinə başlanılmışdır. Belə ki, Ulu Öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edilmiş və bununla da prokurorluq orqanlarına işə qəbulla bağlı müsabiqələrlə prokurorluğun kadr korpusunun savadı, dünyagörüşü, o cümlədən yüksək mənəvi əxlaq keyfiyyətləri ilə seçilən, habelə dövlətçilik ideyalarına sadiq gənclərin hesabına formalaşdırılmasına başlanılmışdır.

2002-ci ildən etibarən prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən hər bir gəncin bilik səviyyəsi, ümumi dünyagörüşü və digər şəxsi keyfiyyətlərinə görə prokurorluqda işləmək üçün layiqli olması keçirilən qəbul ixtisas imtahanları (test imtahanı və yazılı imtahan) və aparılan müsahibə ilə müəyyən edilir. Həm ixtisas imtahanlarının, həm də müsahibənin keçirilməsinin şəffaf, beynəlxalq tələblərə uyğun formada davam etdirilməsi daim diqqətdə saxlanılır.

Qeyd olunan yeniliklər əsasında həyata keçirilən gənclər siyasəti artıq prokurorluq orqanlarında öz bəhrəsini vermişdir. Belə ki, əgər 2002-ci ilədək prokurorluq orqanlarında qulluq keçən 30 yaşınadək işçilərin sayı prokurorluq əməkdaşlarının ümumi sayının 3 faizinə bərabər olduğu halda, həmin ildən sonrakı dövrdə müsabiqə yolu ilə işə qəbul edilmiş gənc prokurorluq işçilərinin sayı əhəmiyyətli dərəcədə artaraq hazırda 70 % təşkil edir.

Həmin müsabiqələrə dair statistik rəqəmlərə nəzər salsaq Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 13 və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üzrə 9 müsabiqə keçirilmişdir. Həmin müsabiqələrdə prokurorluq orqanlarına işə qəbulla əlaqədar müraciət etmiş ümumilikdə 5630 nəfər namizəddən uğur qazanmış 911 namizəd prokurorluq orqanlarına qulluğa qəbul edilməklə məsul vəzifələrə təyin edilmişlər.

Prezident cənab İlham Əliyevin Baş Prokuror Kamran Əliyevi bu vəzifəyə təyin edilməsi ilə əlaqədar olaraq 1 may 2020-ci il tarixdə video-format rejimində qəbul edərkən prokurorluq orqanlarında islahatların dərinləşdirilməsinə və fəaliyyətin təkmilləşdirilməsinə dair irəli sürdüyü mühüm tövsiyələrə uyğun olaraq bu mühüm dövlət təsisatında

kadr tərkibinin yenilənməsi, xüsusilə də rəhbər heyətin gənc, istedadlı kadrlarla komplektləşdirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır.

Kadr heyətinin gücləndirilməsi və idarəetmənin təkmilləşdirilməsi ilə bağlı aparılan ardıcıl islahatlar gənc prokurorluq əməkdaşlarında innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunmasına, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqinə, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasının dəstəklənməsinə yönəlmişdir.

Belə ki, tam şəffaf və ədalətli prosedurlar əsasında keçirilmiş müsabiqələr nəticəsində prokurorluq orqanlarında qulluğa qəbul edilən işçilər prokurorluğun müxtəlif struktur qurumlarında səmərəli fəaliyyət göstərməklə, onların yarısından çoxu yuxarı təsnifat üzrə, o cümlədən 75 nəfəri rəhbər vəzifələrdə irəli çəkilmişdir.

Kadr siyasətinin uğuru kimi gənc əməkdaşların peşəkar fəaliyyətinin davamlı olaraq qiymətləndirilməsinin nəticəsidir ki, 2020-ci ilin may ayının 1-dən hazırki vaxtadək olan dövrdə Azərbaycan Respublikasının Prokurorluq orqanları tarixində ilk dəfə olaraq gənc prokurorluq işçilərindən 1 nəfəri Azərbaycan Respublikası Baş prokurorunun müavini, 7 nəfəri Baş Prokurorluğun və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin idarə (şöbə) rəisi, 21 nəfəri isə müstəqil rayon (şəhər), həmçinin ixtisaslaşmış hərbi prokuror vəzifələrinə təyin edilmişlər.

Xüsusi olaraq qeyd edilməlidir ki, 2020-ci il may ayının 1-dən bu günədək 107 prokurorluq işçisi yuxarı təsnifat vəzifələrinə təyin olunmuşdur. Yuxarı təsnifat vəzifələrinə təyin olunmamışdan əvvəl bu kateqoriya üzrə prokurorluq işçilərinin orta yaş həddi 46 olmuşdursa, bu göstərici artıq 38 yaşa enmişdir .

Prokurorluq orqanlarında gənclər sahəsində həyata keçirilən kadr siyasətində gender bərabərliyinə-qadın əməkdaşların fəaliyyətinə verilən dəyər xüsusi olaraq vurğulanmalıdır. Belə ki, prokurorluq əməkdaşlarının təqribən 7%-ni qadın əməkdaşlar təşkil etməsinə baxmayaraq, 2012-ci ilədək onlar prokurorluğun rəhbər heyətində təmsil olunmamışlar. 2012-ci ildən etibarən bu tendensiya nisbətən dəyişsə də, qadın əməkdaşlar bilavasitə istintaq fəaliyyəti ilə bağlı vəzifələrdə deyil, daha çox inzibati xarakter daşıyan yuxarı vəzifələrdə işləmişlər.

Lakin, təqdirəlayiq hal kimi qeyd etmək olar ki, aparılan son islahatlar çərçivəsində prokurorluqda gənc qadın əməkdaşlara ilk dəfə olaraq bilavasitə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə, yəni bütünlükdə ibtidai araşdırmaya prosessual nəzarətin həyata keçirilməsi kimi mühüm vəzifələr həvalə edilmiş, bəziləri isə tabe rayon prokuror vəzifələrinə təyin edilmişlər. Bu sahədə başqa bir yeni nüans isə gənc qadın əməkdaşların Baş Prokurorluğun idarə və şöbə rəisləri kimi yüksək vəzifələrə təyin edilməsi olmuşdur.

Bütün bunlar prokurorluq orqanlarında gənc əməkdaşlara verilən dəyərin onların bilavasitə peşə səriştəsi, əxlaqi keyfiyyətləri, innovativ potensialı, dünyagörüşü və biliklərinə əsaslanmasının əyani göstəricisidir. Belə ki, aparılan ardıcıl islahatların başlıca məqsədlərindən biri də məhz gənclərdə təşəbbüskar, yaradıcı və innovativ potensialın üzə çıxarılmasının dəstəklənməsinə yönəlmişdir.

**Gələcəyə baxış**

Hesab edirik ki, davam edən kompleks islahatlar prokurorluq orqanlarının cəmiyyətdə rolunun artırılması, ölkəmizin inkişafı prosesində fəal iştirakı, cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə metodlarının təkmilləşdirilməsi, əməkdaşların peşəkarlığının gücləndirilməsi, qulluqda mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, yeni informasiya və kommunikasiya texnologiyalarının istifadəsi işinin sürətləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və bir sıra digər sahələrdə keyfiyyət göstəricilərinin yüksəldilməsinə təkan verəcəkdir.

Prokurorluq orqanlarında aparılan islahatların təhlili belə qənaətə gəlməyə əsas verir ki, müasir Azərbaycan gənci bu islahatların həm hədəfi, həm də iştirakçısı olmaqla, hər bir gənc prokurorluq əməkdaşının nailiyyəti ölkə rəhbərliyi səviyyəsində aparılan uğurlu gənclər siyasətinin təcəssümüdür.

Odur ki, islahatların sadalanan prioritet istiqamətləri ilə yanaşı qurumun kadr potensialının daha da inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən gənclərin işə cəlb edilməsi də, dövlətimizin gənclərə dair mütərəqqi siyasəti ilə səsləşməklə prokurorluğun fəaliyyətində səmərəliliyin artırılmasına xidmət edəcəkdir.

**Heydər Məmmədov,**
*Azərbaycan Respublikası*
*Baş prokurorunun müavini*
*baş ədliyyə müşaviri*

# Narkotik cinayətkarlıqla mübarizənin təşkili, narkomaniya və narkotiklərin yayılmasının başlıca səbəb və amilləri

Bu gün bəşəriyyəti düşündürən və rahatsız edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya və geniş anlamda narkotizmdir. Narkomanlığın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşxaş insanların ağrı və əzablarının qənimi kimi qavranılmış, xaşxaş qozasından alınan şirə (tiryək) isə həmişə tibbi məqsədlər üçün istifadə edilmişdir. Ümumiyyətlə, tiryəkli preparatlar Orta əsrlərdə təbabətdə geniş yayılmış, tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazma və sarsıntıları götürmək, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunub. Narkotik tərkibli bitkilərdən müalicə məqsədilə istifadə olunması uzaq keçmişdə olduğu kimi, müasir dövrümüzdə də aktualdır. İnsan orqanizminə, səhhətinə, sağlamlığa, mənəviyyata sağalmaz zərbələr vuran, ən çirkin, ən ikrahedici vərdiş kimi qəbul edilən narkomanlıq və narkotiklərə aludəçilik bu gün olduğu kimi qədim zamanlarda da ən xoşagəlməz vərdiş kimi qəbul edilmişdir. Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilmişdir. İyirminci yüz illiyin sonunda isə narkomaniya ümumbəşəri bəlaya çevrilərək fiziki mənada ayrı-ayrı xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısının alınması böyük çətinliklər, külli miqdarda xərclər bahasına başa gələn son dərəcə neqativ bir amil olmaqla yanaşı, digər tərəfdən də narkobaronların, narkotiklərin qanunsuz dövriyyəsindən külli miqdarda gəlir əldə etməsi üçün bir vasitəyə çevrilmişdir. Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkotizmin Azərbaycanda vəziyyəti və narkotik vasitələrin ümumi çəkisi rəsmi qaydada aşkar edilmiş bu qəbildən olan cinayətlərdən və müsadirə edilmiş narkotiklərdən savayı, təqribi hesablamalara əsaslanır. Bu rəqəmlərin dolğun olması üçün ölkədə əvvəlcə narkomanların düzgün qeydiyyatına nail olunmalı, daha sonra isə real əməliyyat şəraitinə uyğun tədbirlər keçirilməlidir. Ümumiyyətlə, ölkəmizdə ən çox istifadə olunan narkotik maddələr opiat qrupuna aid olanlardır ki, buraya heroin, həşiş və s. maddələr daxildir. Sovet dövründə bu maddələrin satışı, demək olar ki, yox dərəcəsində idi. Həmin qrupa aid olan morfinq, promidol və başqaları preparat olaraq, ağrıkəsici kimi istifadə edilirdi. Onları isə xəstəxanada tapmaq çətin idi. Sovet dönəmində, əsasən kanabionit qrupuna aid olan anaşa, marixuana və sair bu kimi narkotik maddələrdən istifadə olunurdu.

**BƏS NARKOMANİYA NƏDİR?**

**Narkomaniya yunanca „narke – donmaq, mat – qalmaq, bihuşluq və maniya – həzz almaq, kef çəkmək, asılılıq"** mənasını verir. Həqiqətdə isə narkomaniya – narkotiklərdən istifadə nəticəsində həm də qısa müddətdə insanın ümumi vəziyyətinin, fiziki və psixi əhval- ruhiyyəsinin narkotikdən kəskin asılılığına gətirib çıxaran xüsusi təhlükəli, dünyəvi və çoxbəlalı bir xəstəlikdir. Beynəlxalq Polis təşkilatı İnterpolun məlumatına görə son bir ildə yer kürəsində 150 milyon nəfərdən hərəsi bir dəfə marixuananın, 38 milyona yaxın adam isə sintetik narkotik maddənin dadına baxır. Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin apardığı tədqiqatlara görə isə ümumiyyətlə, dünyada 17 milyon nəfər heroin, 15 milyon nəfər kokain, 162 min nəfər marixuana, 296 min nəfər isə sintetik narkotik vasitələr qəbul edirlər. Dünya narkoişbazları ötən il narkotik ticarətdən 550 milyard dollar gəlir əldə etmişlər. Azərbaycan dünyanın bir çox ölkələri ilə müqayisədə narkotiklərin ən az yayıldığı məmləkətlərdən hesab olunsa da, narkomaniyanın və narkotik cinayətkarlığın yayılma tempi ilə bağlı faktlar həyəcan doğurmaya bilməz. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü" kimi qeyd olunur. Ayrı-ayrı dövlətlər ildən-ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək və bu sahədə yeni mübarizə üsullarını kəşf etmək istiqamətində səylərini artırırlar. Fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılmasına baxmayaraq, dünya üzrə narkomaniyaya düçar olanların sayı ildən-ilə artmaqdadır. Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən, yer kürəsinin 250 milyon sakini planetimizin ən qlobal problemlərindən birinə çevrilən bu ağır bəlanın əzabını yaşamaqdadır. Bu statistikanın

47 milyon nəfəri Latın Amerikası ölkələrinin payına düşür. Avropa Birliyi ölkələrinə gəldikdə isə orada 750 minə yaxın insan narkotik maddələrin istifadəçisidir. 2020-ci ilin I rübü ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən ümumiləşdirilmişdir. Belə ki, cari ilin 3 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən 1540 fakt aşkar edilmişdir ki, onlardan 600-ü narkotik vasitələrin qanunsuz satışı, 908-i qanunsuz əldə edilib saxlanılması, 6-sı qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya edilməsi, 26-sı isə digər cinayətlərlə bağlı olmuşdur. Aşkar edilmiş faktlar üzrə ümumi çəkisi 630 kq 874,4 qr müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılmışdır. Müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 236 kq 009 qramını marixuana (37,4%), 93 kq 253,9 qramını tiryək (14,3%), 233 kq 805 qramını heroin (37%), 16 kq 694 qramını həşiş (3,1%), 51 kq 111 qramını psixotrop maddələr və digərləri (8,1%) təşkil etmişdir. Cinayət məsuliyyətinə 780 nəfər cəlb edilmişdir ki, onlardan 16-18 yaşadək 2 nəfər, 18-25 yaş 69 nəfər, 26-29 yaş 142 nəfər, 30 yaşdan yuxarı isə 567 nəfər təşkil edir. Məsuliyyətə cəlb olunanlardan 28 nəfəri fəhlə, 2-si maddi məsul şəxs, 1-i nəqliyyat işçisi, 1-i kənd təsərrüfatı işçisi, 177-si əvvəllər cinayət törətmişlər, 3-ü əvvəllər xüsusi qeydiyyatda olan, 530-u işləməyən, 757-si kişilər, 23-ü qadın, 24 nəfəri xarici ölkə vətəndaşı olmuşdur. Əcnəbilərdən 17-si İran İslam Respublikası, 4-ü Gürcüstan və 3-ü Rusiya Federasiyasının vətəndaşı olmuşdur. 2020-ci ilin birinci yarısında Ağcabədi RPŞ-nin Narkotiklərə mübarizə qrupunun əməkdaşları tərəfindən rayon ərazisində 40 cinayət faktı aşkar edilərək qanunsuz dövriyyədən 12 kq 337,93 qram narkotik vasitə olan qurudulmuş marixuana, 398,596 qram narkotik maddə olan heroin, 81,419 qram narkotik vasitə olan metamfetamin, cəmi 12 kq 817,945 qram narkotik vasitə aşkar edilərək çıxarılmışdır. Aşkar edilmiş faktların 22-i narkotik vasitələrin qanunsuz olaraq əldə edilib saxlanılması, 12-i narkotik vasitələrin satışı, 6-i isə qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə ilə bağlı olmuşdur. Keçən ilin müvafiq dövründə isə 43 cinayət faktı aşkar edilərək qanunsuz dövriyyədən 10 kq 670,199 qram narkotik vasitə olan qurudulmuş marixuana, 387,034 qram narkotik maddə olan heroin, 2,908 qram narkotik maddə olan tiryək, 0,187 qram narkotik vasitə olan metamfetamin, cəmi 11 kq 60,328 qram narkotik vasitə aşkar edilərək çıxarılmışdır.

Ölkəmiz öz müstəqilliyinə qovuşduqdan sonra bütün sahələrdə olduğu kimi narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində də ardıcıl və məqsədyönlü addımlar atılmışdır. Bu sahədə ölkədə lazım olan normativ-hüquqi baza, müvafiq təşkilati strukturlar yaradılmış və milli proqramlar hazırlanıb həyata keçirilmişdir. Onu da qeyd edək ki, Azərbaycan bu sahədəki problemlə ona böyük maddi və mənəvi ziyan vurmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şəraitində mübarizə aparır. Ermənistanın apardığı etnik təmizləmə və qəsbkarlıq siyasəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayonu zəbt edilmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə baxmayaraq, Ermənistan silahlı qüvvələri işğalı bugünədək davam etdirdiyindən, Azərbaycanın İranla olan dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətsiz zonaya çevrilmişdir. Həmin ərazilərdən də Avropaya və digər ölkələrə güclü narkotik axını həyata keçirilir.1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il Konvensiyasına qoşulmuşdur. Ümummilli lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" müvafiq fərman imzalamış, bu fərman əsasında ölkəmizdə 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. 1997-ci ildə Ulu öndər BMT-nin Yaxın və Orta Şərqdə Narkotiklərin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımçı Komissiyasının 32-ci sessiyasında çıxış edərək Azərbaycan Respublikasının bu problemin həllində ardıcıl addımlar atacağını və dünya ictimaiyyəti ilə bu məsələdə bir yerdə olacağını bir daha bəyan etmişdir.1998-ci ildə Azərbaycan Respublikası BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyalarına qoşulmuşdur. 1999-cu il iyun ayının 18-də "Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ulu Öndərin 15 iyul 2000-ci il tarixli fərmanı ilə "2000-2006-cı ilədək narkomanlığın yayılmasına, narkotik vasitələr və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə" Milli Proqram, 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Narkoloji xidmət və nəzarət haqqında" Qanun, 2005-ci ildə "Narkotik vasitələrin,

psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, ölkə başçısı 2007-ci il 28 iyun tarixində 2007-2012-ci illəri, 24 iyun 2013-cü ildə 2013-2018-ci illəri, 15 sentyabr 2017-ci ildə isə 2017-2021-ci illəri əhatə edən Dövlət Proqramlarını təsdiq etmişdir. Keçən il də ölkəmiz narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə ilə bağlı beynəlxalq konfransa ev sahibliyi etmişdir. Belə ki, dövlət başçısı İlham Əliyev Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu il 16-18 aprel tarixlərində Bakıda keçirilməsi ilə əlaqədar təşkilat komitəsinin yaradılması haqqında 15 noyabr 2018-ci il tarixli Sərəncam imzalamış və həmin tədbir Bakı şəhərində keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 518-saylı sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair" 2019-2024 cü illər üçün yeni Dövlət Proqramının qəbul olunması bu sahədə mübarizənin gücləndirilməsini bir daha zəruri etmişdir. Narkotik vasitələrin dövriyyəsilə mübarizə təcrübəsinə əsaslanaraq daxili işlər orqanları əməkdaşları üçün aşağıdakıların vacibliyini diqqətə çəkmək mümkündür: 1. Polis əməkdaşlarının narkomaniyaya qarşı effektli mübarizə apara bilməsi üçün onların ilk növbədə, narkotik vasitələri tanıması vacibdir. 2. Narkotik vasitələrin satışı faktı üzrə narkotik vasitəni alan şəxsin də müəyyənləşdirilərək saxlanması zəruridir. Bu zaman polis əməkdaşları prosessual sənədləşməni dəqiq bilməlidirlər. 3. Narkotik vasitələrin daşınması və göndərilməsi üçün cinayətkarlar müxtəlif nəqliyyat vasitələrinin gizli yerlərindən istifadə edirlər. Bunun üçün polis əməkdaşları avtomobildə, dəmiryol qatarında, təyyarədə, gəmidə gizlədilmiş narkotik vasitəni digər xidmətlərin köməyi ilə müəyyən edib tapmaq üçün axtarışın keçirilməsi taktikasını yaxşı bilməlidirlər. 4. Narkotik vasitələrin satılması çox hallarda ictimai yerlərdə, əyləncə və ticarət mərkəzlərində, vətəndaşların mütəmadi hərəkət etdikləri yerlərdə, şəhər və qəsəbə daxilində baş verir. Müxtəlif əşyaların satışı ilə məşğul olan şəxslər paralel olaraq kustar üsulla hazırlanmış narkotik vasitələrin də realizəsi ilə məşğul ola bilərlər. Polis əməkdaşları belə yerləri daim müşahidə altında saxlamalıdırlar. 5. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair cinayətlərin, inzibati xətaların törədilməsində şübhəli şəxslərin üstünün yoxlanılması taktikası polis əməkdaşlarından xüsusi diqqət tələb edir. Bu əməliyyat-axtarış tədbiri narkotik vasitə daşıyıcılarını ifşa etmək məqsədi daşıyır və paltara baxış, bədənə baxış, vətəndaşların əşyalarına baxış fəndlərindən ibarətdir. Yuxarıda qeyd edilən faktlar aşkar edildikdə polis əməkdaşları əsas diqqəti aşağıdakı əşya, maddə, məişət və tibbi ləvazimatlara yetirməlidirlər; ətçəkənlər, mətbəx kombaynları, mikserlər, qəhvəüyüdənlər, şpris, cuna, pambıq (rezin burma), jqut, çay qutusunun içindəki gümüşü kağız (folqa), spirt, aseton, etil efiri, efendrin, sirkə turşusu, yod və sair. Post-patrul xidməti (bundan sonra – PPX) naryadları xidmət zamanı, eləcə də xidmətdən kənar vaxtlarında daim narkomanlığa qarşı mübarizə sahəsində çalışmalı, daxili işlər orqanlarının digər xidmət sahələri ilə sıx əlaqədə olmalıdırlar. Onların aşağıdakılara diqqət yetirmələri vacibdir: 1. PPX naryadları öz marşrutlarında (postlarda) tanıdıqları və tanımadıqları şəxslər arasında müşahidələr aparmalı, narkotik vasitələrə meylləri aşkar edib öz rəhbərlərinə, əməliyyat aparan əməkdaşlara və yaxud sahə müvəkkillərinə şifahi və ya yazılı surətdə məruzə etməlidirlər. 2. Həmin ərazilərdə (marşrutlarda, postlarda) xidmət apararkən, narkotik vasitələrə meylli və ya onların qəbulu, satışı ilə məşğul olan şəxslər, onların daimi yığıncaq yerləri barədə məlumat toplamalı və müvafiq xidmətlərə bildirməlidirlər. 3. PPX naryadları xidməti ərazidə yerləşən gecə barları və diskotekalara, çayxanalara və digər yerlərə mütəmadi və ya tez-tez baş çəkib narkotiklərin qəbuluna meylli şəxsləri müəyyən edib müşahidələr aparmalı və onların barəsində cinayət axtarış şöbəsi əməkdaşlarına məlumat verməlidirlər. 4. PPX naryadları rayon polis idarələrində profilaktiki qeydiyyatda olan və əvvəllər dəfələrlə narkotik vasitələrin qəbulu, satışı ilə əlaqədar məhkum olunmuş şəxsləri üzdən tanımalı, onların əlaqələri və hərəkətləri barədə (şəraitdən asılı olaraq) məlumatlar toplayıb əməliyyat aparatına bildirməlidirlər. 5. Narkotik vasitələrin satışı ilə məşğul olan şəxslər çox vaxt şübhə doğurmasın deyə, bu işə azyaşlıları (oğlan və qızları) cəlb edirlər, bu məqsədlə PPX naryadları belə şəxsləri müəyyən edib onların ətrafında müşahidələr aparmalı və barələrində azyaşlılar üzrə sahə müvəkkillərinə yazılı məlumatlar verməlidirlər. 6. PPX naryadları öz marşrutlarında məktəbdən yayınan və mütəmadi olaraq kompüter salonlarına, internet klublara, diskobarlara gəlib-gedən və siqaret, spirtli içkilərin qəbulu ilə məşğul olan azyaşlıları müəyyən edib, onların barəsində azyaşlılar üzrə sahə müvəkkillərinə məlumat verməlidirlər. 7. PPX naryadları azyaşlılar və gənclər arasında avtoxuliqanları müəyyən edib, onların barəsində Dövlət Yol Polisi əməkdaşlarına, Cinayət- Axtarış İdarəsinin əməkdaşlarına məlumat verməlidirlər. Belə ki, bu tip şəxslər arasında narkotik vasitələrə meyilli olanlar mövcuddur. Bu növ cinayətlərə qarşı mübarizə qətiyyətlə aparılmalı və hər bir halda prokuror nəzarətinin daimi predmetlərindən biri olmalıdır.

**Salman Səmədov,**
*Ağcabədi rayon prokuroru,*
*baş ədliyyə müşaviri*

# Erkən nikahlar gender bərabərliyinin və uşaq hüquqlarının pozulması kontekstində

Sosioloji baxımından evlənmək ya da qohumluq xətti ilə gələn bir həyat birliyi olan ailə institutu ən ali, ülvi, saf duyğularını, nəcib niyyətlərini özündə əks etdirən, müqəddəs ittifaq və cəmiyyətin özəyidir. Bu baxımdan nikaha daxil olmaq hüququ insanın təbii hüquqlarındandır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində göstərildiyi kimi, "yetkinlik yaşına çatmış kişilər və qadınlar, heç bir irqi, milli və ya dini məhdudiyyət olmadan bir-biri ilə evlənmək və ailə qurmaq hüququna malikdir və nikah yalnız hər iki tərəfin sərbəst və tam razılığı ilə bağlana bilər". Lakin əgər nikaha daxil olmaq istəyən bir tərəf yetkinlik yaşında deyilsə və gələcək həyat yoldaşı haqqında məlumatlı qərar qəbul etmək iqtidarında deyilsə, o halda bu cür razılıq "tam və azad" ola bilməz. Eyni müddəalar Azərbaycan Respublikasının Konstitusiyasında, o cümlədən digər normativ hüquqi aktlarında əks olunmuşdur. Belə ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah yalnız könüllü razılıq əsasında bağlanılır, əks təqdirdə "məcburi" davranış özlüyündə məsuliyyətə səbəb olur.

Bununla belə, cəmiyyətdə nikahla bağlı ən çox rastlanan məhfum "erkən nikah"dır. Qanunvericilikdə qadağan olunan erkən nikah yaşı 18-dən az olan və ya yeniyetmələrin nikaha daxil olmasıdır. İstər beynəlxalq, istərsə də milli qanunvericiliklə, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur.

Definisiya erkən nikah adlansa da, əslində burada məsələ qız uşaqlarının erkən nikaha cəlb edilmələridir. Belə ki, daha çox qız uşaqları erkən yaşda ərə verilir, yetkinlik yaşına çatmadan ana olur, sağlamlıq və reproduktiv hüquqları, o cümlədən təhsilə çatımlılıqdan məhrum edilməklə təhsil hüquqları pozulur. Azyaşlı qızların valideynlər tərəfindən erkən nikaha məcbur edilməsi gender əsaslı zorakılığın gözə çarpan növüdür və milli qanunvericilik tərəfindən qadağan edilir. Məhz qızların erkən nikahı onların təhsil almaq, ailə qurmaq, sərbəst olaraq həyat yoldaşı seçmək, öz taleyini həll etmək kimi hüquqlarının üzərindən xətt çəkməklə onların fərd olaraq cəmiyyətdə özlərini realizə etmək imkanlarını məhdudlaşdırır, onların inkişafının qarşısını alır.

Bununla bağlı beynəlxalq və milli hüquq sistemlərində "uşaq nikahlar"ı termini formalaşmışdır. Ayrı-ayrı dövlətlər, təşkilatlar bu barədə öz narahatlıqlarını bildirir, ailə institutunun, insan hüquqlarının müdafiəsi istiqamətində həm yerli, həm də beynəlxalq səviyyədə qanunlar qəbul edirlər. Dünya dövlətlərinin diqqətini qız uşaqlarının erkən yaşda evləndirilməsinə qarşı mübarərizəyə, onların hüquqlarının qorunmasına yönəltmək, bu istiqamətdə səylərin artırılmasını təmin etmək üçün BMT-nin Baş Assambleyasında Türkiyə, Kanada və Peru tərəfindən hazırlanan qətnamə əsasında 193 üzv ölkə tərəfindən qəbul edilən qərara əsasən "11 oktyabr Beynəlxalq Qızlar Günü" təsis olunmuşdur. Bu sənəddə BMT-nin Minilliyin İnkişaf Proqramına nail olunması və qız uşaqlarının onlarla bağlı qərarların verilməsində iştirakının dəstəklənməsi və digər məqamlar öz əksini tapıb.

BMT-nin Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğvi Komitəsinin "Nikah və ailə münasibətlərində bərabərlik" adlı 21 saylı ümumi tövsiyəsinin 16-cı maddəsində qeyd edilmişdir ki, üzv dövlətlər nikah və ailə münasibətləri ilə bağlı bütün məsələlərdə qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq üçün bütün müvafiq tədbirləri həyata keçirməli, xüsusilə kişi və qadın bərabərliyi əsasında nikaha daxil olmaq, həyat yoldaşını sərbəst şəkildə seçmək, nikaha yalnız öz tam və sərbəst razılığı ilə daxil olmaq, və evlilik və nikahın pozulması zamanı eyni hüquq və məsuliyyətlər və sair hüquqlari təmin etməlidirlər.

Erkən nikahlar qızların ilk növbədə sağlamlıq və reproduktiv hüquqlarını pozur, onların cinsi istismarına, məcburi əməyinə cəlb edilmələrinə səbəb olur. Fiziki və psixoloji baxımdan hazır olmadan çox erkən hamiləlik baş verir, doğuş və ölüm riski yaranır, ana və uşaq ölümlərinin sayı artır; yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər yaşanır. Psixoloq və həkimlərin rəylərində evlilik üçün optimal yaş həddi 19-30 arası yaş sayılır. Gələcək nəsillərin sağlamlıq vəziyyəti yeniyetmə qızların – gələcək anaların sağlamlıq vəziyyətlərindən birbaşa asılıdır. Tədqiqatçılar hesab edirlər ki, əgər erkən nikahların sayı 10 faizə qədər azalarsa, bu, bütövlükdə 70 faizə qədər ana və uşaq ölümünün azalmasına gətirib çıxarar.

Dünyanın əksər ölkələrində erkən nikahlar qadağan olunduğu üçün həmin nikahlar dövlət qeydiyyatından keçmir və bu nikahların statistikası ayrı-ayrı dövlət orqanları, beynəlxalq təşkilatlar və "Human Rights Watch" kimi nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatlarının monitorinq və araşdırmalarına əsaslanır.

BMT-nin Uşaq Fondunun və Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə dünyada hər gün 25 min, ildə isə 10 milyondan çox qızın erkən nikah faktı baş verir. "Save the Children" təşkilatının 2016-cı il tarixli hesabatına görə isə dünyada orta hesabla hər yeddi saniyədən bir 15 yaşından kiçik bir qız evlənir.

158 ölkənin qanunvericiliyinə əsasən nikaha daxil olma yaşı kimi 18 yaş qəbul olunsa da, bu qanunlar əksər hallarda pozulur, çünki erkən nikahların tətbiqi ənənələr və sosial normalarla dəstəklənir. Erkən nikah öz-özlüyündə bir neçə problemi əks etdirir. Bunların sırasında ölkənin inkişaf səviyyəsi, onun sosial-iqtisadi vəziyyəti, təhsili, insan hüquqlarının inkişafı və s. durur.

Hazırda erkən nikahlar daha çox Asiya və Afrika ölkələrində geniş yayılıb. BMT-nin Uşaq Fondunun 2005-ci il tarixli erkən nikahlara aid hesabatının göstəricilərinə görə: Nigeriya ( 75%), Çad və Mərkəzi Afrika Respublikası (68%), Banqladeş (66%), Qvineya (63%), Mozambik (56%), Mali (55%), Burkina-Faso və Cənubi Sudan (52%), Malavi (50%) və Hindistan (47%) fərqlənir.

Müsəlman ölkələri içində erkən nikahlarlarla bağlı Yəmən dövləti xüsusilə qeyd olunmalıdır. 1999-cu ildə Yəməndə qızlar üçün nikah yaşı 15 yaş olmuş, lakin sonradan bu məhdudiyyət aradan qaldırılmışdır. Hazırda Yəməndə minimum nikah yaşı nəzərdə tutulmamışdır. Bununla bağlı istənilən qanunvericilik təşəbbüsləri Yəmən şəriət komitəsi tərəfindən rədd edilmişdir. Hətta burada 8 yaşlı qız uşaqlarının da ərə verilməsi halları müəyyən edilmişdir. Yəmən dövləti bunu şəriətlə əsaslandırır, belə ki, şəriətə görə cinsi yetişkənliyə çatmış qız ərə gedə bilər. Yəmənli qadın Nudjud Əli əri tərəfindən təcavüzə və işgəncəyə məruz qaldığı üçün məhkəməyə müraciət etmişdir. Bu hadisə Yəmən ictimaiyyətində müzakirələrə səbəb olmuş, 2008-ci ildə Yəmən Ali ana və uşaq konsulluğuna müraciət olunaraq nikah yaşının qanunvericiliklə artırılması xahiş olunmuşdur. 2009-cu ildə nikah yaşı qaldırılaraq minimum 17 yaş müəyyən edilsə də, bu qanun yenidən ləğv edilmişdir. 2013-cü ildə Yəməndə toy gecəsi cinsi yetişkənliyə çatmayan qız uşağının qanaxmadan ölməsi bu məsələnin Yəmən ictimaiyyətində yenidən müzakirələrə səbəb olmuşdur.

Şəriətin, patriarxal qaydaların Müsəlman Şərqində erkən nikahlara səbəb olmasını göstərən hallardan biri də zorlanmış qızların ailədə və cəmiyyətdə normal qarşılanmaması, belə hallarda ailələrin bu "ağır yük" dən qurtulması üçün cinsi təcavüzə məruz qalmış qız övladlarının cinayət törətmiş şəxslərə ərə verilməsidir. Bunu İordaniya Krallığının təcrübəsində bir daha görmək olar. Belə ki, 30 aprel 2017-ci il tarixdə İordaniya Krallığının qanunverici orqanı tərəfindən qəbul olunmuş Cinayət Məcəlləsinin 308-ci maddəsinin ləğvi ilə bağlı qanunu qüvvəyə minmişdir. Ləğv olunmuş maddə zorlama cinayəti ilə bağlı idi  ki, təzə dəyişikliyə əsasən, zorlama cinayəti törədən şəxs cinayətin qurbanı ilə azı 3 il müddətinə nikaha daxil olmağa öhdəlik götürərsə, cinayət məsuliyyətindən azad olunacaqdır. Qeyd olunmalıdır ki, dünya təcrübəsində analoji qanunvericilik hazırda Livan, İraq, Filippin, Mərakeş, Misir, Efiopiya və Bəhreyndə mövcuddur.

Ayrı-ayrı dövlətlərdə erkən nikah problemi və statistikası təhlil edilərkən erkən nikahlara əsasən, dini-patriarxal qaydaların, yoxsulluğun, hərbi münaqişələr fonunda baş verən humanitar böhranların səbəb olduğu bəlli olur.

Statistik rəqəmlərin təhlili göstərir ki, Azərbaycan Respublikasında erkən nikah problemi ilə bağlı vəziyyət acınacaqlı durumda deyil və Azərbaycan Respublikası erkən nikah problemi ilə mübarizədə uğur qazanmış ölkələrdən hesab edilə bilər.

Belə ki, Azərbaycanda 1999-2011-cu il illər ərzində nikaha daxil olan qadınların ümumi sayına nisbətən 18 yaşadək olan qızlar ən çox 1999-cu ildə (7,1%) olmuşdur. 2003-cü ildə nisbətən az (4,6%), 2007-ci ildən isə bu göstəricilər artmaqdadır. 2011-ci ildə nikaha daxil olan qadınların ümumi sayına nisbətən 18 yaşadək olan qızlar 6,17 % təşkil edir. 2011-ci ildə 5138 erkən nikah faktı qeydə alınmışdırsa, 2012-ci ildə isə bu rəqəm azalmışdır.

Azərbaycan Respublikasi Səhiyyə Nazirliyinin "Demoqrafiya və sağlamlıq sorğusu, 2011" yekun hesabatında qeyd olunur ki, ümumilikdə Azərbaycanda yeniyetmələrin 5.9 faizi uşaq doğmuş və ya hamilədir. Diri doğuşu olmuş və ya ilk uşağına hamilə qalmış qadınların faiz nisbəti gözlənildiyi kimi yaşın artması ilə sürətlə yüksəlir: bu göstərici 15 yaşlı qadınlar arasında 1 faizdən aşağıdır, 19 yaşlı qadınlar arasında isə 13.4 faizə çatır.

Respublikamızda məişət zorakılığı ilə mübarizə, qadın və uşaq hüquqları həmişə diqqət mərkəzində olub. Ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə qadın məsələsinə dövlət siyasəti səviyyəsində yanaşılıb. Ümummilli lider Heydər Əliyev deyirdi: "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır". Azərbaycan qadınının bu gün cəmiyyətdə özünü təsdiq etməsi üçün hər cür imkan və şərait var. Qanunvericilik baxımından da Azərbaycan qadınının geniş fəaliyyəti üçün lazım olan hüquqi baza formalaşdırılıb. Azərbaycan qadın və uşaq hüquqlarının müdafiəsinə həsr olun-

muş çoxlu sayda beynəlxalq konvensiyalara qoşulmuşdur. “Nikaha daxil olmağa razılıq verilməsi, minimal nikah yaşı və nikahın qeydiyyatı haqqında”, “İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında”, "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyalara, Pekin Bəyannaməsinə qoşulmuşdur. Bu sənədlərdə qadınlarla yanaşı, qızların da hüquqlarının müdafiəsi məsələsi xüsusi önəm daşıyır.

Bu gün Azərbaycanda ayrıca olaraq, uşaq hüquqları ilə bağlı müasir qanunvericilik bazası formalaşmışdır. Dövlət tərəfindən uşaqlarla bağlı 80-dən çox qanun və 30-dan artıq Dövlət Proqramının uğurla icra olunması bu sahəyə dövlət qayğısının nümunəsidir. Bu sənədlər vahid dövlət uşaq siyasətinin formalaşması və həyata keçirilməsi baxımından ciddi əhəmiyyətə malikdir.

Həmçinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsində erkən nikahlara qarşı mübarizənin cinayət hüquqi mexanizmləri öz əksini tapır. Belə ki, CM-nin 176-1-ci (qadını nikaha daxil olmağa habelə, nikah yaşına çatmayan qadını məcbur etmə) və 152-ci (on altı və on dörd yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə), 144-cü (adam oğurluğu) maddələri ilə nəzərdə tutulmuş cinayətlərin əksəriyyətinin törədilməsi erkən nikah faktoru ilə bağlıdır.

Erkən nikahların cinayət hüquqi aspektlərini təhlil edilərkən qeyd etmək lazımdır ki, Respublikamızda erkən nikahlar yerli adət-ənənələrə uyğun olaraq müxtəlif formalarda baş verir və zamanla həmin formalar dəyişir. Xüsusilə vurğulamaq lazımdır ki, “qız qaçırma” adəti Respublikamızda erkən nikahların həyata keçirilməsinin əsas üsullarından olmuşdur. Bəzi hallarda evlənmək məqsədi ilə qız qaçıranlar daha irəli gedərək, qızın ata evinə qayıtmaması üçün hətta onu zorlayır, onunla cinsi əlaqədə olmaqdan çəkinmirlər. Belə olan halda cəmiyyətin basqısı ilə üz-üzə qalan qadın istəmədiyi şəxslə bir evdə yaşamağa məhkum olur. Qadının hüququnu qorunmaq əvəzinə, bəzən valideynlər də bu cinayətin ört-basdır olunmasında iştirak edir, evlənmək məqsədi ilə qaçırıldığına görə qızının başqa adama ərə gedə bilməyəcəyini düşünüb, övladlarını arzulamadığı adamla yaşamağa, nikaha daxil olmağa məcbur edirlər.

Fiziki zor tətbiq etmə və zor tətbiqi hədəsindən başqa digər üsullar, valideynlərin qız övladlarını övladlıqdan çıxartmaqla, evdən qovmaqla hədə-qorxu gəlmələrini, onun üçün arzu olunmaz, dözülməz ailə-məişət şəraitinin yaradılmasını, onun azadlığının məhdudlaşdırılmasını, evə qapadılmasını, mobil telefonunun, digər şəxsi əşyalarının alınmasını, iqtisadi məhrumiyyətlər yaradılmasını, özündən asılı olan qız övladına başqa üsullarla təzyiq göstərmələrini nəzərdə tutur. Ölkə reallığında azyaşlı qızlarımızın iqtisadi müstəqilliklərinin olmadığı, onların valideynlərindən asılı olmaları nəzərdən qaçırılmamalıdır.

Bu cinayətlərin istintaqının aparılmasında və əməlin düzgün tövsifi üçün yerli toy adətləri nəzərə alınmalıdır. Bilirik ki, nikah prosesi bir neçə mərhələdən, “həri”, “nişan” və “toy” mərasimlərindən ibarətdir. Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin dispozisiyasındakı nikah sözü məhdudlaşdırıcı təfsir edilməyərək, faktiki nikah münasibətlərini də nəzərdə tutur. Milli toy adətlərimiz nəzərə alınaraq demək olar ki, əyalətlərdə bəzi hallarda qız uşaqları 16, 17 yaşında nişanlanır, yetkinlik yaşına çatdıqda, yəni 18 yaşında isə evləndirilir, nikaha daxil olurlar. Əgər 16, yaxud 17 yaşında olan bir qız uşağı valideynləri tərəfindən onun iradəsinə zidd olaraq nişanlanırsa, bu fakt valideynin əməllərində CM-nin 176-1-ci maddəsinin olduğuna dəlalət edir. Belə ki, faktiki olaraq qız övladı 18 yaşına çatmadıqda valideynləri tərəfindən onun yerinə qərar verilir və toy, qız övladı 18 yaşına çatdıqda reallaşdırılır. Bununla da artıq 18 yaşına çatmamış qız uşağının taleyi valideyni tərəfindən o, yetkinlik yaşına çatmadan həll edilmiş olur, onun uşaq hüquqları və nikah azadlığı pozulur, cəmiyyətdə, sosial əlaqələrdə mövcud olan normal ailələlər arası münasibətlərə, qadınların sevgidə, ailə qurmada ifadə olunan azad iradələrinə zərər vurulur.

Burada bir nüansı qeyd etmək zəruridir ki, valideynlər zorla ərə verməklə bağlı araşdırmalarda “qız narazı deyildi”, “biz seçdiyimiz oğlana etiraz etmirdi” və sair bu kimi arqumentlər gətirməklə özlərini müdafiə edir, istintaq orqanı isə həmin arqumentləri qəbul edir. Əslində isə, çox zaman qız uşaqlarının seçim etmək belə imkanı olmur, onlara vahid “ər namizəd” təqdim olunur, onun fikri soruşulmur, qız uşağına fikrini bildirməyə şərait və mühit yaradılmır və valideyndən asılı olan həmin qız uşağı ailənin təqdim etdiyi şəxslə nişanlanmağa və ailə qurmağa məcbur olur. Sonradan həmin qız uşaqları yaşları artdıqca, düşüncələri inkişaf edərək bir qədər iradələri formalaşır və istədikləri əks cinsin nümayəndələri ilə sevgi münasibətləri qurmağa başlayırlar, bu zaman isə, həmin qadınlar, şiddətin, “namus” cinayətlərinin qurbanına çevrilirlər.

Erkən nikahın qarşısının alınması məqsədi ilə Respublikamızda dövlət strukturları, qeyri-hökumət təşkilatları və beynəlxalq qurumlar tərəfindən geniş təbliğatlar aparılır. Belə ki, təhsili stimullaşdıran, iş bazarına daxil olmaq üçün lazımı peşə biliklərini artıran, özünə-güvəni gücləndirən, iqtisadi məş-

ğulluğu artıran layihələr hər zaman dövlət və digər qurumlar tərəfindən təşkil olunur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nın 7.4-cü yarımbəndində, habelə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli, 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər) 3.5.2.1-ci bəndində gender zorakılığı və uşaqlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə bağlı etibarlı monitorinq mexanizminin (sisteminin) yaradılması nəzərdə tutulmuşdur. Bu məqsədlə hazırda bütün yerli icra hakimiyyətlərində icra başçısının sərəncamına əsasən tərkibi aidiyyəti yerli icra orqanlarının nümayəndələrindən ibarət gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq yerli monitorinq qrupları yerlərdə vəziyyətin qiymətləndirilməsi, həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması, riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi, zorakılığın səbəblərinin araşdırılması və təhlil edilməsi, xüsusilə də baş vermiş ağır zorakılıq hallarının müzakirəsi, zorakılıq qurbanlarının müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi üzrə fəaliyyətlərin əlaqələndirilməsi kimi funksiyaları həyata keçirirlər.

BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən həyata keçirilmiş tədqiqata əsasən, Azərbaycanda qadınların onda birindən də çox bir hissəsi 18 yaşına çatmadan ailə həyatı qurur. BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi tərəfindən Azərbaycan Respublikasında gender bərabərliyi məsələlərinə dair apardığı tədqiqat üzrə 1000 qadın və kişinin iştirak ilə sosioloji sorğu keçirilmişdir. Kişi və qadın respondentlərin ilk münasibətin formalaşması, ilk dəfə nikaha daxil olmaq və ilk uşağın dünyaya gəlməsi üçün hansı yaşın münasib olması ilə bağlı verdikləri cavablar onların cinsi mənsubiyyətindən asılı olaraq aşkar fərqləri üzə çıxarırdı. Kişi və qadın respondentlər qadının ilk dəfə kişi ilə münasibət qurması üçün münasib yaşın təxminən 20 olması ilə razılaşıb.

Hüquqi demokratik dövlət quruculuğunu özünün prioritet istiqaməti hesab edən Azərbaycan xalqı əsrlərdən bəri formalaşmış və milli-mənəvi dəyərlər adı altında pərdələnmiş yanlış adət-ənənələri ram etməli, yanlış stereotiplərdən qurtulmalı, klassik nümunəvi Azərbaycan ailə modeli və milli-mənəvi dəyərləri müasir dövrün tələbləri, dünyəvi qanunlarla uzlaşdırılmalıdır. Qızlarımız nə qədər təhsilli, dünyagörüşlü olarsa, onların yetişdirdiyi övladlar da bir o qədər savadlı olacaq və nəticə etibarı ilə cəmiyyət savadlı olacaq . Gələcəyin anası olacaq qızların kamil, intellektli, təhsilli insan kimi yetişməsinə şərait yaratmaq lazımdır. Unutmayaq ki, savadlı ana savadlı gələcək, savadlı cəmiyyət deməkdir. Bunu nəzərə alaraq, gələcəyimizi, genefondumuzu təhlükəyə atmamaq üçün erkən nikahlara qarşı mübarizədə səylərimizi artırmalıyıq.

**Araz Mahmudov,**
*Laçın rayon prokurorluğuna ezam olunmuş Zərdab rayon prokurorluğunun müstəntiqi, II dərəcəli hüquqşünas*

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi
2. Azərbaycan Respublikasının Konstitusiyası
3. "Uşaq Hüquqları haqqında" Konvensiya
4. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin Ümumi Tövsiyələrinin Seçmə Toplusu http://unazerbaijan.org/wpcontent/uploads/2020/06/Qadinlara_qarsi_ayri_seckiliyin_legv_edilmesi-.pdf
5. Uşaq nikahı: hər gün 39.000. Ümumdünya Səhiyyə Təşkilatı. https://www.who.int/mediacentre/ news/releases/2013/child_marriage_20130307/ru/
6. Aqşin Məmmədov, "Erkən nikahların səbəbləri və fəsadları" https://stm.az/publications/meqaleler/erken-nikahlarn-sebebleri-ve-fesadlar
7. Хедаят, Нел. Каково выйти замуж в шесть лет?, Русская служба BBC (5 октября 2011). Дата обращения 27 сентября 2016 года
8. Power, Carla (12 August 2009) Nujood Ali & Shada Nasser win "Women of the Year Fund 2008 Glamour )
9. Sadeq Al-Wesabi (25 February 2010),Yemen's children say no to early marriage, Yemen Times
10. Azərbaycan Vəkili jurnalı, 13-cü nömrə https://barassociation.az/uploads/journal/13.pdf
11. Erkən nikahlar (təhlil). http://scfwca.gov.az/store/media/Erk%C9%99n%20nikahlar%20(t%C9%99hlil)..pdf)
12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
13. Zorla ərə verilmə, erkən nikah: Qanun nə deyir? – Təhlil. Şamil Paşayev. https://apa.az/az/siyasi_xeberler/zorla-ere-verilme-erken-nikah-qanun-ne-deyir-tehli%CC%87l-545779
14. UNFPA/AQUPDK (2018) "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat", Bakı, Azərbaycan. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gender%20equality-az_0.pdf

# Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə görülən tədbirlər

### #sözvətəndaşda (hər həftənin bazar ertəsi)




Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə daim prokurorluq orqanları tərəfindən müraciətlərin müsbət həlli, habelə pozulmuş vətəndaş hüquq və azadlıqlarının bərpası istiqamətində kompleks tədbirlər görülür.

Sirr deyil ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun sosial şəbəkə hesablarında paylaşımların şərh bölmələrində, eləcə də birbaşa məktub vasitəsilə prokurorluq orqanlarına şikayət edərək müraciəti müsbət həll olunmuş çoxsaylı vətəndaşlar öz məmnunluqlarını ifadə edirlər.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən qeyd olunanlarla bağlı #sözvətəndaşda həştəqi altında videoların hazırlanaraq ictimaiyyətə təqdim olunması qərara alınmışdır.

Əminliklə bildiririk ki, vətəndaş məmnuniyyətinin təmin olunması prokurorluq orqanları üçün hər zaman prioritet məsələdir.

### #gününrəqəmi (hər həftənin çərşənbə axşamı)

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə #gününrəqəmi həştəqi ilə məlumatlar yerləşdirilir.

Prokurorluq orqanlarının fəaliyyətindəki yeniliklərdən xəbərdar olmaq üçün sosial şəbəkə səhifələrinin izlənilməsi tövsiyə olunur.

### #heçbilirdinizmi? (hər həftənin çərşənbə günü)

Prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onları məmnun edən kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun təmin olunması, eləcə də mühüm əhəmiyyət kəsb edən mövzularla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən prokurorluğun fəaliyyət sferaları ilə əlaqədar vətəndaşları maraqlandıran məsələlərlə bağlı maarifləndirici videoçarxların hazırlanaraq heçbilirdinizmi? həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınmışdır.

Hazırda təqdim olunan videoda "Heç bilirdinizmi "tutulma" nədir?" mövzusu ilə bağlı cinayət prosessual qanunvericiliyin tələbləri vətəndaşlarımıza izah edilmişdir.

Təqdim olunmuş videonu Baş Prokurorluğun sosial şəbəkələrdə olan səhifələrindən, həmçinin veb-saytından izləyə bilərsiniz.

**#prokurorluqdanizah (hər həftənin cümə axşamı)**

Prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onu məmnun edən tədbirlər daim diqqət mərkəzində saxlanılır.

Vətəndaş məmnunluğu və aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət sferaları ilə bağlı vətəndaşları maraqlandıran məsələlərin prokurorluq əməkdaşları tərəfindən videoçarxlar vasitəsilə #prokurorluqdanizah həştəqi altında cavablandırılması həyata keçirilir.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarında müraciətlərin qəbulu üzrə fəaliyyətlə bağlı “prokurorluq orqanlarına müraciət etmək üçün hər hansı əlaqə vasitəsi mövcuddurmu?”, “vətəndaşlar prokurorluq orqanlarına hansı qaydada müraciət edə bilər?”, “hazırda Baş Prokurorluqda vətəndaşların qəbulu hansı qaydada həyata keçirilir?” suallarını cavablandırmışdır.

Təqdim olunmuş videonu izləməklə həmin sualların cavablarını öyrənə bilərsiniz.

**#prokurorluqla sual-cavab**

Əvvəlcədən vətəndaşlar kütləvi informasiya vasitələri və sosial media vasitəsilə məlumatlandırılaraq Baş Prokurorluğun instagram sosial şəbəkəsindəki səhifəsində prokurorluqla sual-cavab adlı sessiya keçirilir.

İctimaiyyət tərəfindən maraqla qarşılanan sessiya zamanı vətəndaşların sualları cavablandırılmış, eləcə də müraciətlər qeydə alınmışdır.

Sessiya zamanı çoxsaylı müraciətlər daxil olmuş, müraciətlərin dərhal Baş Prokurorluğun vəzifəli şəxsləri tərəfindən cavablandırılması təmin edilir.

**#buhəftə (hər həftənin şənbə günü)**

Ötən həftə paylaşılmış məlumatlarla bağlı Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən videoçarx hazırlanaraq #buhəftə heşteqi altında ictimaiyyətə təqdim olunur.

Hər həftənin şənbə günü qeyd olunan videoçarxın ictimaiyyətə təqdim olunması təmin olunacaqdır.

**Prokurorluq sosial şəbəkələrdə**

Məlumat mübadiləsi zamanı kütləvi informasiya vasitələri kimi, sosial media vasitələri də əhəmiyyətli rola malikdir. Sosial media hesabları vasitəsilə insanlar məlumatları paylaşmaqla yanaşı, həm də bir-biri ilə ünsiyyət qura bilirlər. Bu gün ən məşhur və aktiv sosial media vasitələrindən biri sosial şəbəkələr hesab edilir.

Bu məqsədlə prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların operativ şəkildə əhaliyə, o cümlədən kütləvi informasiya vasitələrinə çatdırılmasını təmin etmək üçün facebook, instagram, twitter, youtube, telegram və linkedin sosial şəbəkələrində mövcud və yeni hesablar aktivləşdirilmişdir. Səhifələrdə daimi olaraq prokurorluq orqanlarının fəaliyyətinə dair informasiyalar çevik və operativ olaraq paylaşılacaqdır.

Səhifələrin zamanın tələbinə uyğun olaraq vizual və texniki baxımdan gücləndirilməsi məqsədilə işlər davam etdirilir.

# Azərbaycan Respublikası Baş prokurorluğunun rəhbərliyinin göstərişlərinin icrası ilə əlaqədar Ucar rayon prokurorluğunda işin yenidən qurulması ilə əlaqədar tədbirlər davam etdirilir

Azərbaycan Respublikası Baş prokurorluğunun rəhbərliyinin göstərişlərinin icrası ilə əlaqədar Ucar rayon prokurorluğunda işin yenidən qurulması ilə əlaqədar tədbirlər davam etdirilir. Azərbaycan Respublikası Baş Prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri cənab Kamran Əliyevin 30.07.2020-ci il tarixli 10/82 №-li əmri ilə təsdiq olunmuş və 01.08.2020-ci il tarixdə qüvvəyə minmiş "İşin təşkili qaydaları"nın 124.11-ci maddəsinin tələblərinə uyğun olaraq inzibati binaya daxil olmuş şəxslərdə silah və digər qadağan olunmuş texniki qurğu və əşyaların olub-olmamasını müəyyən etmək üçün polis postu detektor ilə təmin edilmiş, postda olan polis nəfəri həmin qurğudan istifadə etməklə yoxlama tədbirlərini apardıqdan sonra müraciətçinin qəbula yazılması işinin təşkili proseduruna başlanılır.




Qeyd olunan qaydaların 234.1-ci maddəsinin tələbinə əsasən vətəndaşların prokurorluq orqanına müraciət etməsi və qəbul olunmasının, müraciətlərin verilməsi və onlara baxılması qaydaları barədə tam və müfəssəl məlumatlandırılmasının təmin edilməsi məqsədilə Ucar rayon prokurorluğunun inzibati binasında ərizə və şikayətlər üçün qutu, vətəndaşların prokurorluqda qəbulu barədə qrafiklərin (həmçinin






vətəndaşların Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbulu barədə qrafiklərin, yerlərdə keçirilən qəbulların və vətəndaşların müvafiq yuxarı prokurorluqların rəhbərliyi tərəfindən qəbulu qrafiklərinin), Baş Prokurorluğun "Çağrı Mərkəzi"nin, habelə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinə dair zəruri məlumatların, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tam mətninin yerləşdirilməsi təmin edilmişdir.



Koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə ilə bağlı preventiv tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorunun müavini, baş ədliyyə müşaviri cənab Elmar Camalovun 02.06.2020-ci il tarixli, 10/05-609 №-li məktubuna əsasən Ucar rayon prokurorluğunda müraciət edən vətəndaşların qəbulunun həyata keçirilməsində təhlükəsizliyin təmin edilməsi məqsədilə inzibati binada dezinfeksiya tədbirləri davam etdirilir, həmçinin postda olan polis nəfəri hərarət ölçən cihaz və digər zəruri vasitələrlə təmin edilərək inzibati binaya daxil olan şəxslərin öncədən hərarəti ölçüldükdən və əlləri antiseptik məhlulla dezinfeksiya edildikdən sonra qoruyucu maska ilə təmin edilərək inzibati binaya buraxılırlar. Bundan başqa Azərbaycan Respublikası Baş Prokurorunun müavini, baş ədliyyə müşaviri cənab Heydər Məmmədovun 17.08.2020-ci il tarixli, 15/221-2644 №-li məktubuna əsasən BMT-nin "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi haqqında" Konvensiyasının tələblərinə uyğun olaraq Ucar rayon prokurorluğunun binasında sağlamlığı məhdud şəxslərin arabalarının sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılması məqsədilə inzibati binanın girişində onların daxil olması üçün pandus düzəltdirilmişdir.

Ucar rayon prokurorluğunda bu istiqamətdə işlər davam etdirilir.

# Siyəzən rayon prokurorluğu “Biz birlikdə güclüyük” şüarı ilə keçirilən sosial aksiyada iştirak edib









Azərbaycan Respublikasının Baş Prokurorluğu koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi və əhalinin sağlamlığının qorunması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 19 mart 2020-ci il tarixli Fərmanla yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 857 min manat məbləğində vəsait köçürmüşdür.

Sosial həmrəylik nümayiş etdirən Respublika Baş Prokurorluğu, Respublika Hərbi Prokurorluğu və tabe rayon, şəhər prokurorluq orqanları işçilərinin könüllü istəyi ilə aylıq vəzifə maaşlarının 50 faizini təşkil edən həmin vəsaitin ianə verilməsi dövlət başçısının ölkəmizdə virusa yoluxma hallarının qarşısının alınması məqsədi ilə aparılan preventiv və profilaktik tədbirlərin gücləndirilməsi barədə çağırışına dəstək olaraq həyata keçirilmişdir.

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun “Biz birlikdə güclüyük” şüarı ilə keçirilən sosial aksiyasına prokurorluq orqanları da qoşularaq karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə ərzaq məhsullarından ibarət sovqatlar paylanılmışdır.

Siyəzən rayon prokurorluğu işçilərini “Biz birlikdə güclüyük” şüarı ilə keçirilən sosial aksiyası çərçivəsində Siyəzən şəhərində yaşayan 20 aztəminatlı ailəni ərzaq məhsullarından ibarət sovqatlar ilə təmin etmişdir.

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb



İyulun 3-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Türkiyə arasında ənənəvi dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışmışdır.

Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamı ilə ifadə edildiyi, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi qeyd etmişdir.

Baş prokuror dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışaraq cinayətkarlıqla mübarizədə, xüsusən də korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla, habelə Türkiyə Respublikasının ixtisaslaşmış qurumları ilə əməkdaşlığın əhəmiyyətini vurğulamaqla prokurorluq əməkdaşlarının ümumi peşə hazırlığının artırılması və təcrübə mübadiləsinin aparılması məqsədi ilə Türkiyə dövlətinin müvafiq qurumları və təhsil müəssisələri ilə ikitərəfli əlaqələrin inkişafına böyük önəm verildiyini vurğulamışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Erkan Özoral ikitərəfli münasibətlərə toxunaraq Türkiyənin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulamış, dövlətlərimiz arasında strateji münasibətlərin mövcudluğu və bunun məntiqi nəticəsi kimi, xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə hərtərəfli dəstək verməsini xüsusi qeyd edərək ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqləyib və hər zaman Azərbaycan dövlətini dəstəklədiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub, faydalı fikir mübadiləsi aparılıb.

# Baş Prokuror xarici ölkələrdəki həmkarlarına müraciət edib

Məlum olduğu kimi, son bir həftə ərzində Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə qarşı, eləcə də Ermənistan silahlı qüvvələrinin bu ilin 12 iyul tarixindən etibarən Azərbaycan və Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində başlatdığı hərbi təxribatla bağlı xarici ölkələrdəki azərbaycanlı icmanın üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı radikal erməni qüvvələri tərəfindən təxribat xarakterli qanunsuz hərəkətlər törədilmişdir.Baş vermiş hadisələrlə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev tərəfindən Amerika Birləşmiş Ştatlarının Baş Prokuroru Vilyam Barr, Kaliforniya Ştatının Baş prokuroru Xavier Beccerra, Fransanın Paris şəhərinin Baş prokuroru Remy Heitz və Belçika krallığının Brüssel şəhərinin Baş prokuroru Johan Delmulleye həm birbaşa, həm də diplomatik kanallarla rəsmi müraciət edilmişdir.Həmin müraciətlərdə qeyd edilmişdir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş təcavüzkar mövqeyi ilə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyərək münaqişənin sülh yolu ilə həll olunmasına suni əngəllər törədir, habelə terrorçu siyasətinin təzahürü kimi bu ilin iyulun 12-də Azərbaycanla Ermənistanın sərhədində yerləşən Tovuzda təxribat törətmiş, o cümlədən beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd olaraq mülki dinc əhalinin sıx yaşadığı əraziləri atəşə tutmuşdur.

Eyni zamanda göstərilmişdir ki, iyulun 21 və 22-si erməni icmasının çox saylı üzvləri, erməni lobbisinin radikalları, Daşnaksütun partiyasının üzvləri, habelə beynəlxalq aləmdə terror qrupu kimi tanınan ASALA-nın ideoloji tərəfdaşları və davamçıları Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə, o cümlədən həmvətənlilərimizə qarşı müxtəlif vandalizm aktları törətmişlər, nəticədə azərbaycanlı dinc nümayişçilər müxtəlif dərəcəli bədən xəsarətləri almışlar.Baş Prokuror diplomatik nümayəndələrimizin və həmsoydaşlarımızın təhlükəsizliklərinin təmin edilməsini xahiş etməklə, baş vermiş hadisələrlə bağlı qeyd edilən ölkələrin hüquq-mühafizə orqanları tərəfindən hərtərəfli, tam və obyektiv araşdırmalar aparılacağına və təqsirkar şəxslərin dairəsinin müəyyən edilməklə məsuliyyətə cəlb olunacaqlarına ümidvar olduğunu bildirmişdir.

# Prokurorluq işçilərinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır

Ölkədə hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi, müasir tələblərə cavab verən hüquq sisteminin formalaşdırılması, dövlət orqan və təsisatlarının, o cümlədən hüquq-mühafizə orqanlarının fəaliyyətinin beynəlxalq standartlara uyğun qurulması istiqamətində həyata keçirilmiş tədbirlər hüquq sisteminin inkişafı prosesinə, vətəndaş cəmiyyətində prokurorluğun rolunun artırılmasına, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmasına və beynəlxalq əlaqələrin genişləndirilməsinə səbəb olmuşdur. Bu, həm də prokurorluq orqanlarının müasir dövrün tələblərinə və yüksək beynəlxalq standartlara uyğun fəaliyyətinin yeni keyfiyyət müstəvisinə yüksəldilməsinə şərait yaratmışdır.

Cari ilin 13-17 iyul tarixlərdə Avropa İttifaqı (Aİ) və Avropa Şurasının (AŞ) Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramının ikinci mərhələsi çərçivəsində "Məlumatların təhlil üsulları: Microsoft Power BI" mövzusunda onlayn şəkildə təlim kursu keçirilmiş və həmin təlim kursunda Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət idarəsinin prokuroru İsmayıl Musayev və Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Əflatun Hüseynov iştirak etmişlər.

Qeyd olunan təlim kursuna Avropa Şurasının Baş Qərargahının proqram meneceri xanım Danae İssa, Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernies, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin Nəzarət Departamentinin rəisi Elçin Əhmədov, Avropa Şurasının ekspertləri Dmitri Solovev, xanım Olqa Solonoviç və ölkəmizin bir neçə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları qatılmışdır.

Videoformatda keçirilmiş təlim kursunda iştirakçılar tərəfindən statistik məlumatlarla işləyərkən "Microsoft Power Business Intelligence Desktop" proqram təminatı vasitəsilə məlumatların emal və təhlil işini asanlaşdırma, onlara müxtəlif mənbələrdən əldə edilən məlumatların vahid struktura salınması, modelləşdirmə və peşəkar şəkildə vizuallaşdırılma qaydaları öyrənilmişdir.

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

Cari ilin 21 iyul tarixində Birləşmiş Millətlər Təşkilatının (BMT) Vyana Ofisində 2021-ci ildə keçirilməsi nəzərdə tutulan BMT-nın Baş Assambleyasının korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş Xüsusi Sessiyası (UNGASS 2021) çərçivəsində qəbul ediləcək siyasi bəyannamə layihəsi ilə əlaqədar Tərəf Dövlətləri arasında videokonfrans formatında qeyri-rəsmi görüş keçirilmişdir.

BMT-nin nümayəndələrinin, ABŞ, Böyük Britaniya, Avstraliya, Niderland Krallığı, Meksika Birləşmiş Ştatları, Peru Respublikası, Rusiya Federasiyası, Braziliya Federativ Respublikası, Çin Xalq Respublikası və Korrupsiya əleyhinə Konvensiyaya (UNCAC) tərəf olan digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev və Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin birinci katibi Şahin Şahyarov iştirak etmişdir.

Tədbirdə əvvəlki müzakirələrin davamı olaraq, siyasi bəyannamə layihəsi həmsədrlər- Peru Respublikasının Avstriya Respublikasındakı səfiri Erik Anderson və Birləşmiş Ərəb Əmirliklərinin səfiri Hamad Alkaabi tərəfindən iştirakçılara təqdim edilmiş, Tərəf Dövlətlərinin nümayəndələri tərəfindən layihə ilə bağlı yaranan problemlərə dair müzakirələr və geniş fikir mübadiləsi aparılmışdır.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən Rusiya Federasiyasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində ölkəmiz ərazisində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü Azərbaycan Respublikasına ekstradisiya edilmələri barədə sorğu edilmişdir.

Belə ki, Şirxan Abdullayevin – 15 mart 2015-ci il tarixdə Gəncə şəhərində aralarında baş vermiş münaqişə zamanı qəsdən zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmasına; Elvin Cəfərovun – 03 aprel 2017-ci il tarixdə Bakı şəhərində sifariş əsasında qabaqcadan əlbir olan bir qrup şəxslə silah qismində istifadə edilən əşyaları tətbiq etməklə xuliqanlıq edərək zərərçəkmiş şəxsin həyat və sağlamlığı üçün zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə adam oğurluğuna cəhd etməsinə; Fuad Abbasovun – 22 iyun 2019-cu il tarixdə Bakı şəhərində aralarında yaranmış mübahisə zamanı qəsdən zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurmasına; Mehdi Şükürovun – 2016-2019-cu illər ərzində bir qrup Azərbaycan Respublikasının vətəndaşları ilə cinayət əlaqəsinə girərək İran İslam Respublikası və Suriya Ərəb Respublikası ərazilərində həmin dövlətlərin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edildiyinə görə qeyd edilən şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində beynəlxalq axtarış elan edilmişdir.

Axtarışda olan şəxslərin Rusiya Federasiyasının ərazisində yerlərinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğuna sorğusu təmin edilməklə qeyd edilən şəxslər cari il 23 və 27 iyul tarixlərində Azərbaycan Respublikasına ekstradisiya edilmişlər.

# Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin təşviqi daim diqqət mərkəzində saxlanılır

Müasir dövrün və dövlət siyasətinin tələblərinə uyğun olaraq, prokurorluq işçilərinin fəaliyyətində çevikliyin, səmərəliliyin, peşəkarlığın, şəffaflığın təmin edilməsi və artırılması məqsədi ilə əməkdaşların nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi daim diqqətdə saxlanılmaqla, bu sahədə beynəlxalq təşkilatların müsbət təcrübələrinin öyrənilməsi istiqamətində tədbirlər görülməkdədir.



Belə ki, cari ilin 24 iyul tarixində Avropa İttifaqı (Aİ) və Avropa Şurasının (AŞ) Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramının ikinci mərhələsi çərçivəsində "Varşava Konvensiyası müddəalarının tətbiqi" mövzusunda keçirilmiş təlim kursunda Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev, həmin idarənin rəis müavini İsmayıl Qayıbov, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov, o cümlədən prokurorluğun və bir neçə hüquq-mühafizə orqanlarının əməkdaşları da iştirak etmişlər.

Təlim kursunda həmçinin İqtisadi Cinayətlər və Əməkdaşlıq şöbəsinin rəhbəri Mustafa Ferati, habelə Avropa Şurasının ekspertləri Klaudiyo Stroligo və Martin Poleyn iştirak etmişlər.

Videoformatda keçirilmiş təlim kursu Varşava Konvensiyası ilə tənzimlənən müxtəlif istintaq hərəkətləri, çirkli pulların yuyulmasının qarşısının alınması, bu növ cinayətlərin istintaqının aparılması qaydaları, habelə aktivlərin geri qaytarılması sahəsində görülməli olan işlər, əmlakın bərpası üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələlərini əhatə etməklə, sözügedən növ cinayətlərin törədilməsi nəticəsində leqallaşdırılmış əmlakın bərpa edilməsinə töhfə verəcək Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin yaradılmasından bəhs edilmişdir.

Təlimin əsas məqsədi Avropa Şurasının təcrübəli ekspertləri tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi üzrə uğurlu təcrübə və bilik mübadiləsinin aparılması, o cümlədən gələcəkdə daha sıx əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi olmuşdur.

## Baş Prokurorluğun nümayəndələri Birləşmiş Millətlər Təşkilatlarının Mərkəzi Asiya regionu ilə bağlı yeni proqramının müzakirəsinə həsr edilmiş videokonfransda iştirak edib




Baş Prokurorluğun nümayəndələri Birləşmiş Millətlər Təşkilatlarının Mərkəzi Asiya regionu ilə bağlı yeni proqramının müzakirəsinə həsr edilmiş videokonfransda iştirak edib

29 iyul 2020-ci il tarixdə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya regionu üçün 2021-2025-ci illəri əhatə edən yeni proqramının müzakirəsinə həsr olunmuş videokonfrans formatında keçirilmiş görüşdə qeyd edilən Mərkəzin nümayəndəsi Aşita Mital və Azərbaycan Respublikası Baş Prokurorluğu, o cümlədən  Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər dövlət qurumlarının nümayəndələri iştirak etmişlər.

Qeyd edilən tədbirdə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Toğrul Muxtarov iştirak edərək korrupsiya, çirkli pulların yuyulması, qanunsuz narkotik dövriyyəsinin və digər transmilli xarakter daşıyan cinayətlərə qarşı mübarizə sahələrində müəyyən edilən prioritetlər barədə tədbir iştirakçılarını məlumatlandırmış, proqram çərçivəsində əməkdaşlıq perspektivlərinə dair səmərəli fikir mübadiləsi və müzakirələr aparılmışdır.

## Baş Prokurorluğun nümayəndələri "COVİD-19 çağırışlarının cavablandırması və bərpasında dürüstlüyün qorunması" mövzusunda videoformatda keçirilmiş tədbirdə iştirak edib

Baş Prokurorluğun nümayəndələri "COVİD-19 çağırışlarının cavablandırması və bərpasında dürüstlüyün qorunması" mövzusunda videoformatda keçirilmiş tədbirdə iştirak edib.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nümayəndə heyəti cari ilin 28 iyul tarixində Filippin Respublikasının paytaxtı Manila şəhərində Asiya İnkişaf Bankı (ADB) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Asiya-Sakit okean Anti-Korrupsiya Təşəbbüsü çərçivəsində “COVID-19 çağırışlarının cavablandırması və bərpasında dürüstlüyün qorunması” mövzusunda videoformatda keçirilmiş tədbirdə iştirak etmişdir.

Müxtəlif dövlətlərin 100-dən artıq təmsilçilərinin qatıldığı tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti qismində Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev, o cümlədən Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Elnur Hümbətov iştirak etmişdir.

Tədbirdə COVID-19 ilə mübarizə çərçivəsində şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə istiqamətində aparılan islahatlara dəstək, iştirakçı ölkələr arasında əldə olunmuş ən yüksək təcrübələrin öyrənilməsi və beynəlxalq qurumlarla bu sahədə qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi sahəsində geniş müzakirələr aparılmışdır.

Qeyd edilməlidir ki, cari ildən etibarən Azərbaycan Respublikası ADB və OECD-nin Asiya qitəsi və Sakit okean regionu üçün nəzərdə tutulmuş Korrupsiyaya qarşı mübarizə üzrə Fəaliyyət Planına qoşulmuşdur.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Gürcüstan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğunun Gürcüstan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Minsk Konvensiyasının tələblərinə əsasən Gürcüstan Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində ölkəmiz ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü Azərbaycan Respublikasına ekstradisiya edilməsi barədə sorğu edilmişdir.

Belə ki, Fədail Quliyevin 2017-ci ildə Bakı şəhərində Türkiyə Respublikasının vətəndaşı Kaman Eyyup Hakandan satış məqsədilə 500 min ədəd saxta aksiz markası sifariş edərək ölkəmizdə satışını həyata keçirməsinə əsaslı şübhələr müəyyən edilmiş və bu səbəbdən təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində beynəlxalq axtarış elan edilmişdir.

Fədail Quliyevin Gürcüstan Respublikası ərazisində yerinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Gürcüstan Baş Prokurorluğuna sorğusu təmin edilmişdir.

Fədail Quliyevin yaxın günlərdə Azərbaycan Respublikasına ekstradisiyası həyata keçiriləcəkdir.

# Azərbaycan Respublikasında COVID-19 pandemiyası dövründə həyata keçirilmiş mübarizə tədbirləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilib




Azərbaycan Respublikasında COVID-19 pandemiyası dövründə həyata keçirilmiş mübarizə tədbirləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir.

Azərbaycan Raspublikasının rəhbərliyi, habelə hökuməti və aidiyyəti dövlət qurumları tərəfindən pandemiya dövründə risklərin düzgün qiymətləndirilməsi nəticəsində həyata keçirilmiş qabaqlayıcı tədbirlər yüksək qiymətləndirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prokurorluğunun da üzvü olduğu Avropa ölkələrinin prokurorluq və antikorrupsiya qurumlarının Korrupsiyaya qarşı mübarizə əməkdaşlığı təşkilatı tərəfindən həmin təşkilata üzv olan Avropa ölkələrinin hökumətləri və müvafiq dövlət qurumları tərəfindən pandemiya dövründə həyata keçirilən qabaqlayıcı və inzibati tədbirlər təhlil edilmiş və bu barədə məlumat EPAC və EACN təşkilatlarının birgə bülletenində dərc edilmişdir.

Müsbət haldır ki, Azərbaycan Respublikasında bu sahədə vaxtında həyata keçirilmiş operativ tədbirlər nəticəsində əhalinin sosial və digər maraqlarının nəzərə alınması və onların təmin edilməsi üçün müvafiq addımların atılması barədə də məlumat Bülletendə öz əksini tapmışdır. O cümlədən qeyd edilmişdir ki, əhaliyə göstərilmiş maddi yardım, həmçinin vətəndaşların sağlamlıqlarının qorunması üçün əlçatan və keyfiyyətli tibbi yardım göstərilmiş, bu məqsədlə yeni modul tipli xəstəxanalar tikilməklə istifadəyə verilmişdir.

Həmçinin, COVİD-19 pandemiyasının yaratdığı bütün çətinliklərə baxmayaraq Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən vətəndaşlardan daxil olan ərizə və şikayətlərin araşdırılaraq qanuni tədbirlərin görülməsi, habelə koronavirusa qarşı həyata keçirilmiş səmərəli inzibati tədbirlər də xüsusilə vurğulanmışdır.

## Azərbaycan Respublikası Baş Prokurorluğunun Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Kişinyov Konvensiyasının tələblərinə əsasən Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində ölkəmiz və Qazaxıstan ərazisində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya edilmələri barədə qarşılıqlı sorğular edilmişdir.

Belə ki, Əflatun Quliyevin – təkrarən tamah niyyətilə tanışı Elnur Talıbov ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında razılığa gələrək Afət Qasımovaya xeyli miqdarda maddi ziyan vurmaqla özgə əmlakını gizli talamasına; Emin Qaraşovun – özgə əmlakını qəsdən məhv etməsinə və bununla da zərərçəkmiş şəxslərə xeyli miqdarda ziyan vurmasına əsaslı şübhələr müəyyən edildiyinə görə qeyd edilən şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində beynəlxalq axtarış elan edilmişdir.

Axtarışda olan şəxslərin yerlərinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə qarşılıqlı sorğuları təmin edilməklə Əflatun Quliyev Azərbaycan Respublikasına, Emin Qaraşov isə Qazaxıstan Respublikasına ölkəmizin Daxili İşlər Nazirliyinin xüsusi konvoyunun müşayiəti ilə ekstradisiya edilmişdir.

## Prokurorluq əməkdaşları Birləşmiş Millətlər Təşkilatının Cinayət və Ədliyyə üzrə Regionlararası Tədqiqat İnstitutunun (UNICRI) ekspertlərinin iştirakı ilə beynəlxalq təlimdə iştirak edib

Prokurorluq əməkdaşlarının maliyyə xarakterli cinayətlərin araşdırılması sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə görülən tədbirlər çərçivəsində onların təlim kurslarında, treninqlərdə, o cümlədən beynəlxalq təlimlərdə iştirakı təmin olunur.




Belə tədbirlərin davamı olaraq, cari ilin 24 avqust tarixində Birləşmiş Millətlər Təşkilatının Cinayət və Ədliyyə üzrə Regionlararası Tədqiqat İnstitutunun (UNICRI) ekspertləri və Azərbaycan Respublikasının Prokurorluq orqanlarının əməkdaşlarının iştirakı ilə “Zoom” onlayn platforması qaydasında video-görüş keçirilmişdir.

Video-görüşdə UNICRI-nin aktivlərin bərpası üzrə ekspertləri ilə yanaşı Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin böyük prokuroru Rövşən Abdullayev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin əməkdaşı Elmir Zeynalov və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru Kamil Kamilli iştirak etmişlər.

Tədbirdə mütəşəkkil cinayətkarlıq fəaliyyəti nəticəsində əldə edilən aktivlərin səmərəli şəkildə izlənilməsi və müsadirə edilməsi, qanunsuz olaraq əldə edilmiş aktivlərin dondurulması, saxlanılması, müsadirə edilməsi və bərpa olunması istiqamətində fəaliyyətin qurumlararası və trans-sərhəd şəkildə əlaqələndirilməsinin təkmilləşdirilməsi, “COVID-19” pandemiyasının müxtəlif sahələr, o cümlədən, korrupsiyaya qarşı mübarizə sahəsi üzərindəki mənfi təsirləri kimi aktual mövzuların müzakirəsi həyata keçirilmiş, qeyd olunan mövzularla əlaqədar ayrı-ayrı ölkələrin müsbət təcrübələri dinlənilmişdir.

# Prokurorluq orqanlarının əməkdaşları beynəlxalq tədbirdə iştirak ediblər

Prokurorluq əməkdaşları tərəfindən mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsinin təmin edilməsi istiqamətində görülən işlər çərçivəsində əməkdaşların mühüm beynəlxalq tədbirlərdə iştirakı təmin olunur. Cari ilin 31 avqust – 2 sentyabr tarixlərində onlayn platforma qaydasında (videoformat rejimində) Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının (UNCAC) İcrası üzrə Nəzarət Qrupunun 11-ci sessiyasının birinci bərpa olunan iclası və Korrupsiyanın qarşısının alınması üzrə Açıq Hökumətlərarası İşçi Qrupun 11-ci sessiyası, habelə 2-4 sentyabr tarixlərində isə BMT-nin Baş Assambleyasının korrupsiyaya qarşı mübarizə üzrə Xüsusi sessiyasına (UNGASS 2021) hazırlıq məqsədilə UNCAC-a Tərəf Dövlətlərin 1-ci sessiyalararası görüşü keçirilmişdir.



BMT-nin nümayəndələrinin, ABŞ, Böyük Britaniya, Avstraliya, Niderland Krallığı, Meksika Birləşmiş Ştatları, Peru Respublikası, Rusiya Federasiyası, Braziliya Federativ Respublikası, Çin Xalq Respublikası və Korrupsiya əleyhinə Konvensiyaya (UNCAC) tərəf olan digər dövlətlərin təmsilçilərinin 31 avqust – 2 sentyabr tarixlərində qatıldığı tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov və həmin idarənin prokuroru Elşən Orucov, 2-4 sentyabr tarixlərində keçirilmiş digər görüşdə isə idarənin rəis müavini İsfəndiyar Hacıyev, prokuror Kamil Kamilli, habelə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin birinci katibi Şahin Şahyarov da iştirak etmişdir.

31 avqust – 2 sentyabr tarixlərində keçirilən tədbirdə UNCAC-ın İcrası üzrə Nəzarət Qrupunun 11-ci sessiyasının birinci bərpa olunan iclası zamanı korrupsiyanın qarşısının alınması və bu istiqamətdə hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən tədbirlər, eləcə də Konvensiyanın icra vəziyyəti ilə bağlı məlumat mübadiləsi aparılmış, Korrupsiyanın qarşısının alınması üzrə Açıq Hökumətlərarası İşçi Qrupun iclasında isə rüşvətxorluğa qarşı mübarizə üzrə əldə olunan müsbət təcrübə və təşəbbüslər mövzularında müzakirələr aparılmışdır.

2-4 sentyabr tarixlərində keçirilən görüş zamanı BMT-nin UNGASS 2021 tədbiri ilə bağlı aparılmış işlər, COVID-19 pandemiyası zamanı korrupsiyanın qarşısının alınması üzrə Tərəf Dövlətlərin qarşılaşdığı çətinliklər, o cümlədən qəbul olunması planlaşdırılmış Siyasi Bəyannamə layihəsi ətrafında müzakirələr aparılmışdır.

# Baş prokuror Kamran Əliyev Nailə Həsənova ilə bağlı Ankara Cümhuriyyət Baş prokuroruna müraciət edib

Son günlər bir sıra kütləvi informasiya vasitələri və sosial media səhifələrində Türkiyənin Ankara şəhərində yaşayan Nailə Həsənovanın 3 azyaşlı övladları ilə birlikdə 8 il qeyri-rəsmi nikahda yaşadığı Türkiyə vətəndaşı Ercan Kapan tərəfindən işgəncə və zorkılığa məruz qalması, onun və azyaşlı övladlarının həyatının təhlükədə olması, bundan başqa uşaqların biloji anası olduğu halda E.Kapanın rəsmi nikahda olduğu arvadını saxtakarlıq yolu ilə üç uşağının anası olaraq rəsmiləşdirdiyindən övladlarının qəyyumluğunu əldə edə bilməməsi, bununla əlaqədar olaraq onların vəsiqələrini dəyişdirə bilməməsi, bu faktorun təhsil hüquqlarını həyata keçirməyinə və eləcə də tibbi xidmətdən yararlanmalarına mane olması barədə məlumatlar yayılmışdır.

Bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Ankara Cümhuriyyət Baş prokuroru Yüksel Kocamana rəsmi qaydada müraciət edərək qanunun aliliyi prinsipini rəhbər tutmaqla qeyd edilən məsələnin nəzarətə götürülüb araşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsini və Nailə Həsənovanın övladları ilə birlikdə Azərbaycan Respublikasına gəlməsində köməklik göstərilməsini xahiş etmişdir.

# Azərbaycan Respublikası Baş Prokuroluğunun Rusiya Federasiyasının Baş Prokurorluğu ilə səmərəli əməkdaşlığı davam etdirilir

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən Rusiya Federasiyasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya edilmələri barədə sorğular edilmişdir.

Belə ki, Abşeron rayon məhkəməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Faiq Quliyevin – arvadı Xəyalə Quliyevaya yaşadığı evdə ailə münaqişəsi zəminində aralarında yaranmış mübahisə zamanı sağlamlığına az ağır zərər vurmaya aid bədən xəsarəti yetirməsinə; Şəmkir rayon Polis Şöbəsinin İstintaq Bölməsində istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş İslam Məmmədovun – bir neçə şəxsin etibarından sui istifadə edərək özgə əmlakını ələ keçirmək məqsədilə təkrar dələduzluq əməlini törətmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilən şəxslər barəsində beynəlxalq axtarış elan edilmişdir.

Axtarışda olan şəxslərin yerlərinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğuna etdiyi sorğular təmin edilməklə Faiq Quliyev və İslam Məmmədov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya edilmişlər.

# Baş Prokurorluğun əməkdaşı ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropada Prokurorların funksional müstəqilliyi mövzusunda beynəlxalq vebinarda iştirak edib




02 sentyabr 2020-ci il tarixində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropada Prokurorların funksional müstəqilliyi mövzusunda Avropa Prokurorların Məşvərət Şurası, Beynəlxalq Prokurorlar Assosiasiyası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropa hakimləri demokratiya və azadlıq naminə Assosiasiyasının ekspertlərinin, eləcə də qeyd edilən regiona aid ölkələrin prokurorluq orqanlarının nümayəndələrinin iştirakı ilə "Zoom" onlayn platforması qaydasında vebinar keçirilmişdir.

Vebinarda göstərilmiş ekspertlər ilə yanaşı Azərbaycan Respublikası Baş Prokrurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Arzu Zeynalabdıyeva iştirak etmişdir.

Tədbirdə prokurorların funksional müstəqilliyi, məslənin hazırda bu sahədə beynəlxalq standartlar və təcrübələr, prokurorların öz işlərində müstəqilliyin təmin edilməsi üçün təkliflər, Covid-19 pandemiyasının prokurorların işinə, eləcə də onların müstəqilliyinə təsirləri, bu sahədə vəziyyəti müəyyən etmək məqsədilə təşkilatlar tərəfindən sorğuların aparılması, müşahidə olunmuş çətinliklərin aradan qaldırılması, bu şəraitdə də əsas insan hüquq və azadlıqlarının qorunması, qanunun aliliyi prinsipinə sadiq qalınması, pandemiya ilə əlaqədar yaranmış maddi problemlər və onun həlli üsulları, ölkələrdə cinayət qanunvericiliyində məsələ ilə bağlı dəyişikliklər və digər aktual mövzularda müzakirələr aparılmış və bir sıra ölkələrin təcrübələri diqqətə çatdırılmışdır.

# Prokurorluğun gənc əməkdaşları Beynəlxalq Antikorrupsiya Yay Akademiyasında uğurla iştirak ediblər



5-11 sentyabr 2020-ci il tarixlərində Avstriyanın Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) təşkil etdiyi, 45 müxtəlif ölkələrdən olan 102 nümayəndənin iştirakı ilə onlayn qaydada videokonfrans rejimində keçirilmiş Beynəlxalq Antikorrupsiya Yay Akademiyasında Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi Müsadirə Məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru vəzifəsini icra edən Həsənov Əhməd Yelmar oğlu və Abşeron rayon prokurorluğuna ezam olunmuş Daşkəsən rayon prokurorluğunun müstəntiqi Süleymanova Günay Tofiq qızı iştirak etmişlər.

Təlim kursunda dünyanın mötəbər təhsil müəssisələrində tədris edən, eləcə də digər sahələrdə fəaliyyət göstərən ekspertlər tərəfindən korrupsiyanın yaranması və inkişaf etməsinin iqtisadi səbəbləri, habelə müxtəlif sahələrdə korrupsiya hallarının qarşısının alınması yolları və bu kimi oxşar digər mövzularda mühazirələr oxunulmuş, həmin mövzular ətrafında iştirakçılar arasında geniş və aktiv müzakirələr aparılmışdır.

Təlim kursunun yekununda əməkdaşlarımıza Beynəlxalq Antikorrupsiya Yay Akademiyasını uğurla başa çatdırılması ilə bağlı müvafiq sertifikatlar təqdim edilmişdir.

# Prokurorluğun veteranı Mahir Muradovun “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalına müsahibəsi

***Hörmətli oxucularımızın diqqətinə təqdim edilən jurnalımızın yeni bölmələrdən biri “Prokurorluğun veteranları” adlanır. Bu bölmədə prokurorluq orqanlarında işləmiş və hazırda təqaüddə olan, prokurorluğun kollektivində dərin hörmət qazanmış əməkdaşlar haqqında bioqrafik materialların, xatirə və memuarların, oçerklərin, habelə onlardan alınan müsahibələrin dərc edilməsi nəzərdə tutulmuşdur. Bu bölmənin yaradılmasında məqsəd dəyərli veteranlarımızın zəngin həyat və iş təcrübəsinin oxucularımızla bölüşməsinə töhvə verməkdən ibarətdir.***



**Mahir Cümşüd oğlu Muradov 25 iyul 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur.**

**1982-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.**

**Əmək fəaliyyətinə 1973-cü ildən başlamışdır.**

**Həmin ildən 1979-cü ilədək Azərbaycan Respublikası Ədliyyə Nazirliyi orqanlarında çalışmışdır.**

**1979-cu ildən 1983-cü ilədək “Xəzərneftqazdonanma” İdarəsində müxtəlif vəzifələrdə çalışmışdır.**

**1983-cü ildən başlayaraq 2012-ci ilədək Prokurorluq orqanlarında stajor, böyük müstəntiq, şöbə prokuroru, prokuror vəzifələrində işləmişdir.**

**2004-cü ildən 2012-ci ilə qədər Bakı şəhəri Nizami rayon prokuroru vəzifəsində çalışmışdır.**

**16 oktyabr 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin olunmuşdur.**

**Ailəlidir, üç övladı var.**

**Sual:** “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalı ilə müsahibəyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından təşəkkürümü bildirirəm. Mahir müəllim, ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmələrə ictimai etimadın yüksəldilməsi ilə bağlı ardıcıl islahatlar həyata keçirilməkdədir. Bu islahatların həyata keçirilməsinə Konstitusiya Məhkəməsinin verdiyi töhfə və dəstək barədə oxucularımıza məlumat verməyinizi istərdik.

**Cavab:** İlk əvvəl daimi oxucunuz kimi, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin bütün üzvlərini salamlayaraq, fəaliyyətinizdə uğurlar və yeni nailiyyətlər arzu etmək istərdim.

Əvvəla, qeyd edim ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən köklü islahatlar ölkəmizdə ictimai-siyasi sabitliyin, rəqabətə davamlı, əlverişli biznes mühitinə malik güclü iqtisadiyyatın formalaşmasına, müdafiə qabiliyyətimizin dönmədən artmasına səbəb olmuşdur. Bu uğurlu siyasətdə, xüsusilə ölkəmizdə sosial siyasətin ildən-ilə güclənməsində, sosial müdafiə sisteminin sosial ədalət prinsipləri əsasında daha da inkişaf etməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çox geniş miqyası əhatə edən ardıcıl xidmətləri, yüksək humanizmi ehtiva edən nəcib, xeyirxah layihə və təşəbbüsləri mühüm rola malikdir.

Ölkəmizin bütün sahələrdə sürətli inkişafı hüquq sisteminin də inkişafını labüd etməklə, məhkəmə-hüquq islahatlarının daha da dərinləşməsinə rəvac vermişdir. Məlum olduğu kimi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 3 aprel 2019-cu il tarixli, “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi ilə bağlı 1 iyun 2020-ci il tarixli fərmanlar, “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 20 fevral 2017-ci il tarixli, yeni inzibati və kommersiya məhkəmələrinin təsis edilməsi ilə bağlı

19 iyul 2019-cu il tarixli sərəncamlar, habelə ölkə başçısı cənab İlham Əliyevin bilavasitə qanunvericilik təşəbbüsü qaydasında qəbul edilən qanunvericilik paketləri ölkəmizin bütün məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cəza siyasətinin daha da humanistləşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmələrə ictimai etimadın yüksəlməsi, sahibkarların fəaliyyətinə dəstəyin artırılması, ümumilikdə bütün hüquq sistemimizin inkişafına səbəb olmuşdur.



Prokurorluğun veteranı kimi, mən Azərbaycan Respublikası Prokurorluğu orqanlarında da müasir düşüncə və islahatçı ruhuna sahib olan Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə aparılan çox şaxəli, müasir məzmunlu islahatları da yaxından izləyirəm. Bu tədbirlər prokurorluğun kadr potensialının gücləndirilməsi və peşəkarlığının artırılmasına, fəaliyyətində şəffaflığın və səmərəliliyinin təmin edilməsinə, ümumilikdə qanunun aliliyinin keşiyində duran ən mühüm təsisatlardan biri kimi cəmiyyətdə nüfuzunun daha da artmasına səbəb olacaqdır.

Cari ilin sentyabrın 22-də prokurorluq işçilərinin peşə bayramı ərəfəsində Baş prokuror cənab Kamran Əliyev tərəfindən veteran prokurorluq işçiləri ilə görüşü çox yüksək qiymətləndirirəm. Sizi əmin edim ki, bu təşəbbüs bütün veteranlarımızda, təqaüddə olan əməkdaşlarımızda dərin məmnunluq hissləri yaratmış, böyük ruh yüksəkliyinə səbəb olmaqla, prokurorluğun xoş gələcəyi ilə bağlı nikbinlik və qürur hissləri oyatmışdır. Bu təşəbbüsə görə Kamran müəllimə minnətdarlığımı bildirmək istəyirəm

Nəhayət, onu da qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə öz töhfəsini verməklə, mütəxəssislərimiz bu sahədə bir çox normativ-hüquqi aktların layihələrinin hazırlanmasında yaxından iştirak etmiş, Konstitusiya Məhkəməsi Plenumunun bir çox qərarları cinayət, cinayət-prosessual, mülki, mülki-prosessual, ailə, torpaq və digər qanunvericilik sahələri üzrə yaranan ziddiyyətlərə və uyğunsuzluqlara öz şərhləri ilə aydınlıq gətirmiş, hüquqi kazual məsələlərin həllini təmin etmiş, vətəndaşların hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, bələdiyyə və məhkəmə aktlarından pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə verilmiş yüzlərlə şikayət Plenum tərəfindən qanun və ədalət çərçivəsində baxılaraq təmin edilmişdir.

**Sual:** Əmək fəaliyyətinizin ən mühüm hissəsini prokurorluq orqanlarında xidmət etdiyiniz illər təşkil edir. Peşəkar müstəntiq və prokuror kimi, yəqin ki yuxusuz gecələriniz çox olmuşdur. Həmin dövrdən yaddaşınıza əbədi həkk olunmuş ən maraqlı və mürəkkəb cinayət hadisəsini necə xatırlayırsınız?

**Cavab:** 1984-cü ildə, Bakı şəhərinin Orconikidze, indiki Suraxanı rayon prokurorluğunda müstəntiq olarkən, qəribə bir hadisə ilə üzləşmişdik. Bir gün Saniyət və Süräyya adlı iki bacı prokurorluğa gəlib bildirdilər ki, digər bacıları Dilarə, onun həyat yoldaşı və qızı yoxa çıxıblar. Bacılar əmin idilər ki, Dilarə və qızını əri qətlə yetirib və özü də qaçıb gizlənib. Həmkarım Anatoliy Koçerıgin materialı götürdü və biz təhqiqata başladıq. Əlimizdə heç bir fakt yox idi, haradan, nədən başlayacağımızı bilmirdik, bundan başqa Dilarənin həyat yoldaşının o vaxtlar Respublika Prokurorluğu ümumi nəzarət şöbəsinin müdiri Kuxmazovun qardaşı oğlu olması da həssaslıq və gərginliyi artırırdı. İtkin düşənləri axtarışa verdik və düz bir il sonra axtarış nəticə verdi, Dilarə Batumidə tapıldı. O, qızı ilə kolxoz sədrinin evində qalıb, xidmətçilik edirdi. Dilarə ilə qızını Bakıya gətirdilər, həyat yoldaşının isə yeri məlum deyildi və Dilarə də onun yerini söyləməkdən imtina edirdi.

İndiyə qədər prokurorluğa, demək olar ki, hər gün gəlib səs-küy salan bacılardan heç biri şübhəli şəxs qismində saxlanılan Dilarənin 10 yaşlı qızına yaxın durmadı. Vəziyyəti belə gördükdə, uşağı götürüb evə gətirdim, anam onu çimdirdi, yedizdirdi. Qızına himayə durduğumu öyrənən Dilarə sabahısı gün mənimlə danışmaq istədiyini bildirdi və bir il öncə baş verənləri açıb danışdı. Hadisə belə olub: Dilarənin bacısı Sürəyya onlara köçüb bacısının ailəsi ilə birgə yaşamağa başlayır. Bir gün Dilarə işə getdikdən sonra onun stomatoloq-texnik olan həyat yoldaşı işdən evə vaxtından tez dönür və evdə tək olan Sürəyyaya təcavüz edir. Bununla da onlar arasında münasibətin təməli qoyulur. Lakin bir gün Sürəyya artıq bu vəziyyətdən bezir və onu hamamda çimərkən bıçaqla qətlə yetirir. Dilarə işdən döndükdə, Sürəyya baş verənləri bacısına danışır və iki bacı birgə cəsədi zirzəmidə gizlədib, təmir adı ilə torpaq gətirdib, onu oradaca faktiki olaraq basdırırlar.

Dilarənin etirafından sonra, səhər saat 8-də biz evin zirzəmisində qazıntı aparıb palaza bükülmüş cəsədi, daha doğrusu artıq tam çürüyüb ovulmaqda olan sümükləri çıxardıq. Anatoliy Qlazov adlı çox peşəkar bir məhkəmə tibb eksperti vardı, onun səyi nəticəsində 8 bıçaq zərbəsi təyin edə bildik.



Həmin cinayətə görə Süreyyaya 10 il iş kəsildi, Dilarə isə 2 il sonra azadlığa çıxdı. Üstündən 30 ilə yaxın bir müddət keçsə də, bu hadisəni mən tez-tez xatırlayıram.

**Sual:** Prokurorluqda xidmət etdiyiniz müddətdə işlədiyiniz kollektivdə təmsil olunan yaşlı və cavan nəslin nümayəndələrindən ən çox kimlər Sizin yaddaşınıza həkk olunmuşdur?

**Cavab:** Prokurorluqda xidmət etdiyim dövrdə çox dəyərli kadrlarla ünsiyyətdə olmuşam və çoxlarının adını sadalamaq olar. Lakin yaddaşıma ən çox həkk olunanlardan ilk öncə Abbas Zamanovun adını çəkmək istərdim. Yaxşı yadımdadır, ilk dəfə prokurorluğa işə qəbul olunarkən bu yüksək mədəniyyətli, alicənab insan mənimlə düz 45 dəqiqə müsahibə aparmışdı və həmin günü mən çox xoş hisslərlə xatırlayıram. Həmçinin, yaşlı nəslin nümayəndələrindən İdris Əsgərovun, Mahir Ziyazadənin, İkram Kərimovun, İldar Dadaşovun, mənimlə çiyin-çiyinə çalışan Anatoliy Koçerıginin, Niyazi Vəlixanovun və Eldar Rəhimovun adlarını çəkə bilərəm. Bu insanların öz mövqelərinə, prinsiplərinə sadiq qalmaları, sözün əsl mənasında ədalət carçısı, insan haqları müdafiəçisi olmaları, peşəkarlıqları məndə böyük heyranlıq hissi oyadıb.

Gənc kadrlardan isə yetirmələrim olan, məsuliyyətləri və əzmkarlıqları ilə seçilən, gənc olmalarına baxmayaraq, geniş dünyagörüşünə, analitik təfəkkürə, yüksək erudisiyaya malik olan Heydər Məmmədovun, Mobil Şəfiyevin və Samir Mahmudovun adlarını çəkmək istərdim. Onu da qeyd edim ki, Samir Mahmudov öz istəyi ilə prokurorluqdan ayrılaraq Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində nüfuzlu Hüquq Akademiyalarının birində təhsilini davam etdirmişdir və hazırda Respublikamızda kommersiya və korporativ hüquq üzrə az saylı mütəxəssislərdən biridir.

**Sual:** İxtisas seçiminiz kim ilə bağlıdır və peşəkar hüquqşünas kimi formalaşmağınızda ən çox kimin əməyini qeyd etmək istərdiniz?

**Cavab:** Bizim ailəmizdə hüquqşünas olmayıb. Lakin mənim xalam qızı alicənab insan, görkəmli hüquqşünas, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində müstəntiq, xüsusilə mühüm işlər üzrə böyük müstəntiq, eləcə müstəqillik illərində Azərbaycan Respublikası Prokurorluğunun Daxili işlər orqanlarında istintaq və təhqiqata nəzarət şöbəsinin prokuroru vəzifəsində çalışmış Eldar Qasımovla ailə qurmuşdu. Bu insanın şəxsiyyəti, mətanəti, öz peşəsinə olan sevgisi, söhbətləri mənə çox maraqlı gəlirdi və mən onunla tanışlıqdan sonra müstəntiq olmağı arzulayırdım.

Bu yolda, yəni peşəkar hüquqşünas kimi formalaşmağımda isə əsasən üç görkəmli prokurorun – Mahir Ziyazadə, İkram Kərimov və Sabir Niyazovun böyük əməyi olub.

**Sual:** Xidməti fəaliyyətinizlə bağlı ən yüksək nailiyyət nəyi hesab edirsiniz?

**Cavab:** Xidməti fəaliyyətimə verilən ən yüksək qiymət Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq və məhkəmə hakimiyyəti orqanlarında səmərəli fəaliyyətimə görə mənə verilən "Əməkdar hüquqşünas" fəxri adı və "Dövlət qulluğunda fərqlənməyə görə" medalda öz təzahürünü tapmışdır. Mənim işimə verilən bu dəyərə görə cənab Prezident İlham Əliyevə öz minnətdarlığımı bildirirəm.

Qeyd edim ki, prokurorluq orqanlarında xidməti fəaliyyətim daim yüksək qiymətləndirilmiş və mən müxtəlif illərdə "Prokurorluğun Fəxri işçisi" döş nişanı, "Prokurorluğunun 90 illiyi" yubiley xatirə medalı və digər mükafatlarla təltif edilmişəm.



**Sual:** Övladlarınızın xidməti fəaliyyətdə yolunuzu davam etdirməyini arzulamısınızmı?

**Cavab:** Bəlkə də mənim oğlum olsaydı, yolumu davam etdirməsini çox istərdim. Üç qızım var, onlar ixtisas seçimində azad olmuşlar. Bu gün hər biri öz işinə, öz vəzifəsinə həvəslə, məsuliyyətlə, peşəkarlıqla yanaşır və mən onların hər üçü ilə fəxr edirəm.

**Sual:** Hər bir insanın həyatında çox sevdiyi bir hobbisi, yaxud işdən azad vaxtını həsr etdiyi fəaliyyəti olur. Bəs Siz əsas xidməti fəaliyyətinizdən asudə vaxtlarda maraq dairənizdə olan hansı işə daha çox vaxt ayırmağa üstünlük verirsiniz?

**Cavab:** Mənim həyatımda önəmli yerlərdən birini idman və musiqi tutur. Azərbaycan Respublikası Atçılıq Federasiyası yarandığı ilk gündən mən həmin federasiyanın vitse-prezidenti, hal-hazırda isə I vitse-prezidentiyəm. Mən fəxr edirəm ki, Azərbaycanda atçılıq idmanının inkişafında, müxtəlif istiqamətlərdə – konkur, cıdır yarışları, çövkən və polo üzrə yarışların yüksək səviyyədə təşkilində mənim də rolum olmuşdur. Onu da qeyd edim ki, digər idman növlərində olduğu kimi, atçılıq idmanında da Azərbaycanın şöhrəti dünyada gündən günə artmaqdadır. Hətta 2014-cü ildə 11-14 dekabr tarixlərində Beynəlxalq Atçılıq Federasiyasının Baş Assambleyasının illik iclası Bakıda keçirildi, Federasiyanın ozamankı prezidenti İordaniya Şahzadəsi xanım Haya Bint Al Hüseyn və 350-dən çox nümayəndə, 110 ölkədən fəxri qonaqlar həmin iclasda iştirak etdilər. Bu, indiyədək keçirilmiş Baş Assambleyalar tarixində rekord göstərici idi.

İdmanla yanaşı, musiqi də mənim üçün çox doğmadır. Xüsusilə də muğam, tar ifaçılığı. Tar məni çox kövrəldir, özüm də bəzən tarda ifa edirəm. Həmin tarı mənə görkəmli tarzən, xalq artisti Ramiz Quliyev hədiyyə edib. Onu da qeyd edim ki, babam Bəyəli Muradov məşhur Mansurovlar ailəsilə qonşu olub və Eldar Mansurovun babası Məşədi Süleyman əmim Cabirə tar dərsləri verib. Məşədi Süleymanın əmimə bağışladığı tar da hal-hazırda məndədir, həmin tarın 100 ildən çox yaşı var!

Mən çox sevinirəm ki, uzun əsrlər boyu xalqımızın yaratdığı və yaddaşında yaşatdığı zəngin muğam sənətimiz bu gün bütün dünyada tanınır və sevilir.





Muğamımızın belə geniş şöhrət tapmasında, əlbəttə ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük rolu və zəhməti şəksizdir. Məhz Mehriban xanımın milli-mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı həyata keçirdiyi, ölkəmizin beynəlxalq nüfuzunun artmasında müstəsna rol oynayan çoxsaylı layihələrinin məntiqi nəticəsi kimi xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi olan muğam sənəti bütün dünyada tanınmaqdadır, muğamımız artıq yüksək nüfuzlu beynəlxalq təsisatlar tərəfindən beynəlxalq səviyyəli bir sənət növü, janr olaraq qəbul olunur, Azərbaycan muğamı, Azərbaycan tarı və tar ifaçılığı UNESCO-nun bəşəriyyətin mədəni irsinin şah əsərləri siyahısına salınıb.

İstedadlı gəncləri üzə çıxarmaq məqsədilə Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycan Mədəniyyəti Dostları Fondunun layihəsi əsasında 2011-ci ildən etibarən "Muğam televiziya müsabiqəsi" təşkil olunur, mən çox diqqətlə və həvəslə həmin müsabiqələri izləyirəm. Sevinirəm, qürur hissi duyuram ki, gənc, istedadlı muğam və tar ifaçılarımız var, onlar arasında muğam müsabiqəsinin qalibi, əməkdar artist Təyyar Bayramovu və dünyaca məşhur tarzən Şəhriyar İmanovu çox bəyənirəm.

**Sual:** Məlum olduğu kimi, həyata keçirilən yeni məzmunlu kadr islahatları nəticəsində prokurorluq orqanlarının kadr tərkibinin 70 faizini müsabiqə yolu ilə qulluğa qəbul edilən gənclər təşkil edir. Hüquqşünaslıq peşəsinin zirvələrindən olan peşəkar prokuror və hakim kimi gənc həmkarlarınıza nə məsləhət edərdiniz?

**Cavab:** Ölkə Başçısı möhtərəm cənab İlham Əliyevin Baş Prokuror vəzifəsinə namizəd kimi cənab Kamran Əliyevi video-format rejimində qəbul edərkən verdiyi tövsiyə və tapşırıqlara uyğun olaraq Kamran müəllim tərəfindən prokurorluqda kadr tərkibinin yenilənməsi, xüsusilə də rəhbər heyətin gənc, istedadlı kardrlarla komplektləşdirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır.

Xatirimdədir, keçən əsrin 90-cı illərində və 2000-ci illərin ilk dövrlərində Baş Prokurorluğun inzibati binasına gələrkən əməkdaşların əsasən yaşlı, az hissəsinin isə orta nəslin nümayəndələrinə aid olduğunu aşkar müşahidə edirdim. İndi isə çox sevinirəm ki, mənə doğma olan Azərbaycan Prokurorluğu kollektivinin mühüm, deyərdim ki, əksər hissəsini əsasən gənclər təşkil edir.

Gənc həmkarlara məsləhət və tövsiyəyə gəldikdə isə, ilk öncə gənclərə deyil, ümumiyyətlə yüksək vəzifəli şəxslərə üz tutmaq istəyirəm. Mən gənc kadr kimi Orconikidze rayon prokurorluğunda çalışarkən, rayon prokuroru Mahir Ziyazadə idi və bazar günləri gələndə kədərlənirdim ki, bu gün işə getməyəcəyəm, çünki bu görkəmli prokurorun rəhbərliyi altında çalışmaq, sözün əsl mənasında, böyük zövq, dəyərli təcrübə idi. Mənim həyat fəlsəfəmim əsasını da bu müddəa təşkil edir: gərək elə yaşayasan, tabeçiliyində olan əməkdaşlarla elə rəftar edəsən ki, səni tanıyan insanlar, səninlə çalışanlar, həmkarların sənin kimi insanı tanımaqdan, belə rəhbərlə işləməkdən zövq alsınlar, bununla fəxr etsinlər, səndən bəhrələnə bilsinlər. Mən hər zaman dua etmişəm ki, əgər tale mənə yüksək vəzifə qismət edərsə, mütləq rəhbərliyim altında çalışacaq insanların öz vəzifələrini məsuliyyətlə, peşəkarlıqla yerinə yetirmələri üçün lazımi şəraiti yaradacağam və bu, əsasən müstəntiqlərə aiddir, çünki həqiqətən prokurorluq orqanlarında müstəntiqlərin vəzifəsi, işi çox ağır, çətin və çox məsuliyyətlidir, mənim nəzərimdə müstəntiqlər prokurorluğun onurğa sütunu rolunu oynayırlar.

Gənclərimizə isə tövsiyəm odur ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və onun layiqli davamçısı olan cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursa, Mehriban xanım Əliyevanın mərhəmət və insanpərvərlik prinsiplərinə sadiq qalmaqla, öz xidməti və ictimai fəaliyyətləri ilə dövlətçiliyimizə, ölkənin ümumi inkişafına, daha da güclü, daha da qüdrətli olmasına töhfə versinlər. Daim öz üzərlərində işləsinlər, mütaliəyə vaxt ayırsınlar, inkişaf etsinlər. Bununla yanaşı, əxlaqa, milli-mənəvi və mədəni dəyərlərə önəm versinlər, özlərində dərin əxlaqi keyfiyyətləri tərbiyə etsinlər, iş və şəxsi həyatlarında, cəmiyyətə qarşı münasibətlərində anlayışlı, dözümlü, təmkinli olsunlar. Atalarımızın çox gözəl buyurduğu və mənim də həyatım boyu şahidi olduğum "Nə əkərsən, onu biçərsən", "Özgəyə quyu qazan özü düşər" və s. bu kimi dərin məna kəsb edən fikirləri bir ibrət nümunəsi kimi daim gözləri önündə canlandırsınlar və bəşər qanunlarına, insanpərvərlik, sədaqət və düzlük prinsiplərinə uyğun yaşamağa çalışsınlar. Bu halda onların həyatında fəth olunmayan heç bir zirvə qalmayacaq.

**"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalın redaksiya heyəti**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli və 1 may tarixli 69-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 28.4.1-ci və 30.2-ci maddələrdə ismin müvafiq hallarında "ikinci qrup əlillər" sözləri ismin müvafiq hallarında "ikinci dərəcə əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin və ismin müvafiq hallarında "uşaqlar" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin.

**2.** 43.1-ci maddədə "204–208" rəqəmləri "204, 205, 205-1.2, 206–208" rəqəmləri ilə əvəz edilsin.

**3.** 72.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə icraatında iştirak edən əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçilərin və peşəkar surdo tərcüməçilərin) köməyindən istifadə etdiyi hallarda, həmin ixtisaslaşmış vasitəçilər (qiraətçilər və peşəkar surdo tərcüməçilər) bu Məcəllənin məqsədləri üçün tərcüməçi hesab olunurlar.".

**4.** Aşağıdakı məzmunda 205-1-ci maddə əlavə edilsin:

**"Maddə 205-1. Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulması**

**205-1.1.** Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına, yəni:

**205-1.1.1.** əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsinə, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılmasına;

**205-1.1.2.** əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə;

**205-1.1.3.** müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;

**205-1.1.4.** müəssisənin ləğv edilməsi halları istisna olmaqla, həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçi ilə əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;

**205-1.1.5.** əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədilə tərtib olunmuş Fərdi Reabilitasiya Proqramının dövlət orqanları və dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən icrasının təmin edilməməsinə;

**205-1.1.6.** işəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçilərin, onların arzusu ilə və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq təsdiq edilmiş Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmamağa və ya yenilərini təşkil etməməyə görə –

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

**205-1.2.** İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin yaşadığı fərdi evlərin onlar üçün uyğunlaşdırılması ilə bağlı xərclərin təqsirkar hüquqi və fiziki şəxslər, dövlət orqanları tərəfindən ödənilməməsinə görə –

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.".

**5. 342.1.**11-ci maddədə "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

**6.** 346-1.3-cü maddədə "Əlillərin" sözü "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

**7.** 603.2-ci maddədən "sağlamlıq imkanlarının məhdudluğunun və ya" sözləri çıxarılsın.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 02 iyun 2020-ci il
№ 126-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 126-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 126-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli və 18 iyun tarixli 1068 nömrəli fərmanları) 5.4-cü bəndinə "199 – 203-cü," sözlərindən sonra "205-1.1-ci," sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli, 22 may tarixli 1039 nömrəli və 18 iyun tarixli 1069 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 13-cü hissəsinə "204" rəqəmlərindən sonra ", 205-1.2" rəqəmləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 iyul 2020-ci il
№ 1100

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12, (I kitab) maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 7.0.11-ci maddəyə "protestlərə" sözündən sonra ", habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə" sözləri əlavə edilsin;

**1.2.** 7.0.47-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.0.48-ci maddə əlavə edilsin:

**"7.0.48.** prosessual sənədlər – ərizə, şikayət, protest, vəsatət, etiraz, bildiriş, çağırış vərəqəsi, rəy, ekspert rəyi, qərar, hökm və bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada məhkəmə və ya cinayət prosesinin iştirakçıları tərəfindən tərtib edilən digər sənədlər.";

**1.3.** aşağıdakı məzmunda 40.5-ci maddə əlavə edilsin:

**"40.5.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72–73-2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməlləri iştirakçılıqla törədildiyi hallarda həmin Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinə əsasən zərərçəkmiş şəxsə dəymiş ziyan və dövlət büdcəsinə ödənişin iştirakçıların hər biri tərəfindən müəyyən pay üzrə ödənilməsi məhkəməyədək icraat zamanı təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarı, məhkəmə icraatı zamanı isə məhkəmənin qərarı ilə həll olunur.";

**1.4.** 41-ci maddə üzrə:

**1.4.1.** 41.3-cü maddənin birinci cümləsinə "istisna edən" sözlərindən sonra "və bu Məcəllənin 40.3-cü və 40.4-cü maddələrində göstərilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən" sözləri əlavə edilsin;

**1.4.2.** 41.3-cü maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ittihamçısı bəraətverici əsaslar olmadıqda təqsirləndirilən şəxs barəsində ittihamdan müdafiə tərəfinin razılığı ilə imtina edir.";

**1.4.3.** 41.4-cü maddəyə "istisna edən" sözlərindən sonra "və cinayət təqibinin həyata keçirilməməsinə imkan verən" sözləri əlavə edilsin;

**1.4.4.** 41.5-ci maddəyə "çatdırır və" sözlərindən sonra "dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etmədiyi hallarda" sözləri əlavə edilsin;

**1.4.5.** 41.6-cı maddədə "40-cı" sözləri "40.2-ci" sözləri ilə əvəz edilsin;

**1.5.** 51-ci maddə üzrə:

**1.5.1.** aşağıdakı məzmunda 51.6-1-ci maddə əlavə edilsin:

**"51.6-1.** Məhkəmə iclasında sədrlik edən iclasların fasiləsiz audioyazısının aparılmasını təmin edir, cinayət prosesinin tərəflərini və cinayət prosesində iştirak edən digər şəxsləri audioyazının aparılması barədə xəbərdar edir. Məhkəmə iclasının protokolu məhkəmə iclasının audioyazısına uyğun tərtib edilir və audioyazı barədə məlumat məhkəmə iclasının protokolunda göstərilməklə elektron və ya digər məlumat daşıyıcılarında ona əlavə olunur. Məhkəmə iclasının protokolu və audioyazısı arasında ziddiyyət olduğu halda, məhkəmə iclasının audioyazısına üstünlük verilir.";

**1.5.2.** 51.7-ci maddənin ikinci cümləsinə "protokolla" sözündən sonra "və ona əlavə edilmiş audioyazı ilə" sözləri əlavə edilsin;

**1.6.** aşağıdakı məzmunda 51-1-ci və 51-2-ci maddələr əlavə edilsin:

**"Maddə 51-1. Cinayət mühakimə icraatının elektron qaydada aparılması**

**51-1.1.** Elektron qaydada cinayət mühakimə icraatı bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılır.

**51-1.2.** Məhkəmə, cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən prosessual sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi cinayət mühakimə icraatında "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

**51-1.3.** "Elektron məhkəmə" informasiya sistemində cinayət prosesinin iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan

verilən şikayət və ya protestlər barədə məlumat almaq, prosessual sənədləri göndərmək və qəbul etmək imkanlarını təmin edən elektron kabinet yaradılır.

**51-1.4.** "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

**51-1.5.** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş prosessual sənədlər kağız daşıyıcıda olan sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

**51-1.6.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bu Məcəlləyə əsasən həmin şəxslərə verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onların elektron kabinetlərində yerləşdirir. Bu barədə həmin şəxslərə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) məlumat verilir.

**51-1.7.** Bu Məcəllənin 51-1.6-cı maddəsində nəzərdə tutulmuş şəxslər bu Məcəlləyə əsasən məhkəməyə təqdim etmək hüququna malik olduqları prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə göndərə bilərlər.

**51-1.8.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim bu Məcəlləyə müvafiq olaraq dövlət ittihamçısına verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onun həmin sistemdə yaradılmış elektron kabinetində yerləşdirir və bu barədə ona həmin sistem vasitəsilə elektron qaydada məlumat verir.

**51-1.9.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə dövlət ittihamçısı bu Məcəllənin 84.6-cı maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər üzrə elektron sənəd formasında tərtib edilmiş prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəməyə təqdim edə bilər.

**51-1.10.** Bu Məcəllənin 51-1.7–51-1.9-cu maddələrində nəzərdə tutulmuş qaydada "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə təqdim edilmiş sənədlərin digər qaydada verilməsi məhkəmə tərəfindən tələb oluna bilməz.

**51-1.11.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə, məhkəmə, bu Məcəlləyə müvafiq olaraq qəbul etdiyi hökm, qərar və digər prosessual sənədləri elektron sənəd formasında tərtib edərək bu Məcəllədə həmin prosessual sənədlər üçün müəyyən edilmiş müddətlərdə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirir.

**51-1.12.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmənin yekun qərarının nəticəvi hissəsi barədə məlumat həmin qərarın elan edildiyi gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.

**Maddə 51-2. Cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi**

**51-2.1.** Cinayət mühakimə icraatında prosessual hərəkətlər aşağıdakı hallarda şübhəli və ya təqsirləndirilən şəxs, mülki iddiaçı, mülki cavabdeh, zərər çəkmiş şəxs, zərər çəkmiş şəxsin və təqsirləndirilən şəxsin hüquqi varisi, xüsusi ittihamçı, onların qanuni nümayəndələri və nümayəndələri, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, şahid, ekspert, mütəxəssis, tərcüməçi, yaxud məhkumun bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər:

**51-2.1.1.** bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin həyatı və sağlamlığı üçün real təhdidlər olduqda onların təhlükəsizliyinin təmin edilməsi, habelə onlara kənar təsirlərin qarşısının alınması zərurəti yarandıqda;

**51-2.1.2.** səhhətinin vəziyyəti, yaxud şübhəli, təqsirləndirilən şəxs və ya məhkum istisna olmaqla bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən başqa şəxslərlə bağlı digər üzrlü səbəblər onların müvafiq icraatda bilavasitə iştirakını qeyri-mümkün etdikdə;

**51-2.1.3.** yetkinlik yaşına çatmayan şəxsin mənafeyinin qorunması zərurəti yarandıqda;

**51-2.1.4.** təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə.

**51-2.2.** Videokonfrans əlaqə sistemindən istifadə edilməklə prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllədə nəzərdə tutulmuş qaydada həyata keçirilməlidir.

**51-2.3.** Məhkəmə icraatı zamanı prosessual hərəkətlər cinayət prosesi tərəflərinin vəsatəti və ya bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən digər şəxslərin müraciəti, yaxud məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin əsaslandırılmış qərarı əsasında videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Məhkəmə bir və ya bir neçə prosessual hərəkətin, habelə icraatın tamamilə və ya qismən videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərar qəbul edir.

**51-2.4.** İbtidai araşdırma zamanı bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilməsi müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə həyata keçirilir. Bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirilməsi barədə vəsatət verə bilər. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilmiş şəxs cinayət prosesi tərəflərinin vəsatəti ilə təkrarən bilavasitə dindirilə bilər.

**51-2.5.** Şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun iştirakı ilə prosessual hərəkətlər həmin şəxsin razılığı olduqda videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Bu Məcəllənin 51-2.1.2-ci maddəsində nəzərdə tutulmuş halda şəxsin səhhətinin vəziyyəti ilə əlaqədar onun prosessual hərəkətin həyata keçirilməsində bilavasitə iştirakının məqsədəuyğun hesab edilməməsinə dair tibbi rəy olduqda, habelə bu Məcəllənin 51-2.1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda məhkəmənin əsaslandırılmış qərarı ilə prosessual hərəkətlər şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun razılığı alınmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər.

**51-2.6.** Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərdə iştirak edən şəxslərə bu Məcəllə ilə nəzərdə tutulmuş hüquqlardan istifadə etmək və vəzifələri yerinə yetirmək üçün müvafiq şərait yaradılmalıdır.

**51-2.7.** Prosessual hərəkətlər videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində ötürülməsini, cinayət mühakimə icraatının aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

**51-2.8.** Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərin videoyazısı aparılmalı, prosessual hərəkətlərin nəticəsinə dair videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda cinayət işinə əlavə edilməlidir.

**51-2.9.** Prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirildikdə müdafiəçi və ya nümayəndənin videokonfrans əlaqənin yaradılması zamanı olacağı yer təmsil olunan şəxsin seçiminə əsasən müəyyən edilir.

**51-2.10.** Məhkəmə prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müvafiq məhkəmə sədrinin vasitəsi ilə həmin məhkəmənin aparatına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.

**51-2.11.** Bu Məcəllənin 51-2.4-cü maddəsində nəzərdə tutulmuş qərarı qəbul etmiş müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müstəntiqə və ya təhqiqat orqanının əməkdaşına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.

**51-2.12.** Prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə icrasının təşkili həvalə edildiyi şəxs bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsi bu Məcəllə ilə müəyyən edilmiş qaydada yanına çağırır və ya onun olduğu yerə gəlir. Daha sonra bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin şəxsiyyətini müəyyən edir, videokonfrans əlaqə sistemini yaradan texniki vasitənin işini təmin edir, bu hərəkətləri protokollaşdırır.

**51-2.13.** Cinayət prosesi iştirakçısının Azərbaycan Respublikasının hüdudlarından kənarda olması səbəbindən onun videokonfrans əlaqə sistemi vasitəsilə dindirilməsi zərurəti yarandıqda, bu haqda müvafiq olaraq müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qəbul etdiyi qərar icra olunması üçün hüquqi yardımın göstərilməsi qaydasında xarici dövlətin müvafiq dövlət qurumuna göndərilir.";

**1.7.** 74.9-cu maddəyə "511.1" rəqəmlərindən sonra ", 511-1.1" rəqəmləri əlavə edilsin;

**1.8.** 78.4-cü maddədə "cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara apellyasiya şikayəti və ya protesti üzrə" sözləri "birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə, habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə" sözləri ilə əvəz edilsin;

**1.9.** 84-cü maddə üzrə:

**1.9.1.** aşağıdakı məzmunda 84.6.9-1-ci maddə əlavə edilsin:

**"84.6.9-1.** şəxsə qarşı irəli sürülmüş ittihamla müqayisədə onun əməlinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsini və ya şəxsə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılmasını təklif etmək;";

**1.9.2.** 84.8-ci maddənin dördüncü cümləsində "Prokurorun" sözü "Yuxarı prokurorun" sözləri ilə əvəz edilsin;

**1.10.** 86.4.2-ci maddədə "müayinə (şəxsi müayinə)" sözləri ", şəxsi axtarış, şəxsi müayinə, ifadələrin yerində yoxlanılması, tədqiqat üçün nümunələrin götürülməsi," sözləri ilə əvəz edilsin;

**1.11.** 87.6.9-cu, 89.4.7-ci, 91.5.32-ci, 93.4.7-ci və 104.2.5-ci maddələrdə "ilə tanış olmaq və ona" sözləri "və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola" sözləri ilə əvəz edilsin;

**1.12.** 92-ci maddə üzrə:

**1.12.1.** 92.3.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.3.16-cı maddə əlavə edilsin:

**"92.3.16.** məhkəmə baxışı bu Məcəllədə nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsin iştirakı olmadan keçirildikdə.";

**1.12.2.** 92.4.7-ci maddədə "maddəsində" sözü "və 92.3.16-cı maddələrində" sözləri ilə əvəz edilsin;

**1.12.3.** 92.9.8-ci maddədə ", habelə məhkəmə iclasının protokolları" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

**1.12.4.** 92.12-ci maddədə "92.3.13-cü" sözləri "92.3.13 və 92.3.16-cı" sözləri ilə əvəz edilsin, üçüncü cümlə dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İşə məhkəmədə baxılarkən şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçidən imtina etdikdə bu barədə məlumat məhkəmə iclasında elan olunur.";

**1.13.** 95.6.8-ci, 96.6.4-cü və 97.6.6-cı maddələrə "protokolunun" sözündən sonra "və ona əlavə edilmiş audioyazının" sözləri əlavə edilsin;

**1.14.** 98.2.2-ci maddəyə "halları" sözündən sonra "məhkəmə iclasının audioyazısına uyğun olaraq" sözləri əlavə edilsin;

**1.15.** 99.6.2-ci maddəyə "protokolunun" sözündən sonra "və ona əlavə edilmiş audioyazının" sözləri əlavə edilsin;

**1.16.** 101.5.9-cu maddədə ", habelə məhkəmə iclasının protokolu" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

**1.17.** 102.6.7-ci maddədə ", habelə məhkəmə iclasının protokolları" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

**1.18.** 130.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Həmin əşyalara baxış hakim tərəfindən keçirildikdə onun nəticələri məhkəmə iclasında elan olunur.";

**1.19.** 183.1-ci maddədə "istintaqı" sözü "baxışında cinayət prosesi tərəflərinin çıxışı" sözləri ilə əvəz edilsin;

**1.20.** 204.2-ci maddənin ikinci, üçüncü və dördüncü cümlələri müvafiq olaraq üçüncü, dördüncü və beşinci cümlələr hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Belə məlumat məhkəmə baxışı zamanı verildikdə, həmçinin məhkəmə iclasında elan olunur.";

**1.21.** 214-cü maddə üzrə:

**1.21.1.** 214.3-cü maddədə "234, 236, 238–247, 264" rəqəmləri "234–236, 238–247, 260–264" rəqəmləri ilə əvəz edilsin;

**1.21.2.** 214.3.2-ci maddədə "tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi" sözləri "tutur və bu Məcəllənin 86.4.2-ci maddəsində göstərilən təxirəsalınmaz" sözləri ilə əvəz edilsin;

**1.22.** 215-ci maddə üzrə:

**1.22.1.** 215.3.1-ci maddədən "318-2," rəqəmləri çıxarılsın;

**1.22.2.** 215.3.2-ci maddəyə "miqrasiya" sözündən sonra ", fövqəladə hallar" sözləri əlavə edilsin;

**1.23.** 226.1-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Onlar, həmçinin çağırışın məzmununun yazılı ötürülməsini təmin edən rabitə vasitələrindən istifadə edilməklə, o cümlədən elektron qaydada çağırıla bilərlər.";

**1.24.** 235.3-cü maddəyə "Şahidlər" sözündən sonra "və zərərçəkmiş şəxslər" sözləri əlavə edilsin;

**1.25.** 282-ci maddə üzrə:

**1.25.1.** 282.1-ci maddəyə "prokurora" sözündən sonra ", yuxarı prokurora" sözləri əlavə edilsin;

**1.25.2.** 282.2-ci maddəyə "imtina etməsindən" sözlərindən sonra "yuxarı prokurora və" sözləri əlavə edilsin;

**1.26.** 292.1-ci maddəyə "göndərir" sözündən sonra "və gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş ittiham aktını "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

**1.27.** 297.0.2-ci maddəyə "göndərmək" sözündən sonra "və gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş yekun protokolu "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirmək" sözləri əlavə edilsin;

**1.28.** 305.1-ci maddədə "maddəsində" sözü ", habelə 40.3-cü və 40.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

**1.29.** 311.4-cü maddədə "311.2-ci maddəsində" sözləri "51-2-ci və 311.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**1.30.** 326-cı maddə üzrə:

**1.30.1.** 326.8.3-cü maddədə "göstərilməlidir" sözü "göstərilməli və məhkəmə iclasında elan olunmalıdır" sözləri ilə əvəz edilsin;

**1.30.2.** 326.9.1-ci maddəyə "oxunur" sözündən sonra ", audio, video və digər yazan texniki vasitələrdən istifadə edilməklə qeydə alınmış ifadələr isə səsləndirilir və nümayiş etdirilir" sözləri əlavə edilsin;

**1.31.** 328.3-cü maddəyə "izahları" sözündən sonra ", bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla," sözləri əlavə edilsin;

**1.32.** 330-cu maddə üzrə:

**1.32.1.** maddənin adına "dindirilməsi" sözündən sonra "və ifadələrinin elan edilməsi" sözləri əlavə edilsin;

**1.32.2.** 330.1-ci maddədə "dindirilir" sözü "dindirilir, habelə onun ifadələrinin elan edilməsinə bu Məcəllənin 329-cu maddəsində göstərilən qaydada yol verilir" sözləri ilə əvəz edilsin;

**1.32.3.** 330.5-ci maddə ləğv edilsin;

**1.33.** 347-ci maddə üzrə:

**1.33.1.** 347.1-ci maddəyə "məsələlər" sözündən sonra "və onların hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsinə uyğunluğu" sözləri əlavə edilsin;

**1.33.2.** 347.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Müşavirə protokolu və hakimin xüsusi rəyi elektron formada kodlaşdırılmaqla "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.";

**1.34.** 356.1-ci maddədə "həmin qərarı" sözləri "həmin qərarın giriş və nəticəvi hissəsini" sözləri ilə əvəz edilsin;

**1.35.** 358.1.1-ci maddədə "və onun nümayəndəsinə" sözləri ", mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə" sözləri ilə əvəz edilsin;

**1.36.** 384-cü maddə üzrə:

**1.36.1.** 384.1-ci maddədə "olduğu andan" sözləri "olunduğu, bu Məcəllənin 384.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi andan" sözləri ilə əvəz edilsin;

**1.36.2.** 384.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 384.1.12-ci maddə əlavə edilsin:

**"384.1.12.** apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddətinin bərpa olunmasına dair vəsatətin rədd edilməsi barədə qərar çıxarıldıqda.";

**1.37.** 391.6.4-cü maddəyə "protokolu" sözündən sonra "və məhkəmə iclasının audioyazısı" sözləri əlavə edilsin;

**1.38.** 407-ci maddə üzrə:

**1.38.1.** 407.1-ci maddədə "qərarı" sözü "qərarının giriş və nəticəvi hissəsi elan edilir. Həmin qərar" sözləri ilə əvəz edilsin;

**1.38.2.** 407.1.1-ci maddədə "onun nümayəndəsinə" sözləri "mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələrinə" sözləri ilə əvəz edilsin;

**1.39.** 408.3-cü maddədə "408.2.7" rəqəmləri "408.2.5" rəqəmləri ilə əvəz edilsin;

**1.40.** 410-cu maddə üzrə:

**1.40.1.** 410.1-ci maddəyə "protesti" sözündən sonra "onu vermək hüququna malik olan şəxslər tərəfindən" sözləri əlavə edilsin;

**1.40.2.** 410.1.1-ci maddədə "və 520.7-ci" sözləri ", 411.5, 520.7 və 524.8-ci" sözləri ilə, "vaxtdan" sözü ", bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən" sözləri ilə əvəz edilsin;

**1.40.3.** 410.1.2-ci maddədə "6 (altı)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

**1.40.4.** 410.1.3-cü maddədə "12 (on iki)" sözləri "6 (altı)" sözləri ilə əvəz edilsin;

**1.40.5.** 410.1.4-cü maddədə "gündən 18 (on səkkiz)" sözləri ", bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən 12 (on iki)" sözləri ilə əvəz edilsin;

**1.40.6.** aşağıdakı məzmunda 410.1-1-ci maddə əlavə edilsin:

**"410.1-1.** Azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun apellyasiya instansiyası məhkəməsinin hökmündən (qərarından) kassasiya şikayətinin verilməsi üçün bu Məcəllənin 410.1-ci maddəsində nəzərə tutulmuş müddətlər hökmün və ya müvafiq qərarın ona verildiyi tarixdən hesablanır.";

**1.41.** 411-ci maddə üzrə:

**1.41.1.** 411.1-ci maddədə "kassasiya instansiyası" sözləri "apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

**1.41.2.** 411.2-ci maddədə "Kassasiya" sözü "Apellyasiya" sözü ilə əvəz edilsin;

**1.41.3.** 411.2.2-ci maddəyə "hadisə" sözündən sonra "və ya həmin şəxsin iradəsindən asılı olmayan digər hal" sözləri əlavə edilsin;

**1.41.4.** 411.3-cü və 411.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"411.3.** Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi məsələsi apellyasiya instansiyası məhkəməsinin yekun qərar çıxarmış məhkəmə tərkibi (bu mümkün olmadıqda, digər hakimlərdən

ibarət məhkəmə tərkibi) tərəfindən həll edilir. Belə vəsatətin baxılma vaxtı və yeri barədə vəsatəti qaldırmış şəxslərə lazımi qaydada məlumat verilir. Həmin şəxslərin məhkəmə iclasına gəlməməsi vəsatətə baxılmasına mane olmur. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.

**411.4.** Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti təmin etdikdə, bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayətini və ya kassasiya protestini cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir.";

**1.41.5.** aşağıdakı məzmunda 411.5-ci və 411.6-cı maddələr əlavə edilsin:

**"411.5.** Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti rədd etdikdə, bu qərardan apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.

**411.6.** Bu Məcəllənin 411.5-ci maddəsində nəzərdə tutulmuş qərardan şikayət və ya protest verildiyi halda apellyasiya instansiyası məhkəməsi onu cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir. Kassasiya instansiyası məhkəməsinin hakimi kassasiya şikayəti və ya kassasiya protesti verilməsi müddətini bərpa etdikdə bu Məcəllənin 418.2-ci maddəsində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirir. Kassasiya instansiyası məhkəməsinin kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməməsi barədə qərarı qətidir və ondan şikayət və ya protest verilə bilməz. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti hər bir halda kassasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.";

**1.42.** 412-ci maddə üzrə:

**1.42.1.** 412.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"412.1.** Kassasiya şikayəti və ya kassasiya protesti apellyasiya instansiyası məhkəməsi vasitəsilə verilir. Kassasiya şikayəti və ya kassasiya protesti birinci instansiya məhkəməsinə verildikdə şikayət və ya protest cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərilir. Kassasiya şikayəti və ya kassasiya protesti kassasiya instansiyası məhkəməsinə verildikdə şikayət və ya protest apellyasiya instansiyası məhkəməsinə göndərilir. Bu maddədə göstərilən hər üç halda apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayəti və ya kassasiya protestinin apellyasiya instansiyası məhkəməsinə daxil olduğu vaxtdan 23 (iyirmi üç) gündən gec olmayaraq kassasiya şikayəti və ya kassasiya protesti cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərilir.";

**1.42.2.** 412.3-cü maddənin birinci cümləsi ləğv edilsin, ikinci cümlədən "həmçinin" sözü çıxarılsın;

**1.42.3.** 412.6-cı maddədə "şikayətindən və ya kassasiya protestindən imtina haqqında apellyasiya instansiyası məhkəməsinə verilmiş ərizə" sözləri "şikayətinin və ya kassasiya protestinin geri götürülməsi haqqında müraciət" sözləri ilə əvəz edilsin;

**1.43.** 413.1.4-cü maddəyə "qərarın" sözündən sonra "tarixi," sözü əlavə edilsin;

**1.44.** 414.2-ci maddədən "və ya xüsusi ittiham qaydasında şikayət" sözləri çıxarılsın;

**1.45.** 415-ci maddə üzrə:

**1.45.1.** 415.0-cı maddə 415.1-ci maddə hesab edilsin və həmin maddədə "Kassasiya instansiyası" sözləri "Apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

**1.45.2.** 415.0.1 – 415.0.4-cü maddələr müvafiq olaraq 415.1.1 – 415.1.4-cü maddələr hesab edilsin;

**1.45.3.** 415.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"415.1.3.** kassasiya şikayətinin və ya kassasiya protestinin məzmununa dair bu Məcəllənin 413-cü maddəsinin tələblərinə riayət edilmədikdə;";

**1.45.4.** aşağıdakı məzmunda 415.2-ci maddə əlavə edilsin:

**"415.2.** Bu Məcəllənin 415.1-ci maddəsinin tələbləri yerinə yetirilmədikdə apellyasiya instansiyası məhkəməsi ilkin olaraq kassasiya şikayətinin və ya kassasiya protestinin hərəkətsiz saxlanılması barədə qərar çıxarır və öz qərarı ilə həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək müddət təyin edir. Təyin edilmiş müddət ərzində həmin tələblər yerinə yetirilmədikdə, kassasiya şikayəti və ya kassasiya protesti verilməmiş hesab edilir və baxılmamış saxlanılır. Bu halda şəxs bu Məcəllənin 410-cu maddəsində göstərilən müddətlərdə yenidən kassasiya şikayəti və ya kassasiya protesti verə bilər.";

**1.46.** 417-ci maddə üzrə:

**1.46.1.** 417.1-ci və 417.2-ci maddələrdə "kassasiya instansiyası" sözləri "apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

**1.46.2.** 417.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"417.3.** Kassasiya şikayətinə və ya kassasiya protestinə dair etirazlar apellyasiya məhkəməsi tərəfindən işə əlavə olunur, bu etirazlar iş kassasiya instansiyası məhkəməsinə göndərildikdən sonra daxil olduqda bilavasitə kassasiya instansiyası məhkəməsinə göndərilir.";

**1.47.** 418-ci maddə üzrə:

**1.47.1.** 418.2.2-ci maddədə "yetirilməsini təmin edir" sözləri "yetirilib-yetirilmədiyini müəyyən edir" sözləri ilə əvəz edilsin;

**1.47.2.** 418.2.3-cü və 418.4-cü maddələr ləğv edilsin;

**1.47.3.** 418.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"418.3.** Kassasiya şikayətini və ya kassasiya protestini ilkin öyrənən hakim apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 415.1-ci maddəsinin tələbləri, habelə kassasiya baxışının keçirilməsinə mane olduğu halda bu Məcəllənin 417.1-ci maddəsinin tələblərinin yerinə yetirilmədiyini müəyyən etdikdə cinayət işini, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarını apellyasiya instansiyası məhkəməsinə qaytarır.";

**1.48.** 421.1.1-ci maddədən "418.2.3," və "418.4," rəqəmləri çıxarılsın;

**1.49.** 432.6-cı maddəyə "icraata" sözündən sonra "bəraətverici əsaslar olmadan" sözləri əlavə edilsin;

**1.50.** 434.1-ci maddədə "şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin" sözləri "təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona ağır və ya xüsusilə ağır cinayətin, 16 yaşına çatmış təqsirləndirilən şəxslərə isə həmçinin az ağır cinayətin zorakı üsulla və ya iki dəfədən çox" sözləri ilə əvəz edilsin;

**1.51.** 438.2-ci maddəyə "ağır" sözündən sonra "və xüsusilə ağır" sözləri əlavə edilsin;

**1.52.** aşağıdakı məzmunda 449.3.4-1 – 449.3.4-3-cü maddələr əlavə edilsin:

**"449.3.4-1.** şəxsin cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi;

**449.3.4-2.** şəxsin müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsi;

**449.3.4-3.** ibtidai araşdırma orqanı tərəfindən qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi;";

**1.53.** 473-cü maddədə "ilə tanış olmaq və ona" sözləri "və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola" sözləri ilə əvəz edilsin;

**1.54.** 476.0.1-ci maddəyə "göndərir" sözündən sonra ", gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

**1.55.** 480.5.1-ci maddəyə "təsdiq edir" sözlərindən sonra ", gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

**1.56.** 487-4.0.5-ci maddədə "99-5.3" rəqəmləri "99-5.4" rəqəmləri ilə əvəz edilsin;

**1.57.** aşağıdakı məzmunda 511-1-ci maddə əlavə edilsin:

**"Maddə 511-1. Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə**

**511-1.1.** Məhkumun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 80-1-ci maddəsinə müvafiq olaraq zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad edilməsi haqqında məsələyə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.

**511-1.2.** Bu Məcəllənin 511-1.1-ci maddəsində göstərilən qaydada cəza çəkməkdən azad etmə zərərçəkmiş şəxsin və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1.2 və 73-2.2-ci maddələri ilə müəyyən edilmiş məbləğin dövlət büdcəsinə ödənilməsini təsdiq edən müvafiq sənəd nəzərə alınmaqla tətbiq edilir. Zərərçəkmiş şəxs və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi olmadığı hallarda həmin şəxslərin və ya onların qanuni nümayəndələrinin məhkəmə iclasında iştirakı məcburidir.";

**1.58.** 521-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 521. Əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərarların xarici ölkədə icrası**

**521.1.** Xarici ölkədə yerləşən əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindiyi tarixdən 5 gün müddətində həmin hökm və ya digər yekun qərarı çıxarmış məhkəmə tərəfindən müsadirə olunmalı əmlakın hüquqi yardım çərçivəsində xarici ölkədə müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılmasının təmin edilməsi məqsədilə cinayət işi üzrə bütün materiallarla birlikdə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilir.

**521.2.** Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici ölkədə yerləşən əmlakın müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılması məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, o cümlədən əmlakın yerləşdiyi sorğu edilən ölkənin qanunvericiliyinə əsasən tələb olunan zəruri tədbirləri görməlidir.";

**1.59.** aşağıdakı məzmunda LIX fəsil əlavə edilsin:

**"LIX fəsil**
**Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat**

**Maddə 522. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması qaydası**

**522.1.** Xarici dövlətlərin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması bununla bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə mövcud olduğu halda həyata keçirilir. Belə beynəlxalq müqavilə olmadıqda xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları qarşılıqlılıq prinsipinə riayət ediləcəyinə dair həmin dövlətin müvafiq səlahiyyətli orqanı tərəfindən təminat verildiyi halda tanına bilər.

**522.2.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üçün xarici dövlətin müvafiq səlahiyyətli orqanı Azərbaycan Respublikasının Baş Prokurorluğuna və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanına sorğu ilə rəsmi müraciət edir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğunun daxil olduğu müvafiq icra hakimiyyəti orqanı və ya digər dövlət orqanları daxil olmuş belə sorğunu xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının bu Məcəllənin 522–525-ci maddələri ilə müəyyən edilmiş qaydada tanınması üzrə icraatın təmin edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

**522.3.** Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici dövlətin müvafiq səlahiyyətli orqanının rəsmi müraciətinin bu Məcəllənin 523-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verib-verməməsini araşdırır və tələblərə riayət edilmədikdə əlavə məlumatların təqdim edilməsinə dair müraciət edir.

**522.4.** Azərbaycan Respublikasının Baş Prokurorluğu aşağıdakı hallardan hər hansı biri mövcud olduqda xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə bu Məcəllənin 522.6-cı maddəsində nəzərdə tutulmuş qaydada təqdimat verir:

**522.4.1.** barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxs son 12 ayın əksər hissəsini Azərbaycan Respublikasında yaşamışdırsa;

**522.4.2.** barəsində xarici dövlətlərin məhkəmələrinin hökmünün və ya digər yekun qərarının çıxarıldığı şəxsin mənşə ölkəsi Azərbaycan Respublikasıdır və Azərbaycan Respublikası qeyd edilən hökmün və ya qərarın icrası niyyətindədirsə;

**522.4.3.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası məhkum edilmiş şəxsin sosial reabilitasiya imkanlarını gücləndirirsə;

**522.4.4.** barəsində xarici dövlətlərin məhkəmələrinin azadlıqdan məhrum etmə ilə bağlı hökm və ya digər yekun qərarının çıxarıldığı şəxs Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə ilə bağlı cəza çəkirsə.

**522.5.** Azərbaycan Respublikasının Baş Prokurorluğu bu Məcəllənin 522.4-cü maddəsində nəzərdə tutulmuş hallardan ən azı biri mövcud olmadıqda rəsmi müraciəti baxılmamış saxlayır və bu barədə sorğu verən xarici dövlətə məlumatın verilməsini təmin edir.

**522.6.** Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimatı, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxsin sonuncu yaşayış yeri üzrə, bu məlum olmadıqda isə hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin sonuncu yaşayış yeri üzrə, hökmün və ya digər yekun qərarın icrası əmlakla bağlı olduqda isə həmin əmlakın yerləşdiyi yer üzrə apellyasiya instansiyası məhkəməsinə verir.

**Maddə 523. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətin məzmunu**

**523.1.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:

**523.1.1.** Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının adı;

**523.1.2.** xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

**523.1.3.** tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın xarici dövlətin məhkəməsi tərəfindən təsdiq edilmiş surəti;

**523.1.4.** tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın qanuni qüvvəyə minməsini təsdiq edən sənəd;

**523.1.5.** barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxsin adı, atasının adı, soyadı və yaşayış yeri haqqında məlumatlar;

**523.1.6.** barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyat nömrəsi, təsisçiləri və qanuni təmsilçiləri barədə məlumatlar;

**523.1.7.** cinayət tərkibinin əlamətləri, faktların təsviri və əməlin tövsifi, məhkum olmuş şəxsin əleyhinə olan sübutlar;

**523.1.8.** xarici dövlətin müvafiq cinayət qanununun mətni;

**523.1.9.** müsadirə edilməli olan əmlak mövcud olduqda onun barəsində ətraflı məlumat və onun müfəssəl təsviri, yerləşdiyi yer, əmlakı saxlayan, sahiblik edən, ondan istifadə edən şəxslər haqqında və əmlakın məhkum olunmuş şəxsə aidiyyəti barəsində ətraflı məlumat;

**523.1.10.** cinayət nəticəsində vurulmuş ziyanın məbləği;

**523.1.11.** sorğu olunan iş üzrə əmlak üzərinə həbs qoyulması da daxil olmaqla əvvəllər hüquqi yardım göstərilmişdirsə, Azərbaycan Respublikasının hüquqi yardım göstərmiş orqanı və göstərilmiş hüquqi yardım haqqında ətraflı məlumat;

**523.1.12.** Azərbaycan Respublikasının ərazisindən kənarda şəxsə məxsus olduğu məlum olan bütün başqa əmlak barəsində qısa məlumat.

**523.2.** Əmlakın müsadirə edilməsi xahişi ilə rəsmi müraciətə məhkumun və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin Azərbaycan Respublikasında aparılan icraat və çıxarılacaq qərar barəsində məlumatlandırılacağına dair öhdəlik məktubu əlavə edilməlidir.

**Maddə 524. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata baxılması qaydası**

**524.1.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata, bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla açıq məhkəmə iclasında baxılır.

**524.2.** Məhkəmə iclasının vaxtı və yeri barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslərə və ya hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (onlar məlum olduqda) məlumat verilməlidir.

**524.3.** Bildiriş vərəqəsinin maraqlı şəxslərə verilməsi barədə məhkəmədə məlumat olarsa, həmin şəxsin üzrlü səbəblər olmadan məhkəməyə gəlməməsi təqdimata baxılmasına mane olmur. Əgər şəxs təqdimata baxılmasının başqa vaxta keçirilməsi barədə xahişlə məhkəməyə müraciət edərsə və həmin xahiş məhkəmə tərəfindən üzrlü hesab edilərsə, məhkəmə işə baxılmasını başqa vaxta keçirir və müraciət etmiş şəxsi yeni məhkəmə baxışının vaxtı barədə xəbərdar edir.

**524.4.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimata baxılmasının yeri və vaxtı haqqında, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslər, habelə həmin hökmün və ya qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər bilavasitə və ya sorğu edən dövlət vasitəsilə məlumatlandırılır.

**524.5.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikası ərazisində tanınmasından aşağıdakı hallarda imtina edilir:

**524.5.1.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd olduqda;

**524.5.2.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının qəbul edilməsi zamanı şəxsin minimal hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ təmin edilmədikdə;

**524.5.3.** xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları sorğu edən ölkənin qanunvericiliyinə əsasən qüvvəyə minmədikdə və ya onun mübahisələndirilməsi vasitələri tükənmədikdə;

**524.5.4.** "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsi ilə nəzərdə tutulmuş hallar mövcud olduqda;

**524.5.5.** sorğu edilən şəxs barəsində eyni əməl üzrə Azərbaycan Respublikasının cinayət təqibi orqanının cinayət

işinin xitam olunması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərarı, Azərbaycan Respublikası məhkəmələrinin qanuni qüvvəyə minmiş hökm və ya yekun qərarı olduqda və ya həmin şəxs barəsində həmin əməl üzrə cinayət təqibi aparıldıqda;

**524.5.6.** əmlakın müsadirə edilməsi ilə bağlı xarici dövlətin səlahiyyətli orqanının sorğusunda və ona əlavə edilən xarici dövlətlərin məhkəmələrinin hökmlərində və ya digər yekun qərarlarında əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi müsadirə edilməli olan digər əmlak olmasına dair sübutlar olmadıqda;

**524.5.7.** cinayət sorğu edən dövlətin hüdudlarından kənarda törədildikdə;

**524.5.8.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası qeyri-mümkün olduqda;

**524.5.9.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının sorğu edən dövlətin müvafiq səlahiyyətli orqanları tərəfindən icra edilməsi mümkün olduqda;

**524.5.10.** xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlılıq prinsipinə riayət olunmadıqda;

**524.5.11.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan digər hallarda.

**524.6.** Məhkəmə iclasda iştirak edən şəxsləri dinlədikdən sonra xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tam və ya qismən tanınması, yaxud bundan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar dərhal qüvvəyə minir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və icrasına dair qərar Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada icra edilir.

**524.7.** Qərarın surəti onun çıxarıldığı gündən 3 gün müddətində Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində qərarın çıxarıldığı şəxsə və ya onun nümayəndəsinə, hökmün və ya digər yekun qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (məlum olduqda) bilavasitə və ya sorğu edən xarici dövlət vasitəsilə göndərilir.

**524.8.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və ya bundan imtina edilməsi barədə apellyasiya instansiyası məhkəməsinin qərarından Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxs, habelə qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər həmin qərarı aldığı vaxtdan 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət və ya protest verə bilərlər.

**Maddə 525. Əmlakın müsadirəsi barədə rəsmi müraciətə baxılmasının xüsusiyyətləri**

**525.1.** Əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərar yalnız həmin qərarda nəzərdə tutulmuş əmlak Azərbaycan Respublikası ərazisində yerləşdikdə tanınır.

**525.2.** Azərbaycan Respublikasının milli, tarixi və mədəni irsini təşkil edən əşyalara münasibətdə əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərarlar tanına bilməz.

**525.3.** Əmlakın müsadirəsi barədə qərarın icrasına dair sorğu bu Məcəllənin 523.1.9-cu maddəsinin tələblərinə cavab vermirsə və Azərbaycan Respublikasında həyata keçirilən cinayət mühakimə icraatına xələl yetirə bilərsə, sorğu edən tərəfə məlumat verilməklə müsadirə qərarının icrası təxirə salına bilər. Bu barədə xarici dövlətin müvafiq səlahiyyətli orqanına məlumat verilir.

**525.4.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, müsadirə edilmiş əmlakın və ya onun dəyərinin məhkəmə və əmlakın saxlama məsrəfləri çıxıldıqdan sonra əlli faizi sorğu edən dövlətə qaytarılır, qalan hissəsi isə dövlət nəfinə keçirilir.”.

**Maddə 2.** Keçid müddəaları

**2.1.** Bu Qanun 2020-ci il iyul ayının 15-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunun 1.40.3 – 1.40.5-ci maddələri apellyasiya instansiyası məhkəməsinin bu Qanun qüvvəyə mindikdən sonra çıxarılmış yekun qərarlarına münasibətdə tətbiq olunur.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 iyun 2020-ci il
№140-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 25 iyun tarixli 140-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 25 iyun tarixli 140-VIQD nömrəli Qanununun 2020-ci il iyulun 15-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, №8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241) 2-ci hissəsinin altıncı – on dördüncü abzasları müvafiq olaraq yeddinci – on beşinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"həmin Məcəllənin 51-1.2-ci maddəsində, 522.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 25 iyun tarixli 140-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Fərman 2020-ci il iyulun 15-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 iyul 2020-ci il

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 211.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər dörd min manatdan on min manatadək məbləğdə cərimə edilir.";

**2.** 211.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.";

**3.** 211.3-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər səkkiz yüz manat məbləğində cərimə edilir.".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2020-ci il
№ 142-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

### “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 142-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər barədə

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 142-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə:

**1.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 142-VIQD nömrəli Qanununa (bundan sonra – Qanun) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**2.** Razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər. Eyni zamanda, hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq olaraq 48.2-ci, 48.3-cü və 48.5-ci maddələrinin tələblərinə əməl olunmasını təmin etsinlər.

**3.** Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilsin.

**6.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş Naziri**
Bakı şəhəri, 30 iyul 2020-ci il
№ 416s

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 370-2-ci maddə əlavə edilsin:

**“Maddə 370-2. Telekommunikasiya operatoru və provayderi tərəfindən sorğuların müəyyən edilmiş müddətdə cavablandırılmaması**

**370-2.1**. Telekommunikasiya operatoru və provayderi tərəfindən müvafiq icra hakimiyyəti orqanının, habelə məhkəmələrin və ya hüquq mühafizə orqanlarının sorğularına “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətlərdə cavab verilməməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə –

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**370-2.2.** Bu Məcəllənin 370-2.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.”.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2020-ci il
№ 145-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli, 18 iyun tarixli 1068 nömrəli, 3 iyul tarixli 1083 nömrəli, 10 iyul tarixli 1100 və 1104 nömrəli fərmanları) 4.15-ci bəndində “və 370-1.0.3-cü” sözləri “, 370-1.0.3-cü və 370-2.1-ci” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli, 22 may tarixli 1039 nömrəli, 18 iyun tarixli 1069 nömrəli, 23 iyun tarixli 1073 nömrəli, 6 iyul tarixli 1085 nömrəli və 10 iyul tarixli 1100 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 26-cı hissəsinə “370-1,” rəqəmlərindən sonra “370-2,” rəqəmləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 avqust 2020-ci il
№1129

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812, № 11, maddə 1686) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 15-2.1-ci maddənin birinci cümləsində “Azadlığın” sözü “İctimai işlər və azadlığın” sözləri ilə əvəz edilsin.

**2.** 15-2.4-cü maddəyə “onun” sözündən sonra “istifadəsinə verilir və ya” sözləri əlavə edilsin, həmin maddədə “və ya” sözləri “, habelə elektron nəzarət vasitəsi şəxsin üzərinə bağlandıqda” sözləri ilə əvəz edilsin.

**3.** 35.1-ci maddəyə “işləməli” sözündən sonra “, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli” sözləri əlavə edilsin.

**4.** Aşağıdakı məzmunda 39.0.2-1-ci maddə əlavə edilsin:

**“39.0.2-1.** elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edənlər, onu zədələyənlər və ya digər üsulla yararsız vəziyyətə salanlar, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməyənlər;”.

**5.** 51-7.6.2-ci, 178.5-ci, 178.7-ci, 182.2-ci və 182.5-ci maddələrə “ona xidmət” sözlərindən əvvəl “üzrsüz səbəbdən” sözləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2020-ci il
№ 146-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 279; 2013, № 8, maddə 893; 2016, № 4, maddə 676; 2018, № 3, maddə 353, № 5, maddə 962, № 6, maddə 1203, № 10, maddə 2003; 2019, № 4, maddə 626) 3.2-ci bəndinə “34.1,” rəqəmlərindən sonra “35.1,” rəqəmləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq ictimai işlər növündə cəza çəkən şəxslərin elektron nəzarət vasitəsindən istifadə etmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

**2.2.** “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 avqust 2020-ci il
№1123

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12, (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8 maddə 1367; 2020, № 3, maddə 223; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 47.2-1-ci maddə əlavə edilsin:

**"47.2-1.** Məhkəmə tərəfindən ictimai işlər növündə cəzaya məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.".

**2.** 71.3-cü və 76.6.1-ci maddələrə "ona xidmət" sözlərindən əvvəl "üzrsüz səbəbdən" sözləri əlavə edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2020-ci il
№147-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

### "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 147-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər barədə

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 147-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə:

**1.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi icra prosesində müəyyən ediləcək aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 147-VIQD nömrəli Qanununa (bundan sonra – Qanun) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**2.** Razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər. Eyni zamanda, hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq olaraq 48.2-ci, 48.3-cü və 48.5-ci maddələrinin tələblərinə əməl olunmasını təmin etsinlər.

**3.** Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Qanunun tətbiqinin təmin edilməsi məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilsin.

**6.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş Naziri**
Bakı şəhəri, 21 avqust 2020-ci il
№ 481s

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 28.3-1-ci maddə əlavə edilsin:

**“28.3-1.** Məhkəmə tərəfindən ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərin üzərinə həmin işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.”.

**2.** 154.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“154.3.** İcra məmuru:

**154.3.1.** barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin qeydiyyatını aparır, onlara tənbehin icrasının qayda və şərtlərini izah edir;

**154.3.2.** barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsini təqdim etməklə, həmin vasitəni ictimai işlərin yerinə yetirildiyi vaxtların cədvəlinə uyğun üzərlərində daşımalı, istifadə etməli olduqlarını, işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, habelə hər hansı müdaxilənin və ya elektron nəzarət vasitəsindən istifadədən imtina edilməsinin yolverilməzliyini izah edir və bu barədə protokol tərtib edir;

**154.3.3.** barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin davranışına, onların ictimai işlərin yerinə yetirilməli olduğu yerlərə vaxtında gəlmələrinə və həmin yerləri müəyyən olunmuş vaxtdan sonra tərk etmələrinə nəzarət edir;

**154.3.4.** barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin işləmiş olduğu vaxtın uçotunu aparır, ayda iki dəfədən az olmayaraq, şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir;

**154.3.5.** ictimai işlər növündə inzibati tənbehin bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür.”.

**3.** Aşağıdakı məzmunda 156-1-ci maddə əlavə edilsin:

**“Maddə 156-1. İnzibati tənbeh tətbiq etmə zamanı elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri**

**156-1.1.** Barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə elektron nəzarət vasitələri tətbiq edilir.

**156-1.2.** Elektron nəzarət vasitələrinin tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**156-1.3.** Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərin müəyyən edilmiş vəzifələri yerinə yetirməsinə nəzarət icra məmurları tərəfindən həyata keçirilir.

**156-1.4.** Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsi təqdim olunur və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin yolverilməzliyi, həmçinin bu əməlin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.

**156-1.5.** Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, onun dəyəri həmin şəxsdən tutulur.".

**4.** 529-cu maddənin "Qeyd" hissəsinə aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

**"2.2-1.** elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etmək, onu zədələmək və ya digər üsulla yararsız vəziyyətə salmaq, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməmək;".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 iyun 2020-ci il
№ 148-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli, 18 iyun tarixli 1068 nömrəli, 3 iyul tarixli 1083 nömrəli, 10 iyul tarixli 1100 və 1104 nömrəli fərmanları) 4.3-cü bəndinə "154.1-ci maddəsinin ikinci cümləsində," sözlərindən sonra "156-1.2," rəqəmləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 156-1.2-ci maddəsinə uyğun olaraq ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

**2.2.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 avqust 2020-ci il
№1124

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**
**№ 10/82**

Bakı şəhəri                                                                                30 iyul 2020-ci il

**Azərbaycan Respublikası Baş Prokurorluğunun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında təsdiq edilmiş “İşin Təşkili Qaydaları”nın icrasının təmin edilməsi haqqında**

Ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi prosesi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında da əsaslı struktur və kadr islahatları həyata keçirilərək, işin çevikliyinin və səmərəliliyinin artırılması məqsədi ilə daha mobil və dinamik idarəetməyə malik qurumlar yaradılmışdır.

Həmin islahatlarin davamı kimi, Baş Prokurorluqda idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini, səlahiyyətləri dəqiq təsbit edilmiş struktur qurumları və rayon (şəhər) prokurorluqları ilə münasibətlərin tənzimlənməsini müasir tələblər səviyyəsində təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 20 iyun 2020-ci il tarixli 10/68-S nömrəli Sərəncamla təşkil edilmiş İşçi qrup tərəfindən Baş Prokurorluğun “İşin Təşkili Qaydaları”nın layihəsi hazırlanaraq, bütün struktur qurumlarda geniş müzakirəsi keçirilmiş, irəli sürülən təkliflər nəzərə alınmaqla təkmilləşdirilmişdir.

Müzakirələrin nəticəsi olaraq, Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında “İşin Təşkili Qaydaları”  təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10 və 11-ci maddələrini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında təsdiq edilmiş “İşin Təşkili Qaydaları” 1 avqust 2020-ci il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğunun “İşin Təşkili Qaydaları”nın tələblərinə prokurorluq işçiləri tərəfindən dönmədən əməl olunsun.

**3.** Bu Qaydaların tələbləri rəhbər tutulmaqla, qısa müddət ərzində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi prokurorluqları tərəfindən “İşin Təşkili Qaydaları”nın hazırlanıb təsdiq olunması, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu tərəfindən isə müvafiq qaydaların hazırlanıb təsdiq üçün təqdim olunması təmin edilsin.

**4.** Baş Prokurorluğun idarə və şöbələri, tabe rayon (şəhər) prokurorluqları tərəfindən bu Qaydaların tələblərinə uyğun olaraq bir ay ərzində işçilər arasında vəzifə bölgüsünün aparılması və surətlərinin Təşkilat və icraya nəzarət idarəsinə göndərilməsi təmin olunsun.

**5.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**6.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və “Prokurorluğun normativ hüquqi aktları” informasiya sisteminə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri**                                                **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**
**№ 15/2**

Bakı şəhəri 14 sentyabr 2020-ci il

**Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nın təsdiq olunması və icrasının təmin edilməsi haqqında**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin icrası üzrə prokurorluq orqanlarında həyata keçirilən əsaslı struktur və kadr islahatları ilə əlaqədar Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənədlərin dövriyyəsi, struktur qurumları, rayon (şəhər) prokurorluqları ilə münasibətlər və digər fəaliyyət sahələrinin tənzimlənməsini müasir tələblər səviyyəsində təmin etmək məqsədi ilə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" hazırlanaraq, Kollegiya iclasının 30 iyul 2020-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Həmin qərarda digər qurumlarla yanaşı Bakı şəhər prokurorluğuna da bu Qaydaların tələbləri rəhbər tutulmaqla qısa müddət ərzində "İşin Təşkili Qaydaları"nın hazırlanaraq təsdiq üçün təqdim olunması, Baş Prokurorluq üzrə 20 iyun 2020-ci il tarixli 10/68-S nömrəli Sərəncamla təşkil edilmiş İşçi qrup tərəfindən isə həmin Qaydaların hazırlanmasına lazımi köməklik göstərilməsi tapşırılmışdır.

Bakı şəhər prokurorluğu tərəfindən hazırlanaraq 03 sentyabr 2020-ci il tarixdə Baş Prokurorluğa daxil olmuş "İşin Təşkili Qaydaları"nın layihəsində cinayət-prosessual qanunvericiliyin, Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın bir sıra tələblərinə uyğunsuzluq, habelə redaktə xarakterli nöqsanlar müəyyən edildiyindən, həmin sənəd müvafiq qanunvericilik aktları və Qaydalara uyğunlaşdırılaraq təkmilləşdirilmişdir.

Qeyd olunanlara əsasən, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları" təsdiq edilsin və 15 sentyabr 2020-ci il tarixdən qüvvəyə minməklə tətbiq edilsin (əlavə olunur).

**2.** Bakı şəhər və tabe rayon prokurorluqlarının əməkdaşları bu Qaydaların tələblərinə dönmədən əməl olunmasını təmin etsinlər.

**3.** Bakı şəhər prokurorluğunun idarə və şöbələri, tabe rayon prokurorluqları tərəfindən bu Qaydaların tələblərinə uyğun olaraq qısa müddət ərzində işçilər arasında vəzifə bölgüsünün aparılması və surətlərinin Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə göndərilməsi təmin olunsun.

**4.** Əmrin icrasına nəzarət Bakı şəhər prokuroru və onun müavinlərinə, Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinə həvalə edilsin.

**5.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Bakı şəhər prokurorluğuna və tabe rayon prokurorluqlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**
**№ 15/5**

Bakı şəhəri 24 sentyabr 2020-ci il

### Azərbaycan Respublikası Hərbi Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın qüvvəyə minməsi ilə əlaqədar Baş Prokurorluq üzrə bəzi əmr və digər normativ xarakterli hüquqi sənədlərin ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan əsaslı struktur və kadr islahatlarının tərkib hissəsi kimi qabaqcıl beynəlxalq təcrübə və hüquq tətbiqi fəaliyyətinin yüksək standartları nəzərə alınmaqla prokurorluğun fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yenilənməsi müstəsna əhəmiyyətə malikdir.

Bu məqsədlə Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə 20 iyun 2020-ci il tarixli 10/68-S nömrəli Sərəncamla yaradılmış İşçi qrupu tərəfindən bütün struktur qurumların rəy və təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" hazırlanmış və Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında həmin Qaydalar təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın tələbləri rəhbər tutulmaqla hazırlanmış Azərbaycan Respublikası Hərbi Prokurorluğunun "İşin Təşkili Qaydaları" Hərbi Prokurorluğun 22 sentyabr 2020-ci il tarixli Kollegiya iclasında təsdiq edilərək Azərbaycan Respublikası Hərbi prokurorunun 22 sentyabr 2020-ci il tarixli 197 №-li əmri ilə 23 sentyabr 2020-ci il tarixdən qüvvəyə minmişdir.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda ərazi hərbi prokurorluqları tərəfindən görülmüş işlərə dair yarımillik və illik yazılı hesabatlarda əks etdirilən və işlərin planlaşdırılmasının keyfiyyətinin və səmərəliliyinin daha da artırılması üçün zəruri tədbirlərin görülməsi ilə bağlı məsələlər, ərazi hərbi prokurorluqlarında işçilər arasında vəzifə bölgüsünün nümunəvi formalarına, habelə ərazi hərbi prokurorluqlarında fəaliyyətin yoxlanılmasına dair qaydalar tənzimləndiyindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə aşağıda qeyd olunan əmr və digər normativ xarakterli hüquqi sənədlər (onlara dəyişikliklər etmiş aktlarla birlikdə) ləğv edilsin:

**1.1.** "Rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında işin təşkilinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" 18.05.2001-ci il tarixli 02/80 №-li əmr;

**1.2.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair" 07.06.2002-ci il tarixli 08/61 №-li Siyahı və "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair" Siyahının icraya yönəldilməsi barədə 26.06.2002-ci il tarixli 08/61 №-li əmr;

**1.3.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair" Siyahının respublika hərbi prokurorluğu orqanlarında tətbiq edilməsi barədə" 08.01.2004-cü il tarixli 08/2 №-li əmr;

**1.4.** "Rayon(şəhər) və ərazi hərbi prokurorlarının fəaliyyətinin yoxlanılması Qaydaları"nın təsdiq edilməsi barədə" 06.05.2015-ci il tarixli 10/40 №-li əmr və müvafiq qaydalar.

**2.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroruna və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**
**№ 15/6**

Bakı şəhəri 26 sentyabr 2020-ci il

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nın təsdiq edilməsi və bununla bağlı Baş Prokurorluq üzrə bəzi əmrlərin ləğv edilməsi haqqında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin icrası ilə əlaqədar prokurorluq orqanlarında aparılan əsaslı struktur və kadr islahatlarının tərkib hissəsi kimi mütərəqqi beynəlxalq təcrübə və hüquq tətbiqi fəaliyyətin yüksək standartları nəzərə alınmaqla prokurorluğun fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yenilənməsi mühüm əhəmiyyətə malikdir.

Bu məqsədlə Baş Prokurorluq üzrə 20 iyun 2020-ci il tarixli 10/68-S nömrəli Sərəncamla yaradılmış İşçi qrupu tərəfindən Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" hazırlanmış və Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında həmin Qaydalar təsdiq edilmişdir.

Baş Prokurorluğun Kollegiya iclası qərarının 2-ci bəndinə əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın tələbləri rəhbər tutulmaqla Baş İdarə üzrə müvafiq Qaydaların hazırlanıb təsdiq üçün təqdim olunması tapşırılmışdır.

Qərarın icrasının təmin edilməsi məqsədilə 12 avqust 2020-ci il tarixli Sərəncamla Baş İdarənin əməkdaşlarından ibarət tərkibdə yaradılmış İşçi qrupu tərəfindən Baş İdarənin struktur qurumlarının rəy və təklifləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları" hazırlanmış və Baş Prokurorluq üzrə 20 iyun 2020-ci il tarixli 10/68 nömrəli Sərəncamla təşkil edilmiş İşçi qrupunun təklifləri nəzərə alınaraq Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na uyğunluğu təmin edilməklə təkmilləşdirilmişdir.

Qeyd olunanlara əsasən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları" 28 sentyabr 2020-ci il tarixdən qüvvəyə minməklə tətbiq edilsin.

**3.** Qaydaların 20.4-cü bəndi müvafiq proqram təminatı təkmilləşdirilərək təmin edildikdən sonra qüvvəyə minsin.

**4.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nın tələblərinə Baş İdarənin əməkdaşları tərəfindən dönmədən əməl olunsun.

**5.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə aşağıda qeyd olunan əmrlər və digər normativ xarakterli hüquqi sənədlər (onlara dəyişikliklər etmiş aktlarla birlikdə) ləğv edilsin:

**5.1.** "Korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasına dair" Təlimatın təsdiq edilməsi barədə" 05.09.2008-ci il tarixli 10/42 №-li əmr və müvafiq Təlimat;

**5.2.** Baş Prokurorluq üzrə 02.03.2011-ci il tarixli 10/26 nömrəli əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin tənzimlənməsi haqqında Qaydalar";

**5.3.** "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin strukturunun təkmilləşdirilməsi, İdarənin tərkibində olan struktur qurumların Əsasnamələrinin təsdiq edilməsi haqqında" 12.05.2011-ci il tarixli 10/45-11/3s №-li əmr;

**5.4.** “Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər, həmçinin cinayət-prosessual qanunvericiliklə ibtidai araşdırılmasının prokurorluq tərəfindən aparılması nəzərdə tutulmuş şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmiş başqa cinayətlər üzrə ibtidai araşdırmanın və həmin işlərə dair hüquqi yardımın göstərilməsi üzrə icraatın aparılması haqqında” 18.01.2012-ci il tarixli 10/5 №-li əmr;

**5.5.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin İstintaq və Əməliyyat şöbələrinin qarşılıqlı əlaqələrinin tənzimlənməsinə dair” Təlimatın təsdiq edilməsi haqqında 21.02.2012-ci il tarixli 10/26 №-li əmr və müvafiq Təlimat;

**5.6.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin reqlamenti” haqqında 09.01.2015-ci il tarixli 10/2 №-li əmr və müvafiq Reqlament;

**5.7.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturunun və Baş İdarənin tərkibində olan struktur qurumların Əsasnamələrinin təsdiq edilməsi haqqında” 09.01.2015-ci il tarixli 10/1-11/01s №-li əmr və həmin əmrlə təsdiq olunmuş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin, Preventiv tədbirlər və təhqiqat idarəsinin, İstintaq idarəsinin, Əməliyyat idarəsinin, Əməliyyat təminatı şöbəsinin, Daxili təhlükəsizlik şöbəsinin və Mütəxəssis təhlilləri şöbəsinin əsasnamələri;

**5.8.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında və qurğularında (digər sahələrdə) yanğın və daxili təhlükəsizlik Qaydaları”nın təsdiq edilməsi haqqında 22.05.2015-ci il tarixli 10/51 №-li əmr və müvafiq Qaydalar;

**5.9.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin inzibati binasında giriş-çıxış sisteminin tətbiqinə dair daxili Qaydalar”ın təsdiq edilməsi haqqında 22.05.2015-ci il tarixli 10/50 №-li əmr və müvafiq Qaydalar;

**5.10.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində quraşdırılan “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin (İAMAS) istismarının təşkili haqqında Təlimat”ın təsdiq edilməsi haqqında” 22.05.2015-ci il tarixli 10/49 №-li əmr və müvafiq Təlimat;

**5.11.** “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin vahid məlumat bazasına dair” Təlimatın və “Təqdim edilməli olan məlumatların Siyahısı”nın təsdiq edilməsi barədə 27.11.2018-ci il tarixli 10/83 №-li əmr, müvafiq Təlimat və Siyahı;

**5.12.** “Korrupsiyaya qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirlərinə prokuror nəzarətinin həyata keçirilməsi haqqında” 16.02.2012-ci il tarixli 10/20 №-li əmr;

**5.13.** “Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli “Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında” Fərmanında prokurorluğa ünvanlanmış tövsiyələrdən irəli gələn vəzifələrin icrasına dair” 09.07.2009-cu il tarixli 10/44 №-li əmr.

**6.** “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Qaynar xətt" əlaqə mərkəzinin yaradılması haqqında” 02.03.2011-ci il tarixli 10/26 №-li əmrin 3-8-ci bəndləri ləğv edilsin.

**7.** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən “İşin Təşkili Qaydaları”nın tələblərinə uyğun olaraq qısa müddət ərzində işçilər arasında vəzifə bölgüsünün aparılması təmin olunsun.

**8.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisinə həvalə edilsin.

**9.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**
**№ 15/7**

Bakı şəhəri 30 sentyabr 2020-ci il

**Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasında ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyində müasir yanaşmanı önə çəkən ardıcıl tədbirlər məhkəmə-hüquq sisteminin təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da müntəzəm inkişafını zəruri etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında qısa müddət ərzində çoxsaylı tədbirlər həyata keçirilərək, işin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə Baş Prokurorluğun Kollegiyasının 30 iyul 2020-ci il tarixli qərarı ilə "İşin Təşkili Qaydaları" təsdiq olunmaqla, aidiyyəti struktur qurumlara prokurorluğun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyasının hazırlanması tapşırılmışdır.

Həmin Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan Azərbaycan Respublikası Prokurorluğunun perspektiv inkişafının, hədəf və istiqamətlərinin müəyyənləşdirilməsinin təmin olunması, prokurorluq orqanlarının işinin müasir dövrün tələbləri səviyyəsində qurulması, cəmiyyətdə formalaşan çağırışlara uyğunlaşması, kadr potensialının gücləndirilməsi və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yüksəldilməklə fəaliyyətində səmərəliliyinin artırılması məqsədilə struktur qurumların, tabe və ixtisaslaşdırılmış prokurorluqların təklifləri nəzərə alınmaqla "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası" hazırlanmışdır.

Qeyd olunanlara əsasən, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası"nın icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**